ABB
Azərbaycan Beynəlxalq Bankı

DAYANIQLI İNKİŞAF HESABATI

2025

ABB
Azərbaycan Beynəlxalq Bankı

MÜNDƏRİCAT

1 Universal maliyyə tərəfdaşı 4

1.1 İdarə Heyəti sədrindən 5
1.2 ABB Maliyyə Qrupu haqqında 10
1.3 İdarəetmə strukturu 13
1.3.1 Səhmdarların Ümumi Yığıncağı 13
1.3.2 Müşahidə Şurası 13
1.3.3 İdarə Heyəti 16
1.4 Missiyamız və strateji baxışımız 19
1.5 Məqsədimiz və dəyərlərimiz 20
1.6 Nizamnamə kapitalının strukturu 21
1.7 ABB-nin törəmə şirkətləri 22
1.8 Mükafatlar 26
1.9 ABB-nin reytinqləri 34
1.10 Azərbaycanın bank sektorunun analizi 35
1.11 ABB-nin strateji baxışı 40

2 Dayanıqlılıqda öncül 42

2.1 Hesabat haqqında 43
2.2 ABB-nin dayanıqlılığa sadiqliyi 48
2.2.1 Ekoloji 50
2.2.2 Sosial 54
2.2.3 İdarəetmə 81

3 İnnovasiya və rəqəmsallaşma 98

3.1 ABB İnnovasiya və ABB Tech 99
3.2 Süni intellekt texnologiyalarının tətbiqi 103
3.3 Texnoloji yeniliklər 108
3.4 Məhsul və xidmətlər üzrə yeniliklərimiz 111
3.5 Əməliyyatlar üzrə yeniliklərimiz 122
3.6 Çevik fəaliyyət 125

4 Kommersiya fəaliyyəti 128

4.1 Xidmət şəbəkəsinin genişləndirilməsi 129
4.1.1 Filialların inkişafı və transformasiyası 129
4.2 Müştəri məmnuniyyəti 132
4.3 ABB-nin 2025-ci ildə filiallarla iş və satışa dəstək üzrə fəaliyyəti, strateji inkişafi 133
4.4 Pərakəndə və korporativ biznes fəaliyyəti 135
4.5 Yekun qeydlər və məsuliyyət həddi 148
4.6 GRI standartlarına uyğunluq cədvəli 149

Universal maliyyə tərəfdaşı

1.1

İDARƏ HEYƏTİ SƏDRİNDƏN



Abbas İbrahimov

İdarə Heyətinin sədri

Hörmətli səhmdarlar, müştərilər və bütün tərəfdaşlar!

ABB Maliyyə Qrupunun 2025-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatını böyük məmnuniyyətlə Sizə təqdim edirik.

2025-ci il ABB-nin 34 illik tarixində xüsusi əhəmiyyət daşıyır: Bankımızın 2023-cü ildən başlanan daha bir strateji inkişaf dövrü məhz 2025-ci ildə tamamlandı, şərti olaraq "İnkişaf proseslərinin sürətlənməsi mərhələsi" adlandırdığımız bu dönəmi də uğurla başa vurub, yeni hədəflərimizə doğru yönəldik.

2023-2025-ci illərdə ABB-nin əsas hədəfləri seqmentlər üzrə bazar liderliyi, data əsaslı rəqəmsal təcrübə, üstün müştəriyönümlülük və maliyyə sektorunun ən yaxşı işəgötürəni olmaq idi. Bütün bu strateji hədəflərə çatmaqdan ötrü 58 təşəbbüs, yüzlərlə layihə planlaşdırmışdıq, müvafiq təşəbbüs və layihələri uğurla yerinə yetirməyi bacardıq.

ABB-nin Müşahidə Şurasının 2025-ci ilin 20 dekabrında Ağdamda keçirilən toplantısında cari inkişaf strategiyamızın icra vəziyyəti dəyərləndirildi, 2026-2028-ci illər üzrə yeni Strateji İnkişaf Planımız təsdiqlənərək cəmiyyətə təqdim olundu. Hədəf seqmentlər üzrə bazar liderliyi, yeni sahələrə genişlənmə, inteqrasiya olunmuş müştəriyönümlülük, ölkə üzrə istedad liderliyi yeni strategiyamızın başlıca hədəfləridir. Süni intellekt əsaslı innovasiyalar isə bu hədəflərə doğru irəlilədiyimiz yolda əsas aparıcı qüvvəmiz olacaq və xərclərin optimallaşdırılması hesabına fəaliyyətin səmərəliliyi daha da artırılacaq.

Güclənən gəlir mövqeyi

2025-ci il ABB-nin parlaq maliyyə göstəriciləri ilə də yadda qaldı. İli 404.5 mln. manat xalis mənfəətlə başa vurduq. Bu, ötən ilin nəticələri ilə müqayisədə 12.3%-dən çox artım deməkdir. 2025-ci ildə ABB-nin faiz gəlirlərində ötən illə müqayisədə 20%, qeyri-faiz gəlirlərində 43% artım baş verdi. Bankımızın cəmi əməliyyat gəlirləri 1,654,680 min manata çatdı və əməliyyat gəlirlərimizdə 26% artım qeydə alındı. Belə bir müsbət dinamikada ABB-nin alternativ gəlir mənbələrinin genişlənməsinin də mühüm rolu oldu. ABB bazar payını böyütdü, likvidliyini qorudu.

Bankımızın kredit portfelində də əhəmiyyətli böyümə baş verdi. Kredit portfelimiz ötən illə müqayisədə 12% artımla 7,167,236 min manata çatdı. Biznes kreditlərimiz 3,634,288 min manata yüksəldi, beləliklə ötən illə müqayisədə biznes kreditlərimizdə də 14% artım özünü göstərdi. Həmçinin 1,520,069 min manatlıq

daşınmaz əmlak krediti portfelimizlə 2025-ci ildə də ölkəmizin ipoteka bazarının lideri olduq.

Sistem əhəmiyyətli bank kimi ABB-nin kapital adekvatlığı göstəriciləri (24.39%) Mərkəzi Bankın müəyyən etdiyi normativ tələbi (6.5%) 3 dəfədən çox / 4 dəfəyə yaxın üstələdi. Məcmu kapitalın adekvatlıq əmsalı isə ABB-də 12.5%-lik normativ tələb müqabilində 25.80%, leverec əmsalı 5%-lik normativ tələb müqabilində 10.65% oldu.

2025-ci ilin maliyyə nəticələrinə əsasən, Bank dövlət büdcəsinə 82,217.06 min manat vergi və digər ödənişlər etdi. Ötən il ABB-nin tarixində ilk dəfə olaraq 30 mindən çox vətəndaşımızla gəlirlərimizi bölüşdük, səhmdarlarımıza rekord məbləğdə - 200,000,000 manat dividend ödədik, beləliklə, ABB-nin dividend gəlirlilik səviyyəsi nominal qiymətlə 15.6%-ə çatdı. Sağlam, mənfəətli, dayanıqlı fəaliyyəti ilə ABB-nin yüzminlərlə insanın həyatına müsbət toxunuşu böyük ABB komandası üçün 2025-ci ilin ən qürurlu anlarındandır.

Ümumən, əsas göstəricilər üzrə təhlillər ABB-nin 2025-ci ildə daha çox keyfiyyət mərhələsinə transformasiyasını göstərdi və bu da qarşıya qoyduğumuz məqsədlərə uyğundur. Gəlirlərin şaxələndirilməsi, kredit portfelinin nəzarətli şəkildə genişlənməsi, risklərin effektiv idarə olunması və kapitalın möhkəmlənməsi ABB-nin orta və uzunmüddətli perspektivdə maliyyə sabitliyini qoruyacağını göstərir.

2025-ci ildə məhsul və xidmətlərimizdən istifadə edən müştərilərimizin sayı da artdı. ABB-nin artıq 3.2 milyondan çox müştərisi var. Aktiv müştərilərimizin sayı son 1 il ərzində rekord həcmdə, 15% artıb.

Yüksələn reytinqlər, beynəlxalq bazarlara möhtəşəm dönüş

2025-ci ildə Moody's Beynəlxalq Reytinq Agentliyi ABB-nin reytinqlərinə yenidən baxaraq Bankımızın yerli və xarici valyutada uzunmüddətli depozit reytinqini Stabil proqnozla Ba2-dən Ba1-ə yüksəltdi. Bu, Moody's-in indiyə qədər ABB-yə verdiyi ən yüksək reytinq olmaqla yanaşı, eyni zamanda həm də indiyə qədər ölkəmizin bank sektoruna verilmiş ən yüksək reytinqdir.

Moody's Bankın Əsas kredit qiymətləndirməsi reytinqini (BCA) ba3-dən ba2-ə, Uzunmüddətli xarici və yerli valyutada qarşı tərəf risk reytinqini (CRRs) Ba1-dən Baa3-ə, Qarşı tərəf risk qiymətləndirməsi reytinqini (CR Assessment) Ba1-dən Baa3-ə qədər artırdı. Reytinqlərdəki bu yüksəliş Bankın davamlı şəkildə artan mənfəətliliyi, aktivlərinin yüksək keyfiyyəti, güclü kapital mövqeyi, yüksək likvidliyi və s. bu kimi amillərlə bağlıdır.

Fitch Beynəlxalq Reytinq Agentliyi də ABB-nin reytinqlərinə yenidən baxaraq Bankın Uzunmüddətli emitentin defolt reytinqini BB, dayanıqlılıq reytinqini bb səviyyəsində qiymətləndirməklə reytinq proqnozunu Pozitiv olaraq müəyyənləşdirdi.

2025-ci ildə ABB xarici maliyyə bazarlarında iştirakını genişləndirən uğurlu bir anlaşmaya imza atıb uzun illərdən sonra qlobal bazarlara möhtəşəm qayıdış etdi. Belə ki, 21 aprel 2025-ci il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində, Mashreqbank-ın ofisində 200,000,000 ABŞ dolları dəyərində sindikativ kredit müqaviləsi imzaladıq.

Sindikativ kredit Masreqbank-ın təşkilatçılığı, Abu-Dabi Kommersiya Bankının agent bank rolu ilə BƏƏ, Almaniya, Avstriya, İsveçrə və Böyük Britaniyaya aid 12 maliyyə institutundan cəlb edildi. Bu anlaşma ölkəmizə, Azərbaycanın bank sektoruna, o cümlədən ABB-yə olan inamın göstəricisidir. Sindikativ kredit ABB-nin strateji inkişaf planına uyğun olaraq real sektorun, xüsusilə ixracyönümlü iri layihələrin maliyyələşdirilməsini dəstəkləyir. Əlverişli maliyyə şərtləri ilə belə iri məbləğdə vəsaitin cəlbi ABB-nin imkanlarını daha da genişləndirir, maliyyə vəsaitləri bizneslər üçün daha da əlçatan olur.

ABB-nin bir neçə illik fasilədən sonra xarici maliyyə bazarlarına qayıdışı Bankın biznesi maliyyələşdirmə potensialını gücləndirir, likvidlik mövqeyinə, gəlirliliyinə müsbət təsir göstərir. Xarici bazarlarda ABB-yə olan yüksək inam uzunmüddətli vəsaitlərin cəlbinə, Bankın investor sayının və regional əhatəliliyinin genişlənməsinə imkan yaradır.

Təsadüfi deyil ki, bu kredit müqaviləsi bütün ölkələr üzrə ən innovativ və mühüm maliyyə əməliyyatlarının dəyərləndirilməsini aparan "The Global Banking & Markets" təşkilatının "İlin əqdi" mükafatına layiq görüldü.

2025-ci ildəki fəaliyyətimizin nəticələrinə görə qlobal maliyyə dünyasının ən nüfuzlu nəşrlərindən olan "Global Finance", "Euromoney", "The Banker" jurnallarının da yüksək mükafatlarını qazandıq. "Global Finance" və "The Banker" jurnalları ABB-ni ölkə üzrə "İlin ən yaxşı bankı" seçdi. "Euromoney" jurnalı isə ABB-ni "İlin ən yaxşı rəqəmsal bankı" elan etdi.

Habelə "SME Banking Agency" təşkilatının Vyanada keçirdiyi Kiçik və Orta Sahibkarlıq üzrə Qlobal Bankçılıq Forumunda (Global SME Banking Forum) kiçik və orta sahibkarlığın dəstəklənməsi sahəsində Mərkəzi Asiyanın 20 ən yaxşı bankından biri və ölkə üzrə ən yaxşı rəqəmsal maliyyə alətləri təqdim edən bank seçildik.

İl ərzində beynəlxalq əlaqələrimizi daha da inkişaf etdirdik, Dünya İqtisadi Forumu (Davos Forumu) ilə tərəfdaşlığa başladıq. ABB təmsilçiləri il ərzində Forumun dünyanın müxtəlif ölkələrində keçirdiyi silsilə tədbirlərdə Bankımızı təmsil etdilər, həmçinin Dünya İqtisadi Forumunun rəsmi saytında ABB-nin "Böhrandan əminliyə: Azərbaycanın iqtisadi dayanıqlılığa doğru 10 illik yolu" mövzusunda hazırladığı məqalə yayıldı.

2025-ci ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Almaniyanın Frankfurt şəhərində təşkil edilmiş "SIBOS-2025" beynəlxalq konfransında Bankımız uzun müddətdən sonra öz stendi ilə təmsil olundu, "Qlobal maliyyənin yeni sərhədləri" mövzusuna həsr edilmiş bu mühüm kommunikasiya platformasında iştirakçılara Bankımızın fəaliyyəti haqqında ətraflı məlumat verildi, bir sıra mühüm görüşlər keçirildi, əməkdaşlıq perspektivləri müzakirə edildi.

Gələcəyin bankçılığına doğru

2025-ci ildə biz gələcəyin bankçılığına doğru qapı açdıq, müştərilərimizə tamamilə fərqli bir xidmət - süni intellekt əsaslı səsli köməkçilər təqdim etdik. AI-khan və AI-nur adlı virtual köməkçilər müştərilərimizə ABB-nin xidmət və məhsulları ilə bağlı bütün məsələlərdə operativ kömək göstərməyə başladılar, əməliyyatlarını səsli komandalarla yerinə yetirilməsi, sualların cavablandırılması mümkün oldu.

ABB olaraq qürur duyuruq ki, süni intellekt həllərini ölkəmizə ilk gətirən və bu sahəni sürətlə inkişaf etdirən öncül biznes qurumlarındanıq. Son 3 ildə ABB süni intellekt və data texnologiyaları istiqamətində ciddi irəliləyişlər əldə edib. Müxtəlif istiqamətlərdə tətbiq etdiyimiz generativ və prediktiv modellərin sayı 2025-ci ildə 170-i, süni intellekt əsaslı layihələrimizin sayı 65-i ötdü, bu modellər Bank üçün 30 milyon AZN-dən çox müsbət maliyyə təsiri yaratdı.

ABB mobile tətbiqimizlə biz 2025-cu ildə bankçılıqda yeni bir dövrün əsasını qoyduq. Açıq bankçılığa qoşulmuş digər bankların müştəriləri də artıq öz hesablarını və kartlarını ABB mobile-da izləmək imkanı əldə etdilər. Müştəri ABB-dəki hesab və kart məlumatlarını da digər bank tətbiqlərinə əlavə etməklə həmin tətbiqlərdə bu məlumatları izləmək imkanı qazandı və beləliklə müştərilər üçün daha rahat, mərkəzləşdirilmiş və asanlıqla nəzarət edilə bilən bankçılıq təcrübəsi yaradılmış oldu.

ABB 2025-ci ildə ölkəmizdə ilk dəfə mühüm bir investisiya imkanını da təqdim etdi: ABB mobile vasitəsilə ABŞ istiqrazlarına investisiya etmək mümkün oldu. Hər bir ABB mobile istifadəçisi birbaşa ABŞ dövlət və korporativ istiqrazlarına investisiya imkanı əldə etdi.

Həmçinin "ABB İnvest" şirkətimiz vasitəsilə daha bir investisiya fürsətini ABB mobile tətbiqi üzərindən əlçatan etdik. SOCAR-ın "Yaşıl" istiqrazlarını da ABB mobile tətbiqi vasitəsilə, heç yana getmədən, əvvəldən sona tam rəqəmsal təcrübə ilə, cəmi bir neçə toxunuşla və komissiyasız əldə etmək mümkün oldu.

Hesabat ilində yeni inkişaf konseptimizə uyğunlaşdırılmış korporativ saytımızı istifadəyə verdik. Müasir qlobal standartlara uyğun hazırlanmış sayt modern dizaynı, təkmil strukturu, istifadəsinin rahatlığı ilə istifadəçilər üçün daha bir dəyər yaratmış oldu. Funksionallığına görə yeni saytı ABB-nin onlayn filialı da adlandırmaq mümkündür. Müştəriləri ilə danışan bank – ABB-nin süni intellekt köməkçisi AI-khan Bankın yeni saytında da 7/24 rejimində istifadəçilərin bütün suallarını cavablandırır, onlar kömək göstərir.

Rəqəmsallaşma prosesləri ilə yanaşı, fiziki xidmət şəbəkəmizin inkişafı da davam etdirildi. Müştərilərimizə daha da əlçatan olmaqdan ötrü il ərzində 2 yeni filial yaratdıq, 3 filialımızı isə yeni inkişaf konseptimizə uyğun yenidən qurduq.

Davamlı inteqrasiyalar

2025-ci ildə rəqəmsal inteqrasiya proseslərini uğurla davam etdirdik. Azərbaycan Mərkəzi Bankının AniPay strategiyasına uyğun olaraq sahibkarlar üçün nəzərdə tutulmuş yeni QR-la onlayn ödəniş qəbulu funksionallığını istifadəyə verdik. Bu yenilik Bankın ekvayrinq məhsulları arasında QR ödənişi olmayan son xidmətin də rəqəmsallaşdırılmasını təmin etdi və ABB-nin ödəniş infrastrukturu tam şəkildə AniPay sisteminə inteqrasiya olundu.

Azərbaycanın rəqəmsal hökumət platforması olan MyGov.az-la inteqrasiya sayəsində ABB-nin xidmətlərindən istifadə zamanı heç bir əlavə vaxt sərf etmədən bütün vacib sənədlərə və dövlət xidmətlərinə rəqəmsal formada çıxış imkanı yaratdıq. Bu yenilik xüsusilə ABB Home-da ipoteka krediti üçün müraciət zamanı müştərilərə geniş imkanlar açdı. İlk dəfə olaraq müştərilər ipoteka krediti üçün tələb olunan bir çox sənədləri artıq heç bir yerə getmədən birbaşa "İpoteka kabineti"ndən əldə edə bildilər.

Həmçinin MİDA (Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi) tərəfindən tikilən mənzillərin ipoteka krediti ilə alışı üçün ilkin razılığın əldə olunması məqsədilə bank filialına gəlməyə də gərək qalmadı, ilkin razılığı ABB Home platforması üzərindən onlayn əldə etmək imkanı təmin edildi.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC-nin yaratdığı SİMA yeni nəsil rəqəmsal imzanın genişmiqyaslı rəqəmsal xidmətlər üzrə tətbiqinə də başladıq. Fərdi sahibkarlara və hüquqi şəxslərə ABB-nin "İnternet Bankçılıq" (cb.abb-bank.az) xidmətində yeni müştəri kimi "SİMA İmza" ilə qeydiyyatdan keçmək imkanı yaratdıq.

Dünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti SWIFT-lə tərəfdaşlıq və inteqrasiyalar əsasında

ABB Business İnternet Bankçılıq platforması üzərindən "G4C" xidmətini korporativ müştərilərin istifadəsinə verdik, müştərilərimiz bu xidmət vasitəsilə ölkə xaricindən onlara başqa ölkələrin valyutalarında edilən köçürmələri İnternet Bankçılıqda izləmək, əməliyyatların statusunu mütəmadi nəzarətdə saxlamaq imkanı qazandılar.

American Express beynəlxalq ödəniş sisteminin ölkəmizdə ilk və yeganə tərəfdaşı olaraq AMEX kartları vasitəsilə ödənişlərin qəbulu imkanlarını da inteqrasiyalar hesabına genişləndirdik, ödəniş təşkilatı funksiyasını yerinə yetirən finteklərlə, o cümlədən "YIĞIM Payment System"-lə əməkdaşlıq edərək onlara da bu imkanı yaratdıq.

Təhlükəsiz bankçılıq

Müştərilərimiz qarşısındakı məsuliyyətimizdən irəli gələrək bank əməliyyatlarının təhlükəsizliyi 2025-ci ildə ABB üçün əsas prioritetlərdən oldu, yeni təhlükəsizlik tədbirləri ilə bu sahədə riskləri minimallaşdırdıq, o cümlədən ABB mobile tətbiqinin etibarlılığını maksimum səviyyəyə yüksəltdik. Müştərilərin vəsaitlərinin təhlükəsizliyi üçün tətbiqdə qeydiyyat prosesini daha da gücləndirdik, qeydiyyata SİMA identifikasiyası əlavə olundu, bu, ikili autentifikasiya yaradaraq müştərilərin vəsaitlərinin fırıldaqçılıq cəhdlərindən maksimum qorunmasını təmin etdi.

ABB 2025-ci ildə bank əməliyyatlarının təhlükəsizliyini PCI DSS 4.0.1 (Payment Card Industry Data Security Standard) sertifikatı ilə növbəti dəfə təsdiqlədi. Bu, ABB-nin rəqəmsal sistemlərinin, infrastrukturunun və proseslərinin ən son təhlükəsizlik standartlarına uyğunluğunu yenidən təsdiqləmiş oldu. PCI DSS 4.0.1 beynəlxalq sertifikasiyası Bankda müştərilərin ödəniş kartı məlumatlarının ən etibarlı şəkildə qorunduğunu, burada tətbiq olunan təhlükəsizlik standartlarının Visa, Mastercard, American Express kimi qlobal ödəniş sistemlərinin tələblərinə tam uyğunluğunu göstərir.

Müştərilərin fərdi davranışlarının, rəqəmsal savadlılığının kibertəhlüksizliyin təmin olunmasındakı əhəmiyyətli rolunu nəzərə alaraq il ərzində bu sahədə geniş maarifləndirmə işləri də apardıq və bu tədbirlərimizi yenə davam etdirməkdəyik.

Yenilənən məhsul və xidmətlərimiz

İl ərzində məhsul və xidmətlərimizi daha da təkmilləşdirdik, yeni müştəri təcrübələri formalaşdıran bir sıra yeniliklərimizi bazara təqdim etdik. Bizneslər üçün yeni "Çevik" xidmət paketini müştərilərimizin istifadəsinə verdik. "Çevik" paketi biznes sahiblərinə ehtiyaclarına uyğun əməliyyatları seçərək öz paketlərini yaratmağa imkan verir.

Alfa nəslinin təmsilçiləri olan uşaqların maliyyə savadlılığına, onlarda rəqəmsal maliyyə xidmətlərindən istifadə vərdişlərinin inkişafına kömək göstərəcək innovativ məhsulumuzu - Alpha Card-ı yaratdıq.

"Fayda Max" loyallıq proqramımızın ən yüksək, eksklüziv mərhələsi olaraq loyal və imtiyazlı müştərilərimizə sadəcə keşbek və bonuslardan deyil, eksklüziv xidmətlərdən, üstün təcrübələrdən də faydalanmaq imkanı açan "Prime"ı təqdim etdik, "FaydaMania" loyallıq proqramımızı gənclərin istifadəsinə verdik.

"Dama-dama" rəqəmsal yığım hesabı ilə müştərilərimiz yığım imkanı və əlavə qazanc fürsəti əldə etdilər. Müştərilərimizin intellektual əyləncəsinə və fərdi inkişafına dəstək məqsədilə maraqlı bir layihəyə - ABB mobile-da təqdim olunan ABB Play intellektual oyun müsabiqəsinə başladıq. Mobil bank tətbiqi üzərindən hər kəsə açıq belə bir intellektual-əyləncəli oyun müsabiqəsinin təqdim edilməsi Azərbaycanda maraqlı bir ilk oldu.

Sektorun ən yaxşı işəgötürəni

ABB-də işçi məmnunluğu səviyyəsi 2025-ci ildə 84.2-ə yüksəldi. Bankımız "Top Employers Institute" (Ən Yaxşı İşəgötürənlər İnstitutu) beynəlxalq təşkilatının sertifikasiyasından növbəti dəfə uğurla keçdi. Əməkdaşlarımızın fərdi və karyera inkişafını dəstəkləyən, motivasiyasını yüksəldən "Qadın liderləri", "Fərqlilər" kimi proqramlarımızı uğurla davam etdirdik, istedadların düzgün şəkildə idarə edilməsi məqsədilə bu istiqamətdə fəaliyyət göstərən ayrıca department yaratdıq. Yeni departamentin fəal rolu ilə "Kritik talant" layihəsinin icrasına başladıq. Bu layihənin əsas məqsədi ABB-nin gələcəyi üçün yeni liderlər, peşəkar davamçılar yetişdirməkdir. Dataəsaslı qiymətləndirmə meyarları əsasında seçilmiş namizədlər üçün xüsusi fərdi inkişaf proqramları tətbiq edir, onların liderlik potensialını artırırıq.

ADA Universiteti ilə tərəfdaşlıq çərçivəsində artıq bir neçə ildir ki, keçirdiyimiz "Karyera Həftəsi" 2025-ci ildə də uğurla baş tutdu. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Qarabağ Dirçəliş Fondunun, Təhsilin İnkişafı Fondunun, Azərbaycan Təhsil İşçiləri Həmkarlar İttifaqının, Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Xankəndidəki Qarabağ Universitetində baş tutan Qarabağ Təhsil və Tərəfdaşlıq Forumunda ABB olaraq biz də təmsil olunduq, Bankımızla Təhsilin İnkişafı Fondu arasında təqaüd proqramına dair əməkdaşlıq sənədi imzalandı, anlaşmaya əsasən, ABB Qarabağ Universitetinin yüksək təhsil nailiyyətləri olan 45 tələbəsinə illik təqaüd ayırdı.

İstedadlara, gənclərin fərdi və karyera inkişafına davamlı dəstəyimiz çərçivəsində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə də maraqlı bir layihəyə imza atdıq. "Data və süni intellekt sertifikasiya proqramı"na start verdik. Ölkəmizin əmək bazarı üçün data və süni intellekt sahəsində peşəkar kadrların yetişdirilməsi məqsədilə hazırlanmış proqrama xüsusi prosedurları əsasında seçilmiş 22 UNEC tələbəsi cəlb olundu, onlara ABB-nin bu sahədə peşəkar mütəxəssislərinin təlimlərində iştirak, proqramı uğurla başa vuracaqları təqdirdə Bankımızda işlə təmin olunma imkanı yaradıldı.

Vətəndaşlıq məsuliyyətimiz

Vətəndaşlıq məsuliyyəti dəyərimizə sadiq qalmaqla 2025-ci ildə də cəmiyyətimiz üçün faydalı bir çox korporativ sosial məsuliyyət layihələrimizi yerinə yetirdik. Ölkəmizdə Agile mədəniyyətinin təşviqi məqsədilə "Agile Azərbaycan-2025" Beynəlxalq Sammitinə növbəti dəfə dəstək verdik. Bildiyiniz kimi, ABB Agile iş tərzini ölkəmizdə uğurla tətbiq edən kommersiya qurumlarındandır. Üç il əvvəl ABB-də Agile iş tərzinə keçiddən sonra məhsulun bazara çıxma müddətini 147 gündən 59 günə endirməyə nail olmuşuq, habelə ABB-də müştəri məmnuniyyəti göstəricisi (NPS) 73.4-a oldu.

2025-ci ABB Maliyyə Qrupunun xüsusi texnologiya və innovasiya mərkəzi kimi təsis edilmiş ABB İnnovasiya şirkətimiz fəaliyyətə başladı. Belə bir şirkətin yaradılmasında məqsədimiz innovasiyaları struktur imkan kimi institusionallasdırmaq, qabaqcıl məhsul inkişafına nail olmaq, miqyaslana bilən rəqəmsal platformalar formalaşdırmaq, ölkəmizdə və regionda startap ekosistemi təşəbbüslərinə, texnologiyalar sahəsində insan kapitalının inkişafına töhfə verməkdir.

2025-ci ildə "Qarabağ" Futbol Klubu ilə rəsmi tərəfdaşlığa başladıq və tərəfdaşlıq çərçivəsində "ABB-Qarabağ" kobrend kartının yaradılması barədə anlaşma imzaladıq.

Azərbaycanda keçirilən 49-cu Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Dünya Finalının tərəfdaşlarından olduq.

2025-ci ildə biz Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının təşkilatçılığı ilə Bakıda ilk dəfə keçirilən "Türk İnvestisiya Fondu və Türk Ticarət və Sənaye Palataları Birliyinin (TCCI) biznes liderləri ilə məlumatlandırma görüşü"nə dəstək verdik.

Azərbaycanda artıq altıncı ildir keçirilən "EY İlin İş Adamı" müsabiqəsinin ardıcıl altıncı dəfə maliyyə tərəfdaşı olduq. "Real Madrid Foundation Clinic" proqramı əsasında ABB-nin dəstək verdiyi uşaq futbol komandası ölkəmizi "Real Madrid Foundation World Challenge" turnirində təmsil edərək 26 komanda arasında 4-cü yerə çıxdı. Kişi milli minifutbol komandaları arasında dünya çempionatına - "2025 WMF Dünya Kuboku"na tərəfdaşlıq dəstəyi göstərdik, eləcə də ölkəmizdə idmanın inkişafı və kütləviləşməsinə dəstək üçün Azərbaycan Boks Federasiyası, Azərbaycan Basketbol Federasiyası, Ordu İdman Klubu ilə tərəfdaşlığımızı davam etdirdik.

Uşaqların erkən yaşlardan iqtisadiyyat sahəsində bilik və bacarıqlara yiyələnməsi məqsədilə daha bir layihəni uğurla həyata keçirərək polyak yazıçı Qjeqoj Kasdepkenin bu sahədə məşhur kitabını Azərbaycan dilində nəşr etdirib, ölkəmizdəki uşaq kitabxanalarına, məktəblərə hədiyyə etdik. 20 illik ənənəsi ilə ölkəmizin mühüm mədəniyyət tədbirinə çevrilmiş Bakı Beynəlxalq Caz Festivalına 20-ci yubiley ilində də dəstəyimizi davam etdirdik.

Vətən müharibəsindəki tarixi Zəfərimizin 5-ci ilində - 8 Noyabr Zəfər Günü ərəfəsində sosial məsuliyyət yönümlü kampaniya həyata keçirdik, müştərilərimizin ABB-nin kartları ilə apardıqları ödənişlər müqabilində Bankın hesabına YAŞAT Fonduna ianələr etdik.

Azərbaycanın dünya şöhrətli musiqi xadimi Rəşid Behbudovun 110 illiyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Rəşid Behbudov Fondu və Azərbaycan Milli İncəsənət Muzeyi ilə birgə "Səsin rəngi" devizi ilə sərgi keçirdik, eyni zamanda 1992-ci ildə Şuşa Rəsm Qalereyasında itmiş unikal "Rəşid Behbudov" əsərinin ABB-nin dəstəyi ilə yenidən yaradılmasına nail olduq.

"Libraff" şirkəti ilə tərəfdaşlığımız əsasında filialında kitab mağazasının açılmasına şərait yaradan ilk bank olduq, yeni yaradılmış "Cabbarlı" filialımızın daxilində "Libraff" mağazası fəaliyyətə başladı.

Azərbaycanın bank sektoruna ilk dəfə gətirdiyimiz faydalı bir təcrübəni 2025-ci ildə də uğurla davam etdirərək, ölkəmizin nəqliyyat, səhiyyə, pərakəndə ticarət sektorları, daşınmaz əmlak, əmək bazarları ilə bağlı 5 yeni araşdırma-hesabatı maraqlı tərəflərə təqdim etdik.

Bütün bunlar 2025-ci ildə Sizinlə - bizə inanıb dəstəyini əsirgəməyən səhmdarlarımızla, müştərilərimizlə, tərəfdaşlarımızla birgə yaratdığımız nailiyyətlərdir. Dayanıqlı İnkişaf Hesabatımızı diqqətlə oxuyaraq, nəticələrimizi təhlil etməyiniz, faydalı rəylərinizi bizimlə bölüşməyiniz gələcəyin bankçılığına doğru yolumuzda bizə aydın istiqamət və motivasiya verəcək.

ABB Maliyyə Qrupu üçün dayanıqlı inkişaf təkcə nəticələr deyil, eyni zamanda cəmiyyətə, ölkəmizin gələcəyinə və insanlara verdiyimiz dəyərin göstəricisidir.

Qarşıdakı illərdə də yüksək etimadınıza layiq olmaq, dəyişən dünyada məsuliyyətli, innovativ və insan mərkəzli bankçılıq modeli ilə ölkəmiz və cəmiyyətimiz üçün yeni dəyərlər yaratmaq əsas məqsədimiz olacaq.

1.2

ABB MALİYYƏ QRUPU HAQQINDA



ABB hazırda aktivlərinin həcminə, müştəri bazasına və beynəlxalq əməliyyat portfelinə görə Cənubi Qafqaz regionunun **ən aparıcı banklarındandır**.

Tam adı
"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

Yaranma tarixi
10 yanvar 1992-ci il

Bankın lisenziyası
30 dekabr 1992-ci il, Azərbaycan Respublikası Mərkəzi Bankının 06/06-224 nömrəli lisenziyası


Vebsayt
www.abb-bank.az

Qeydiyyat ünvanı
Nizami küçəsi 67, AZ1005, Bakı, Azərbaycan

Üzvlüklər

- Azərbaycan Banklar Assosiasiyası
- Bakı Fond Birjası
- Dünya İqtisadi Forumu
- Mastercard International
- VISA International
- American Express®
- Union Pay
- SWIFT
- JCB (Japan Credit Bureau) ödəniş sistemi
- Reuters informasiya sistemi
- Bloomberg informasiya sistemi
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyası
- Azərbaycan-Amerika Ticarət Palatası
- İsrail-Azərbaycan Ticarət Palatası
- Caspian European Club
- UNGC (United Nations Global Compact) – BMT-nin Qlobal Sazişi

Bankın 31.12.2025-ci ilin sonuna olan göstəriciləri



Məbləğlər AZN ilə göstərilmişdir.

1.3

İDARƏETMƏ STRUKTURU

1.3.1 Səhmdarların Ümumi Yığıncağı

Səhmdarların Ümumi Yığıncağı əhəmiyyətli strateji məsələlərin həllində səhmdarlara səsvermə hüququ ilə iştirak imkanı verən ali idarəetmə orqanıdır. Səhmdarların Ümumi Yığıncağı "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa, digər hüquqi aktlara və ABB-nin Nizamnaməsinə (bundan sonra Nizamnamə) uyğun təşkil edilir.

1.3.2 Müşahidə Şurası

Müşahidə Şurası (bundan sonra "Müşahidə Şurası" və ya "Şura") güclü idarəetmənin və Bankın iqtisadi sabitliyinin təmin olunmasında mühüm rol oynayır. O, qərar qəbul etmə prosesində Bankın uzunmüddətli strateji dayanıqlılığına diqqət yetirir. İdarə Heyətinə nəzarət vəzifəsi daşıyan Şura Səhmdarların Ümumi Yığıncağına birbaşa hesabatlar təqdim edir. Bundan əlavə, Müşahidə Şurası Komitə üzvlərinin təyin edilməsinə cavabdehdir. O, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının təhlilini aparır, bununla da Bankın ümumi uğuruna əhəmiyyətli töhfələr verir.

Azərbaycan Respublikası Prezidentinin 22 sentyabr 2022-ci il tarixli, 1448 saylı Fərmanına əsasən, ABB Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir (bundan sonra AİH). Bankın nizamnamə kapitalında dövlətə məxsus səhmlərin imkan verdiyi dərəcədə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həll edilməsində dövlətin adından iştiraketmə hüququ Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə həvalə edilmişdir.

ABB-nin Müşahidə Şurası 7 üzvdən ibarətdir. Şura üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 ildən çox olmayan müddətə seçilir, lakin üzvlər növbəti dövrlər üçün də yenidən seçilə bilərlər. Müşahidə Şurasının üzvləri "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda və "Banklarda korporativ idarəetmə Standartları"nda tələb olunan bütün meyarlara cavab verən, maliyyə, iqtisadiyyat və siyasət sahələrində ixtisaslaşmış şəxslərdən ibarətdir. ABB-nin Müşahidə Şurasının əsas vəzifələrinə Bankın strateji istiqamətinin müəyyən edilməsi, effektiv risk idarəçiliyi sisteminin yaradılması, müntəzəm hesabatlar vasitəsilə şəffaflığın artırılması, icra funksiyalarına nəzarət, qanunvericilik tələblərinə və Bankın ümumi strategiyasına riayət olunmasının təmin edilməsi daxildir.

Müşahidə Şurasının iclasları

ABB-nin Müşahidə Şurası strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, risklərin idarə edilməsi sisteminin qurulması, Bank fəaliyyətinin şəffaflığının müntəzəm hesabatlar vasitəsilə artırılması, icra orqanlarına nəzarət və idarəetmə prosedurlarının Bankın qanuni tələbləri və strategiyası ilə uyğunlaşdırılmasına görə məsuliyyət daşıyır.

Müşahidə Şurası müstəqil fəaliyyət göstərərək İdarə Heyətinə tövsiyələr və tapşırıqlar verir. Funksiyalarını həyata keçirərkən Müşahidə Şurasının üzvləri Bankın maraqlarını rəhbər tutur, Bankın maraqlı tərəflərinin qanuni mənafelərini nəzərə alırlar.

ABB-nin Müşahidə Şurası haqqında Əsasnaməyə görə, Müşahidə Şurasının iclasları azı 3 (üç) ayda bir dəfə keçirilməlidir. 2025-ci ildə Müşahidə Şurasının 21 iclası keçirilmişdir. Əksər hallarda, bütün üzvlər iclaslarda iştirak etmişlər. Bu isə onun göstəricisidir ki, Şura ABB-nin strateji baxışının müəyyənləşdirilməsi və daxili transformasiya prosesində fəal iştirak edir.

Şuranın iclaslarında əsas diqqət maraqlı tərəflərin, o cümlədən səhmdarların maraqlarının uyğun qaydada təmin edilməsinə yönəlmişdir.

2025-ci ildə Müşahidə Şurası Bankın fəaliyyətinin mühüm aspektləri, o cümlədən strateji inkişafı, risklərinin idarə edilməsi, daxili nəzarət və uyğunluq sistemi, eləcə də iqtisadi və maliyyə göstəriciləri və digər məsələlərlə bağlı geniş müzakirələr aparmışdır. Müşahidə Şurası 2025-ci ildə Bankın 2026-2028-ci illəri əhatə edən yeni Strateji Planını təsdiqləmişdir.

Bundan əlavə, Müşahidə Şurası müxtəlif daxili və xarici maraqlı tərəflərlə fəal şəkildə əməkdaşlıq etməkdədir. Bu qarşılıqlı fəaliyyətlər əsasında Şura öz nəzarətedici rolunu səmərəli şəkildə həyata keçirmiş, müəyyən edilmiş məsələlərin Bank daxilində məsul şəxslərə operativ şəkildə yönəldilməsini və müvafiq cavabların alınmasını təmin etmişdir.

Müşahidə Şurasının tərkibi

Şahmar Arif oğlu Mövsümov
Müşahidə Şurasının sədri

Təhsili
- Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, Beynəlxalq iqtisadi əlaqələr ixtisası üzrə bakalavr
- Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi, Dövlət idarəçiliyi üzrə magistr

Hazırkı vəzifəsi
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Xalid Nurəddin oğlu Əhədov
Müşahidə Şurasının üzvü

Təhsili
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və kredit ixtisası üzrə bakalavr
- IE biznes məktəbi, Biznesin idarə edilməsi üzrə magistr
- London İqtisadiyyat Məktəbi, Dövlət inzibatçılığı üzrə magistr

Hazırkı vəzifəsi
Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

Emin Zamin oğlu Hüseynov
Müşahidə Şurasının üzvü

Təhsili
- Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr
- Florida Dövlət Universiteti, İqtisadiyyat ixtisası üzrə magistr
- Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi, Dövlət idarəçiliyi üzrə magistr
- İqtisadiyyat üzrə fəlsəfə doktoru

Hazırkı vəzifəsi
Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Mətin Balasən oğlu Eynullayev
Müşahidə Şurasının üzvü

Təhsili
- Bakı Dövlət Universiteti, Hüquqşünaslıq ixtisası üzrə bakalavr

Hazırkı vəzifəsi
Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Xidmətinin rəisi

Fəxri Yaşar oğlu İsmayılov
Müşahidə Şurasının üzvü

Təhsili
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və kredit ixtisası üzrə bakalavr və magistr
- Corc Vaşinqton Universiteti, ABŞ Maliyyə Departamentində Fulbrayt proqramı (maliyyə ixtisası üzrə fəlsəfə doktoru)
- İqtisadiyyat üzrə fəlsəfə doktoru

Hazırkı vəzifəsi
Azərbaycan Respublikası Baş nazirinin köməkçisi, Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının katibi

Məcid Həsən oğlu Məmmədov
Müşahidə Şurasının müstəqil üzvü

Təhsili
- Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə ixtisası üzrə magistr
- Varvik Biznes Məktəbi, magistr

Hazırkı vəzifəsi
“ABB İnvest” şirkətinin Müşahidə Şurasının üzvü

Rüfət Rəhim oğlu Əlimərdanov
Müşahidə Şurasının müstəqil üzvü

Təhsili
- Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadçı ixtisası üzrə bakalavr
- Texas Universiteti, Maliyyə ixtisası üzrə bakalavr
- Texas Xristian Universiteti, Biznes idarəçiliyi üzrə magistr

Hazırkı vəzifəsi
Beynəlxalq Maliyyə Korporasiyasının Monqolustan Xalq Respublikasında rezident təmsilçisi

1.3.3 İdarə Heyəti

İdarə Heyəti Bankın korporativ strukturunda onun gündəlik fəaliyyətinə nəzarət etmək üçün məsul olan idarəetmə orqanıdır. İdarə Heyətinin sədri yenidən təyin olunmaq imkanı ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən üç ilədək müddətə təyin edilir.

Bankın İdarə Heyətinin sədri, Bankın ayrı-ayrı bölmələri tərəfindən həyata keçirilən gündəlik fəaliyyətlərin ABB-nin strategiyası ilə uyğunlaşdırılmasını təmin edir, maliyyə fəaliyyətini planlaşdırır və nəzərdən keçirir, Bankın daxili siyasəti, Müşahidə Şurasının və Səhmdarların Ümumi Yığıncağının qərarlarını icra edir və İdarə Heyəti üzvlərinin vəzifələrini müəyyənləşdirir.

İdarə Heyətinin sədri və İdarə Heyəti işçilər, müştərilər və digər maraqlı tərəflərlə davamlı ünsiyyət və şəffaflığı qoruyaraq vasitəçi rolunu oynayır, ortaya çıxan problemləri təsnifləşdirir və onlara həllər tapır. İdarə Heyətinin sədri müvafiq departamentlər və sahə rəhbərləri tərəfindən təqdim edilmiş, müxtəlif biznes bölmələrinin nəticələrinə dair dövrü hesabatları nəzərdən keçirərək qiymətləndirir.



Abbas İbrahimov
İdarə Heyətinin sədri

1981-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib.

Təhsil
- Ankara Universiteti, İş iqtisadiyyatı ixtisası üzrə bakalavr
- İstanbul Texniki Universiteti, Maliyyə ixtisası üzrə magistr



Aqşin Əmirov
İdarə Heyəti sədrinin müavini, Baş risk inzibatçısı

1978-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadiyyatın tənzimlənməsi fakültəsi
- London Biznes Məktəbi, MBA



Elmir Həbibullayev
İdarə Heyəti sədrinin müavini

1978-ci ildə anadan olub.
2016-cı ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və kredit ixtisası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və kredit ixtisası üzrə magistr



Nəbi Əliyev
İdarə Heyəti sədrinin müavini, Baş maliyyə inzibatçısı

1984-cü ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə magistr
- Oksford Universiteti, EMBA
- İqtisadiyyat üzrə fəlsəfə doktoru



Taleh Tahirli
İdarə Heyəti sədrinin müavini, Baş strategiya inzibatçısı

1981-ci ildə anadan olub.
2019-cu ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- Bakı Mühəndislik Universiteti, Biznesin təşkili və idarə edilməsi ixtisası üzrə bakalavr
- Göteborq Universiteti, Biznes və İqtisadiyyat Məktəbində Menecment ixtisası üzrə magistr
- HEC Paris, İnnovasiyaların idarə edilməsi və sahibkarlıq ixtisası üzrə magistr



Vasif Əhmədov
İdarə Heyəti sədrinin müavini

1961-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- SSRİ DTK-nın ali məktəbi, Beynəlxalq münasibətlər ixtisası
- Rusiya Federasiyası XİN-in Diplomatiya Akademiyası, Beynəlxalq münasibətlər ixtisası üzrə magistr



Nərgizxanım Biləndərli
İdarə Heyəti sədrinin müavini

1972-ci ildə anadan olub.
2025-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu, Rus dili və ədəbiyyatı müəllimi ixtisası
- Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və kredit ixtisası üzrə magistr



Aynur Süleymanlı
Baş direktor

1979-cu ildə anadan olub.
2018-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət İqtisad Universiteti, Əməyin iqtisadiyyatı və sosiologiyası ixtisası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti, Heyətin idarə edilməsi ixtisası üzrə magistr



Fuad İslamov
Baş direktor

1969-cu ildə anadan olub.
2011-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil
- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Neft və qaz hasilatının fiziki prosesləri ixtisası
- Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq İqtisadi münasibətlər ixtisası üzrə magistr



Nihat Şenyuva
Baş direktor - Baş informasiya inzibatçısı

1977-ci ildə anadan olub.
2020-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil
- Ege Universiteti, Kompüter mühəndisliyi ixtisası üzrə bakalavr
- Yeditepe Universiteti, magistr



Anar Abbasov
Baş direktor

1986-cı ildə anadan olub.
2026-cı ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil
- Milli Aviasiya Akademiyası, Menecment ixtisası üzrə bakalavr
- İngiltərənin Sheffield Universiteti, Biznes idarəçiliyi ixtisası üzrə magistr

ABB yüksək təcrübə səviyyəsini təmin etməyə, bütün səviyyələrdə maraqlı tərəflərin gözləntilərini doğrultmağa çalışır. Bunun üçün Müşahidə Şurası hər il İdarə Heyəti üzvlərinin qiymətləndirilməsini həyata keçirir.

1.4

MİSSİYAMIZ VƏ STRATEJİ BAXIŞIMIZ

Missiyamız

Müasir universal maliyyə qrupu kimi müştərilərimizin maliyyə ehtiyaclarını təmin etməkdir.

- Maliyyə xidmətlərini hər kəs üçün əlçatan və əlverişli edərək;
- Ən qabaqcıl təcrübə və yenilikləri gətirərək;
- Biznes və insan kapitalını dəstəkləməklə ictimaiyyətimizi gücləndirərək;
- Azərbaycan iqtisadiyyatının inkişafına və dünyaya inteqrasiyasına töhfə verərək;

Strateji baxışımız

Cənubi Qafqazda aparıcı universal maliyyə qrupu olmaqdır.

- Müştərilərimizə üstün keyfiyyətli xidmət göstərməklə;
- İstedadlı və peşəkar liderlər üçün ən arzuolunan işəgötürən olmaqla;
- Səhmdarlarımıza ən yüksək mənfəət qazandırmaqla;
- Ən yüksək korporativ idarəetmə standartlarını tətbiq etməklə;
- Rəqəmsal gələcək üçün ən güclü tərəfdaşlıq yaratmaqla;

1.5

MƏQSƏDİMİZ VƏ DƏYƏRLƏRİMİZ

Məqsədimiz

Müasir maliyyə dünyasında etibarlı tərəfdaşınız olmaqdır.

Dəyərlərimiz

Müştəriyönümlü yanaşma

Müştəriləri duyaraq onlara özəl xidmət təqdim edirik.

Müştərilərimizə dəyər ötürərək onların inkişafına dəstək oluruq.

Müştərilərimizlə qurduğumuz dərin münasibətlərlə onları daha yaxşı anlayırıq.

Daha yüksək xidmət üçün müştəri ehtiyaclarından öndəyik.

Qətiyyətli dürüstlük

Tərəfdaşlarımız qarşısında cavabdehlik əsas məsuliyyətimizdir.

Gördüyümüz bütün işlərdə şəffaflığa riayət edirik.

Öhdəliklərimizi ləyaqətlə yerinə yetiririk.

Fəaliyyətimizdə nüfuzumuzu və etik davranış normalarını öndə tuturuq.

İşimizdə mükəmməllik

Bank olaraq vədlərimizi mükəmməl yerinə yetiririk.

Yüksək standartlar üçün əzmkarlıqla inkişaf edirik.

Düşünülmüş qərarlar verərək vaxtında addım atırıq.

Hər işdə bütün təfərrüatları nəzərə alırıq.

Liderlik məkanı

Potensialımızı üzə çıxarmaq üçün komanda işinə üstünlük veririk.

Fərdi nəticələri dəyərləndirir, nailiyyətləri alqışlayırıq.

Ruhlandırıcı və çevik iş mühiti yaradaraq istedadları cəlb edir və inkişaf etdiririk.

Missiyamızın daha yaxşı icrası üçün iddialı liderlər yetişdiririk.

Ölçülmüş səmərəlilik

Mövcud resurslardan səmərəli istifadə edərək müştərilər üçün daha çox dəyər yaradırıq.

Ölçülmüş risklər götürərək yeni imkanlardan yararlanırıq.

Hər işimizdə effektivliyi və məhsuldarlığı təşviq edirik.

Məhdudiyyətlərdən ilhamlanaraq onları imkanlara çeviririk.

Sahibkarlıq ruhu

İnnovasiyaları tətbiq etməklə yeni imkanlar yaradırıq.

Ən yaxşı məhsullar yaratmaq üçün işimizə kreativ yanaşırıq.

Tərəfdaşlarla əlaqələr quraraq daha yaxşı nəticələr əldə edirik.

Status-kvonu dəyişərək, bütün səviyyələrdə sahibkarlıq ruhunu dəstəkləyirik.

Vətəndaşlıq məsuliyyəti

İctimai maraqlar naminə fəaliyyətimizdə məsuliyyətli davranırıq.

Cəmiyyətimizin inkişafına dəstək oluruq. Ölkəmiz üçün yüksək ixtisaslı kadrlar yetişdiririk.


Qısamüddətli çağırışlara rəğmən uzunmüddətli nəticələri düşünərək davranırıq.

1.6

NİZAMNAMƏ KAPİTALININ STRUKTURU

Cədvəl 1: ABB-nin əsas səhmdarlarının siyahısı

Təsisçinin, iştirakçının (səhmdarın) adı	Məbləğ, min AZN ilə	Faktiki nizamnamə fonduna nisbətən %-lə
Dövlət müəssisələri	1,181,228.88	92.19%
Aqrarkredit QSC	2,815.03	0.22%
Hüquqi şəxslər	4,922.14	0.38%
Fiziki şəxslər	92,305.34	7.20%
Ümumi	1,281,271.39	100.00%



31.12.2025-ci ilə səhm kapitalının strukturu

Səhmlərin növü
Adi

Emissiya edilmiş səhmlərin dövlət qeydiyyat nömrəsi
AZ1004004581

Nominal dəyəri, AZN
0,27

Buraxılmış səhmlərin sayı
4,745,449,602

1.7

ABB-NİN TÖRƏMƏ ŞİRKƏTLƏRİ

azericard

"Azərikard" MMC: Azərikard Azərbaycanın ən təhlükəsiz və əlçatan lisenziyalı prosessinq mərkəzidir. 16 bank və fintek şirkəti ilə əməkdaşlıq edərək, təxminən 47,000 terminala, 8 milyondan çox kart sahibinə xidmət edir. Bu infrastruktur üç məlumat mərkəzi tərəfindən dəstəklənir.

Mərkəzin fəaliyyətinə elektron ödəniş sistemlərinin dəstəklənməsi, kart sahiblərinə xidmət, mobil və internet bankçılıq xidmətləri, kartların emissiyası, ATMlərin monitorinqi və digər məsələlər daxildir. Mərkəz hər il ardıcıl olaraq kibertəhlükəsizlik standartları üzrə PCI DS sertifikatına layiq görülür. Bir çox yerli bank və fintek şirkətləri təhlükəsiz tranzaksiya idarəçiliyi, yüksək səviyyəli şifrələmə və PCI hostinq xidmətləri üçün Azərikarda etibar edir.

Şirkət Visa, Mastercard, American Express, Diners Club, UnionPay və JCB kimi beynəlxalq ödəniş sistemləri ilə əməkdaşlıq edir. Bundan əlavə, Azərikard Azərbaycanda VISA və Mastercard ilə tərəfdaşlıq çərçivəsində Apple Pay və Google Pay xidmətlərini dəstəkləyən NFC (Near Field Communication) ödəniş həllərini təqdim edən ilk mərkəzdir.

Azərikard ölkədə nağdsız ödəniş sisteminin inkişafında aparıcı rol oynayır. Əsas gəlir mənbələri kartların emissiyası, davamlı texniki xidmət və elektron əməliyyatlardan əldə edilən gəlirlərdir.

2022-ci ildən etibarən əsasən Azərikard əsas biznes fəaliyyətlərinə, İT infrastrukturunun yenilənməsi, təhlükəsizlik sistemlərinin gücləndirilməsi və əməliyyat proseslərinin sürətləndirilməsinə yönəlmiş üçillik strategiyanı həyata keçirmiş və 2025-ci ildə onu növbəti üç il üçün yeniləmişdir.

Əsas biznes fəaliyyətləri ilə yanaşı, innovativ fintek təşəbbüslərinin dəstəklənməsinə də xüsusi diqqət ayırmışdır. Bunlara aşağıdakılar daxildir:

- **Sürətləndirici amil kimi Süni İntellekt:** Müştəri əlaqə mərkəzi, əməliyyatlar, hüquqi qiymətləndirmə və digər əlaqəli funksiyalar da daxil olmaqla, birbaşa və dolayı xidmət sahələrində şirkət Süni İntellektin tətbiqi ərəfəsindədir.
- **Fintek GoldenPay-cəlbi** - FinTek sahəsində aparıcı oyunçulardan biri olan GoldenPay-in prosesə cəlb edilməsi, ödəniş infrastrukturunun gücləndirilməsi və rəqəmsal həllərin daha sürətli tətbiqi baxımından mühüm addım oldu.
- **TezOde (TezPay) platforması** – İstifadəçilərə rahat ödəniş həlləri təqdim edən bu sistem xidmət identifikatorlarını (məsələn, avtomobil nömrə nişanı ilə parklanma ödənişləri) avtomatik tanıyır və rəqəmsal kartların ani emissiyasını təmin edir.
- **VIP Concierge** – VIP müştərilər üçün xüsusi xidmət. Bu xidmət çərçivəsində kartların bloklanması/açılması, balans sorğuları və digər kart əməliyyatları üçün dərhal dəstək göstərilir.
- **MSSP** – Yüksək davamlılığa malik təhlükəsizlik əməliyyat mərkəzi 24/7 rejimində fəaliyyət göstərir. Bu xidmət şirkətlərin geniş təhlükəsizlik heyətini işə götürmək, onlara təlim keçmək və saxlamaq ehtiyacını aradan qaldırır.
- **Business 360** – Banklar və onların ticarət tərəfdaşları üçün hərtərəfli portal. Burada ödənişlərin, terminalların idarə olunması, ödəniş linklərinin yaradılması və digər xidmətlər bir platformada təqdim edilir.

Bu uğurlar sayəsində Azərikard Azərbaycanın ödəmə sistemlərinin gələcəyinin formalaşdırılmasında mühüm rol oynamaqda davam edir.

БАНК МБА-МОСКВА

"ABB-Moskva" MMC 2002-ci ildə Rusiyada 100% Azərbaycan kapitalına malik ilk bank kimi yaradılıb. Bankın əsas fəaliyyət istiqamətlərinə banklararası bazarda əməliyyatların həyata keçirilməsi, korporativ və pərakəndə müştərilərə bank xidmətlərinin göstərilməsi daxildir. "ABB-Moskva" Bankı Rusiyada 20 ildən çoxdur ki, fəaliyyət göstərir və son illərdə ölkənin maliyyə bazarındakı mövqeyini daha da gücləndirib.

"ABB-MOSKVA" 2025-ci ildə Rusiya maliyyə bazarında mövqelərinin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Hesabat ilində Bankın əsas prioritetləri banklararası bazarda əməliyyatların genişləndirilməsi, korporativ və pərakəndə müştərilərlə işin inkişafı, həmçinin "Granat" pulköçürmə xidmətinin miqyasının artırılması olmuşdur.

2025-ci ildə "ABB-Moskva" nın həyata keçirdiyi ən mühüm layihələr bunlardır:

- **Beynəlxalq tərəfdaşlıqlar:** Qırğızıstanda "Kompanyon" Bankı ilə Elkart kartlarına, Özbəkistanda "Oktobank" ilə UZCARD və HUMO kartlarına pul köçürmələrinin təşkili;
- **Portmanat ilə birgə Azərbaycandan Rusiyaya pul köçürmələrinin əks koridorunun genişləndirilməsi;**
- **Granat mobil tətbiqi üzərindən kredit məhsullarının rəsmiləşdirilməsi imkanının yaradılması.**

Hesabat dövründə "ABB-MOSKVA" Bankı bank-korrespondent şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl addımlar atmışdır. Belə ki, 2025-ci il ərzində 11 yeni LORO və 9 yeni NOSTRO bankı ilə əməkdaşlıq müqavilələri imzalanmışdır. Nəticədə, Bankın tərəfdaş şəbəkəsi hazırda 16 ölkədə 130-dan çox bank-korrespondenti əhatə edir.

Biznesin inkişafı üzrə strateji prioritetlərdən biri kimi "Granat" pulköçürmə xidmətinin MDB ölkələrində və yaxın xaricdə coğrafiyasının genişləndirilməsi müəyyən edilmişdir.

ABB Invest

"ABB-İnvest İnvestisiya Şirkəti" QSC: Bank tərəfindən 2020-ci ildə təsis edilmiş "ABB-Invest" qısa müddət ərzində aparıcı investisiya şirkətlərindən birinə çevrilmək istiqamətində mühüm uğurlar əldə etmiş, həm yerli kapital bazarında, həm də xarici bazarlara çıxışın təmin edilməsi üzrə xidmətlər sahəsində əhəmiyyətli bazar payı qazanmışdır.

2025-ci ildə "ABB-Invest" elektron ticarət platforması (ABB mobile/Investment) vasitəsilə təqdim etdiyi investisiya məhsullarının çeşidinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Hazırda Şirkət ABŞ-da ticarət olunan sabit gəlirli alətlərə, o cümlədən risksiz ABŞ dövlət istiqrazlarına və investisiya dərəcəli ABŞ korporativ istiqrazlarına çıxış imkanı təqdim edir. ABŞ-da ticarət olunan səhmlərlə yanaşı sabit gəlirli alətlərin də platformaya daxil edilməsi pərakəndə investorlar üçün vahid investisiya hesabı çərçivəsində həm səhmləri, həm də istiqrazları əhatə edən balanslaşdırılmış investisiya portfellərinin formalaşdırılması baxımından unikal imkan yaratmışdır. Bununla yanaşı, "ABB-Invest" ABŞ səhmləri üzrə genişləndirilmiş ticarət saatlarında (pre-market və after-hours) əməliyyatların aparılmasını mümkün etmiş, bu da əməliyyatların vaxt seçimi baxımından çevikliyi artırmışdır.

2025-ci ildə Şirkət investisiya bankçılığı (qiymətli kağızların anderraytinqi) fəaliyyəti üzrə də yüksək aktivlik nümayiş etdirmişdir. "ABB-Invest" korporativ müştəriləri – qiymətli kağız emitentləri üçün yerli kapital bazarından 96 milyon manatdan artıq vəsait cəlb edilməsini uğurla təmin etmişdir. Yeni investisiya alətlərinin bir hissəsi mobil tətbiq vasitəsilə abunə üçün təklif edilmiş və nəticədə 1,000-dən çox pərakəndə investor elektron sifarişlər yerləşdirərək investisiya etmişdir.

"ABB-İnvest" Bakı Fond Birjasının və Milli Depozit Mərkəzinin birbaşa üzvüdür. Şirkət 60-dan çox korporativ və 70 mindən artıq pərakəndə müştəriyə investisiya bankçılığı, brokerlik, marja ticarəti, kastodian və digər əsas və əlavə investisiya xidmətləri göstərir. "ABB-İnvest" innovasiyalara əhəmiyyətli resurslar ayırır və yerli investisiya şirkətləri arasında həm yerli, həm də xarici bazarlara elektron çıxış imkanı təqdim edən azsaylı qurumlardan biridir.

ABB Innovation

"ABB İnnovasiya" MMC 2025-ci ilin aprel ayında ABB Qrupunun xüsusi texnologiya və innovasiya mərkəzi kimi təsis edilmişdir. Şirkət Qrup daxilində innovasiyanı struktur imkan kimi institusionallaşdırmaq məqsədilə yaradılmış, qabaqcıl məhsul inkişafı,

miqyaslana bilən rəqəmsal platformalar, startap ekosistemi təşəbbüsləri və texnologiya üzrə insan kapitalının inkişafını mərkəzləşdirilmiş əməliyyat modeli altında birləşdirmişdir.

Aparıcı texnologiya və innovasiya şirkəti olmaq ambisiyası ilə "ABB İnnovasiya" ABB Maliyyə Qrupuna daxil olan şirkətlər və əsas bazar iştirakçıları arasında miqyaslana bilən texnoloji həllər, fərdiləşdirilmiş məhsul təqdimatı və strateji tərəfdaşlıqlar vasitəsilə sinerji yaradır, bununla da regional mövcudluğunu genişləndirməyi, yerli və beynəlxalq bazarlarda platforma əsaslı artımı təmin etməyi hədəfləyir.

"ABB İnnovasiya" məhsul icrası, insan kapitalının inkişafı, ekosistemin böyüməsi və kommersiya miqyaslanmasını birləşdirən inteqrasiya olunmuş model əsasında fəaliyyət göstərir.

Əsas fəaliyyət istiqamətləri

Rəqəmsal məhsullar və xidmətlər sahəsi

"ABB İnnovasiya" icraedici mühərriki olaraq aşağıdakı sahələrə fokuslanır:

- E2E rəqəmsal məhsul inkişafı;
- XaaS (PaaS və SaaS) platformaları, o cümlədən embedded finance, BNPL, beyond banking və rəqəmsal həllər;
- Agile outstaffing və yüksək keyfiyyətli İT layihələrinin icrası.

Tech akademiya sahəsi

Uzunmüddətli rəqəmsal potensialın gücləndirilməsi məqsədilə:

- ABB Tech Akademiyası vasitəsilə strukturlaşdırılmış texnologiya kadr hazırlığı modeli;
- Sübut olunmuş transformasiya təcrübəsinə əsaslanan konsaltinq xidmətləri.

Startap və Ekosistem

Qrup strategiyasına uyğun innovasiya axının formalaşdırılması, akselerasiya proqramları və tərəfdaşlıq modelləri vasitəsilə daxili korporativ innovasiyanın təşviqi və yerli startap ekosisteminin dəstəklənməsi.

Hesabat dövrü üzrə nailiyyətlər

- **2025-ci ildə icra olunmuş layihələrin sayı:** 18
- **Ümumi icra olunmuş iş həcmi:** 32,624 insan-saat

Bu göstəricilər "ABB İnnovasiya"nın artan icra yetkinliyini, keyfiyyət və korporativ idarəetmə standartlarını qorumaqla paralel şəkildə bir neçə strateji təşəbbüsü dəstəkləmək qabiliyyətini əks etdirir.

Əsas töhfə verilmiş təşəbbüslər

Hesabat dövründə şirkət ABB-nin bir sıra yüksək təsirli təşəbbüsləri üzrə texnologiya inkişaf və tətbiq dəstəyi göstərmişdir:

- BNPL platformasının istifadəyə verilməsi və miqyaslandırılması;
- "Pay by ABB" rəqəmsal ödəniş həllinin tətbiqi;

Bu təşəbbüslər vasitəsilə "ABB İnnovasiya" ABB Maliyyə Qrupunun rəqəmsal infrastrukturunun gücləndirilməsinə töhfə vermiş, bazara çıxış müddətini sürətləndirmiş və biznes xətləri üzrə platforma əsaslı böyümə imkanlarını artırmışdır.

Startap və Ekosistemin inkişafı

"ABB İnnovasiya" 2025-ci ildə də Azərbaycanın startap ekosisteminin gücləndirilməsinə töhfə verməyə davam etmişdir.

Hesabat ilində "ABB İnnovasiya" Mastercard və ADA Universiteti ilə rəsmi tərəfdaşlıq çərçivəsində süni intellekt mövzusunda Startup Challenge təşkil etmiş, real biznes problemlərini hədəfləyən 40 AI əsaslı startap ideyasını cəlb etmişdir.



Portfel üzrə seçilmiş nümunələr:

- **Miloy** – EBRD Star Venture Proqramının qalibi seçilmiş və 50,000 avro məbləğində qrant dəstəyi qazanmışdır
- **Tryverse** – Silkway Accelerator proqramının iştirakçısı olmuş, 10,000 ABŞ dolları məbləğində bridge maliyyələşmə cəlb etmiş və illik gəlirini iki dəfə artırmışdır

Bundan əlavə, "ABB İnnovasiya" BakuID çərçivəsində keçirilən University Demo Day tədbirinin rəsmi tərəfdaşı və sponsoru kimi çıxış edərək ekosistemdə lider mövqeyini möhkəmləndirmişdir.

İnsan Kapitalının İnkişafı və Konsaltinq

ABB Tech Akademiyası vasitəsilə şirkət ölkə üzrə rəqəmsal potensialın inkişafına töhfə vermişdir:

- 1000+ məzun hazırlanmışdır;
- 20+ strukturlaşdırılmış proqram icra olunmuşdur;
- Məzunlar arasında məşğulluq səviyyəsi: 82%+;

2025-ci ildə ABB Tech Akademiyası süni intellekt, data analitikası, məhsul inkişafı və korporativ texnologiyalar üzrə 10 yeni proqram istifadəyə vermiş, eyni zamanda 10 yeni korporativ tərəfdaşlıq vasitəsilə B2B modelini gücləndirmişdir.

Bu inkişaflar "ABB İnnovasiya"nın maliyyə və texnologiya ekosistemində işçi qüvvəsinin transformasiyası və dayanıqlı rəqəmsal inkişaf üzrə strateji tərəfdaş mövqeyini daha da möhkəmləndirmişdir.

Gələcəyə Baxış

Gələcək dövrdə "ABB İnnovasiya" süni intellekt əsaslı platformaların miqyaslandırılmasını və regional tərəfdaşlıqların gücləndirilməsini davam etdirəcəkdir. ABB Qrupunun bazar liderliyi, yeni istiqamətlərə genişlənmə, inteqrasiya olunmuş müştəriyönümlülük və süni intellekt əsaslı səmərəlilik liderliyi hədəflərini əhatə edən 2026–2028 strategiyası çərçivəsində "ABB İnnovasiya" platforma əsaslı artımın və uzunmüddətli dəyər yaradılmasının əsas hərəkətverici qüvvələrindən biri olacaqdır.

"Beynəlxalq Lizinq Şirkəti" MMC: ABB Beynəlxalq Lizinq şirkəti 27 iyun 2002-ci il tarixində Ədliyyə Nazirliyində qeydiyyata alınmış "Azərilizinq" Şirkətinin hüquqi varisidir. 14 iyun 2007-ci il tarixində şirkət "Azərilizinq" "Joint Lizinq Kompani" kimi dövlət qeydiyyatına alınaraq öz hüquqi formasını dəyişib. 13 iyul 2016-cı il tarixindən isə "Beynəlxalq Lizinq" QSC kimi fəaliyyətini davam etdirməyə başlayıb. "Beynəlxalq Lizinq" QSC öz fəaliyyətini cəmiyyətin nizamnaməsi, əsasnaməsi, AR Mülki Məcəlləsi və digər normativ hüquqi-aktlar əsasında həyata keçirməklə lizinq xidməti göstərir. "Beynəlxalq Lizinq" QSC-nin məqsədi lizinq sahəsində Azərbaycan Respublikasında ən qabaqcıl təcrübə və yenilikləri tətbiq edərək maliyyə xidmətlərini hər kəs üçün əlçatan və əlverişli etmək, müştərilərə üstün keyfiyyətli xidmətlər göstərmək, xidmətlərdə mükəmməllik, dürüstlük və müştəriyönümlü yanaşma tətbiq etməklə ölçülmüş səmərəlilik çərçivəsində sahibkarlıq ruhunu stimullaşdıraraq cəmiyyətin gələcəyinə töhfə verməkdir.

1.8

MÜKAFATLAR

İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2021	"Korporativ sosial məsuliyyət", "Ən fəal maliyyə savadlılığı dəstəkçisi", "Ən fəal təhsil dəstəkçisi", "Kiçik və orta biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü", "Nağdsız ödənişlərin təşviqi sahəsində tədbirlərlə fərqlənən ABA üzvü", "Elektron bankçılıq üzrə innovativ layihələr"nominasiyaları	Azərbaycan Banklar Assosiasiyası
	ABB MDB və Qafqaz ölkələri arasında kiçik və orta biznesə innovativ imkanlar yaradan 20 ən yaxşı bankın reytinqində öz yerini tutub.	SME Banking Club
	Ölkədə ilk dəfə dəmiryolu nəqliyyatında nağdsız ödənişlər texnologiyasının tətbiqi üzrə əməkdaşlığa görə	VISA
	ABB-nin yaratdığı ABB İnnovasiya Mərkəzi "Best Financial Innovation Labs" nominasiyasının qalibləri sırasında olub.	"Global Finance" jurnalı
	"İlin bankı" Pandemiya dövründə sürətlə dəyişən biznes mühitinə çevik uyğunlaşa bildiyinə və sağlam maliyyə vəziyyətinə görə ABB-ni "İlin bankı" mükafatına layiq görüb.	"The Banker" jurnalı
2022	**"İlin bankı"** Gənc mütəxəssislər üçün rəqəmsal bankçılıq və İT təlimləri istiqamətində aparılan işlərə, rebrendinq layihəsini uğurla həyata keçirdiyinə və kapital mövqeyinin gücləndməsinə görə ABB-ni "İlin bankı" mükafatına layiq görüb.	"The Banker" jurnalı
	Asiya və Sakit Okean regionunun il üzrə ən yaxşı banklarından biri	"Global Finance" jurnalı
2023	**"İlin bankı"** "The Banker" jurnalı strateji inkişaf istiqamətindəki nailiyyətlərinə, fəaliyyətində yeni texnologiyaları uğurla tətbiq etməsinə, innovativ məhsul və xidmətlərinə, müsbət maliyyə göstəricilərinə görə ABB-ni "İlin bankı" mükafatına layiq görüb.	"The Banker" jurnalı
	Milli KSM Mükafatı ABB-nin TamEco layihəsi, "İqlim Dəyişikliyi ilə Mübarizə" kateqoriyasında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Milli Korporativ Sosial Məsuliyyət (KSM) mükafatına layiq görülüb.	Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyası, PROAKTIV PR şirkəti, Eurasian Beynəlxalq Əlaqələr və Tədqiqat İctimai Birliyinin birgə təşkilatçılığı

İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2023	**Azərbaycan Banklar Assosiasiyasının 10 mükafatı:** • ABB 2023-cü ildə müvafiq istiqamətlərdə həyata keçirdiyi uğurlu layihələrə görə "Korporativ sosial məsuliyyət"; • "Maliyyə savadlılığı dəstəkçisi"; • "Təhsil dəstəkçisi"; • "Bank-maliyyə sahəsində araşdırmalar və yazılarla çıxış edən bank nümayəndəsi"; • "Nağdsız ödənişlərin təşviqi sahəsində tədbirlərlə fərqlənən ABA üzvü"; • "Kiçik və orta biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü"; • "Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi"; • "Rəqəmsal ödənişlərdə təhlükəsizliyə dair maarifləndirmə layihələri"; • "Dayanıqlı bankçılıq üzrə layihələr (ESİ)"; • "Özünüməşğulluq proqramında iştirak" nominasiyaları üzrə Azərbaycan Banklar Assosiasiyasının 10 mükafatını qazanıb. ABB sektorda bütün nominasiyalar üzrə mükafatlar qazanan yeganə bank olub.	Azərbaycan Banklar Assosiasiyası
	"Ən yaxşı işçi bağlılığı strategiyası" "Ən yaxşı daxili kommunikasiya strategiyası"	Azərbaycan HR İnstitutu



2024	**"İlin ən yaxşı bankı"** Maliyyə dünyasının nüfuzlu nəşrlərindən olan "Euromoney" jurnalı ABB-ni ölkə üzrə "İlin ən yaxşı bankı" seçib. ABB bu mükafata aktivlərinin keyfiyyətinə, dayanıqlılığına, gəlirliliyinə, böyük müştəri bazasına, qlobal tərəfdaşlıq əlaqələrinə, rəqəmsallaşma layihələrinə görə layiq görülüb.	"Euromoney" jurnalı

İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2024	**“İlin Bankı”** Maliyyə dünyasının nüfuzlu nəşrlərindən olan “The Banker” jurnalı 2024-cü ilin nəticələrinə görə ABB-ni ölkə üzrə “İlin bankı” elan edib. ABB bu mükafatı strateji inkişaf nailiyyətlərinə, o cümlədən tətbiq etdiyi yeni texnologiyalara, innovativ məhsul və xidmətlərinə, güclü maliyyə göstəricilərinə görə qazanıb.	“The Banker” jurnalı
	“Ən yaxşı işəgötürən” Ölkəmizin bank sektorunda ən yaxşı işəgötürən olmağı qarşısına hədəf qoymuş və buna doğru ardıcıl irəliləyən ABB “Top Employers Institute” (Ən Yaxşı İşəgötürənlər İnstitutu) beynəlxalq təşkilatının sertifikatını əldə edib. Təşkilatın auditorları 3 ay çəkən sertifikasiya prosesində dünya təcrübəsindən irəli gələn 255 norma üzrə dəyərləndirmə aparıblar. Bu təcrübələrin ABB-də mövcudluğu yoxlanıb. Təhlillər iş mühiti, istedadların cəlbi, öyrənmə, müxtəliflik, bərabərlik və inklüzivlik, rifah, inkişaf və s. kimi istiqamətləri əhatə edib. ABB-nin müvafiq meyarları 88% yerinə yetirdiyi müəyyənləşib və Bank “Ən yaxşı işəgötürən” sertifikatına layiq görülüb. Qeyd edək ki, bu beynəlxalq sertifikatın əldə olunması üçün minimal normativ tələb 60%-dir. Dünya təcrübəsinə əsasən, sözügedən sertifikatı alan şirkətlərin ortalama nəticəsi 85%-dir. Göründüyü kimi, ABB bu sahədə də mövcud dünya təcrübəsindən daha üstün nəticə göstərib. Beləliklə, fəaliyyətində ən yaxşı beynəlxalq insan resursları təcrübələrini tətbiq etdiyini, əməkdaşları üçün layiqli iş şəraiti yaratdığını bir daha nümayiş etdirib.	Top Employers Institute



2024	**“İlin ən yaxşı insan resursları komandası” , İnsan resursları üzrə “İlin ən dayanıqlı sağlamlıq və rifah strategiyası”, “İlin ən yaşıl öyrənmə və inkişaf strategiyası”** ABB Azərbaycan HR İnstitutunun təşkilatçılığı ilə keçirilən “World HR Summit 2024”də xarici ekspertlərin dəyərləndirməsi nəticəsində bu mükafatlara layiq görülüb.	Azərbaycan HR İnstitutu



İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2024	**Azərbaycan Banklar Assosiasiyasının 6 mükafatı:** • “Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi”, • “Dayanıqlı bankçılıq üzrə layihələr (ESG)”, • “Kiçik və orta biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü”, • “Korporativ sosial məsuliyyət”, • “Maliyyə savadlılığı dəstəkçisi”, • “Təhsil dəstəkçisi”	Azərbaycan Banklar Assosiasiyası
	“Metal kart” və “Elektron ticarətin inkişafı sahəsində həyata keçirdiyi layihələr”. Visa beynəlxalq ödəniş sistemi ABB-yə 2 mükafat təqdim edib. Mükafatlardan biri Banka 2024-cü ilin əvvəlində bazara təqdim etdiyi metal kart məhsuluna görə verilib. Digər mükafat isə ABB-nin elektron ticarətin inkişafı sahəsində həyata keçirdiyi layihələrə aiddir. ABB-nin metal kartı Bankın imtiyazlı müştəriləri üçün nəzərdə tutulub. Kart bir çox üstünlükləri özündə birləşdirir. ABB son illərdə ölkəmizdə elektron ticarətin inkişafına da mühüm töhfələr verir. Bu sahədə müasir infrastrukturun qurulması, proseslərin rəqəmsallaşdırılması, tərəfdaş şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm addımlar atır.	VISA
	“Tam DigiCard debet kartı uğurlu məhsul buraxılışı üzrə” və “Mastercard-la uğurlu əməkdaşlıq nominasiyası üzrə” Beynəlxalq ödəniş sistemi Mastercard ABB-ni 2 nominasiya üzrə mükafatlandırıb. Bankın Tam DigiCard debet kartı uğurlu məhsul buraxılışı nominasiyası üzrə mükafata layiq görülüb. ABB Mastercard-la uğurlu əməkdaşlıq nominasiyası üzrə də təltif olunub. Tam DigiCard debet kartı ilə bir çox bank əməliyyatlarını rahat, sürətli və illik limitsiz həyata keçirmək mümkündür. Kartı saniyələr içində ABB mobile tətbiqindən əldə edib, Apple Pay və Google Pay vasitəsilə dərhal istifadə etmək olar. Mastercard ödəniş sistemi ilə sıx əməkdaşlıq əsasında mütəmadi layihə və kampaniyalar həyata keçirən ABB müştərilərinə dünyanın hər yerində sərhədsiz üstünlüklər təqdim edir. Ümumilikdə, ABB ən çox sayda beynəlxalq ödəniş sistemi ilə tərəfdaşlıq edən Azərbaycan bankıdır.	Mastercard



İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2024	**“Bankda istedadların idarə olunması” və “Öyrənmə və inkişaf nominasiyaları”** ABB 2024-cü ildə 2 Mükəmməllik Mükafatına da layiq görülüb. ABB hər iki mükafatla əməkdaşlar üçün təşkil etdiyi “Gələcəyin Liderləri” proqramına görə təltif olunub.	The Brandon Hall Group
	“Rəqəmsal bankçılıqda Lider” Bankların rəqəmsal inkişaf səviyyəsinin müəyyənləşdirilməsi sahəsində dünyanın ən böyük araşdırması olan “Deloitte Digital Banking Maturity 2024” (DBM-2024) hesabatının nəticələrinə görə ABB müxtəlif meyarlar əsasında ölkə üzrə lider mövqedə qərarlaşıb. DBM hesabatlarının hazırlanmasında məqsəd bankların rəqəmsal kanallar üzrə inkişaf səviyyəsini ölçmək, onları qlobal və regional səviyyədə müqayisə etmək, ən yaxşı təcrübələri ortaya çıxarmaqdır. Araşdırmalarda bankların müştəriyönümlü rəqəmsal strategiyaları, innovativ həll yolları və rəqəmsal xidmətlərdə üstünlük verdikləri əsas trendlər təhlil olunur. Beləliklə, bankların hansı strategiyalarla uğur qazandıqları göstərilir. Eyni zamanda, innovativ texnologiyaların bank sektoruna təsirlərinə diqqət yönəlir. Kibertəhlükəsizlik sahəsində əsas inkişaf istiqamətləri, ən yaxşı qlobal təcrübələr müəyyənləşir. Araşdırmalar ölkələr və regionlar üzrə böyük, orta, kiçik bankların rəqəmsal təcrübələri əsasında aparılır. Təhlil üçün, əsasən, rəqəmsal transformasiya və innovasiyalar sahəsində xüsusilə fəallıq göstərən banklar seçilir. Məlumatlar isə müxtəlif mənbələrdən toplanır. O cümlədən, bankların rəqəmsal kanalları (mobil bankçılıq, İnternet Bankçılıq) dəyərləndirilir, funksionallıqların analizi aparılır, müştəri təcrübələri qiymətləndirilir. DBM-2024 araşdırması dünyanın 44 ölkəsindən 349 bankı əhatə edib. Bu zaman 6 əsas istiqamət üzrə suallar cavablandırılıb. Bura “Məlumatlılıq, “Hesab açmaq”, “Müştəriyə tanıtım”, “Gündəlik bankçılıq”, “Bankdankənar xidmətlər”, “Hesabın bağlanması” istiqamətləri daxildir. Bu istiqamətlərin hər biri üzrə toplanmış ümumi ballara əsasən, rəqəmsallaşma sahəsində lider bankların qlobal reytinqi hazırlanıb. Bura araşdırmalara cəlb edilmiş bütün bankların 10%-i daxildir. ABB də müvafiq meyarlar üzrə ən yüksək balları toplayaraq lider banklar qrupunda qərarlaşıb.	Deloitte & Touche

İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2025	**Azərbaycan Banklar Assosiasiyasının 6 mükafatı:** • “Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi”, • “Dayanıqlı bankçılıq üzrə layihələr (ESG)”, • “Kiçik və orta biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü”, • “Korporativ sosial məsuliyyət”, • “Maliyyə savadlılığı dəstəkçisi”, • “Təhsil dəstəkçisi”.	Azərbaycan Banklar Assosiasiyası
	“İlin ən yaxşı bankı” Dünyanın məşhur “Global Finance” jurnalı 2025-ci ikdə ABB-ni ölkə üzrə “İlin ən yaxşı bankı” elan edib. Beləliklə, ABB son 5 ildə 3-cü dəfə ölkə üzrə “İlin ən yaxşı bankı” seçilib. ABB bu mükafata mənfəətliliyinə, əhatə dairəsinə, qurduğu strateji tərəfdaşlıqlara, son illərdə əldə etdiyi inkişaf nailiyyətlərinə, məhsul və xidmətlərində tətbiq etdiyi innovasiyalara, o cümlədən süni intellekt həllərinə görə layiq görülüb. Qiymətləndirmə zamanı ABB-nin fəaliyyəti haqqında səhm, kredit reytinqi analitiklərinin, digər bank ekspertlərinin rəyləri də nəzərə alınıb.	“Global Finance” jurnalı
	“İlin ən yaxşı rəqəmsal bankı” Qlobal “Euromoney” jurnalı ABB-ni 2025-ci ildə ölkə üzrə “İlin ən yaxşı rəqəmsal bankı” seçib. Bu, Londonda keçirilən “Award of Excellence” mükafatının təqdimatı tədbirində elan edilib. ABB mükafata rəqəmsal kanallardan istifadə edən müştərilərin sayının artımı, rəqəmsal bankçılıq təcrübəsini gücləndirən uğurlu inkişaf strategiyası, rəqəmsal məhsul və xidmətlərdən istifadəni asanlaşdıran həllərin tətbiqi, açıq bankçılıq ekosistemlərinə inteqrasiya və fintek əməkdaşlıqları kimi meyarlara görə layiq görülüb. Mükafatlandırma zamanı ABB-nin kibertəhlükəsizliyə qarşı həyata keçirdiyi ardıcıl və effektiv tədbirlər də nəzərə alınıb.	“Euromoney” jurnalı





2025	**“İlin əqdi”** Bütün ölkələr üzrə ən innovativ və mühüm maliyyə əməliyyatlarının dəyərləndirilməsini aparan “The Global Banking & Markets” təşkilatı ABB-nin 2025-ci ilin aprelində 200 milyon ABŞ dolları dəyərində sindikatlaşdırılmış kredit cəlb etməsini Azərbaycan üzrə “İlin əqdi” mükafatına layiq görüb. Mükafat İstanbulda keçirilən təntənəli mərasimdə ABB təmsilçisinə təqdim olunub. “The Global Banking & Markets” təşkilatı maliyyə bazarlarının beynəlxalq investisiya icması ilə əlaqələrini gücləndirərək əməliyyatların xərc və risklərini azaltmağa, səmərəliliyini yüksəltməyə xidmət edir. Mükafatlandırılan əməliyyatların seçimi zamanı onun həcmi, müddəti, strukturu, icra keyfiyyəti, açdığı yeni imkanlar və s. bu kimi amillər nəzərə alınır.	The Global Banking & Markets

İllər	Əsas nominasiyalarımız (2021-2025)	Təltif etmişdir
2025	**Sahibkarlığın maliyyələşdirilməsi sahəsində Mərkəzi Asiyanın ən yaxşı banklarından** “SME Banking Agency” təşkilatının təşəbbüsü ilə Vyanada Kiçik və Orta Sahibkarlıq üzrə Qlobal Bankçılıq Forumu (Global SME Banking Forum) keçirilib. Forumda ABB də təmsil olunub. Bankın rəqəmsal maliyyələşmə məhsulları olan, tam rəqəmsal “Ani kredit”, “Ticarət zəncirinin maliyyələşdirilməsi”, “Təcili qarantiya” məhsulları təqdim edilib. Forumun “TOP20 SME Banks Award Ceremony” hissəsində regionlar üzrə maliyyə qurumlarının qiymətləndirilməsi aparılıb. ABB kiçik və orta sahibkarlığın dəstəklənməsi sahəsində Mərkəzi Asiyanın 20 ən yaxşı bankından biri və ölkə üzrə ən yaxşı rəqəmsal maliyyə alətləri təqdim edən bank seçilib. Forumda ABB-yə “Biznes bankçılıq” (kiçik və orta sahibkarlıq seqmenti müştərilərinə ən yaxşı ənənəvi maliyyə xidmətləri göstərən bank), “Rəqəmsal bankçılıq” (kiçik və orta sahibkarlıq seqmenti müştərilərinə ən yaxşı rəqəmsal maliyyə xidmətləri göstərən bank), “Rəqəmsal biznes maliyyələşdirməsi” (kiçik və orta sahibkarlıq seqmenti müştərilərinə ən yaxşı rəqəmsal kreditlər təklif edən bank) və “Beyond banking” nominasiyaları üzrə 4 mükafat da təqdim olunub.	SME Banking Agency
	“İlin bankı” Beynəlxalq “The Banker” jurnalı 2025-ci ilin nəticələrinə görə ABB-ni Azərbaycan üzrə “İlin bankı” elan edib. Londonda keçirilən təntənəli mərasimdə mükafat ABB-yə təqdim olunub. “The Banker” jurnalı 2021-ci ildən bəri ardıcıl olaraq 5 ildir ki, Azərbaycan üzrə “İlin bankı” məhz ABB-ni seçir. Bank bu mükafatı ümumi fəaliyyət göstəricilərinə, eləcə də əməliyyatlarının effektivliyinə, aktivlərinin keyfiyyətinə, dayanıqlı maliyyə mövqeyinə, risk menecmenti standartlarına, likvidliyinə, rəqəmsal bankçılıqdan yüksək istifadə səviyyəsinə görə qazanıb.	“The Banker” jurnalı
	“Ən yaxşı işəgötürən” ABB növbəti dəfə “Ən yaxşı işəgötürən” beynəlxalq sertifikatını qazanıb. ABB 2025-ci ildə də “Top Employers Institute” (Ən Yaxşı İşəgötürənlər İnstitutu) beynəlxalq təşkilatının sertifikatına layiq görülüb. İnstitut bu sənədi təqdim etmək üçün hər il müvafiq qiymətləndirmə edir və bunu uğurla keçən şirkətlər “Ən yaxşı işəgötürən” titulunu qazanır. Təşkilatın auditorları 3 ay çəkən sertifikasiya prosesində dünya təcrübəsindən irəli gələn 255 norma üzrə dəyərləndirmə aparıblar. Bu təcrübələrin ABB-də mövcudluğu yoxlanıb. Təhlillər iş mühiti, istedadların cəlbi, öyrənmə, müxtəliflik, bərabərlik və inklüzivlik, rifah, inkişaf və s. kimi istiqamətləri əhatə edib. ABB-nin müvafiq meyarları 88% yerinə yetirdiyi müəyyənləşib və Bank “Ən yaxşı işəgötürən” sertifikatına layiq görülüb. Qeyd edək ki, bu beynəlxalq sertifikatın əldə olunması üçün minimal normativ tələb 60%-dir. Dünya təcrübəsinə əsasən, sözügedən sertifikatı alan şirkətlərin ortalama nəticəsi 85%-dir. Göründüyü kimi, ABB bu sahədə də mövcud dünya təcrübəsindən daha üstün nəticə göstərib. Beləliklə, fəaliyyətində ən yaxşı beynəlxalq insan resursları təcrübələrini tətbiq etdiyini, əməkdaşları üçün layiqli iş şəraiti yaratdığını bir daha nümayiş etdirib. Top Employers Institute indiyə qədər 121 ölkə və regionda 2300-dən çox təşkilatın sertifikatlaşdırılmasını aparıb. Qurumun həyata keçirdiyi sertifikasiya prosesləri qlobal miqyasda 12 milyondan çox işçinin həyatına müsbət təsir göstərməkdədir. “Ən yaxşı işəgötürən” sertifikatını əldə etmiş şirkətlər sırasında BP, Coca-Cola, HSBC, Unicredit, BMW, Puma, Pepsico, Toyota, Walmart, Philip Morris İnternational, Ferrari, Mercedes, Marriot İnternational, Bosh, HUAWEI, Vodafone, EY kimi dünya brendləri də var.	Top Employers Institute







1.9

ABB-NİN REYTİNQLƏRİ

Moody's

ABB-nin Ba1 uzunmüddətli depozit reytinqləri Bankın ba2 səviyyəsindəki kredit ödəmə qabiliyyətinə əsaslanır və ehtiyac yarandığı təqdirdə, Azərbaycan hökumətinin (Baa3 müsbət) yüksək dəstək ehtimalını nəzərə alır. Bu ehtimal ABB səhmlərinin əsas hissəsinin dövlətə məxsus olmasına, hökumətin bankın əmanət sahiblərinə maliyyə dəstəyi təcrübəsinə, habelə Azərbaycanın ən böyük bankı kimi üstün mövqeyinə əsaslanır. ABB-nin ba2 səviyyəsində kredit ödəmə qabiliyyəti reytinqi Bankın güclü kapital adekvatlığı göstəriciləri və məhdud aktiv riski ilə yüksək likvidli balans strukturu ilə dəstəklənir. Son bir neçə il ərzində ABB davamlı olaraq güclü kapital göstəriciləri nümayiş etdirməkdədir.

Fitch

ABB-nin uzunmüddətli (LT) xarici valyuta (FC) emitterinin defolt reytinqi (IDR) 'BB' reytinqləri, bankın müstəqil profilinə əsaslanır, bu isə onun dayanıqlılıq reytinqi (VR; bb) ilə ölçülür. ABB-nin dayanıqlılıq reytinqi Bankın yerli bazardakı güclü mövqeyini, möhkəm balans strukturu və sağlam maliyyə göstəricilərini əks etdirir. Müsbət proqnoz Fitch Ratings şirkətinin ABB-nin kredit portfelinin orta müddət ərzində tədricən artacağ və aktivlərin keyfiyyətinin dayanıqlı şəkildə yüksək səviyyədə qalacağı gözləntilərindən irəli gəlir. ABB-nin balans tərkibi, davamlı aktiv keyfiyyəti və gəlirliliyi, möhkəm kapitalı və likvidliyi reytinqi artıran əsas amillərdir.

Cədvəl 2: Reytinq agentliklərinin verdiyi reytinqlərin inkişaf dinamikası

Moody's	11.12.2023	09.07.2024	09.07.2025
Uzunmüddətli depozit	Ba3	Ba2	Ba1
Qısamüddətli depozit	NP	NP	NP
Kredit ödəmə qabiliyyəti	b1	ba3	ba2
Tənzimlənmiş kredit ödəmə qabiliyyəti	b1	ba3	ba2
Uzunmüddətli qarşı tərəfin risk reytinqi	Ba2	Ba1	Baa3
Qısamüddətli qarşı tərəfin risk reytinqi	NP	NP	NP
Proqnoz	Pozitiv	Pozitiv	Stabil

Fitch	16.10.2023	02.10.2024	18.09.2025
Uzunmüddətli emitentin defolt reytinqi	BB-	BB	BB
Qısamüddətli emitentin defolt reytinqi	B	B	B
Dayanıqlılıq reytinqi	bb-	bb	bb
Dəstək reytinqi	-	-	ns
SRF reytinqi	-	-	-
Proqnoz	Pozitiv	Pozitiv	Pozitiv

1.10

AZƏRBAYCANIN BANK SEKTORUNUN ANALİZİ

Şəkil 1. Əsas makroiqtisadi göstəricilər



2025-ci ildə qlobal iqtisadiyyatda artım tempinin zəifləməsi, artan geosiyasi risklər və beynəlxalq ticarətdə gərginliklərə baxmayaraq, Azərbaycanda iqtisadi fəallıq müsbət dinamikanı qoruyub saxlamışdır. Hesabat dövründə ümumi daxili məhsul real ifadədə 1.4% artaraq 129 mlrd. manat səviyyəsinə çatmışdır.

Struktur baxımından, neft-qaz sektorunda iqtisadi aktivlik 3.1% azalmaqla daralma nümayiş etdirmiş, qeyri-neft-qaz sektorunda isə 2.7% artım qeydə alınmışdır. Məhz qeyri-neft-qaz sahələri iqtisadi artımın əsas mənbəyi kimi çıxış etmiş və ümumi ÜDM-in təxminən 63%-ni formalaşdırmışdır.

Qiymət sabitliyi sahəsində göstəricilər 2025-ci ildə proqnozlara uyğun inkişaf etmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, illik inflyasiya 5.2%, orta illik inflyasiya isə 5.6% təşkil etmişdir.

İnflyasiya üzrə risklərin strukturunda dəyişikliklər əsasən xarici mühitlə əlaqədar formalaşmışdır. Qlobal ticarətdə müşahidə olunan proseslər əmtəə və maliyyə bazarlarında dəyişkənliyi artırmışdır. Bu fonda əsas ticarət tərəfdaşlarında qiymət səviyyəsinin yüksəlməsi, dollar indeksinin zəifləməsi və nominal effektiv məzənnənin məhdud templə möhkəmlənməsi xarici risk amilləri kimi qiymətləndirilir. Daxili risklər sırasında isə istehsal xərclərinin artımı və məcmu tələbin sürətlənməsi potensial təsiredici faktorlar olaraq qalır.

Bank sektorunun analizi

2025-ci il Azərbaycanın bank sektoru üçün sabitlik və davamlı inkişaf ili kimi yadda qalmışdır. İl ərzində ölkədə 22 bank fəaliyyət göstərmiş, onlardan 20-si özəl, 2-si isə dövlət bankı olmuşdur. Bu struktur maliyyə sektorunda rəqabətli və şaxələndirilmiş mühitin formalaşdığını nümayiş etdirmişdir. Əhalinin bank sisteminə artan etimadı fonunda fiziki şəxslərin depozitlərinin yüksəlməsi bank sektorunun aktivlərinin genişlənməsini şərtləndirən əsas amillərdən olmuşdur.


2024-cü illə müqayisədə 2025-ci ildə bank sektorunun ümumi aktivləri 7.71%, ümumi öhdəlikləri isə 7.24% artmışdır. Bu artım bank sisteminin resurs bazasının əhəmiyyətli dərəcədə genişləndiyini göstərir. Hesabat ilində bankların xalis mənfəəti 11.2% artaraq 1,161.6 milyard manat təşkil etmişdir ki, bu da sektorun maliyyə göstəriciləri baxımından mühüm nailiyyəti kimi qiymətləndirilir.

Aktivlərin strukturunda müştəri kreditləri əsas yer tutaraq ümumi aktivlərin 52.66%-ni təşkil etmişdir. Bu göstərici bank sektorunun real iqtisadiyyata yönəlmiş maliyyələşmə rolunun gücləndiyini əks etdirir. Eyni zamanda, depozitlər bankların əsas maliyyələşmə mənbəyi olaraq ümumi öhdəliklərin 76.8%-ni formalaşdırmışdır. Depozit portfelinin 44%-i hüquqi şəxslərin, 32.8%-i isə fiziki şəxslərin payına düşmüş, ümumilikdə portfel əvvəlki illə müqayisədə 1.4% artım nümayiş etdirmişdir.


2025-ci ildə Azərbaycanın maliyyə sektoru makroiqtisadi çağırışlara baxmayaraq yüksək sabitlik və dayanıqlıq göstərmişdir. Bu nəticələr tənzimləyici orqanlar və digər dövlət qurumları tərəfindən həyata keçirilmiş strateji təşəbbüslərin effektivliyini bir daha təsdiqləmişdir.

Kreditləşmə sahəsində də müsbət dinamika müşahidə olunmuşdur. İl ərzində biznes kreditləri 8.92% artaraq əlavə 1.32 mlrd. manat həcmində genişlənmişdir. Eyni zamanda, istehlak kreditləri 10.76% artmış, bu seqment üzrə portfel 0.9 mlrd. manat, ipoteka kreditləri isə 0.3 mlrd. manat artım göstərmişdir. Bu kumulyativ artım nəticəsində ümumi kredit portfeli 9.41% genişlənərək 2.58 mlrd. manat artımla 30,063 mlrd. manat səviyyəsinə çatmışdır.

Ümumilikdə, 2025-ci ilin nəticələri Azərbaycan bank sektorunun həm maliyyə dayanıqlılığı, həm də iqtisadi artımın dəstəklənməsi baxımından güclü mövqeyini qoruduğunu və inkişaf trayektoriyasında irəlilədiyini göstərmişdir.



Şəkil 2. Bank sektorunun icmalı



Şəkil 3. Kredit portfelinin ÜDM-ə nisbəti (maliyyə dərinliyi)

2025-ci ildə kredit portfelinin ÜDM-ə nisbətinin 23.28%-ə, qeyri-neft ÜDM-ə nisbətinin isə 36.74%-ə çatması bank sektorunun real iqtisadiyyatda rolunun əhəmiyyətli dərəcədə artdığını göstərir. Bu dinamika, ilk növbədə, qeyri-neft sektorunda iqtisadi fəallığın genişlənməsi və bizneslərin maliyyələşməyə artan tələbi ilə izah olunur.

Eyni zamanda, bank sektorunda resurs bazasının (xüsusilə depozitlərin) genişlənməsi kreditvermə imkanlarını artırmış, risklərin idarə olunmasında tətbiq edilən daha konservativ və hədəfli yanaşmalar isə kredit artımında daha dayanıqlı etmişdir. Nəticədə, kredit portfeli iqtisadi artımı dəstəkləyən əsas maliyyə alətlərindən birinə çevrilmiş və xüsusilə qeyri-neft sektorunda investisiya və istehsal fəaliyyətlərinin genişlənməsinə töhfə vermişdir.

Bu göstərici onu da göstərir ki, iqtisadi artım getdikcə daha çox bank maliyyələşməsi üzərindən reallaşır və maliyyə vasitəçiliyinin dərinliyi artır.

Biznes kreditlərinin ÜDM-ə nisbətinin 12.47%, qeyri-neft ÜDM-ə nisbətinin isə 19.68% səviyyəsinə yüksəlməsi 2025-ci ildə iqtisadi artımın əsasən sahibkarlıq və real sektor fəaliyyəti hesabına formalaşdığını göstərir. Bu artım, xüsusilə qeyri-neft sahələrində — ticarət, sənaye, logistika, kənd təsərrüfatı və xidmət sektorlarında investisiya fəallığının güclənməsi ilə bağlı olmuşdur.

Dövlət tərəfindən biznes mühitinin yaxşılaşdırılması, infrastruktur layihələrinin genişləndirilməsi və sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən təşəbbüslər bank kreditlərinə olan tələbi stimullaşdırmışdır. Eyni zamanda, banklar tərəfindən daha çevik kredit məhsullarının təklif edilməsi və risklərin daha peşəkar qiymətləndirilməsi biznes kreditlərinin artımını sürətləndirmişdir.

Nəticə etibarilə, biznes kreditləri iqtisadi şaxələndirmənin maliyyə dayaqlarından birinə çevrilmiş və qeyri-neft sektorunun genişlənməsində aparıcı rol oynamışdır.

İstehlak kreditlərinin ÜDM-ə nisbətinin 7.24%, qeyri-neft ÜDM-ə nisbətinin isə 11.4% səviyyəsinə çatması əhalinin gəlirlərinin artması və istehlak davranışlarının aktivləşməsi ilə izah olunur. 2025-ci ildə məşğulluq səviyyəsinin və nominal gəlirlərin artması fonunda əhalinin iri həcmli istehlak xərclərinə (məişət texnikası, avtomobil, təhsil, səhiyyə və s.) marağı yüksəlmişdir.

Bununla yanaşı, banklar tərəfindən rəqəmsal kanallar üzərindən daha sürətli və əlçatan kredit məhsullarının təqdim edilməsi istehlak kreditlərinə çıxışı əhəmiyyətli dərəcədə asanlaşdırmışdır. Bu da istehlak kreditlərinin iqtisadi aktivliyin stimullaşdırılmasında mühüm rol oynamasına şərait yaratmışdır.

İpoteka kreditlərinin ÜDM-ə nisbətinin 3.56%, qeyri-neft ÜDM-ə nisbətinin isə 5.62% səviyyəsində formalaşması daşınmaz əmlak bazarında sabit və mərhələli genişlənməni əks etdirir. Bu artım, xüsusilə urbanizasiya prosesləri, əhalinin mənzil şəraitinin yaxşılaşdırılmasına artan tələbi və dövlət tərəfindən ipoteka mexanizmlərinin dəstəklənməsi ilə əlaqədar olmuşdur.

Eyni zamanda, uzunmüddətli maliyyə resurslarının mövcudluğu və ipoteka məhsullarının daha əlçatan şərtlərlə təklif edilməsi bu seqmentin tədricən dərinləşməsinə imkan yaratmışdır. İpoteka kreditlərinin artımı tikinti sektorunda iqtisadi fəallığı da stimullaşdıraraq əlaqəli sahələrdə (tikinti materialları, xidmətlər, logistika) əlavə iqtisadi dəyər yaratmışdır.

Bu göstəricilər ipoteka bazarının hələ də inkişaf potensialına malik olduğunu və orta müddətli dövrdə maliyyə sektorunun strukturunda rolunun daha da artacağını göstərir.

1.11

ABB-NİN STRATEJİ BAXIŞI

2023-2025 və 2026-2028-ci illər üzrə İnkişaf Strategiyası

ABB postrestrukturizasiya mərhələsini təşkil edən 2019-2022-ci illər üzrə inkişaf strategiyasını uğurla başa çatdırmış, bu dövrdə Bankın gəlirliliyinin artımı, sağlam maliyyə vəziyyətinin, yüksək əməliyyat səmərəliliyinin təmin edilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, Bankda ən yaxşı təcrübəyə uyğun korporativ idarəetmə sistemi qurulmuşdur.

"ABB" ASC sürətli böyüməni hədəfləyən 2023-2025-ci illər üzrə inkişaf strategiyasını müvəffəqiyyətlə yerinə yetirmişdir. 2023-2025-ci illər strategiyası çərçivəsində Bank əsas məqsədlərə çatmış, nailiyyətlərini qorumaqla daha çevik və davamlı inkişafın təmin edilməsinə, prioritet biznes seqmentləri üzrə Bankın lider mövqeyinin gücləndirilməsinə, innovativ yanaşmalar vasitəsilə müasir müştəri təcrübəsinin yaradılmasına, müştəri məmnuniyyətinin artırılmasına, bank sektorunda yeni yanaşma və standartların təşviqinə nail olunmuşdur. Eyni zamanda, ABB ölkənin sosial-iqtisadi inkişaf prioritetləri üçün dəyər yaradacaq təşəbbüslərə fokuslanmışdır.

2026-2028-ci illər üzrə inkişaf strategiyası ABB-nin inkişaf yolunda növbəti mərhələni yaradır. Strategiya Bankın əsas biznes imkanlarından istifadə etməklə, eləcə də gələcək genişlənmə planlarını reallaşdırmaqla dəyər təklifinin genişləndirilməsinə yönəlib. Bu strateji dövr məqsədyönlü artım vasitəsilə bazar liderliyinin gücləndirilməsi, inteqrasiya olunmuş "Beyond banking" və gündəlik həyat vərdişləri əsasında müştəri təcrübəsinin yüksəldilməsi, yeni regionlara və bazarlara doğru genişlənmə, həmçinin Bankın məhsul və prosesləri üzrə süni intellekt, data, digər yeni nəsil texnologiyalarının geniş tətbiqi üzərində qurulub. Yeni inkişaf strategiyası eyni zamanda süni intellekt əsaslı yanaşma və təşkilati dayanıqlıq əsasında səmərəliliyə, istedad liderliyinə fokuslanmaqla ABB-nin gələcəkyönümlü təşkilat kimi mövqeləndirilməsini hədəfləyir.

ABB 2026-2028-ci illər üzrə strateji inkişaf planı çərçivəsində aşağıdakı hədəfləri müəyyən etmişdir:

Strateji məqsədlər

Hədəf seqmentlər üzrə bazar liderliyi

- Prioritet məhsul və seqmentlər üzrə bazar payının artırılması və əsas biznes imkanlarından səmərəli istifadə etməklə ABB-nin lider mövqeyinin gücləndirilməsi;
- Rəqəmsal imkanlar, fərdiləşdirilmiş məhsullar vasitəsilə müştəri məmnuniyyətinə, müştərinin gündəlik dəyərlərinə fokuslanmaqla fərdi və biznes müştəri bazasının genişləndirilməsi;
- ABB-ni seçilən maliyyə tərəfdaşı kimi mövqeləndirmək üçün brend məlumatlılığı və imicindən səmərəli istifadə.

Yeni sahələrə genişlənmə

- Gələcək böyümə strategiyasını dəstəkləmək və Qrup səviyyəsində biznes fəaliyyətlərinin şaxələndirilməsini təmin etmək məqsədilə ABB Maliyyə Qrupunun fəaliyyətinin yeni bazarlara doğru genişləndirilməsi;
- Müxtəlif bizneslər üzrə güclü institusional inteqrasiyanın təmin edilməsi ilə törəmə şirkətlərin artımının sürətləndirilməsi və Qrup səviyyəsində sinerji imkanlarının reallaşdırılması.

İnteqrasiya olunmuş müştəri yönümlülük

- Əlavə dəyər yaradan, "Beyond banking" və gündəlik həyat davranışları üzrə fərdiləşdirilmiş həllər vasitəsilə müştəri təcrübələrinin zənginləşdirilməsi, müştəri bağlılığının yüksək səviyyəyə çatdırılması;
- Məhsul və proses səviyyəsində tətbiq edilən süni intellekt əsaslı yanaşma ilə müştəri rahatlığına fokuslanaraq müştəri təcrübəsinin təkmilləşdirilməsi

Ölkə üzrə istedad liderliyi

- Parlaq istedadların inkişafını dəstəkləyən qabaqcıl, fərqli İşçi Dəyər Təklifi (EVP) vasitəsilə yüksək əməkdaş loyallığının əldə edilməsi;
- ABB-nin Azərbaycanda istedad liderliyinin əsas mərkəzi kimi aydın şəkildə mövqeləndirilməsi yolu ilə İşəgötürən Brendi İndeksinin gücləndirilməsi

Retrospektiv

2019-2022-ci illər üzrə inkişaf strategiyanın icrası vasitəsilə ABB-də dayanıqlı və uzunmüddətli artım üçün möhkəm fundamental əsaslar formalaşdırılmışdır. 2023-2025-ci illər üzrə strateji dövrdə Bankın inkişaf tempinin sürətləndirilməsi və artımın dərinləşdirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir. Həyata keçirilmiş strateji təşəbbüslər nəticəsində ABB müxtəlif seqmentlər üzrə bazar liderliyini möhkəmləndirmiş, məlumat və rəqəmsal imkanların gücləndirilməsi hesabına yüksək səviyyəli müştəriyönümlülüyü təmin etmişdir.

2023-2025-ci illər üzrə inkişaf strategiyasına aşağıdakılar daxildir:

- Təşkilat üzrə Agile idarəetmə mexanizmlərindən istifadə;
- AI, GenAI və RPA həllərinin tətbiqinin genişləndirilməsi;
- Yeni biznes istiqamətlərinin formalaşdırılması (investisiya, rəqəmsal sığorta, ABB Biz, ABB Home, ABB Innovation);
- Yeni müştəri seqmentləri üçün fərdiləşdirilmiş məhsulların hazırlanması

2019-2025-ci illər ərzində strateji planların uğurlu icrası nəticəsində ABB 2019-cu ildən bəri davamlı artım dinamikasını davam etdirmişdir:

- Kredit portfeli 3.6 dəfə artaraq 1.9 mlrd. AZN-dən 6.9 mlrd. AZN-ə çatmışdır;
- Bazar payı 1.5 dəfə yüksələrək 15.2%-dən 23%-ə qədər artmışdır;
- Müştəri bazası 2.5 dəfə genişlənərək 1.3 milyon müştəridən 3.2 milyon müştəriyə çatmış, bu isə həm dərinləşmiş bazar nüfuzunu dəstəkləmiş, həm də əhatə dairəsini genişləndirmişdir;
- Əməkdaşların cəlb olunma səviyyəsi də əhəmiyyətli dərəcədə artmış, işçi məmnuniyyəti göstəricisi 68-dən 84.2-yə yüksələrək 1.2 dəfə artım göstərmişdir;
- Net Promoter Score (NPS) 48-dən 70+ səviyyələrinə çataraq əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Yeni hədəflərə doğru istiqamətlər

Sabitləşmə mərhələsinin (2016-2018) və dayanıqlı inkişaf üçün institusional, maliyyə, əməliyyat əsaslarının formalaşdırıldığı dövrün (2019-2022), eləcə də sürətləndirilmiş inkişaf mərhələsinin (2023-2025) ardınca ABB 2026-2028-ci illəri əhatə edən yeni strategiya ilə inkişaf yolunun növbəti mərhələsinə qədəm qoyur. Sözügedən strateji dövr ABB-nin uzunmüddətli artım potensialının reallaşdırılmasına, rəqabət üstünlüklərinin gücləndirilməsinə və beynəlxalq miqyasda mövqelərinin möhkəmləndirilməsinə xidmət edəcək.

Bank əsas biznes istiqamətlərində artımın dərinləşdirilməsinə müştərinin həyatboyu dəyərinin artırılması, innovasiyaya əsaslanan pərakəndə və biznes bankçılığı həllərinin sürətləndirilməsi, eləcə də hədəf seqmentlərdə payın genişləndirilməsi vasitəsilə fokuslanacaqdır. Bu yanaşma qabaqcıl seqmentasiya, süni intellektlə dəstəklənən ön ofis transformasiyası, miqyaslana bilən məhsul təklifləri və Bankın üstünlük verilən maliyyə tərəfdaşı kimi mövqeyini gücləndirmək məqsədilə əməliyyat mükəmməlliyinə güclü fokusla dəstəklənəcəkdir.

Əsas bazardan kənar artım Qrupun törəmə şirkətləri arasında daha güclü sinerji yaradılması və yeni coğrafiyalara, eləcə də yeni biznes sahələrinə seçici şəkildə genişlənmə hesabına təmin olunacaqdır. Bank paylaşılmış imkanlardan, miqyaslana bilən platformalardan və intizamlı bazara daxilolma yanaşmalarından istifadə etməklə yeni artım mənbələrini aktivləşdirərək dayanıqlı, şaxələndirilmiş və davamlı inkişafı təmin edəcəkdir.

Bank pərakəndə və biznes bankçılığı üzrə gündəlik müştəri davranışlarına bankçılıqdan kənar və həyat tərzi həllərini inteqrasiya edərək, müştərilərə vahid inteqrə olunmuş təcrübə çərçivəsində daha geniş xidmətlər spektrinə çıxış imkanı yaradacaqdır. Bu isə fərdiləşdirməni, rahatlığı və ümumi müştəri məmnuniyyətini artıran gücləndirilmiş İT və məlumat imkanları, yeni nəsil texnologiyalar və təkmilləşdirilmiş platformalar vasitəsilə mümkün olacaqdır.

Bank kadr strategiyasını inkişaf proqramlarının təkmilləşdirilməsi, məqsədyönlü İşçi Dəyər Təklifinin gücləndirilməsi, eləcə də insan resurslarının idarə edilməsində analitika və avtomatlaşdırmadan istifadə etməklə möhkəmləndirəcəkdir. Bu təşəbbüslər yüksək ixtisaslı, motivasiyalı və gələcəyə hazır insan kapitalının formalaşmasına xidmət edərək, Bankın Azərbaycanda aparıcı işəgötürən mövqeyini gücləndirəcək, uzunmüddətli strateji icranı dəstəkləyəcək.

Strategiyanın icrası çərçivəsində ABB 3 illik dövr ərzində Bankın əsas biznes istiqamətləri və törəmə şirkətləri üzrə təqribən 500 layihədən ibarət 70 strateji təşəbbüsün həyata keçirilməsini planlaşdırır. Nəticəyönümlü icranın və səmərəli nəzarətin təmin edilməsi məqsədilə təxminən 120 fəaliyyət göstəricisi müəyyən edilmişdir.

Dayanıqlılıqda Öncül

2.1

HESABAT HAQQINDA

2.1.1 Hesabat profili

ABB dayanıqlılıqla uzunmüddətli dəyərin yaradılması arasında birbaşa əlaqənin olduğunu qəbul edir. Bu yanaşmaya uyğun olaraq, Bank 2025-ci ildə də mövcud imkanları araşdırmış, dayanıqlılıq üzrə öhdəliklərini və ətraf mühitin qorunmasını nəzərə alan iş təcrübələrini hesabatına daxil etməklə açıqlamalarını daha da zənginləşdirmişdir. Təqdim olunan bu hesabat təkcə Bankın dayanıqlılıq sahəsindəki yanaşmasını əks etdirmir, eyni zamanda 1 yanvar 2025-ci il tarixindən 31 dekabr 2025-ci il tarixinədək olan dövr üzrə qeyri-maliyyə nailiyyətlərini əhatə edir.

Hesabatın əhatə dairəsi baxımından maliyyə göstəriciləri, o cümlədən depozitlər və kredit portfeli üzrə məlumatlar ümumilikdə ABB Maliyyə Qrupunun (törəmə müəssisələr daxil olmaqla) fəaliyyətini əks etdirir. Qeyri-maliyyə göstəriciləri isə yalnız Bank tərəfindən həyata keçirilmiş tədbirlər üzrə təqdim olunur. ABB Gürcüstan fəaliyyət göstərməməsi səbəbindən bu hesabatda yer almamışdır.

Hesabatda açıqlanan maliyyə göstəriciləri Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun hazırlanmışdır. Eyni zamanda, bəzi əlavə iqtisadi göstəricilər Bankın daxili sənədlərindən əldə edilmişdir. Bu məlumatların daxil edilməsində məqsəd səhmdarlarda və investorlarda fəaliyyət nəticələrimiz barədə daha dolğun və əhatəli təsəvvür yaratmaqdır.

Hesabatda bütün mühüm mövzular əhatə olunmuş, maraqlı tərəflərin gözləntiləri nəzərə alınmış və müvafiq standartlara, təlimatlara, çərçivə sənədlərinə riayət edilmişdir. Xüsusilə, aşağıdakı çərçivələr əsas götürülmüşdür:

- GRI 2021 Standartları
- Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM)

Növbəti hesabat dövrlərində Bank açıqlamaların əhatə dairəsini daha da genişləndirməyi və dayanıqlılıq sahəsində formalaşmaqda olan tələbləri nəzərə almağı planlaşdırır.

2.1.2 Əhəmiyyətlilik təhlili

Əhəmiyyətlilik təhlili təşkilatın ən mühüm iqtisadi, ekoloji və sosial təsirlərini müəyyən etmək və onları prioritetləşdirmək məqsədi daşıyan sistemli bir prosesdir. Bu təhlil mühasibat uçotu, dayanıqlılıq hesabatlılığı və risklərin idarə edilməsi də daxil olmaqla müxtəlif fəaliyyət sahələrini əhatə edir. Dayanıqlılıq hesabatları üçün metodoloji çərçivə təqdim edən GRI 2021 standartları əhəmiyyətlilik təhlilinin vacibliyini xüsusi olaraq vurğulayır.

ABB olaraq hesab edirik ki, həm daxili, həm də xarici maraqlı tərəflər üçün əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi və təhlili əməliyyatlarımızın effektivliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə Bank maraqlı tərəflərin mütəmadi şəkildə cəlb olunmasını təmin edir və onların rəylərinin qərarların qəbulu prosesində, strategiya sənədlərində və hesabatlarda əks olunmasına xüsusi önəm verir. Əhəmiyyətlilik prosesi vasitəsilə Bank maraqlı tərəflər üçün ən vacib hesab edilən məsələləri müəyyənləşdirir və təqdim olunan bu Hesabat da bir neçə mənbəyə əsaslanan təhlil nəticəsində müəyyən edilmiş əhəmiyyətli mövzular üzrə strukturlaşdırılmışdır.

Xarici maraqlı tərəflər üçün mövzuların əhəmiyyətliliyini qiymətləndirmək məqsədilə aşağıdakı mənbələr təhlil edilmişdir: media icmalı və qabaqcıl təcrübələrin araşdırılması; sənaye trendlərinin və rəqib hesabatlarının təhlili; habelə GRI, SASB, UNEP FI prinsipləri, IFC tövsiyələri və digər universal və sektora xas çərçivə sənədlərinin nəzərdən keçirilməsi.

Daxili maraqlı tərəflər üçün müvafiq mövzuların əhəmiyyətliliyinin qiymətləndirilməsi məqsədilə isə aşağıdakı daxili mənbələrdən istifadə olunmuşdur: tətbiq edilən siyasətlər və ABB-nin 2023-

2025-ci illər üzrə inkişaf strategiyası; daxili proseslərin və nəzarət mexanizmlərinin, eləcə də məhsul və xidmətlərin təhlili; müvafiq struktur bölmələrin əsas heyəti və icraçı rəhbərliklə aparılmış müsahibələr.

Əhəmiyyətlilik təhlilinin nəticələrinə əsasən, Cədvəl 3-də təqdim edildiyi kimi, Bank tərəfindən ümumilikdə 13 əhəmiyyətli mövzu müəyyən edilmişdir.

2.1.3 Əhəmiyyətli mövzuların DİM-lə əlaqələndirilməsi

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv dövlətlər tərəfindən qəbul edilmiş və dayanıqlı inkişaf üzrə 2030 Gündəliyinin əsasını təşkil edən 17 qlobal məqsəddən ibarətdir. ABB bu məqsədlərin əhəmiyyətini yüksək qiymətləndirir, korporativ strategiya və təşəbbüslərini bu qlobal hədəflərlə uyğunlaşdırmaqla cəmiyyətin və ətraf mühitin inkişafına töhfə verməyə çalışır. Bank tərəfindən həyata keçirilən DİM-lə əlaqəli kampaniya və təşəbbüslərin strukturlaşdırılmış icmalı aşağıda təqdim olunur. Əvvəlki hesabat dövrü ilə müqayisədə əhəmiyyətli mövzuların siyahısında əsaslı dəyişikliklər baş verməmişdir.

2.1.4 ABB-nin DİM-lərə töhfəsi

Banklar öz fəaliyyətlərini və əməliyyatlarını müvafiq hədəflərlə uyğunlaşdırmaq və onlara nail olmaq istiqamətində ardıcıl şəkildə çalışmaqla Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) töhfə verməkdə mühüm rol oynayırlar. ABB isə DİM-lərə aşağıdakı əsas istiqamətlər üzrə töhfə verir:

Cədvəl 3. Əhəmiyyətli mövzuların siyahısı

Əhəmiyyətli mövzular	Müvafiq məqsədlər	Töhfələr
Rəqəmsallaşma və innovasiya	8 DECENT WORK AND ECONOMIC GROWTH; 9 INDUSTRY, INNOVATION AND INFRASTRUCTURE	Xidmətlərin əlçatanlıq sürətinin saxlanılması, rəqəmsallaşma; Pərakəndə və korporativ müştərilər üçün ABB mobile tətbiqinin funksionallığının genişləndirilməsi; Hüquqi şəxslərin və sahibkarların Bankın korporativ xidmətlərinə daha sürətli və asan çıxışı üçün İnternet Bankçılıq xidmətinin təkmilləşdirilməsi; Gözləmə və xidmət müddətini azaltmaqdan ötrü xidmətlərin davamlı avtomatlaşdırılması və optimallaşdırılması; *Əlavə məlumat üçün hesabatın 3 və 4-cü bölmələrinə baxın.*
Maliyyə inklüzivliyi	1 NO POVERTY; 8 DECENT WORK AND ECONOMIC GROWTH; 9 INDUSTRY, INNOVATION AND INFRASTRUCTURE; 10 REDUCED INEQUALITIES; 17 PARTNERSHIPS FOR THE GOALS	ABB mobile vasitəsilə maliyyə xidmətlərinə əlçatanlığın artırılması; Ölkənin bütün regionlarında geniş ATM və terminallar şəbəkəsinin təmin edilməsi; Sahibkarların təlimi, bacarıqlarının, maliyyə savadlılıqlarının artırılması üçün dövlət qurumları ilə əməkdaşlıq; Həm daxili, həm dövlət vəsaitləri hesabına sərfəli ipoteka kreditləri; *Hesabatda ətraflı məlumat verilir.*
Maliyyə və iqtisadi fəaliyyət	1 NO POVERTY; 8 DECENT WORK AND ECONOMIC GROWTH; 9 INDUSTRY, INNOVATION AND INFRASTRUCTURE; 17 PARTNERSHIPS FOR THE GOALS	İnkişaf etməkdə olan bizneslər üçün şaxələndirilmiş maliyyə məhsulları hazırlamaq və təklif etməklə iqtisadi fəaliyyətə və sahibkarlığa təkan vermək; Müxtəlif müştəri qruplarına fərdi yanaşma təklif etmək üçün müştəri seqmentasiyasını genişləndirmək; Müştəri məmnuniyyətini və loyallığını artırmaq; Səhmdarlara dividendlərin sabit və təhlükəsiz ödənilməsini təmin etmək; *Əlavə məlumat üçün Hesabatın 1 və 4-cü bölməsinə baxın.*

Əhəmiyyətli mövzular	Müvafiq məqsədlər	Töhfələr
Risklərin idarə edilməsi	8 DECENT WORK AND ECONOMIC GROWTH; 16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS	Risklərin idarə edilməsi strategiyası və risklərin qiymətləndirilməsi siyasəti ilə idarə olunan effektiv risk idarəetmə sisteminin həyata keçirilməsi; Pərakəndə satış seqmenti üçün qiymətləndirmə və avtomatlaşdırılmış qərar modellərinin hazırlanması, tətbiqi; İllik risk xəritəsinin mütəmadi nəzərdən keçirilməsi, xəritənin yenilənməsi; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Öyrənmə və inkişaf	4 QUALITY EDUCATION; 8 DECENT WORK AND ECONOMIC GROWTH; 10 REDUCED INEQUALITIES	Əməkdaşların texniki və şəxsi bacarıqlarının inkişafı üçün müasir təlim proqramlarının keçirilməsi; Potensialın artırılması məqsədilə yeni Təlim Mərkəzinin istifadəyə verilməsi, istedadların inkişafı; Müxtəlif proqramlar vasitəsilə maraqlı tərəflərin təlim, təhsil, kouçinq məqsədilə cəlbi; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Məşğulluq, müxtəliflik	5 GENDER EQUALITY; 10 REDUCED INEQUALITIES; 16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS	İşəqəbul siyasətimizlə proseslərin ədalətliliyinin və müxtəlifliyin təşviqi; Hərtərəfli daxili siyasət və qaydalar vasitəsilə müxtəlifliyin, bərabər imkanların təmin edilməsi; Ortaya çıxan məsələləri dərhal müəyyən etmək və azaltmaq üçün işçilərlə daimi ünsiyyət; İstedadların cəlb edilməsi və yetişdirilməsini təmin etmək üçün təhsil müəssisələri ilə əməkdaşlıq; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Maraqlı tərəflərlə qarşılıqlı əlaqə	16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS; 17 PARTNERSHIPS FOR THE GOALS	Daxili və xarici maraqlı tərəflərlə müntəzəm kommunikasiya kanallarının qurulması; Ardıcıl və şəffaf hesabatlar vasitəsilə illik nəaliyyətlər və maliyyə göstəricilərimizin əsas maraqlı tərəflərə və tənzimləyicilərə açıqlanması; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Sosial sahələrə və cəmiyyətə yönəlmiş investisiyalar	1 NO POVERTY; 5 GENDER EQUALITY; 10 REDUCED INEQUALITIES; 11 SUSTAINABLE CITIES AND COMMUNITIES; 16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS; 17 PARTNERSHIPS FOR THE GOALS	Gənc istedadların cəlbi və gənclərin məşğulluq imkanlarının təmin edilməsi üçün sosial layihələrin həyata keçirilməsi; Yerli icmaların həyat səviyyəsini və sosial rifahını yaxşılaşdırmaq üçün dövlət qurumları ilə əməkdaşlıq; KSM təşəbbüslərimizin əhatə dairəsinin daim genişləndirilməsi; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*

Əhəmiyyətli mövzular	Müvafiq məqsədlər	Töhfələr
Korrupsiya, fırıldaqçılıq və çirkli pulların yuyulmasına qarşı mübarizə		Etik Kodeks və Korrupsiyaya Qarşı Mübarizə Siyasətimizə uyğun olaraq müntəzəm antikorrupsiya təlimlərinin keçirilməsi; Korrupsiyaya qarşı mübarizə prosesləri üzrə nəzarətin effektivliyi Bankın Daxili audit xidməti tərəfindən qiymətləndirilir; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
İdarəetmə və ESİ meyarlarına inteqrasiya		Strateji qərarların qəbulunda ESİ meyarlarına inteqrasiyanın inkişafı; Daxili və xarici resursların məsuliyyətlə istehlak olunmasının təşviqi; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Korporativ idarəetmə və hesabatlılıq		Güclü korporativ dəyərlərin və strateji məqsədlərin baza xəttinin yaradılması; Əməliyyatların şəffaflığını, hesabatlılığını, onlar üzərində nəzarəti və effektivliyi təmin etmək üçün korporativ idarəetmə sistemimizin təkmilləşdirilməsi; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
İşçilərin rifahı		İş yerində təhlükəsizliyin, rifahın təmin edilməsi, sağlam həyat tərzinin təbliği; *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*
Müştəri təcrübəsi və məmnuniyyət		Xidmətlər ekosistemimizin müştərilər üçün əlçatanlığını artırmaq məqsədilə istifadəçi dostu həllərin, proqramların hazırlanması; Ümumi müştəri təcrübəsini artırmaqdan ötrü xidmətlərin davamlı avtomatlaşdırılması və optimallaşdırılması (müştərinin vaxtına əhəmiyyətli dərəcədə qənaət edən, həm də ekoloji cəhətdən müsbət bir seçim olan e-imza buna nümunədir); *Əlavə məlumat üçün Hesabatın 2-ci bölməsinə baxın.*

2.2

ABB-NİN DAYANIQLILIĞA SADİQLİYİ

Dayanıqlı maliyyəyə yanaşmamız

Qlobal miqyasda dayanıqlı inkişafa və iqlim dəyişikliyi ilə mübarizəyə artan diqqət şəraitində maliyyə institutlarının bu prosesdə rolu daha da əhəmiyyətli olur. ABB olaraq, Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə (ESİ) prinsiplərini fəaliyyətimizə ardıcıl şəkildə inteqrasiya etməklə dayanıqlı inkişafı dəstəkləyir, bu istiqamətdə konkret və ölçülə bilən addımlar atmağa davam edirik.

ESİ prinsiplərinin bank fəaliyyətinə inteqrasiyası

2025-ci ildə ABB dayanıqlı maliyyələşmənin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirərək yaşıl maliyyə alətlərinin tətbiqini əhəmiyyətli dərəcədə artırmışdır. 2024-cü ilin noyabr ayından 2025-ci ilin sonuna qədər Bank tərəfindən ümumilikdə 35 yaşıl kredit üzrə 45,232,054 AZN məbləğində maliyyələşmə təmin edilmişdir. Bu portfel çərçivəsində bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr üçün 6 kredit üzrə 15,867,326 AZN vəsait ayrılmış, enerji səmərəliliyi istiqamətində 1 kredit üzrə 700,000 AZN həcmində maliyyələşmə həyata keçirilmişdir. Eyni zamanda, yaşıl nəqliyyat sahəsində 28 kredit üzrə 28,664,728 AZN məbləğində kredit vəsaiti yönəldilmişdir. Bu maliyyələşmələr ABB-nin iqlim dəyişikliyi ilə mübarizə, karbon emissiyalarının azaldılması və resurslardan daha səmərəli istifadənin təşviqi istiqamətində real iqtisadi təsir yaratmaq məqsədinə xidmət edir və Bankın dayanıqlı inkişaf prioritetlərinin kredit portfelində praktik şəkildə əks olunduğunu göstərir.

Həmçinin 2025-ci il ərzində ixrac kredit agentlikləri (ECA) çərçivəsində 2 mühüm layihə uğurla həyata keçirilmişdir:

- Azerbaijan Railways CJSC tərəfindən Technie Rail and Mill GmbH şirkətindən dəmir yolları üçün relslərin alınması layihəsi üzrə maliyyələşmə təmin edilmiş, layihənin ümumi məbləği **12,095,500 avro** təşkil etmişdir.
- Eyni zamanda, Green Karabakh Energy LLC tərəfindən Gugler Water Turbines GmbH şirkətindən turbinlərin alınması layihəsi üzrə maliyyələşmə həyata keçirilmiş və layihə məbləği **4,165,000 avro** olmuşdur.

Bununla yanaşı, ESİ risklərinin Bankın risk hesabatlılığı sisteminə inteqrasiyası və risklərin idarə edilməsi strategiyasının beynəlxalq dayanıqlılıq tələblərinə uyğunlaşdırılması istiqamətində ardıcıl addımlar atılmışdır. Bu çərçivədə ESİ risklərinin idarə edilməsi siyasəti 2025-ci ildə təsdiq edilmişdir. Bankda ekoloji risklərin idarə olunması prosesi Bankın Ekoloji Risklərin İdarə Edilməsi Siyasəti əsasında həyata keçirilir. Sözügedən siyasət ekoloji risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və onların bankın fəaliyyətinə mümkün təsirlərinin idarə olunmasını tənzimləyir. ESİ prinsiplərinin əməliyyat fəaliyyətinə tətbiqi ilə paralel olaraq, ABB müxtəlifliyin və inklüzivliyin təşviqi məqsədilə podratçılarla bağlı yanaşmalarını təkmilləşdirmiş, eyni zamanda məsuliyyətli resurs idarəçiliyi proseslərini gücləndirmişdir.

ABB dayanıqlılıq yanaşmasını təkcə ekoloji sahə ilə məhdudlaşdırmır, sosial dayanıqlılıq və inklüziv inkişaf istiqamətlərini də prioritet hesab edir. Bank gender balansının təşviqi məqsədilə qadınların təmsilçiliyinin artırılması üçün tədbirlər görmüş, kağızsız filial konsepsiyasını tətbiq etməklə daxili proseslərdə resurslardan istifadənin optimallaşdırılmasına yönəlmiş addımlar atmışdır. Eyni zamanda, HR sistemlərinin rəqəmsallaşdırılması vasitəsilə işçi idarəetməsində daha dayanıqlı və səmərəli həllərin tətbiqi genişləndirilmişdir.

Məsuliyyətli təchizat zənciri

ABB potensial təchizatçılarla əməkdaşlıq qurarkən ümumi uyğunluq, etik davranış və dürüstlük kimi əsas dəyərlərə sadiqliyini rəhbər tutur. Təchizatçıların seçimi obyektiv və qərəzsiz qiymətləndirmələr əsasında həyata keçirilir ki, bu da satınalma proseslərində şəffaflığın və ədalətliliyin təmin edilməsinə xidmət edir. Bankın əsas təchizatçıları ödəniş avadanlıqları və sistemləri, kart məhsulları, İT xidmətləri və avadanlıqları, marketinq və digər strateji sahələrdə fəaliyyət göstərən şirkətləri əhatə edir.

ABB-də satınalma üzrə daxili müraciətlər elektron və avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə formalaşdırılır, satınalma sorğuları elektron platforma üzərindən həyata keçirilir və təchizatçıların təklifləri rəqəmsal formatda qəbul olunur. Bu yanaşma kağız istifadəsini minimuma endirməklə yanaşı, ESİ prinsiplərinə uyğunluğun gücləndirilməsinə də töhfə verir.

Bankın fəaliyyətinin effektiv icrası üçün məhsul və xidmətlərin satın alınması Satınalma Siyasəti, Satınalma Qaydaları və Təchizatçı Sorğusu (PQQ) çərçivəsində tənzimlənir. PQQ potensial təchizatçıların ixtisas uyğunluğunu, ESİ prinsiplərinə riayət etməsini və təchizat prosesi boyunca keyfiyyət standartlarına uyğunluğunu qiymətləndirmək üçün istifadə edilən elektron sorğu mexanizmidir. 2025-ci ildə 416 yeni potensial podratçı və ya təchizatçının ətraf mühitə və sosial təsirləri qiymətləndirilmiş, aparılmış təhlillər nəticəsində tədarük zəncirində hər hansı mənfi sosial təsir halı müəyyən edilməmişdir.

Bununla yanaşı, kənar auditlərdən keçmiş keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin idarə edilməsi sistemlərinə dair məlumatların açıqlanması tələb olunur (məsələn, ISO standartları). Müraciət edən təchizatçıların doldurulmuş PQQ-ləri müvafiq struktur bölmələr tərəfindən nəzərdən keçirilir və qiymətləndirilir.

Təchizatçılarla ünsiyyət zamanı Bankın tələbləri və gözləntiləri Təklif Sorğusu (RFP) vasitəsilə əvvəlcədən ətraflı şəkildə müəyyən edilir ki, bu da təkliflərin toplanması prosesini daha sistemli və şəffaf edir. Müqavilə şablonlarında təchizatçılar və podratçılar üçün xitam şərtləri və hüquqi mübahisələrin həlli ilə bağlı xüsusi müddəalar nəzərdə tutulmuşdur.

2025-ci ildə birləşmə azadlığı və kollektiv sövdələşmə hüququnun risk altında olduğu hər hansı fəaliyyət və ya təchizatçı halı qeydə alınmamışdır.

ESİ standartları çərçivəsində təchizatçılar arasında müxtəlifliyin təşviqi məqsədilə elektron platformada yeni yanaşmalar tətbiq edilmiş, ESİ üzrə suallar PQQ anketinə inteqrasiya olunmuş və bütün təchizatçıların qeydiyyatının vahid platforma üzərindən aparılmasına başlanmışdır. Bu yanaşma təchizat zəncirində şəffaflığı və dayanıqlılığı artırmaqla yanaşı, ESİ prinsiplərinə uyğun fəaliyyət göstərən şirkətlərin daha effektiv şəkildə müəyyənləşdirilməsinə imkan yaradır. Eyni zamanda, təchizatçıların qiymətləndirilməsi prosesinin rəqəmsallaşdırılması ESİ meyarlarına uyğunluğun daha operativ və sistemli şəkildə təhlil olunmasını təmin edir və korporativ sosial məsuliyyət çərçivəsində daha inklüziv biznes mühitinin formalaşmasına töhfə verir.

Beynəlxalq və milli dayanıqlılıq tələblərinə uyğunluq

ABB-nin həyata keçirdiyi dayanıqlılıq təşəbbüsləri Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində təqdim etdiyi Yenilənmiş Milli Töhfə (NDC) hədəfləri ilə uzlaşır. Azərbaycanın 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40% azaltmaq öhdəliyini nəzərə alaraq, ABB-nin yaşıl kredit portfelinin genişləndirilməsi bu milli hədəfə töhfə verən əsas maliyyə alətlərindən biri kimi çıxış edir.

Eyni zamanda, Bank "2030-cu il üzrə sosial-iqtisadi inkişaf üçün Milli Prioritetlər" və "2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində yaşıl iqtisadiyyata keçidi dəstəkləyən təşəbbüslərə fəal şəkildə töhfə verir. ABB tərəfindən hazırlanmış Dayanıqlı Maliyyə Çərçivəsi (Sustainable Finance Framework) yaşıl və dayanıqlı layihələrə maliyyə resurslarının yönəldilməsini təmin edən əsas strateji sənədlərdən biridir. Bankın BMT Qlobal Sazişinin (UN Global Compact) üzvü kimi fəaliyyəti beynəlxalq səviyyədə tanınmış etik və dayanıqlılıq prinsiplərinə sadiqliyini təsdiqləyir.

Bu səylər ABB-nin yalnız beynəlxalq dayanıqlılıq çağırışlarına uyğunlaşmasını deyil, eyni zamanda bank sektorunda daha yaşıl və inklüziv gələcəyin formalaşdırılmasında fəal rol oynayan aparıcı iştirakçılardan birinə çevrilməsini əks etdirir. Cənubi Qafqaz regionunun aparıcı maliyyə qruplarından biri kimi, ABB regionun ekoloji və sosial dinamikasına təsirinin məsuliyyətini dərk edir və öhdəliklərini yalnız maliyyə nəticələri ilə məhdudlaşdırmır. ESİ yanaşmaları Bankın biznes fəaliyyətinə və qərarvermə proseslərinə sistemli şəkildə inteqrasiya olunur, məhsulların davamlı inkişafı və müştərilərin bu transformasiyaya uyğunlaşması isə daha geniş miqyasda dayanıqlı biznes təcrübələrinin formalaşmasına xidmət edir. Bu yanaşma ABB üçün dayanıqlılığın uzunmüddətli dəyər yaradılmasının əsas prinsipi kimi möhkəmlənməsini təmin edir.

2.2.1 Ekoloji

2.2.1.1 İllik ekoloji izimiz

ABB olaraq ətraf mühitə birbaşa təsirlərimizin qiymətləndirilməsi məqsədilə sistemli monitorinq mexanizmlərini tətbiq etməyə başlamışıq. 2025-ci ildə ətraf mühit izimizin azaldılması istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirmiş, dayanıqlılıq hədəflərimizə və korporativ dəyərlərimizə uyğun olaraq biznes strategiyamızı və əməliyyat fəaliyyətimizi ətraf mühit üzrə öhdəliklərimizlə uzlaşdırmışıq.

Məsuliyyətli istehlak

Bank tərəfindən maliyyələşdirilən müxtəlif sektorların və bizneslərin ətraf mühitə birbaşa və dolayı təsirlərinin mövcudluğu nəzərə alınır. Bu kontekstdə, neft, qaz, nəqliyyat və digər enerji tutumlu sənaye sahələri ilə müqayisədə bank sektorunun, o cümlədən ABB-nin ətraf mühitə təsirinin nisbətən məhdud olduğu qəbul edilsə də, Bank öz əməliyyat fəaliyyətinin yaratdığı təsirlərə xüsusi diqqət yetirir.

Bu baxımdan, tullantıların həcmi, su və yanacaq sərfiyyatı, əməkdaşların gündəlik gediş-gəlişi və işgüzar səfərlərin ətraf mühitə olan təsirləri sistemli şəkildə nəzərə alınır və onların minimuma endirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Resurslardan səmərəli istifadə, enerji səmərəliliyinin artırılması, binaların, serverlərin və İT infrastrukturunun ətraf mühit üzrə müvafiq tələblərə uyğunluğunun təmin edilməsi ABB-nin dayanıqlı inkişaf prioritetlərinin əsas istiqamətlərindəndir. Bu yanaşma həm resurs istehlakının azaldılmasına, həm də tullantıların minimallaşdırılmasına töhfə verir.

Enerji istifadəsi və istixana qazları emissiyaları üzrə ABB benzin, dizel və təbii qaz kimi yanacaq növlərinin istifadəsi ilə bağlı göstəriciləri mütəmadi təhlil edir və nəticələrə uyğun olaraq optimallaşdırıcı tədbirlər həyata keçirir. Bu tədbirlər çərçivəsində, o cümlədən, nəqliyyat parkında hibrid avtomobillərdən istifadənin genişləndirilməsi sərfiyyatın və emissiyaların azaldılmasına yönəlmiş əsas təşəbbüslərdən biri kimi tətbiq olunur.

Bu barədə daha ətraflı məlumat üçün Cədvəl 4-ə baxın.

Cədvəl 4. Yanacaq növləri üzrə ümumi sərfiyyat

Göstəricilər	2023	2024	2025
Dizel (ton)	208	208	164.64
Bir işçiyə düşən dizel (ton)	0.06	0.05	0.04
Benzin (ton)	246	258	220
Bir işçiyə düşən benzin (ton)	0.07	0.06	0.05
Təbii qaz (min. m^3)	441	517	515.5
Bir işçiyə düşən təbii qaz (min. m^3)	0.13	0.13	0.126

Daha dəqiq rəqəmlərin əldə olunması məqsədilə elektrik sərfiyyatının hesablanmasında tətbiq olunan tariflər, eləcə də Əhatə dairəsi-2 emissiyalarının hesablanması üçün istifadə edilən emissiya faktorları yenilənib.

Cədvəl 5-ə Əhatə dairəsi-1 (Scope 1) və Əhatə dairəsi-2 (Scope 2) emissiyaları daxil olmaqla Bankın karbon izi daxildir:

- Əhatə dairəsi-1-ə həm mülkiyyətdə olan, həm də icarəyə götürülmüş nəqliyyat vasitələrinin emissiyaları daxildir.
- Əhatə dairəsi-1-ə mülkiyyətdə olan və ya nəzarət edilən sahədə istifadə olunan elektrik enerjisindən emissiyalar daxildir.

Cədvəl 5. Ümumi istixana qazları emissiyaları və elektrik enerjisi istifadəsi

Göstəricilər	2023	2024	2025
Əhatə dairəsi-1 Yanacaqla işləyən avtomobillərdən yaranan istixana qazları emissiyaları (tCO_2 eq)	2,322	2,526	2,277
Əhatə dairəsi-2 Elektrik enerjisi istifadəsindən yaranan istixana qazları emissiyaları (tCO_2 eq)	4,479	5,051	5,405
Ümumi emissiyalar (tCO_2 eq)	6,801	7,577	7,682
Elektrik enerjisi sərfiyyatı, kWh	9,341,979	10,535,093	11,274,629
Bir işçiyə düşən elektrik enerjisi sərfiyyatı, kWh	2,674	2,700	2,767

2024-cü illə müqayisədə ümumi istixana qazları (GHG) emissiyalarımız 1.4% artmış, işçi başına düşən ümumi GHG emissiyaları isə 13.4% azalmışdır. Bu artımın əsas səbəbi, ABB-nin biznes fəaliyyətlərinin genişlənməsi və əməliyyat gəlirlərinin artması ilə əlaqədardır. Biznesin böyüməsi nəticəsində əməliyyat xərclər də artmış, bu da enerji istifadəsinin və dolayısı ilə emissiyaların çoxalmasına gətirib çıxarmışdır.

Dizel sərfiyyatı, benzin sərfiyyatı və təbii qaz sərfiyyatı hesabat ilində ötən ilə nisbətdə ardıcıl olaraq 21%, 15% və 0.3% azalmışdır. Bununla yanaşı, işçibaşına düşən dizel, benzin və qaz sərfiyyatı 2025-ci ildə 2024-cü illə müqayisədə müvafiq olaraq, təxminən, 24.4%, 18.5% və 4.5 azalıb.

Dizel sərfiyyatındakı azalma əsasən inkassasiya fəaliyyətində istifadə olunan dizel mühərrikli nəqliyyat vasitələri üzrə logistika proseslərinin optimallaşdırılması ilə əlaqədardır. Regional inkassasiya mərkəzlərinin yaradılması marşrutların qısaldılmasına və nəticə etibarilə yanacaq sərfiyyatına qənaət edilməsinə imkan vermişdir.

Benzin sərfiyyatındakı azalma isə nəqliyyat parkının optimallaşdırılması və mərhələli şəkildə hibrid nəqliyyat vasitələrinə keçidlə bağlıdır. Bu dəyişikliklər, həmçinin yeni filialların açılması fonunda nəqliyyat strukturunun yenidən qurulması ilə müşayiət olunmuşdur. Son illərdə bankda həyata keçirilən yenidənqurma və genişlənmə layihələri enerji istifadəsinə və texniki infrastrukturun inkişafına mühüm təsir göstərmişdir.

Yeni MXS-lərin istifadəyə verilməsi və mövcud MXS-lərdə aparılan təmir-tikinti işlərindən sonra quraşdırılan isitmə-soyutma və havalandırma sistemlərinin gücünün artması enerji tələbatını artırmışdır. Bu dəyişikliklər, iş mühitinin daha komfortlu və effektiv idarə olunmasına imkan yaratmışdır.

Bununla yanaşı, Baş ofisin ilk binasında dizel yanacağı ilə işləyən qızdırıcı avadanlıqların demontaj edilməsi və yeni Baş ofis binasında təbii qazla işləyən qazanxanada əlavə qurğuların quraşdırılması həyata keçirilmişdir. Bu dəyişikliklər həm enerji səmərəliliyinin artırılmasına, həm də daha ekoloji cəhətdən təmiz həllərə keçidin təmin olunmasına xidmət etmişdir.

Eyni zamanda, Bank üzrə işçi sayının artması texniki avadanlıqların, xüsusilə kompüter və printer kimi qurğuların sayının çoxalmasına səbəb olmuşdur ki, bu da texnoloji infrastrukturun gücləndirilməsinə və iş proseslərinin daha səmərəli təşkilinə töhfə vermişdir.

Qeyd olunan amillərin hər biri 2025-ci ildə təbii qaz və elektrik enerjisi istehlakının 2024-cü illə müqayisədə artmasına birbaşa təsir göstərmişdir. Yeni və gücləndirilmiş isitmə-soyutma sistemlərinin istismara verilməsi, işıqlandırma üzrə tarif dəyişiklikləri, qazla işləyən qazanxana qurğularının istifadəsi, əlavə inzibati sahələrin fəaliyyətə başlaması, eləcə də işçi sayının artması ilə əlaqədar texniki avadanlıqların sayının çoxalması ümumi enerji istehlakının yüksəlməsinə səbəb olmuşdur.

Su istehlakı

Azərbaycan Dünya Ehtiyatları İnstitutu tərəfindən orta və yüksək səviyyəli su stressi riski olan ölkələr sırasında qiymətləndirilmişdir ki, bu da su ehtiyatlarının ölkə üçün strateji əhəmiyyətini bir daha vurğulayır. Banklar iqtisadiyyatda əsas su istehlakçıları olmasalar da, onların fəaliyyəti su təchizatına dolayı təsirlər göstərə və təbii hidroloji sistemlərə, kənd və şəhər ərazilərində suyun mövcudluğuna, eləcə də əhalinin sağlamlığına təsir edə bilər. Hazırda Bankın su təminatı şəhər su şəbəkəsi və üçüncü tərəf təchizatçılar vasitəsilə həyata keçirilir. Gələcək mərhələdə isə istifadə edilmiş suların təkrar istifadəsi və dövriyyəsi üzrə həllərin, o cümlədən suyun geri qazanılması sistemlərinin və birləşdirilmiş istilik və enerji qurğularının tətbiqi nəzərdə tutulur.

2025-ci ildə ABB üzrə ümumi su istehlakı və bir işçiyə düşən su sərfiyyatı 2024-cü illə müqayisədə müvafiq olaraq 18% və 13% artmışdır. Bu artım əsasən ofis binalarının sayının çoxalması və işçi heyətinin genişlənməsi ilə əlaqədardır. Əməliyyat fəaliyyətinin miqyasının böyüməsi məişət və texniki suya olan tələbatın artmasına səbəb olmuşdur.

ABB-nin su istehlakı ilə bağlı əlavə məlumat üçün Cədvəl 6-a baxın.

Cədvəl 6. Su sərfiyyatı

Göstəricilər	2023	2024	2025
İstifadə olunan həcm, m^3	41,979	39,412	46,413
Bir işçiyə düşən istifadə olunan həcm, m^3	12	10	11.4

Tullantıların idarə edilməsi

ABB tullantıların azaldılması və təkrar emal səylərinin gücləndirilməsini öz fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Rəqəmsallaşma, mobil bankçılıq və onlayn xidmətlərə qoyulan investisiyalar həm əməkdaşlar, həm də müştərilər tərəfindən kağız istehlakının azalmasına töhfə vermişdir. Eyni zamanda, zəruri sənədlərin əldə edilməsi üçün tətbiq olunan elektron sistemlər çap xərclərini və ofis tullantılarının həcmini azaltmağa imkan yaratmışdır. Bankın ofislərində kağız və plastik tullantılar üçün ayrıca qutular quraşdırılmış, toplanan tullantılar təkrar emala yönləndirilmişdir. Ümumi tullantı növlərinə kağız, ofis avadanlıqları, kartriclər, batareyalar və floresan lampalar daxildir.

Bununla yanaşı, 2025-ci ildə ABB üzrə tullantıların ümumi həcmi, bir işçiyə düşən tullantı göstəricisi və ümumi ofis kağızı və karton sərfiyyatı 2024-cü illə müqayisədə müvafiq olaraq 73%, 66% və 15,5% artmışdır. Bu artım bir neçə əsas amillə izah olunur. 2024-cü ildə tullantıların utilizasiyası üzrə tariflərdə baş vermiş dəyişikliklər və artımlar statistik göstəricilərə birbaşa təsir göstərmişdir. Eyni zamanda, ofis binalarının sayının çoxalması, işçi heyətinin genişlənməsi, yeni filialların açılması və müştəri portfelinin davamlı artımı əməliyyat fəaliyyətinin həcmini genişləndirmiş, nəticədə tullantıların və ofis materiallarına olan tələbatın yüksəlməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, 2024-cü ildə baş vermiş tarif dəyişikliyi ilə əlaqədar olaraq 2024-cü il üzrə göstəricilər yenidən hesablanmış və bu məlumatlar Cədvəl 7-də əks etdirilmişdir.

ABB-nin tullantıları ilə bağlı əlavə məlumat üçün Cədvəl 7-ə baxın.

Cədvəl 7. Tullantılar

Göstəricilər	2023	2024	2025
Tullantı, ton	998	713.5	1.232
Bir işçiyə düşən tullantı, tonla	0.29	0.18	0.3
Ümumi ofis kağızı və karton göstəriciləri, AZN	898,225	501,775	579,448

ABB-nin məsuliyyətli bankçılıq prinsipləri üzrə öhdəlikləri aşağıdakı əsas istiqamətləri əhatə edir:

- **Uyğunlaşma:** Biznes strategiyasını Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM), habelə müvafiq beynəlxalq və milli çərçivələrə uyğunlaşdırmaqla fərdin və cəmiyyətin ehtiyaclarına töhfə vermək.
- **Təsir və hədəflərin müəyyənləşdirilməsi:** Mənfi təsirləri azaltmaq, insanlar və ətraf mühit üçün riskləri idarə etmək və eyni zamanda müsbət təsirləri davamlı şəkildə artırmaq; bu məqsədlə prioritet hədəfləri müəyyənləşdirmək və onları ictimaiyyətə açıqlamaq.
- **Müştərilər:** Dayanıqlılıq təcrübələrinin təşviqi, cari və gələcək nəsillər üçün ortaq rifah yaradan iqtisadi fəaliyyətlərin dəstəklənməsi məqsədilə müştərilərlə məsuliyyətli əməkdaşlıq etmək.
- **Maraqlı tərəflər:** Sosial məqsədlərə nail olmaq üçün müvafiq maraqlı tərəflərlə fəal və məsuliyyətli şəkildə məsləhətləşmələr aparmaq, tərəfdaşlıqları inkişaf etdirmək.
- **İdarəetmə və mədəniyyət:** Effektiv korporativ idarəetməni və məsuliyyətli bankçılıq mədəniyyətini

təşviq etmək və möhkəmləndirmək.
- **Şəffaflıq və hesabatlılıq:** Şəffaflıq və hesabatlılıq prinsiplərini müsbət sosial-iqtisadi təsirlərin artırılmasına yönəlmiş təşəbbüslərə sistemli şəkildə inteqrasiya etmək.

2.2.1.2 ABB-nin ESİ ilə bağlı fəaliyyətləri

1. ABB-nin iştirakı ilə 31,000-dən çox ağac əkilmişdir

ABB Azərbaycan Banklar Assosiasiyasının Bakının Müşfiqabad qəsəbəsində təşkil etdiyi ağacəkmə aksiyasında iştirak edib.

Aksiya Azərbaycan Respublikasının Mərkəzi Bankı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyası və Azərbaycan Fintex Assosiasiyası arasında imzalanmış müvafiq "Anlaşma Memorandumu" əsasında təşkil olunub.



Aksiya Müşfiqabad qəsəbəsində meşə massivinin salınması məqsədilə ayrılmış sahədə keçirilib. Ağacəkmə 50 hektar sahədə aparılıb və ümumən 31 150 ağac əkilib. Müvafiq qurumların, o cümlədən ABB-nin maliyyə dəstəyi ilə ərazidə damla-sulama sistemi də qurulub.

2. ESİ işçi qrupunun yaradılması


2025-ci ildə ABB-də Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə (ESİ) gündəliyinin daha sistemli və institusional şəkildə idarə olunmasını təmin etmək məqsədilə ESİ üzrə İşçi Qrupu yaradılmışdır. Bu təşəbbüsün əsas məqsədi ESİ amillərinin Bank üzrə vahid çərçivədə inteqrasiyasını təmin etmək, bu sahədə həyata keçirilən fəaliyyətlərin əlaqələndirilməsini gücləndirmək və şöbələrarası koordinasiyanı daha səmərəli şəkildə qurmaq olmuşdur.

İşçi Qrupu Bankın əsas funksional istiqamətlərini təmsil edən komandaların iştirakı ilə formalaşdırılmışdır. Qrupa strategiya, risklərin idarə edilməsi, korporativ biznes, anderraytinq və insan resursları (HR) üzrə mütəxəssislər cəlb olunmuşdur ki, bu da ESİ məsələlərinin həm strateji, həm də əməliyyat səviyyəsində vahid yanaşma ilə idarə olunmasına imkan yaradır.

İşçi Qrupunun yaradılması ilə ESİ mövzuları təkcə ayrı-ayrı təşəbbüslər səviyyəsində deyil, Bankın qərarvermə proseslərinə, məhsul inkişafına və risklərin qiymətləndirilməsinə sistemli şəkildə inteqrasiya olunmağa başlanmışdır. Bu yanaşma ABB-də dayanıqlılıq gündəliyinin daha ardıcıl, koordinasiyalı və ölçülə bilən nəticələrə yönəlmiş şəkildə inkişaf etdirilməsinə zəmin yaratmışdır.

3. Kağızsız filial

Filiallarımızda kağızsız filial təşəbbüsünün bir hissəsi kimi, kağız istifadəsi ehtiyacı aradan qaldırılmaqla kredit prosesinin tamamilə rəqəmsallaşdırılması mümkün olmuşdur. Bu keçid, əməliyyatları sürətləndirməklə yanaşı, ABB-nin ətraf mühitə olan öhdəliyinə də uyğun gəlir, bizim karbon izimizi ciddi dərəcədə azaldır. Müştərilərə təqdim olunan xidmətlərin keyfiyyətini artıraraq onların fiziki kanallara olan ehtiyacını aşağı salır. ABB rəqəmsal kredit və əmanət məhsullarının təklif olunması ilə fiziki sənəd dövriyyəsinin azaldılmasına zəmin yaradıb. Belə ki, 2025-ci ildə filiallarda ümumi əməliyyatların 90%-ni fiziki sənədsiz proseslər təşkil etmişdir. Fiziki sənədsiz proseslərə kreditlərin verilməsi, kartların sifarişi, əmanətlərin yerləşdirilməsi və hesabların açılması zamanı istifadə olunan kağızların həcmi daxildir. 2025-ci ildə 2024-cü illə müqayisədə kağızdan istifadə kredit verilməsi zamanı 96.3%, kartların sifarişi zamanı 91.3%, əmanətlərin yerləşdirilməsi zamanı isə 80.4% azalmışdır.




4. Ərizələrin elektronlaşdırılması

ESİ çərçivəsində "Yaşıl ABB" strategiyamıza əsasən iş proseslərini rəqəmsallaşdırmağa davam edirik. Əməkdaşlarımız artıq bütün ərizə formalarını (əmək məzuniyyəti, əvəzgün, təhsil məzuniyyəti və s.) daxili platforma üzərindən yarada bilərlər. Bununla yanaşı, əməkdaşların işdən ayrılma prosesində təhvil-təslim proseduru tam rəqəmsallaşdırılaraq kağız sənədləşmədən istifadə təcrübəsinə son qoyulmuşdur. Yeni sistem sayəsində bütün mərhələlər elektron platforma üzərindən izlənilir, təsdiqlənir və sənədləşdirilir, bu da prosesi daha sürətli, şəffaf və effektiv edir. Rəqəmsallaşdırma əməliyyat xərclərinin azaldılması, mexaniki səhvlərin minimuma endirilməsi və ekoloji baxımdan kağız israfının qarşısının alınması kimi bir sıra üstünlüklər təmin edir.

Bu addım kağız istehlakını azaltmaqla yanaşı, iş proseslərinin sürətlənməsinə və optimallaşdırılmasına böyük töhfə verəcək. Ölçülmüş səmərəlilik dəyərini rəhbər tutaraq kağıza qənaət etmək və eyni zamanda əməkdaşlarımızın iş prosesini daha səmərəli etmək əsas məqsədlərimizdəndir.

5. Karbon izi kalkulyatoru

Ölkəmizin ev sahibliyi etdiyi COP29-un əsas bank tərəfdaşı olan ABB iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verəcək maraqlı bir imkanı müştərilərə təqdim edib. Bu, ABB mobile tətbiqinə əlavə olunmuş Karbon izi kalkulyatorudur. Bu kalkulyator vasitəsilə istifadəçilər hər bir kart əməliyyatlarının ətraf mühitə təsirlərini izləyə bilərlər. ABB bu imkanı pərakəndə bankçılıq sahəsində iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə vermək məqsədilə yaradılmış "Ecolytiq" platformasının təqdim etdiyi texnologiya əsasında yaradıb. "Ecolytiq" dünyanın aparıcı maliyyə qurumlarının, o cümlədən Visa-nın etibarlı tərəfdaşıdır. ABB də mobil bank tətbiqində Karbon izi kalkulyatorunu Visanın dəstəyi ilə təqdim edir. Hər bir bank əməliyyatı ətraf mühit üçün müəyyən təsirlərlər yaradır. Bank müştəriləri gündəlik maliyyə əməliyyatlarında bunu nəzərə alaraq karbon izlərini nəzarətdə saxlaya və daha uyğun seçimlərlə karbon izlərini mümkün qədər azalda bilərlər.



2025-ci ildə ABB-nin Karbon izi kalkulyatoru müştərilərin ekoloji məlumatlılığını artırmaq və dayanıqlı istehlakı təşviq etmək istiqamətində əhəmiyyətli nəticələr göstərmişdir. Karbon izləməni aktiv edən müştəri sayı 35 min nəfərə çatmışdır ki, bu da getdikcə daha çox müştərinin ekoloji izini izləməyə maraq göstərdiyini nümayiş etdirir. Ümumilikdə, 7 milyondan çox tranzaksiya üzrə karbon izi hesablanmışdır. Bu, müştərilərin maliyyə əməliyyatları zamanı ekoloji təsirlərini nəzərə alaraq daha məlumatlı qərarlar qəbul etdiyini göstərir. ABB, Karbon izi kalkulyatoru vasitəsilə müştərilərini ekoloji məsuliyyətli davranışlara təşviq etməyə və dayanıqlı inkişafı dəstəkləməyə davam edir.

6. SOCAR-ın "Yaşıl" istiqrazları ABB mobile tətbiqində

ABB özünün törəmə müəssisəsi olan "ABB İnvest" şirkəti vasitəsilə daha bir investisiya fürsətini ABB mobile tətbiqi üzərindən əlçatan edib. SOCAR-ın "Yaşıl" istiqrazlarını da ABB mobile tətbiqi vasitəsilə, heç yana getmədən, əvvəldən sona tam rəqəmsal təcrübə ilə, cəmi bir neçə toxunuşla və komissiyasız əldə etmək imkanı yaradılıb.



2.2.2 Sosial

2.2.2.1 Cəmiyyətə töhfə

Korporativ Sosial Məsuliyyət (KSM)

ABB-nin Korporativ Sosial Məsuliyyət (KSM) siyasəti Bankın iş prinsipləri və korporativ dəyərləri ilə tam uzlaşır və uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi cəmiyyətin gələcəyinə töhfə vermək niyyətini əks etdirir. Bu siyasət çərçivəsində ABB sosial təsirin yaradılması, onun ölçülməsi və qiymətləndirilməsinin əhəmiyyətini qəbul edir və KSM yanaşmasının Bankın korporativ mədəniyyətinə effektiv şəkildə inteqrasiyası üçün yüksək rəhbərliyin fəal dəstəyini və iştirakını vacib hesab edir.

Eyni zamanda, ABB maraqlı tərəflərin cəlbi üzrə qabaqcıl təcrübələri tətbiq edərək cəmiyyətə və ətraf mühitə mümkün mənfi təsirlərin qarşısının alınmasına və ya minimuma endirilməsinə, eləcə də cəmiyyət üçün dayanıqlı sosial dəyərlərin yaradılmasına və təşviqinə yönəlmiş fəaliyyətlər həyata keçirir. Bankın KSM siyasəti ISO 26000 standartının tələblərinə, şəffaflıq, hesabatlılıq, korporativ etika, qanunun aliliyi və insan hüquqlarına hörmət kimi fundamental prinsiplərə əsaslanır. Bununla yanaşı, siyasət çərçivəsində məsuliyyətli maliyyələşmə və tərəfdaş şirkətlərin fəaliyyətinin potensial ekoloji təsirləri də nəzərə alınır.

ABB 200,000,000 dollarlıq sindikativ kredit cəlb etdi

ABB xarici maliyyə bazarlarında iştirakını genişləndirən uğurlu bir anlaşma əldə edib. 21 aprel 2025-ci il tarixində Bank Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində, Mashreqbank-ın ofisində 200,000,000 ABŞ dolları dəyərində sindikativ kredit müqaviləsi imzalayıb.

Sindikativ kredit Masreqbank-ın təşkilatçılığı, Abu-Dabi Kommersiya Bankının agent bank rolu ilə BƏƏ, Almaniya, Avstriya, İsveçrə və Böyük Britaniyaya aid 12 maliyyə institutundan cəlb edilib. Əqdin müddəti gələcəkdə uzadılma imkanı ilə 12 aydır. Bu, ABB-nin uzun illər sonra beynəlxalq maliyyə bazarlarına yenidən qayıdışıdır.



İmzalanma tədbirində ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov, Mashreqbank-ın Baş İcraçı direktoru (CEO) Ahmed Abdelaal və hər iki bankın digər rəhbər şəxsləri, eləcə də sindikasiyaya qoşulmuş müvafiq maliyyə institutlarının rəhbər təmsilçiləri iştirak edib.

ABB-nin bir neçə illik fasilədən sonra xarici maliyyə bazarlarına qayıdışı Bankın biznesi maliyyələşdirmə potensialını gücləndirir, likvidlik mövqeyinə, gəlirliliyinə müsbət təsir göstərir. Xarici bazarlarda ABB-yə olan yüksək inam uzunmüddətli vəsaitlərin cəlbinə, Bankın investor sayının və regional əhatəliliyinin genişlənməsinə imkan yaradır.

ABB Dünya İqtisadi Forumu ilə tərəfdaşlığa başlayıb

ABB Dünya İqtisadi Forumu (Davos Forumu) ilə tərəfdaşlığa başlayıb. Belə bir tərəfdaşlıq ABB-nin beynəlxalq əlaqələrini daha da gücləndirir. Bank təmsilçiləri 2025-ci ildə Forumun dünyanın müxtəlif ölkələrində keçirdiyi tədbirlərdə iştirak edib, müzakirələrə qatılıb, yeni tərəfdaşlarla, o cümlədən investorlarla işgüzar əlaqələr qurublar. Dünya İqtisadi Forumunun nümayəndələri Azərbaycana səfər çərçivəsində ABB-nin Baş ofisində də görüş keçiriblər. Onlara Bankın fəaliyyəti, strateji hədəfləri, son illər reallaşdırdığı uğurlu layihələr haqqında məlumat verilib. Gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. ABB-nin Forumla tərəfdaşlıqdan faydalanmaq imkanları, dünyadakı digər böyük bankların bu sahədə təcrübələri və s. mövzular ətrafında müzakirələr aparılıb. Görüş zamanı ABB-nin Dünya İqtisadi Forumu ilə tərəfdaşlığına dair sənəd də imzalanıb.

Davos Forumu adı ilə məşhur olan Dünya İqtisadi Forumu 1971-ci ildən keçirilir. Onun əsas məqsədi dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, biznes qurumlarını, sahibkarları bir araya gətirmək, yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir.

Forum dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsir imkanlarına malikdir. Burada irəli sürülən yeni fikirlər, təşəbbüslər qlobal iqtisadiyyata istiqamət verir. Azərbaycan Dünya İqtisadi Forumunda 1995-ci ildən fəal şəkildə təmsil olunmaqdadır.



2025-ci ildə ABB-nin Dünya İqtisadi Forumu ilə nail olduğu strateji töhfələr

2025-ci il ərzində ABB Dünya İqtisadi Forumunun müxtəlif təşəbbüslərində fəal və sistemli şəkildə iştirak edərək, həm qlobal müzakirələrə töhfə vermiş, həm də Azərbaycanın və Bankın mövqeyini beynəlxalq platformalarda gücləndirib. Bu fəaliyyətlər ABB-nin texnologiya, maliyyə, risklərin idarə olunması, innovasiya və dayanıqlı inkişaf sahələrində qlobal gündəliyə inteqrasiyasını təmin edib.

ABB-nin Forum çərçivəsində iştirak etdiyi əsas tədbir və təşəbbüslər aşağıdakılardır:

Əsas tədbirlər:

- Sənaye Strategiyası üzrə Görüş (Industry Strategy Meeting)
- Qlobal Texnologiya Strateji Görüşü (Global Technology Retreat)
- Maliyyə Direktorları İcmasının Görüşü (Chief Financial Officer Community Meeting)
- Yeni Çempionların İllik Toplantısı (Annual Meeting of New Champions)
- Yeni Çempionların Debrifinq Sessiyası (Annua Meeting of the New Champions Debrief)
- AIGA – Sənayelərin Məsuliyyətli Tətbiqi və Transformasiyası: Süni Intellekt üzrə İdarəetmə Alyansı İşçi Qrupu (AIGA Responsible Application and Transformation of Industries: AI Governance Alliance Working Group)
- Kvant Dövründə Kriptoqrafiya mövzusu üzrə müzakirələr (Cryptography in the Quantum Era)
- Kvant İqtisadiyyatı Şəbəkəsi – Vebinar seriyası (Quantum Economy Network)
- Ən Yaxşı 10 Yeni Yaranmaqda olan Texnologiyalar (Top 10 Emerging Technologies)
- Sənayelərin AI ilə Transformasiyası – İşçi Qrupu (İstedad və Təşkilat) (AI Transformation of Industries: Working Group (Talent & Org)
- Sənayelərin AI ilə Transformasiyası – İşçi Qrupu (İnsan – AI əməkdaşlığı) (AI Transformation of Industries: Working Group (Human & AI Collaboration)
- Maliyyə Sektorunda Qadınlar İcmasının Görüşü (Women in Finance Community Meeting)
- Dünya İqtisadi Forumunun Davos İllik Toplantısı 2026 (World Economic Forum Annual Meeting 2026)

Bununla yanaşı, ABB Forumun analitik və tədqiqat gündəliyinə də birbaşa töhfə vermişdir.

- "Böhrandan sabitliyə: Azərbaycanın iqtisadi və maliyyə dayanıqlılığına aparan 10 illik yolu" mövzusundan məqalə

(Forumun platformasında dərc olunmuşdur).

MINDS proqramı (AI transformasiyası)

ABB tərəfindən iki müraciət təqdim edilmişdir:

- Rəqəmsal bankçılıq üçün AI əsaslı Virtual Assistent
- Bankçılıqda hiper-fərdiləşdirmə (hyper-personalization) üzrə AI həlli

WEF üçün müsahibə

"Maliyyə xidmətlərində Süni İntellekt" mövzusunda WEF-in tədqiqatı üçün ABB tərəfindən müsahibə təqdim edilmişdir. Bu töhfə WEF-in maliyyə sektorunda AI-nin miqyaslanması üzrə qlobal tədqiqat işinə daxil edilmişdir.

2025-ci ildə ABB Dünya İqtisadi Forumunun qlobal platformalarında fəal iştirak etməklə, təkcə tədbirlərdə təmsil olunmaqla kifayətlənməmiş, eyni zamanda analitik məqalələr, tədqiqat töhfələri və süni intellekt üzrə beynəlxalq təşəbbüslərlə qlobal gündəliyin formalaşmasına real töhfə vermişdir. Bankın risklərin idarə olunması, süni intellektin tətbiqi, innovasiya və startap ekosistemi üzrə mövqeyi WEF çərçivəsində həm məqalələr, həm də proqram müraciətləri vasitəsilə beynəlxalq səviyyədə təqdim edilmişdir.

Bu fəaliyyətlər ABB-nin yalnız regional deyil, eyni zamanda qlobal miqyasda strateji düşünən, texnologiya və innovasiya gündəliyinə aktiv şəkildə töhfə verən maliyyə institutu kimi mövqeyini daha da möhkəmləndirmişdir.

ABB, Dünya İqtisadi Forumunun sənaye strategiyası toplantısında və EBRD-nin illik görüşündə təmsil olunub

ABB, Dünya İqtisadi Forumunun Londonda keçirilən Sənaye Strategiyası Toplantısında (Industry Strategy Meeting 2025) Davos Forumunun rəsmi tərəfdaşı qismində iştirak edib. Bankı bu nüfuzlu tədbirdə ABB-nin İdarə Heyəti sədrinin müavinləri – Baş maliyyə inzibatçısı Nəbi Əliyev və Baş risk inzibatçısı Aqşin Əmirov təmsil ediblər. Toplantı sənaye liderlərini, dövlət qurumlarını, akademik dairələri, vətəndaş cəmiyyəti nümayəndələrini və innovasiya icmalarını bir araya gətirərək "Biznesin intellektual gələcəyinin formalaşdırılması" mövzusu ətrafında fikir mübadiləsi üçün mühüm platforma rolunu oynayıb. Eyni zamanda, ABB Londonda keçirilən Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) illik toplantısında da təmsil olunub. Bu tədbirdə də Bankı İdarə Heyəti sədrinin müavinləri – Baş maliyyə inzibatçısı Nəbi Əliyev və Baş risk inzibatçısı Aqşin Əmirov iştirak ediblər. Görüşlərdə EBRD və digər beynəlxalq maliyyə institutları ilə mövcud əməkdaşlığın genişləndirilməsi və yeni birgə layihələrin həyata keçirilməsi imkanları

müzakirə olunub. EBRD-nin toplantısı regional əməkdaşlıq və dayanıqlı inkişaf baxımından beynəlxalq əhəmiyyətə malik platforma hesab olunur. ABB isə bu kimi qlobal platformalarda fəal iştirak etməklə innovasiya, dayanıqlı inkişaf və strateji tərəfdaşlıqların təşviqinə ardıcıl və məqsədyönlü töhfə verməyə davam edir.



ABB rəhbərliyi Özbəkistanda işgüzar səfərdə olub

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda işgüzar səfərdə olub. ABB təmsilçiləri səfər çərçivəsində Özbəkistanın Baş nazirinin müavini Cəmşid Xocayev, İnvestisiya, sənaye və ticarət naziri Ləziz Qüdrətov, Özbəkistan Mərkəzi Bankının sədr müavinləri Behzod Həmrəyev və Abror Mirzəalimovla, eləcə də bu ölkədə fəaliyyət göstərən müxtəlif bankların, şirkətlərin rəhbərləri ilə görüşlər keçiriblər.



Görüşlərdə ölkənin maliyyə ekosistemi, Özbəkistanın aparıcı banklarının və mövcud fintek şirkətlərinin fəaliyyəti, sektorun digər əsas oyunçuları ilə bağlı müzakirələr aparılıb. ABB-nin Özbəkistanın maliyyə institutları ilə əməkdaşlıq imkanları dəyərləndirilib, gələcəkdə bu bazarda iştirak perspektivlərinə nəzər salınıb, Bankın ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına verə biləcəyi mümkün töhfələrə diqqət yönəlib.

Qlobal şirkətin rəhbərliyi ABB-də qonaq olub

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov elastik qablaşdırma sənayesində dünya lideri - qlobal "UFlex Limited" Group şirkətinin Azərbaycanda səfərdə olan rəhbər heyəti ilə görüşüb. İdarə Heyətinin sədri qonaqlara ABB-nin fəaliyyəti, ölkə iqtisadiyyatındakı yeri və rolu, həyata keçirdiyi layihələr barədə ümumi məlumat verib. Öz növbəsində, UFlex şirkətinin təsisçi və CEO-su Ashok Chaturvedi də Azərbaycana səfərin məqsədləri barədə danışıb. Yaxın gələcəkdə şirkətin Ələt Azad İqtisadi Zonasında investisiya planları barədə ətraflı məlumat verib, ABB ilə bu sahədə və digər biznes istiqamətlərində real tərəfdaşlıq perspektivləri müzakirə edilib. Böyük paketləmə məhsullarının istehsalı ilə məşğul olan UFlex 1983-cü ildən fəaliyyətdədir, baş ofisi Yeni Dehli şəhərində yerləşir. Şirkətin Hindistanda, Birləşmiş Ərəb Əmirliklərində, Meksikada, Polşada, Misirdə, ABŞ-da, Rusiyada, Macarıstanda Nigeriyada törəmə istehsal müəssisələri var. Belə böyük bir şirkətin ABB-nin maliyyə tərəfdaşlığı ilə Ələt Azad İqtisadi Zonasında ixracyönümlü məhsulların istehsalı üçün investisiya qoyması ölkəmizdə qeyri-neft sektorunun inkişafına mühüm töhfədir.

ABB "Qarabağ" Futbol Klubunun rəsmi tərəfdaşıdır

Ölkəmizdə idmanın inkişafına ardıcıl kömək göstərən ABB bu istiqamətdə daha bir addım atıb. Korporativ sosial məsuliyyət siyasəti çərçivəsində Bank "Qarabağ" Futbol Klubunun rəsmi tərəfdaşı olub. ABB Klubun fəaliyyətini dəstəkləyir, onun daha böyük uğurlar qazanmasına töhfə verir.

Tərəfdaşlıq razılaşması ölkəmizdə uşaq futbolunun inkişafına qarşılıqlı köməyi, o cümlədən uşaqlar üçün futbol məktəbinin yaradılması kimi birgə layihələri də əhatə edir. Klubla tərəfdaşlıq ABB brendinin, Bankın məhsul və xidmətlərinin daha da tanınmasına müsbət təsir göstərəcək.



"Qarabağ" Futbol Klubu ötən əsrin 50-ci illərindən fəaliyyətdədir. Bu illər ərzində Klub Azərbaycana parlaq qələbələr qazandıraraq futbol tariximizdə bir çox ilklərə imza atıb.

Qeyd edək ki, ABB "Qarabağ" Futbol Klubundan başqa, Azərbaycan Boks Federasiyasının, Azərbaycan Voleybol Federasiyasının, Azərbaycan Basketbol Federasiyasının da rəsmi tərəfdaşıdır.

ABB-nin öz korporativ sosial məsuliyyət siyasətində idmana xüsusi yer verməsində əsas məqsəd ölkəmizdə idmanın populyarlaşması və kütləviləşməsidir.

ABB-dən Zəfər Günü ilə bağlı sosial kampaniya

ABB 8 Noyabr Zəfər Gününə özəl olaraq sosial məsuliyyət yönümlü keşbek kampaniyası keçirib. 1-15 noyabr 2025-ci il aralığında ABB-nin kartları ilə ödəniş edən müştərilərin qazandıqları keşbekin 10 AZN-ə qədər olan hissəsini Bank öz hesabına YAŞAT Fonduna ianə edib.



Müştərilər ABB mobile tətbiqindəki "Paket seçimi" bölməsində "Zəfər paketi"ni aktivləşdirərək bu kampaniyaya qoşulublar. Beləliklə, onlar həm özləri keşbek qazanıblar, həm də YAŞAT Fonduna ianələrin edilməsinə dəstək olublar.

Rəşid Behbudovun itmiş rəsmi ABB-nin dəstəyi ilə yenidən yaradılıb

2025-ci ilin dekabrında Azərbaycanın görkəmli musiqi xadimi Rəşid Behbudovun anadan olmasının 110 ili tamamlandı. Bu əlamətdar gün münasibətilə ABB-nin dəstəyi ilə Azərbaycan Milli İncəsənət Muzeyində Rəşid Behbudova həsr olunmuş "Səsin rəngi" sərgisi keçirilib.

Tədbirdə mədəniyyət naziri Adil Kərimli, ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov, Milli Məclisin deputatları, ölkəmizin görkəmli mədəniyyət və incəsənət xadimləri iştirak edib. Sərgidə dünyanın ayrı-ayrı ölkələrindən olan rəssamların Rəşid Behbudova həsr etdikləri sənət əsərləri nümayiş olunub.

Sərginin ən maraqlı əsərlərindən biri Rəşid Behbudovun 1992-ci ildə Şuşada itmiş məşhur rəsmi olub. Azərbaycanın xalq rəssamı Asəf Cəfərovun 1975-ci ildə çəkdiyi "Rəşid Behbudov" tablosu Azərbaycan rəngkarlıq sənətinin incilərindən sayılırdı. Rəsm Rəşid Behbudovun 60 illik yubileyi münasibətilə çəkilmiş, 1982-ci ildə görkəmli sənətkarın ata yurdunda - Şuşada Rəsm Qalereyası açılanda əsər Qalereyaya hədiyyə edilmişdi. Tablo Şuşa Rəsm Qalereyasının daimi ekspozisiyasında təqdim olunurdu.



Əfsuslar olsun ki, 1992-ci ildə Şuşanın işğalı zamanı Azərbaycanın bir çox mədəni dəyərləri kimi "Rəşid Behbudov" rəsmi də talan edildi və yoxa çıxdı. Əsərin tapılması üçün aparılan axtarışlar heç bir nəticə verməd.

2025-ci ildə unudulmaz sənətkarın 110 illik yubileyi münasibətilə ABB-nin təşəbbüsü əsasında Azərbaycanın əməkdar rəssam Natiq Səfərov "Rəşid Behbudov" əsərini eyni şəkildə yenidən yaradıb. ABB əsəri Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş Şuşa Rəsm Qalereyasına hədiyyə verəcək.

ABB-nin dəstəyi ilə Bakı Caz Festivalı

24 oktyabr 2025-ci ildə Bakıda növbəti dəfə Bakı Caz Festivalına start verilib. Bu mühüm mədəniyyət tədbiri ABB-nin tərəfdaşlıq dəstəyi ilə keçirilib. 2025-ci ildə həm də Bakı Caz Festivalının 20 illik yubileyi olub. 2005-ci ildə tanınmış saksofon ifaçısı və bəstəkar Rain Sultanovun əsasını qoyduğu Bakı Caz Festivalı bu illər ərzində mədəniyyətlər və caz ənənələri arasında körpüyə çevrilib.



Festival 31 oktyabra qədər davam edib. Bu günlər ərzində Bakıda dünyanın tanınmış caz musiqiçilərinin çıxışları olub. Festival çərçivəsində açıq məkanlardan tutmuş kamera salonlarına qədər bir çox məkanlarda konsertlər, sərgilər, cem-sessiyalar, film nümayişləri, ustad dərsləri və seminarlar təşkil edilib. Festivalda həmçinin Böyük Britaniya və İsveçrənin tanınmış musiqi bloqçuları ilə görüşlər, caz üzrə beynəlxalq ekspertlərlə müzakirələr paneli keçirilib.

Festivalda sağlamlıq imkanları məhdud gənclər üçün xüsusi ustad dərsləri və konsertlər də təşkil edilib.

ABB binasında Libraff

ABB-nin törəmə şirkəti olan "ABB İnvest" investisiya şirkətinin və Bankın "Cəfər Cabbarlı" filialının binasının açılışı olub. Bina Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 40C ünvanında yerləşir.

ABB-nin yeni korporativ simasına uyğun qurulmuş binadakı ən maraqlı yeniliklərdən biri burada kitab mağazasının da olmasıdır. Bank "Cəfər Cabbarlı" filialı daxilində "Libraff" mağazalar şəbəkəsinin yeni satış mərkəzinin açılmasına şərait yaradıb. Beləliklə, ABB müştəriləri "Cəfər Cabbarlı" filialında həm Bankın məhsul və xidmətlərindən yararlana, həm də yeni nəşrlərlə tanış olub kitablar ala bilərlər. Bu, bir korporativ sosial məsuliyyət layihəsidir. Binanın açılışı tədbirində ABB və "Libraff" rəhbərliyi ilə yanaşı, ölkəmizin tanınmış yazarlarından bir neçəsi də iştirak edib.



Unudulmaz ədibimiz Cəfər Cabbarlının adını daşıyan bank filialında həm də kitab mağazasının olması Bankın vətəndaşlıq məsuliyyəti dəyərindən irəli gəlir. ABB müştərilərdə yeni təcrübələr formalaşdırır, innovativ texnologiyaları onların həyatının mərkəzinə gətirir. Eyni zamanda kitab oxumaq kimi ənənəvi vərdişlərin də qorunaraq inkişaf etdirilməsinə çalışır. Belə maraqlı layihələr cəmiyyətimizdə faydalı meyllərin yayılıb populyarlaşmasına kömək göstərir.

ABB-nin dəstəyi ilə Azərbaycanın uşaq futbol komandası beynəlxalq turnirdə 4-cü olub

İspaniyanın Madrid şəhərində "Real Madrid Foundation World Challenge" turniri keçirilib. Burada 18 ölkədən uşaq futbol komandaları yarışıb. ABB-nin baş sponsorluğu ilə turnirdə ikinci dəfə Azərbaycan komandası da təmsil olunub. Bütün oyunlar "Real Madrid" futbol klubunun Akademiyası ərazisindəki meydançalarda keçirilib. Azərbaycanı təmsil edən U12 komandası yarımfinala yüksələrək turnirdə 26 komanda arasında 4-cü yeri tutub.

Turnirə qatılan bütün komandalar ayrı-ayrı ölkələrdə reallaşdırılmış "Real Madrid Foundation Clinic" proqramı əsasında seçilib. 2024-cü ilin iyununda bu proqram ölkəmizdə də ikinci dəfə reallaşdırılıb. ABB-nin baş sponsorluğu, Visa və Epoint şirkətlərinin tərəfdaşlıq dəstəyi ilə həyata keçirilən proqram çərçivəsində "Sabis Sun International School"un ərazisində futbol düşərgəsi təşkil edilib. Ən güclü oyunçular seçilərək "Azerbaijan Footland" komandası formalaşdırılıb.

ABB-nin dəstəyi ilə "Şuşa baharı"

ABB mədəniyyət paytaxtımız olan Şuşada keçirilən Novruz tədbirlərinə baş bank sponsoru kimi dəstək verib. Tədbirlər çərçivəsində Şuşanın "Güllü bağ" deyilən ərazisində əl işlərinin, qida məsullarının satışa çıxarıldığı yarmarka təşkil edilib, musiqili çıxışlar olub. Şəhərin mərkəzi meydanında konsert keçirilib. Bundan başqa, Şuşanın "Tut bağı" adlanan məkanında milli geyimlər, kəlağayılar nümayiş etdirilib, Qarabağ şirniyyatları satılıb. 1 saylı Şuşa tam orta məktəbində teatr tamaşası nümayiş olunub. Belə tədbirlərin təşkilində məqsəd zəngin tarixi-mənəvi irsə, təbii resurslara malik Şuşanın turizm imkanlarından istifadə, şəhərə turist axınının dəstəklənməsidir. ABB bu cür layihələrdə fəal iştirak etməklə Qarabağın dirçəlişinə öz töhfələrini verir.



ABB "2025 WMF Dünya Kuboku"na tərəfdaşlıq dəstəyi verib

21 may 2025-ci ildə Bakıda kişi milli mini-futbol komandaları arasında dünya çempionatı - "2025 WMF Dünya Kuboku" start götürüb. Ölkəmizdə idmanın inkişafına və kütləviləşməsinə dəstək verən ABB də dünya çempionatının tərəfdaşlarından olub. Çempionatın bütün oyunları paytaxtımızdakı Milli Gimnastika Arenasında baş tutub. Çempionatda 8 qrup üzrə 32 komanda yarışıb. Dünya çempionatı 1 iyuna qədər davam edib və Azərbaycanın milli mini-futbol komandası turnirin qalibi olub.

Zərdab filialına info-tur

ABB 20 jurnalist üçün Bankın Zərdab filialına press-tur təşkil edib. Onlara regionlarda Bankın müştərilərə təqdim etdiyi xidmət və məhsullar haqqında ətraflı məlumat verilib, sualları cavablandırılıb. Milli Mətbuatımızın 150 illik yubileyi ilə əlaqədar olaraq səfər çərçivəsində jurnalistlər Həsən bəy Zərdabinin Zərdabdakı xatirə muzeyini də ziyarət ediblər.

ABB rəhbərliyinin dayanıqlılıq ilə bağlı mətbuat konfransı



ABB-nin 2024-cü il üzrə Dayanıqlı İnkişaf Hesabatının və maliyyə göstəricilərinin maraqlı tərəflərə təqdim olunması. İctimaiyyəti maraqlandıran sualların cavablandırılması üçün ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov mətbuat konfransı keçirib.

ABB-nin dəstəyi ilə Agile sammiti

25 noyabr 2025-ci ildə "Agile Azərbaycan" Beynəlxalq Sammiti keçirilib. "Sabahı formalaşdırmaq: təsir üçün çeviklik, süni intellekt və data!" devizi altında keçirilən tədbirdə Azərbaycanın iş dünyasının liderləri, müxtəlif qurumların təmsilçiləri, Agile-a, süni intellektə və data texnologiyalarına maraq göstərən hər kəs bir araya gəlib. Agile metodologiyasını bir neçə ildir ki, uğurla tətbiq edən, eyni zamanda süni intellekt və data texnologiyalarından da geniş şəkildə faydalanan ABB sammitə əsas tərəfdaş kimi dəstək verib.



Tədbirin məqsədi Azərbaycandakı müxtəlif qurumları Agile-ın üstünlükləri ilə tanış etmək, ölkəmizdə bu yeni iş mədəniyyətini yaymaq, həmçinin süni intellekt və data texnologiyaları ilə bağlı təcrübələri paylaşmaq olub. Belə bir sammit daha innovativ, çevik və dayanıqlı iş tərzini mənimsəmək üçün imkanlar yaradır.

Xarici ölkələrdən dəvət edilmiş mütəxəssislər Agile, süni intellekt və data sahəsində ən son yeniliklər haqqında məlumat verib, beynəlxalq təcrübəni bölüşüblər. Tədbirdə ABB-nin son illər müvafiq sahələrdə əldə etdiyi təcrübə barədə də ətraflı məlumatlar təqdim olunub.

"Hyper Automation Club (AI, Machine Learning, RPA)" layihəsinin açılışı olub

ABB vətəndaşlıq məsuliyyəti dəyərini rəhbər tutaraq gənclərin inkişafına yönəlmiş layihələr həyata keçirir, ali təhsil müəssisələri ilə aktiv əməkdaşlıq qurur. Bu istiqamətdə növbəti əməkdaşlığımız Bakı Ali Neft Məktəbi (BANM) ilə reallaşdırıb. Tərəfdaşlıq çərçivəsində "Hyper Automation Club (AI, Machine

Learning, RPA)" layihəsinə start verilib. İştirakçılara RPA istiqamətində nəzəri biliklərlə yanaşı, praktik bacarıqların inkişafına yönəlmiş sistemli və tətbiqi təlimlər təqdim olunub.



Proqramı uğurla tamamlayan iştirakçılar ABB-də fəaliyyət göstərən RPA komandasında təcrübə keçmək imkanı əldə ediblər. Bu isə onların qazandıqları bilikləri real iş mühitində tətbiq etmələrinə, peşəkar inkişaflarını sürətləndirmələrinə və sahə üzrə dəyərli praktik təcrübə əldə etmələrinə şərait yaradıb.

ABB-nin dəstəyi ilə ADA Universitetində "Karyera Həftəsi" keçirilib



ABB-nin tərəfdaşlıq dəstəyi ilə ADA Universitetində təşkil olunmuş "Karyera Həftəsi"nə 20-dən çox qurum qatılıb. Tələbələr bu qurumların təmsilçilərinin iştirakı ilə maraqlı təqdimatlar dinləyib, gələcək karyera həyatları üçün faydalı məlumatlar alıblar.

ABB-nin dəstəyi ilə uşaqlar üçün iqtisadiyyat kitabı təqdim edilib

ABB uşaqların erkən yaşlardan iqtisadiyyat sahəsində bilik və bacarıqlara yiyələnməsi məqsədilə daha bir layihəni uğurla həyata keçirib. Bank polyak yazıçı Qjeqoj Kasdepkenin bu sahədə məşhur kitabını Azərbaycan dilində nəşr etdirib. 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində kitabın təqdimatı olub.

"Pul kisəsi və orada yaşayan qəribə məxluqlar" adlı bu kitab körpə yaşlı uşaqların iqtisadi anlayışları rahatlıqla mənimsəyə bilmələri üçün misilsiz vəsaitdir. Əsər iqtisadiyyat haqqında bir-birini tamamlayan 51 hekayədən ibarətdir. Burada iqtisadi terminlərin başına gələn əhvalatlar nağıl dilində nəql edilir, bu yolla həmin sözlərin mahiyyəti asanlıqla öyrədilir və yadda qalır. Balaca oxucular kitabda investisiya, büdcə, qazanc, ödəniş kartı, debit, kredit, taksit, marja, ÜDM və s. bu kimi anlayışların izahı ilə ətraflı tanış ola bilərlər. Kitab uşaq kitabxanalarına hədiyyə edilib.



Q.Kasdepkenin bu kitabı ilk dəfə 2015-ci ildə Polşada nəşr olunub və müxtəlif dillərə tərcümə edilib. 10 ildir ki, dünyanın ayrı-ayrı ölkələrində uşaqlar bu kitabı böyük maraqla oxuyurlar.

ABB kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri layihəsini "Teas Press" Nəşriyyyat Evi ilə tərəfdaşlıq əsasında həyata keçirib. Kitab ölkəmizdəki kitabxanalara, təhsil müəssisələrə hədiyyə edilib.

ABB Qarabağ Universitetinin 45 tələbəsinə təqaüd ayırıb

2 iyun 2025-ci ildə Xankəndidə Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu keçirilib. Tədbir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Qarabağ Dirçəliş Fondunun, Təhsilin İnkişafı Fondunun, Azərbaycan Təhsil İşçiləri Həmkarlar İttifaqının, Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.



Forum çərçivəsində ABB ilə Təhsilin İnkişafı Fondu arasında təqaüd proqramına dair əməkdaşlıq sənədi imzalanıb. Anlaşmaya əsasən, Bank Qarabağ Universitetinin yüksək təhsil nailiyyətləri olan 45 tələbəsinə illik təqaüd ayırıb. Təqaüd 2025-2026-cı tədris ilində Qarabağ Universitetinə qəbul olunaraq burada təhsil alan gənclərə ayrılıb.

Forum çərçivəsində "Gələcəyin Qarabağı üçün birgə addımlar" konsept mesajı ətrafında panel müzakirələri təşkil edilib. Panel müzakirələrindən biri də Qarabağda dövlət-özəl tərəfdaşlığı imkanlarına həsr olunub.

Müzakirələrdə ABB-nin İdarə Heyəti sədrinin müavini Taleh Tahirli də çıxış edib. O, Qarabağ regionunda innovasiyalar və startap ekosisteminin inkişafı üçün birgə tərəfdaşlıq əsasında görülməli olan işlər barədə danışıb. ABB-nin təcrübələrini bölüşərək Bankın bu sahədə inkişaf proseslərinə verə biləcəyi töhfələri diqqətə çatdırıb.

ABB Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinə tərəfdaşlıq dəstəyi verib

31 avqust – 5 sentyabr 2025-ci ildə Azərbaycanda 49-cu Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Dünya Finalı keçirilib. Ölkəmizdə rəqəmsallaşma proseslərinə fəal dəstək verən ABB də Azərbaycan Banklar Assosiasiyası çərçivəsində bu mühüm qlobal tədbirin tərəfdaşı olub.

Müsabiqə "ICPC Foundation"-ın təşkilatçılığı və ADA Universitetinin ev sahibliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankının tərəfdaşlığı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə "ICPC Azərbaycan" icmasının birgə əməkdaşlığı, Paşa Holdinqin dəstəyi ilə təşkil edilib.

Dünya Finalında 70-dən çox ölkəni təmsil edən 140-a yaxın universitet komandası yarışıb. Beş günlük müsabiqə çərçivəsində gənc proqramçılar problem həll etmə, komanda işi və proqramlaşdırma bacarıqlarını nümayiş etdiriblər.



Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin Dünya Finalında Azərbaycanı ADA Universitetinin və Bakı Ali Neft Məktəbinin (BANM) komandaları təmsil edib.

ABB UNEC-lə birgə "Data və süni intellekt sertifikasiya proqramı"nı təqdim edib

İstedadlara, gənclərin fərdi və karyera inkişafına davamlı dəstək göstərən ABB bu istiqamətdə daha bir layihəyə start verib. Bank Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə birgə "Data və süni intellekt sertifikasiya proqramı"nı təqdim edib. ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimovun və UNEC-in rektoru Ədalət Muradovun iştirakı ilə Universitetdə proqramın təqdimatı olub.



ABB-nin UNEC-lə birgə hazırladığı bu layihə universitet-biznes əməkdaşlığının xoş bir nümunəsidir. "Data və süni intellekt sertifikasiya proqramı"nın məqsədi ölkəmizin əmək bazarı üçün bu sahədə peşəkar kadrların yetişdirilməsidir. Proqramda iştirak üçün xüsusi seçim prosedurları əsasında UNEC-dən 22 tələbə seçilib. ABB-nin dəstəyi ilə onlara Universitetdə xüsusi dərslər tədris olunub. Bankda data və süni intellekt sahəsində çalışan

peşəkar mütəxəssislər həmin tələbələrə dərs deyiblər. Proqramda yüksək səy göstərərək sertifikasiyadan uğurla keçmiş tələbələrin ABB-də bu sahə üzrə işə qəbulu imkanlarına da baxılıb.

Təqdimat tədbirindəki çıxışı zamanı Bankın İdarə Heyətinin sədri Abbas İbrahimov ABB-nin son 3 ildə data və süni intellekt istiqamətinə ciddi sərmayə qoyduğunu, 160-dan çox generativ və prediktiv modeli uğurla tətbiq etdiyini və bu modellərin Bank üçün 30 milyon AZN-dən çox müsbət maliyyə təsiri yaratdığını diqqətə çatdırıb: "Süni intellekt ölkələrin gələcək inkişafının əsas drayverinə çevrilir. ABB olaraq qürur duyuruq ki, süni intellekt həllərini ölkəmizə ilk gətirən və bu sahəni sürətlə inkişaf etdirən biznes qurumlarından biriyik. İnanıram ki, tələbələrin proqramdakı uğurları öz gələcəklərinə də, ölkəmizdə rəqəmsal transformasiya proseslərinə də ciddi töhfə verəcək" Abbas İbrahimov bildirib.

ABB-nin tərəfdaşlığı ilə İlin İş Adamı seçildi

Azərbaycanda altıncı dəfə "EY İlin İş Adamı" müsabiqəsi keçirilib. ABB 6-cı dəfə ardıcıl olaraq müsabiqəyə tərəfdaşlıq dəstəyi verib. 20 fevral 2025-ci ildə JW Marriott Absheron otelində təşkil edilmiş təntənəli mərasimdə qalib elan edilib. Müsabiqənin əsas qalibi Princeps Legem şirkətinin rəhbəri Gülbəniz Məmmədova olub.



ABB-nin dəstəyi ilə türk dövlətlərinin biznes liderləri Bakıda bir araya gəldi

2025-ci ilin fevralında Bakıda ilk dəfə olaraq "Türk İnvestisiya Fondu və Türk Ticarət və Sənaye Palataları Birliyinin (TCCI) biznes liderləri ilə məlumatlandırma görüşü" keçirilib.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının təşkil etdiyi görüşə ABB də dəstək verib. Belə bir görüşün məqsədi sahibkarlara Türk İnvestisiya Fondunun fəaliyyəti haqqında məlumat vermək, onlara Fondun imkanlarından faydalanmaqda dəstək olmaqdır.



Tədbirdə energetika, infrastruktur, texnologiya, kənd təsərrüfatı, logistika, turizm və s. sektorlara investisiya imkanları barədə təqdimatlar olub. O cümlədən, Türk Ticarət və Sənaye Palataları Birliyinə üzv ölkələrdə biznes və investisiya imkanları mövzusunda təqdimatlar dinlənilib. Həmçinin Birliyin Qadın Sahibkarlar Şurasının fəaliyyəti haqqında məlumatlar təqdim edilib.

Tədbir çərçivəsində Türk İnvestisiya Fondu ilə Türk Ticarət və Sənaye Palataları Birliyi arasında anlaşma memorandumu imzalanıb. Memorandum gələcək əməkdaşlıq perspektivlərini nəzərdə tutur.

Tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubaniçbek Omuraliyev, Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Türk İnvestisiya Fondunun prezidenti Bağdad Əmrəyev, TCCI təşkilatına üzv ölkələrin ticarət palatalarının rəhbərləri, bu dövlətlərin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri də iştirak edib.

ABB SIBOS 2025 beynəlxalq konfransında

29 sentyabr-02 oktyabr 2025-ci il tarixlərində Almaniyanın Frankfurt şəhərində SIBOS 2025 beynəlxalq konfransı keçirilib. Konfrans "Qlobal maliyyənin yeni sərhədləri" mövzusuna həsr edilib.

Beynəlxalq maliyyə dünyasının ən böyük və mühüm kommunikasiya platformalarından olan tədbirdə ABB də öz stendi ilə təmsil olunub. Bankın İdarə Heyətinin sədri Abbas İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti tədbir müddətində iştirakçılara ABB-nin fəaliyyəti haqqında məlumat verib, bir sıra mühüm görüşlər keçirilib, əməkdaşlıq perspektivləri müzakirə olunub.

ABB nümayəndə heyətinin Citibank, The Bank of New York Mellon, JP Morgan, Commerzbank, Raiffeisen Bank, Zürcher Kantonalbank, Intesa Sanpaolo Bank, ABN AMRO Bank, Türkiye İş Bankası, AktivBank, Ziraat Bank, Abu Dhabi Commercial Bank, Sumitomo Mitsui Banking Corporation və digər maliyyə qurumlarının təmsilçiləri ilə görüşləri olub.



ABB nümayəndələri maliyyə texnologiyaları, süni intellekt, data, maliyyə inklüzivliyi və s. ilə bağlı müxtəlif tədbirlərdə də iştirak edərək ölkə bankçılığında tətbiq etmək üçün yeni, faydalı təcrübələrlə tanış olublar.

Ənənəvi SIBOS konfransının təşkilatçısı Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyətidir (SWIFT). Tədbir hər il dünyanın iri bank və maliyyə qurumlarının nümayəndələrini bir araya gətirir, maliyyə sektorundakı innovativ trendlərin izlənməsi, yeni bankçılıq təcrübə və texnologiyaları ilə tanışlıq imkanları yaradır, işgüzar əlaqələrin qurulmasına kömək göstərir. SIBOS 2025 oktyabrın 2-dək davam edib.

ABB-dən nəqliyyat sektoru ilə bağlı hesabat



ABB maraqlı tərəflər üçün araşdırma-hesabatların hazırlanmasını davam etdirir. Bankın növbəti araşdırması Azərbaycanın nəqliyyat sektoruna həsr olunub. Hesabatda yük və sərnişin daşımaları üzrə gəlir və xərclərin ümumi tendensiyasına diqqət yönəlib. Yük növləri üzrə daşınmanın, keyfiyyət göstəricilərinin təhlili aparılıb. Nəqliyyat vasitələrinin idxalı və bu sahəyə investisiyalar, nəqliyyat vasitələrinin sayı, bu sektorda çalışan əhali sayı, nəqliyyat vasitələrinin əvvəlki il ilə müqayisədə qiymət dinamikası ilə bağlı məlumatlar diqqətə çatdırılıb.

Araşdırma-hesabatda Bakı şəhərinin Baş planında nəqliyyat şəbəkəsi, beynəlxalq tıxac statistikası, Zəngəzur dəhlizinin iqtisadi perspektivləri ilə bağlı da zəngin məlumatlar var. Bankın malik olduğu datalar əsasında ictimaiyyət üçün bu cür faydalı araşdırma-hesabatların hazırlanması bir çox xarici bankların geniş istifadə etdiyi təcrübədir. Azərbaycanda bu təcrübəni ilk dəfə məhz ABB tətbiq edib.

2.2.2.2 Müştəriyönümlü yanaşma

ABB müştərilərinin ehtiyac və gözləntilərini daim nəzərə alaraq müştəriyönümlü strategiyanı fəaliyyətinin mərkəzində saxlayır. Bank rəqəmsal transformasiya, innovativ məhsullar və yüksək xidmət keyfiyyəti vasitəsilə daha rahat və əlçatan maliyyə həlləri təqdim edir. Müştəri məmnuniyyəti və loyallığının artırılması məqsədilə fərdiləşdirilmiş xidmətlər, çevik kommunikasiya kanalları və istifadəçi dostu rəqəmsal platformalar inkişaf etdirilir. ABB müştəriləri ilə etibarlı və uzunmüddətli münasibətlər quraraq onların maliyyə məqsədlərinə çatmasında etibarlı tərəfdaş kimi çıxış etməyə davam edir.

"ABB-Qarabağ" kobrend kartı buraxılır



ABB ilə "Qarabağ" Futbol Klubu arasında memorandum imzalanıb. Bu anlaşma "ABB-Qarabağ" kobrend kartının yaradılmasını nəzərdə tutur. İmzalanma tədbirində sənədə ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov və "Qarabağ" Futbol Klubunun prezidenti Tahir Gözel imza atıb. Tədbirdə "ABB-Qarabağ" kobrend kartının dizaynı da nümayiş etdirilib. Kart yaxın aylarda premium və standart növdə bazara təqdim olunacaq,

müştərilər üçün bir sıra üstünlüklər yaradacaq. Belə ki, kart sahibləri kobrend kartlarla bağlı qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq oyunçularla görüşlər, komandanın oyunlarını stadionun xüsusi zonasında izləmək imkanı, ödənişlər zamanı əlavə keşbeklər, müxtəlif ticarət və xidmət məkanlarında xüsusi endirimlər və s. bu kimi imtiyazlar qazanacaqlar.



ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov "ABB-Qarabağ" kobrend kartının "Qarabağ" azarkeşlərində doğma komanda ilə bağlılığı daha da artıracağını bildirib: "Bu kartla hər əməliyyat insanlarımıza "Qarabağ" coşğusunu yaşadacaq, onların gündəlik həyatına xoş bir dəyər qatacaq. Bu kart ABB-nin öz müştəriləri ilə, "Qarabağ" Futbol Klubunun isə öz azarkeşləri ilə kommunikasiya mədəniyyətində də yeni bir səhifə açacaq". "Qarabağ" Futbol Klubunun prezidenti Tahir Gözel qeyd edib: "ABB ilə tərəfdaşlığımız bu ilin yay aylarından başlanıb və qısa müddət ərzində real məzmun qazanıb. "ABB-Qarabağ" kobrend kartı azarkeşlərimiz üçün gündəlik həyatda istifadə olunan, eyni zamanda kluba bağlılıq hissini gücləndirən praktik bir alət olacaq".

ABB rəhbərliyi Naxçıvanda işgüzar səfərdə olub

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdə olub. Səfər zamanı İdarə Heyətinin sədri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovla görüşüb, regionun sosial-iqtisadi inkişafında ABB-nin iştirakına, bu sahədə imkan və perspektivlərə dair müzakirələr aparılıb. Abbas İbrahimov ABB-nin bölgədəki əsas biznes tərəfdaşlarından olan "Cahan Holdinq", "Ləzzət MMC", o cümlədən "Sirab" şirkətlərinin istehsal müəssisələrinə də baş çəkib, Bank rəhbərliyinə ABB-nin maliyyə dəstəyi ilə həyata keçirilən biznes layihələri barədə ətraflı məlumatlar təqdim olunub, yeni biznes təşəbbüsləri dəyərləndirilib.



Qeyd edək ki, ABB son illərdə Naxçıvana təxminən 100 milyon manata yaxın kredit qoyuluşu edib. Bunun 65%-dən çoxu məhz biznes kreditləridir. Bu da regionda sahibkarlığın, istehsalın və məşğulluğun inkişafına birbaşa dəstək deməkdir.

İdarə Heyətinin sədri həmçinin yeni ünvanda fəaliyyət göstərən Naxçıvan filialının işi ilə tanış olub, filial əməkdaşları ilə işgüzar şam yeməyi formatında da görüş keçirilib, onların rəy və təklifləri dinlənilib.

Mastercard nümayəndələri Bankımızın qonağı oldu

Mastercard Türkiyə və BƏƏ ofislərindən layihə və region menecerləri ABB-yə ziyarət edərək məhsuldar bir görüş keçiriblər. Belə ki, görüş zamanı Mastercard və ABB-nin birgə əməkdaşlığı ilə ərsəyə gələcək yeni kart məhsulu təqdim olunub və bu innovativ məhsulun üstünlüklərindən bəhs edilib.

"Salesforce" şirkətinin nümayəndələri ABB-nin qonağı oldu

"Salesforce" şirkətinin nümayəndə heyəti ABB-də olub. Müzakirələr zamanı "CRM"platformasının imkanları, innovativ həllər, süni intellektin tətbiqi və bankçılıq sahəsində yeni yanaşmalar kimi mövzulara diqqət yönəlib.

İdarə Heyətinin sədri VISA-nın regional prezidenti ilə görüşüb

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov VISA beynəlxalq ödəniş təşkilatının Mərkəzi və Şərqi Avropa, Orta Şərq və Afrika məkanına aid 80-dən çox ölkə üzrə regional prezidenti Tareq Muhmoodun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüş zamanı İdarə Heyətinin sədri qonaqlara ABB-nin son

illərdə rəqəmsallaşma sahəsindəki əsas nailiyyətləri, o cümlədən nağdsız ödənişlər, süni intellekt həllərinin tətbiqi, regional genişlənmə məqsədləri ilə bağlı Bankda görülən ardıcıl işlər haqqında məlumat verib. Bu sahədə əsas strateji hədəfləri diqqətə çatdırıb. ABB-nin uzunmüddətli tərəfdaşı olan VISA və eləcə də digər beynəlxalq ödəniş şirkətləri ilə müştərək fəaliyyətin önəmini vurğulayıb. Öz növbəsində, Tareq Muhmood da VISA-nın region ölkələri üzrə gələcək planları haqqında söhbət açıb. Regionun aparıcı maliyyə qurumlarından biri kimi ABB ilə tərəfdaşlığın əhəmiyyətini qeyd edib. Görüş zamanı ABB və VISA arasında əlaqələrin gələcək inkişaf perspektivləri müzakirə edilib. Xüsusilə, ABB-nin süni intellekt strategiyasının, regional genişlənmə planlarının həyata keçirilməsində, nağdsız ödəniş infrastrukturunun daha da inkişafında dəstək, yeni kart məhsullarının buraxılması və digər mümkün layihələr haqqında fikir mübadiləsi aparılıb.



ABB-nin bir qrup müştəriləri ilə Agile ofisdə görüş

ABB-nin məhsul və xidmətlərindən istifadə təcrübələrini mütəmadi şəkildə Bankla bölüşən bir qrup müştəri ilə görüş keçirilib. Bankın Agile ofisində təşkil edilmiş görüşdə müştərilər ABB-nin ayrı-ayrı sahələrinin fəaliyyəti ilə yaxından tanış olublar. Onlara, Bankın həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilib. Bəzi yeni məhsullar təqdim olunub. Müştərilər məhsul və xidmətlərlə bağlı faydalı rəylərini diqqətə çatdıraraq gələcək təkmilləşmə prosesləri üçün müəyyən təşəbbüslər irəli sürüblər. Onların suallarına aydınlıq gətirilib. Qeyd edək ki, məhsul və xidmətlərin hazırlanması, inkişaf etdirilməsi proseslərinin real müştəri təcrübələrinə əsaslanması, bu proseslərə müştərilərin də fəal şəkildə cəlb edilməsi Agile iş tərzinin əsas prinsiplərindəndir. Bunu nəzərə alaraq ABB müştərilərlə kommunikasiyaları daim inkişaf etdirir, müştərilərin gözləntilərini doğrultmaq üçün həyata keçirilən layihələrdə onların faydalı rəylərini nəzərə alır.



ABB Sahibkarlar Gününü müştəriləri ilə qeyd etdi

ABB 25 Aprel Sahibkarlar Günü münasibətilə sahibkar müştəriləri üçün tədbir keçirib. Tədbirdə Bankın 50-dən çox korporativ, kiçik və orta biznes müştərisi iştirak edib. Onlara ABB-nin bizneslər üçün yaratdığı yeni məhsul və xidmətlər haqqında geniş məlumat verilib. Bankın müxtəlif layihələri barədə maraqlı təqdimatlar olub. İş adamlarını maraqlandıran çoxsaylı suallar cavabandırılıb. Görüş işgüzar şam süfrəsi arxasında davam edib.



Beynəlxalq Mühasiblər günü ilə bağlı tədbir

10 Noyabr Beynəlxalq Mühasiblər Günü münasibətilə kiçik və orta sahibkarıq subyektlərinin mühasibləri, eləcə də bu subyektlərlə tərəfdaşlıq edən mühasiblər üçün geniş tədbir keçirilib. Onlara ABB-nin kiçik və orta biznes üçün nəzərdə tutduğu məhsul və xidmətlər təqdim olunub, çoxsaylı sualları cavablandırılıb.

Quba şəhərində tədbir

ABB Quba şəhərində rayondakı kiçik və orta sahibkarlıq müəssisələrinin də iştirakı ilə konsert tədbiri keçirib. Konsertdə rayondakı bir çox sahibkarlıq subyektləri öz stendləri ilə təmsil olunublar. Sahibkarlara ABB-nin məhsul və xidmətləri təqdim olunub. Onların müxtəlif sualları cavablandırılıb.





Sahibkar xanımlarla görüş

ABB 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə sahibkar qadınlarla görüş təşkil edib. Görüşdə sahibkar xanımlara ABB-nin məhsul və xidmətləri, Bankın iş adamlarına yaratdığı imkanlar təqdim olunub, onların sualları cavablandırılıb.



Sahibkar müştərilərlə görüş

ABB sahibkar müştərilərlə səhər yeməyi formatında silsilə görüşlər təşkil edib. Bu görüşlərdə onlara ABB-nin məhsul və xidmətləri, iş adamlarına yaratdığı imkanlar təqdim olunub, sualları cavablandırılıb.

Müştərilər rəqəmsal kiçik biznes sahəsi ilə tanış olublar

Müştərilərlə kommunikasiya və əməkdaşlığın inkişafı məqsədilə həyata keçirilən təşəbbüslər çərçivəsində Rəqəmsal kiçik biznes sahəsində xüsusi görüş təşkil olunub. Görüşdə ABB-nin müştəriləri olan bir qrup peşəkar mühasib iştirak edib. Onlar "ABB Biz" tətbiqinin potensial istifadəçiləridirlər. Görüş zamanı iştirakçılara "ABB Biz" mobil tətbiqinin funksionallıqları barədə ətraflı məlumat verilib, tətbiq üzərindən təqdimatlar və video-demolar nümayiş etdirilib. Əməkdaşlarımızın dəstəyi ilə müştərilər tətbiqə daxil olaraq qeydiyyatdan keçib real təcrübə qazanıblar. Tədbir zamanı mühasiblərin sualları cavablandırılıb, onları maraqlandıran məqamlara aydınlıq gətirilib. Görüşün sonunda 6 müştəri "ABB Biz" tətbiqinin daha dərindən test olunmasında iştirak etmək və "Dizayn area" ilə yaxından tanışlıq istəyini bildirib. Onlar, müştəri təcrübəsi üzrə mütəxəssislərlə birgə tətbiqin müxtəlif mərhələlərini sınaqdan keçiriblər. Bu təşəbbüs, istifadəçi təcrübəsinin gücləndirilməsi və məhsulun müştəri nəzərindən qiymətləndirilməsi baxımından uğurlu bir təcrübədir.



Müştəri məlumatlarının təhlükəsizliyi

ABB 2025-ci ildə vətəndaşların rəqəmsal ödənişlər və kiberdələduzluq risklərinə qarşı maarifləndirilməsini əsas fəaliyyət prioritetlərindən biri kimi müəyyən etmiş və bu istiqamətdə mütəmadi maarifləndirmə kampaniyaları həyata keçirmişdir. Bu təşəbbüslərin təsir dairəsini genişləndirmək məqsədilə Bank kampaniyalara tanınmış MMA döyüşçüsü Nazim Sadıxovu da cəlb etmişdir.

İnformasiya texnologiyalarının sürətli inkişafı və məlumatların getdikcə daha geniş miqyasda inteqrasiyası şəxsi və korporativ kommunikasiyaları, eləcə də bank əməliyyatları zamanı məlumat mübadiləsini daha sürətli və rahat etsə də, bu proses paralel olaraq yeni kiber risklərin yaranmasına səbəb olur. Fərdi məlumatların təhlükəsizliyi ilə bağlı risklərin artması müştərilərin narahatlığını artırır. Bu risklərin minimuma endirilməsi məqsədilə ABB İT sistemlərini davamlı olaraq yeniləyir və təkmilləşdirir, beynəlxalq kibertəhlükəsizlik standartlarını tətbiq edir və bu sahədə institusional nəzarət mexanizmlərini gücləndirir.



Bununla yanaşı, Bank bütün əməkdaşlar üçün məcburi olan qayda və təlimatlar toplusu hazırlamışdır. Daxili Audit daxili nəzarət strukturları tərəfindən həyata keçirilən nəzarət sisteminin effektivliyini qiymətləndirir.

Beynəlxalq fraud maarifləndirmə həftəsi



ACFE-nin təşəbbüsü ilə hər il dünyada fraud halları ilə bağlı məlumatlılığın artırılması məqsədilə Beynəlxalq fraud maarifləndirmə həftəsi (International Fraud Awareness Week) keçirilir. Bu həftə ərzində fraud risklərinin qarşısının alınması, təsirlərinin minimuma endirilməsi və əməkdaşların maarifləndirilməsi istiqamətində müxtəlif tədbirlər təşkil olunur. Beynəlxalq fraud maarifləndirmə həftəsi 16–22 noyabr 2025-ci il tarixlərini əhatə edib. Bu müddət ərzində fraud haqqında məlumatlılığın artırılması, mümkün halların aşkarlanması və qarşısının alınması, həmçinin mövcud məlumatvermə mexanizmlərindən düzgün istifadə bacarıqlarının gücləndirilməsi məqsədilə bir sıra maarifləndirici fəaliyyətlər həyata keçirilib.

Müştəri şikayətlərinin idarə edilməsi

Müştəri məmnuniyyətinin təmin edilməsi hər bir şirkətin rəqabətli bazar mühitində uğur qazanması üçün əsas amillərdən biridir. ABB bu prinsipi fəaliyyətinin mərkəzində saxlayır və müştəri müraciətlərinin, o cümlədən şikayət, rəy və təkliflərin effektiv şəkildə idarə olunmasına xüsusi önəm verir. Bu məqsədlə müxtəlif kanallar vasitəsilə daxil olan müraciətlərin qəbul edilməsi və emalı üçün vahid və inteqrasiya olunmuş sistem qurulub və bu sistem davamlı olaraq təkmilləşdirilir.

Banka daxil olan müştəri müraciətlərinin bütün xidmət kanalları — filiallar, çağrı mərkəzi, rəqəmsal platformalar və digər əlaqə nöqtələri üzrə vahid yanaşma əsasında operativ şəkildə cavablandırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və müştəri məmnuniyyətinin davamlı təmin olunması əsas prioritetlərimizdəndir. Müştərilər ABB-yə müraciətlərini şifahi və ya yazılı formada, o cümlədən filiallar, onlayn bankçılıq kanalları, sosial media platformaları və Bankın rəsmi internet saytı vasitəsilə təqdim edə bilirlər.

Müvafiq struktur tərəfindən müştəri şikayətlərinin daha effektiv idarə olunması istiqamətində aşağıdakı işlər görülmüşdür:

- Çercbek və ATM əməliyyatları ilə bağlı sorğuların ABB Mobile üzərindən qəbulu təmin edilmiş, bununla da müştərilərin müraciət kanalları genişləndirilmiş və xidmətə çıxış daha rahat hala gətirilmişdir;
- 14 növ sorğunun SİMA imzası vasitəsilə rəqəmsal kanallar üzərindən qəbulu tətbiq edilmiş, nəticədə müştərilərin MXS-ə (Müştəri Xidmətləri Şöbəsi) fiziki və ya canlı operator yönləndirməsinə ehtiyac əhəmiyyətli dərəcədə azalmışdır;
- Aylıq sorğuların təxminən 15%-nin RPA həlli vasitəsilə avtomatik e-mail emalı həyata keçirilmiş, bu isə müraciətlərin cavablandırılma sürətini və əməliyyat səmərəliliyini artırmışdır;
- 937 IVR xətti üzərində səsli bot istifadəyə verilmiş, standart sorğular üzrə avtomatlaşdırılmış cavablandırma və yönləndirmə imkanları genişləndirilmişdir;
- Nitq analitikası texnologiyasının tətbiqinə başlanılmış, çağrıların keyfiyyət göstəricilərinin analizi, xidmət davranışlarının optimallaşdırılması və müştəri məmnuniyyətinə təsir edən əsas faktorların daha effektiv müəyyən olunması təmin edilmişdir.

Bununla yanaşı, 2025-ci il ərzində müştərilər tərəfindən daxil olan irad və təkliflər MMİD tərəfindən sistemli şəkildə toplanaraq təhlil edilmiş, kök səbəblər müəyyən olunmuş və aidiyyəti struktur bölmələrə təkmilləşdirmə yönümlü təkliflər təqdim edilmişdir. Təkliflər üzrə müvafiq tədbirlər planı hazırlanaraq icrası təmin olunmuş, nəticədə proseslərdə və xidmət keyfiyyətində real yaxşılaşmalar əldə edilmişdir.

Eyni zamanda, müştəri təcrübəsinə daha çox təsir edən müraciətlər üzrə "Top Customer Incidents" yanaşması tətbiq edilmiş, prioritetləşdirilmiş problem sahələri üzrə operativ həll mexanizmləri qurulmuş və müvafiq texniki/proses təkmilləşdirmələri həyata keçirilmişdir.

Müştəri məmnuniyyətinin təmin edilməsi

Müştəri məmnuniyyətinin təmin edilməsi ABB üçün əsas prinsiplərdən biridir və bu yanaşma müştəri loyallığının gücləndirilməsinə, eləcə də Bankın davamlı inkişafına, ümumi uğurlarına töhfə verir. Universal bank kimi geniş məhsul və xidmət portfeli təqdim edən ABB müştərilərinə göstərilən xidmət keyfiyyətinə və onların məmnunluğuna xüsusi diqqət yetirir. Bütün xidmət kanalları üzrə yüksək səviyyəli müştəri təcrübəsinin təmin edilməsi məqsədilə müştərilərin ehtiyac və seçimlərinin öyrənilməsinə ciddi resurslar ayrılır, məhsul və xidmətlər davamlı şəkildə təkmilləşdirilir. Eyni zamanda, müştərilərin ehtiyaclarının daha dərindən anlaşılması və dəyər təklifinin optimallaşdırılması üçün mütəmadi olaraq sorğular keçirilir və məmnunluq göstəriciləri davamlı şəkildə izlənilir. Cədvəl 8-ə nəzər salın.

Cədvəl 8. Müştəri məmnunluğu səviyyəsi

Göstəricilər	2023	2024	2025
Müştəri məmnunluğu səviyyəsi, %	97.6	98.4	98.4



2.2.2.3 Əməkdaşyönümlülük

İnsan resurslarının idarə olunmasına olan yanaşmamız

ABB üçün insan kapitalı Bankın uzunmüddətli və dayanıqlı inkişafının əsas dayaqlarından biridir. Sektorun aparıcı işəgötürənlərindən biri kimi, Bank bütün əməkdaşlar üçün bərabər imkanların təmin edilməsinə və qarşılıqlı hörmətə, etimada əsaslanan dəstəkləyici iş mühitinin formalaşdırılmasına xüsusi önəm verir.


ABB davamlı istedad inkişafı və karyera yüksəlişi prinsiplərinə sadiqdir. Bankın əsas dəyərləri Müşahidə Şurası tərəfindən təsdiq edilmiş strategiya və Etik Kodeksdə, eləcə də İnsan resurslarının idarəedilməsi departamenti tərəfindən hazırlanmış daxili normativ sənədlərdə öz əksini tapmışdır. Bu sənədlərə işə qəbul proseslərinin tənzimlənməsinə dair Metodiki Göstərişlər, əmək münasibətlərinin tənzimlənməsinə dair Metodiki Göstərişlər, təlim işinin təşkili və aparılmasına dair Metodiki Göstərişlər daxildir.

Son beş il ərzində Bankın işçi qüvvəsinin davamlı artımı ABB-nin etibarlı və cəlbedici işəgötürən kimi mövqeyini daha da möhkəmləndirmişdir. Uzunmüddətli mükəmməllik Bankın strateji inkişaf planında əsas prioritetlərdən biri kimi qiymətləndirilir. ABB ədalətli əmək haqqı siyasəti, təlim və inkişaf imkanları, eləcə də performansın qiymətləndirilməsi mexanizmlərini əhatə edən insan resurslarının idarə edilməsi sistemini davamlı olaraq təkmilləşdirir. 2025-ci ildə qadın əməkdaşların sayında əvvəlki illə müqayisədə 5% artım qeydə alınmışdır. Əmək Məcəlləsinə uyğun olaraq, ABB-də əmək müqavilələrində əməkdaşların işdən azad edilməsi üçün nəzərdə tutulan bildiriş müddəti bir ay təşkil edir.

Cədvəl 9. Tam ştatda çalışan daimi işçilərin sayı

Göstəricilər	2023	2024	2025
Ümumi	3,494	3,902	4,074

Mülki-hüquqi müqavilə əsasında müvəqqəti cəlb edilmiş işçilərin ümumi sayı:
2025 - 11



Cədvəl 10. Bir işçiyə düşən ümumi təlim saatları

Göstəricilər	2023		2024		2025	
İşçilərin ümumi sayına nisbətdə	15.3		22.4		23	
Gender ● kişi ● qadın	14.9	16.5	24.4	19.6	22.67	23.07

Qeyd: Hesablama daimi işçilərin ümumi sayı nəzərə alınaraq aparılmışdır.

İşəqəbul

ABB İdarə Heyəti tərəfindən təsdiq edilmiş İşəqəbul Siyasətində müəyyən olunmuş prinsiplərə uyğun olaraq Bank işəqəbul prosesində sistemli və strukturlaşdırılmış yanaşma tətbiq edir. Bu yanaşmanın tərkib hissəsi kimi, 2022-ci ilin əvvəlində İnsan Resursları platforması istifadəyə verilmiş, onun çərçivəsində onlayn işə müraciət portalı yaradılmışdır. 2025-ci ildə platformanın funksionallığının genişləndirilməsi nəticəsində işəqəbul prosesi əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, nəticədə çoxsaylı namizədlərin ABB-nin işə müraciət portalından aktiv şəkildə istifadəsi təmin olunmuşdur.

ABB-də işəqəbul prosesləri bərabər imkanlar və ədalətli rəftar prinsipləri əsasında qurulmuşdur. İşəqəbul proseslərinin tənzimlənməsinə dair metodiki göstərişdə açıq şəkildə qeyd olunur ki, bütün namizədlər cinsinə, yaşına, irqinə, dininə, milliyyətinə, fiziki məhdudiyyətinə və ya qanunla qorunan hər hansı digər xüsusiyyətlərinə görə ayrı-seçkiliyə məruz qalmadan, yalnız peşəkar təcrübə və səriştələri əsasında qiymətləndirilir. Bu yanaşmanın institusional səviyyədə möhkəmləndirilməsi məqsədilə 2025-ci il ərzində Müxtəliflik, Bərabərlik və İnklüzivlik (DEİB) istiqaməti üzrə bir sıra məqsədyönlü təşəbbüslər həyata keçirilmişdir. Belə ki, fokus qruplarla görüşlər təşkil olunmuş, rəhbərlik səviyyəsində

xüsusi sorğular aparılmış, əldə edilən nəticələr ətraflı şəkildə təhlil edilmişdir. Bu proseslərin məntiqi davamı olaraq DEİB siyasətinin hazırlanmasına start verilmiş, eyni zamanda "Indigenous People" siyasəti və Gender siyasəti üzrə ayrıca normativ çərçivələrin formalaşdırılması istiqamətində işlərə başlanılmışdır. Bu təşəbbüslər Bankda daha inklüziv, ədalətli və dayanıqlı iş mühitinin qurulmasına xidmət edir.

Cədvəl 11. İşçilərin ümumi sayı

Yaşa qədər	2023	2024	2025
30 yaşa qədər	1,382	1,602	1,679
30-50 yaş	1,811	1,974	2,096
50 yaşdan yuxarı	301	326	299

İşçilərin ümumi sayı (regionlar üzrə)	2023	2024	2025
Bakı və Abşeron	2,837	3,213	3,415
Regional ofislər və filiallar	657	689	659

Həmkarlar İttifaqı üzvü olan əməkdaşlarımızın faiz nisbəti	2023	2024	2025
2025-ci il ərzində Həmkarlar İttifaqına üzv olan əməkdaşların sayının azalmasının əsas səbəbi, 2024-cü ildə üzv olan bəzi əməkdaşların 2025-ci ildə üzvlükdən imtina etməsi, eləcə də yeni işə qəbul olunan əməkdaşların könüllülük prinsipi əsasında Həmkarlar Təşkilatına üzv olmamasıdır.	56%	49%	44%


Cədvəl 12. Gendera görə aparılmış təsnifləşdirmə əsasında işə qəbul edilmiş işçilərin ümumi sayı

	2023		2024		2025	
Gender	Kişi	Qadın	Kişi	Qadın	Kişi	Qadın
İşə qəbul edilmiş işçilərin ümumi sayı	432	288	427	351	328	208

Cədvəl 13. Yaş klassfiikasiya

	2023			2024			2025		
Yaş	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı
İşə qəbul edilmiş işçilərin sayı	512	193	6	607	162	9	419	113	4

Cədvəl 14. Kadr dövriyyəsi



Əməkdaşların inkişafı

İstedadların idarə edilməsi və inkişafı ABB-nin biznes modelinin əsas dayaqlarından biridir. Bank əməkdaşlarını özünüinkişaf yolunda hərtərəfli dəstəkləmək məqsədilə kompleks inkişaf proqramları, strukturlaşdırılmış təlimlər və davamlı inkişaf imkanları təqdim edir. Bank daxilində etimad və sədaqət dəyərlərinin möhkəmləndirilməsi üçün ABB kənar mənbələrdən işəqəbul ilə yanaşı, mövcud daxili istedad ehtiyatından yüksək potensiala malik əməkdaşların müvafiq vəzifələrə irəli çəkilməsinə xüsusi önəm verir.

2021-ci ildən etibarən İnsan Resursları komandası tərəfindən illik təlim planları hazırlanır. Təlimlərin İdarəedilməsi Sistemi (LMS) vasitəsilə əməkdaşlara mövcud təlimlər kataloqu ilə tanış olmaq və ABB HR Portalı üzərindən qeydiyyatdan keçmək imkanı yaradılmışdır. Daxili təlim sisteminin təkmilləşdirilməsi və LMS-in geniş tətbiqi nəticəsində 2025-ci ildə əməkdaşlara təqdim olunan təlim və inkişaf proqramlarının əhatə dairəsi əhəmiyyətli dərəcədə genişləndirilmişdir. Hesabat ili üzrə ümumi təlim saatlarının həcmi 2024-cü illə müqayisədə 7% artmışdır.

Bu artım bir neçə əsas amillə şərtlənir. İlk növbədə, işçi heyətinin sayının artması təlimlərə olan tələbatı yüksəltmişdir. Eyni zamanda, təlim büdcəsinin genişləndirilməsi daha çox və daha müxtəlif öyrənmə imkanlarının yaradılmasına şərait yaratmışdır. Bundan əlavə, öyrənmə platformasının funksional inkişafı təlim proseslərini daha əlçatan və səmərəli etmiş, əməkdaşlar arasında öyrənməyə marağın və iştirakın artması isə bu müsbət dinamikanı daha da gücləndirmişdir. ABB bu müsbət tendensiyanın növbəti illərdə də davam etdirilməsini əsas prioritetlərindən biri kimi müəyyən edir.

2025-ci ildə ABB-də insan resurslarının idarə edilməsi və işə qəbul proseslərinin rəqəmsallaşdırılması və səmərəliliyinin artırılması istiqamətində mühüm transformasiya addımları atılmışdır. Bu çərçivədə əsas məqsəd seçim və qiymətləndirmə mexanizmlərini daha obyektiv, ölçülə bilən və data-əsaslı yanaşma üzərində qurmaq olmuşdur.

- Bu istiqamətdə ilk olaraq AI əsaslı CV skrininq sistemi tətbiq edilmişdir. Bankın bir sıra strukturları üzrə əsas seçim meyarları platformaya inteqrasiya olunaraq, namizədlərin ilkin seçim mərhələsi daha sürətli, şəffaf və obyektiv şəkildə həyata keçirilməyə başlanmışdır. Bu yanaşma həm vaxt itkisinin azalmasına, həm də ən uyğun namizədlərin daha dəqiq müəyyən edilməsinə imkan yaratmışdır.
- Qiymətləndirmə prosesinin keyfiyyətini artırmaq məqsədilə "Dəyərləndirmə forması" yenilənmiş, struktur üzrə əsas kompetensiyalar əlavə edilərək vahid və ölçülə bilən qiymətləndirmə çərçivəsi formalaşdırılmışdır. Eyni zamanda, rəhbər vəzifələr üzrə seçim prosesində Harrison qiymətləndirmə platforması tətbiq edilmiş, bununla da namizədlərin liderlik potensialı, davranış göstəriciləri və rol uyğunluğu daha dərin və analitik şəkildə qiymətləndirilməyə başlanmışdır.
- İşəqəbul proseslərinin daha çevik və əlçatan olması üçün imtahanlar və məntiq testləri onlayn formata keçirilmiş, nəticədə qiymətləndirmə mərhələsində həm şəffaflıq, həm də sürət əhəmiyyətli dərəcədə artırılmışdır. Paralel olaraq, MG çərçivəsində aparılan dəyişikliklərlə işəqəbul prosesləri optimallaşdırılmış və AI əsaslı skrininq mexanizmləri genişləndirilmişdir.
- Bununla yanaşı, Daxili Karyera portalı yenilənmiş, funksionallıq və istifadəçi təcrübəsi təkmilləşdirilərək əməkdaşlar üçün daha rahat və şəffaf karyera imkanları mühiti yaradılmışdır. Əməkdaş müraciətlərinin idarə olunmasında da rəqəmsallaşma dərinləşdirilmiş, əvvəllər e-poçt vasitəsilə aparılan sorğu prosesləri ManageEngine platforması üzərindən avtomatlaşdırılmışdır. Artıq əməkdaşlar xarici səfərlər, beynəlxalq sertifikasiya və əlavə təlim ehtiyacları ilə bağlı müraciətlərini vahid sistem üzərindən təqdim edə bilirlər.
- Eyni zamanda, əməkdaş öhdəlik tutulmalarının hesablanması prosesi avtomatlaşdırılmışdır. Əvvəl manual şəkildə aparılan bu hesablamalar hazırda Dynamics portalı vasitəsilə avtomatik şəkildə icra olunur. Bu dəyişikliklər insan resursları proseslərində həm əməliyyat yükünü azaltmış, həm də məlumatların dəqiqliyini və nəzarət imkanlarını artırmışdır.

ABB-də upskillinq və reskillinq istiqamətində həyata keçirilən təşəbbüslər Bankın insan kapitalının gücləndirilməsində və gələcəyin bacarıqlarına uyğun kadr potensialının formalaşdırılmasında mühüm rol oynamışdır. Bu proqramların əsas məqsədi əməkdaşların həm mövcud rollarında dərinləşməsini, həm də yeni funksional sahələr üzrə kompetensiyalar qazanmasını təmin etməklə, təşkilatın dəyişən biznes ehtiyaclarına çevik uyğunlaşmasını dəstəkləmək olmuşdur.

Liderlik və idarəetmə bacarıqlarının inkişafı istiqamətində həyata keçirilən proqramlar xüsusilə nəzərəçarpan nəticələr vermişdir. "Women in Leadership 1" proqramı çərçivəsində iştirak edən 30 xanım əməkdaşdan 21-i uğurla rotasiya və vəzifə artımı əldə etmiş, "MXS Women Leaders" təşəbbüsü isə 22 əməkdaşdan 11-nin rəhbər və digər məsul vəzifələrə irəliləməsi ilə nəticələnmişdir. Eyni zamanda, "CL Leadership Growth", "Executive Mini MBA 2" və Peşəkar Liderlik Akademiyası proqramları vasitəsilə liderlik potensialının sistemli şəkildə inkişaf etdirilməsi və kadr ehtiyatının (succession planning) gücləndirilməsi təmin olunmuşdur.

Biznes və müştəri yönümlü funksiyalar üzrə kadr potensialının artırılması məqsədilə bir sıra hədəfli inkişaf proqramları icra edilmişdir. "RM School" layihəsi çərçivəsində korporativ müştəri menecerlərinin yetişdirilməsi istiqamətində 12 iştirakçıdan 6-sı uğurla rotasiya etmiş, eyni zamanda daxili əməkdaşlar arasından perspektivli müştəri menecerlərinin hazırlanması təmin olunmuşdur. Bununla yanaşı, Biznes kreditlərinin təhlili üzrə təcrübə proqramı yeni analitik kadrların formalaşdırılmasına, KOB müştəri meneceri üzrə təcrübə proqramı isə KOB sahəsində kadr potensialının gücləndirilməsinə xidmət etmişdir.

Rəqəmsal və texnoloji bacarıqların inkişafı da prioritet istiqamətlərdən biri olmuşdur. "İnnovativSən" layihəsi çərçivəsində MXS əməkdaşlarının IT və Business Analysis sahəsində bilikləri artırılmış, "Data Bootcamp 3" proqramı vasitəsilə 19 iştirakçının data sahəsində bacarıqları gücləndirilmişdir. Eyni zamanda, iOS Developer Təcrübə Proqramı çərçivəsində 2 iştirakçı proqramı uğurla başa vuraraq müvafiq sahə üzrə işlə təmin olunmuşdur. Bundan əlavə, Data və Süni İntellekt sertifikasiya proqramı (UNEC) gənc kadrların data və süni intellekt sahəsində bilik və kompetensiyalarının inkişafına töhfə vermişdir.

Universitetlərlə əməkdaşlıq da kadr ehtiyatının genişləndirilməsi baxımından mühüm rol oynamışdır. "Qoşa saat" layihəsi çərçivəsində bir sıra ali təhsil müəssisələri ilə əməkdaşlıq davam etdirilmiş, Qarabağ Universiteti ilə əməkdaşlıq nəticəsində 96 tələbə ABB-nin Bakı və region filiallarında təcrübə proqramına cəlb olunmuşdur. Bakı Ali Neft Məktəbi (BANM) ilə əməkdaşlıq çərçivəsində RPA Club yaradılmış, tələbələr avtomatlaşdırma və rəqəmsal bacarıqların inkişafı üçün bu kluba cəlb edilmişdir. Eyni zamanda, BANM-dən seçilmiş 15 tələbə Bankın Baş Ofisində təcrübə keçmiş, onlardan 7 nəfəri isə təcrübə müddətində Bankın müxtəlif strukturlarında fəaliyyətini davam etdirmək imkanı qazanmışdır.

İşçilərin rifahı və psixoloji sağlamlığının yaxşılaşdırılması

2025-ci ildə əməkdaşların rifahını və psixoloji sağlamlığını gücləndirmək məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirilmişdir. Bank, sağlam və motivasiyaedici iş mühitinin formalaşdırılmasını prioritet hesab edərək aşağıdakı istiqamətlərdə fəaliyyət göstərib:

Birəbir görüşlərin keçirilməsi - işçilərin problemlərini daha dərindən anlamaq, onların iş mühitindəki rahatlığını və motivasiyasını artırmaq məqsədilə müvafiq biznes tərəfdaşlar tərəfindən mütəmadi olaraq birəbir görüşlər keçirilib.

Sığorta tərəfindən peşəkar psixoloji dəstək təmin edilib.

Emosional zəka və Wellbeing təlimləri – İşçilərin emosional dayanıqlılığını və ümumi rifahını artırmaq məqsədilə emosional zəka, stressin idarə olunması və iş-həyat balansı mövzularında müxtəlif təlimlər təşkil olunmuşdur. Bu təlimlər əməkdaşlara həm şəxsi, həm də peşəkar həyatlarında psixoloji rahatlıq və effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edib.

Əməkdaşlara qayğı yanaşmasının gücləndirilməsi məqsədilə Bankda Əməkdaşlara Qayğı Paketi yaradılmış və tətbiq edilmişdir. Qayğı paketinin tərkibində hamilə əməkdaşlar, yeni ailə quran və övladı dünyaya gələn əməkdaşlar üçün xüsusi dəstək mexanizmləri, Bankda uzunmüddətli fəaliyyət göstərən əməkdaşlar üçün tanınma yanaşmaları, həmçinin təqaüdə çıxan əməkdaşlar üçün hədiyyə və təşəkkür mexanizmi nəzərdə tutulmuşdur. Bu paket Bankın insan mərkəzli və inklüziv yanaşmasını dəstəkləyir.

Bankda əməkdaşların rifahını, motivasiyasını və komanda ruhunu gücləndirmək məqsədilə futbol və voleybol komandaları, kitab və şahmat klubları, eləcə də intellektual inkişafı təşviq edən müxtəlif platformalar fəaliyyət göstərib. Bu təşəbbüslər sağlam həyat tərzini, sosial əlaqələri və davamlı öyrənmə mədəniyyətini dəstəkləyir.

İşçilərin məmnuniyyətinin ölçülməsi məqsədilə artıq 6 ildir hər il WTW şirkəti ilə birlikdə Engagement sorğu keçirilir və nəticələri Biznes tərəfdaşlar və müvafiq struktur rəhbərləri tərəfindən analiz edilərək bəzi tədbirlər icra edilir. Yeni əməkdaşlar işlə qəbul olduqdan sonra 1 ay və 3 ayın tamamında əməkdaşlara məmnuniyyət sorğusu göndərilir və onların onboarding təcrübəsi ölçülür. Bəzi strukturların, şöbələrin və spesifik əməkdaşların (məs: Biznes tərəfdaş) xidmət səviyyəsinin ölçülməsi üçün sıx çalışdıqları əməkdaşlar tərəfindən qiymətləndirmələr edilir.

Dayanıqlı inkişaf üçün istedadların idarə edilməsi

Bankın uzunmüddətli strategiyasının tərkib hissəsi olaraq, biz istedadların idarə edilməsi praktikasını dayanıqlılıq gündəliyimizin əsas sütunlarından birinə

çevirmək məqsədini qarşımıza qoyduq. Əsas məqsədimiz mövcud prosesləri sadəcə təkmilləşdirmək deyil, iri qlobal təşkilatlarda tətbiq olunan ənənəvi modellərdən daha innovativ mexanizm formalaşdırmaq olmuşdur. Bu mexanizm bank daxilində istedadların müəyyən edilməsi, inkişaf etdirilməsi və strateji şəkildə yerləşdirilməsi yanaşmasını köklü şəkildə dəyişdirməyə yönəlib.

Bank üzrə kritik vəzifələr və strateji əhəmiyyətli istedadlar müəyyən edilmiş, güclü məlumat əsaslı təhlillər vasitəsilə fərdiləşdirilmiş Fərdi İnkişaf Planları (FİP) hazırlanmışdır. Bu planlar bankın strateji prioritetləri və uzunmüddətli inkişaf hədəfləri ilə sıx uyğunlaşdırılmışdır.

Kompleks və kəmiyyət əsaslı yanaşma əsasında Bankın dayanıqlı uğuru üçün ən vacib olan rollar müəyyən edilmişdir. Mövcud bacarıqlar və gələcək biznes ehtiyacları dərin təhlil edilərək ən yüksək strateji təsirə malik istedad seqmentləri müəyyən olunmuşdur. Təşkilat miqyasında aparılmış bu analiz istedad xəritəmizə obyektiv və aydın baxış imkanı yaratmış, qərarvermə prosesini gücləndirmiş və gələcək liderlik ehtiyatımızın formalaşdırılmasına töhfə vermişdir.

Əməkdaşların inkişafını dəstəkləmək məqsədilə süni intellekt əsaslı, fərdiləşdirilmiş Fərdi İnkişaf Planları tətbiq edilmişdir. Bu planlar hər bir əməkdaşın bacarıqlarına, performans profilinə və karyera hədəflərinə uyğun şəkildə hazırlanmışdır. Planlara hədəfli təlim istiqamətləri, mentorluq imkanları və strukturlaşdırılmış karyera inkişaf çərçivələri daxildir. Fərdi inkişafın təşkilat strategiyası ilə sıx əlaqələndirilməsi nəticəsində şəxsi inkişaf birbaşa olaraq institusional dayanıqlılığa və uzunmüddətli dəyər yaradılmasına xidmət edir.

Bu təşəbbüsün nəticəsi olaraq, Bank hazırda tam rəqəmsal, təşkilat üzrə vahid istedadların idarə edilməsi platformasını formalaşdırmış və inkişaf etdirməkdədir. Platforma kəmiyyət əsaslı və məlumatlara söykənən yanaşma üzərində qurulmuşdur. Yeni idarəetmə modeli təşkilat daxilində vahid baxış bucağı yaradır, şəffaflığı və obyektivliyi artırır, həmçinin strateji insan resurslarının planlaşdırılmasını gücləndirir.

İnnovasiya və analitikanı istedad qərarlarının mərkəzinə yerləşdirməklə Bank dəyişkən mühitdə dayanıqlı nəticələr əldə edə bilən, gələcəyə hazır təşkilat qurur.

Şikayət və təkliflərin qeydiyyatı və baxılması

ABB-də əməkdaşların rəy və təkliflərinin toplanması, operativ şəkildə baxılması və obyektiv qiymətləndirilməsi üçün strukturlaşdırılmış mexanizmlər formalaşdırılmışdır. Bu çərçivədə Bankın intranet səhifəsində "Təklif və şikayətlər" bölməsi yaradılaraq Rəqəmsal Təklif və Şikayət Platforması istifadəyə verilmişdir. Platforma vasitəsilə əməkdaşlar öz rəy və təkliflərini rahat və təhlükəsiz şəkildə təqdim edə bilir, daxil olan müraciətlər isə dərhal qeydə alınaraq anonimlik prinsipi qorunmaqla müvafiq struktur bölmələrə yönləndirilir.

Bununla yanaşı, 2025-ci ildə əməkdaşların mövqeyini daha geniş və sistemli şəkildə öyrənmək məqsədilə Engagement Survey (İşçi İştirakı Sorğusu) keçirilmişdir. Sorğunun nəticələri ətraflı təhlil olunaraq konkret fəaliyyət planı hazırlanmış və rəhbərliklə müzakirə edilmişdir. Təsdiqlənmiş təşəbbüslərin icrasına artıq başlanılmış, iş mühitinin daha da yaxşılaşdırılması istiqamətində ilkin addımlar atılmışdır. Eyni zamanda, əlavə araşdırma tələb edən təkliflər üzrə təhlillər davam etdirilir və müvafiq qərarların qəbul edilməsi planlaşdırılır.

Əmək bazarında lider işəgötürən brendi

ABB-nin işəgötürən kimi əmək bazarındakı mövqeyini və müxtəlif hədəf auditoriyalar arasında formalaşmış imicini qiymətləndirmək məqsədilə "Employer Branding Survey" adlı tədqiqat həyata keçirilib. Araşdırma ABB-nin tələbi əsasında ERA tədqiqat şirkəti tərəfindən tamamlanıb, nəticələr isə Ipsos tərəfindən təhlil olunub. Sorğu ölkənin 50-dən çox aparıcı şirkətinin əməkdaşları və aparıcı universitetlərdə təhsil alan tələbələrdən ibarət 1019 respondent arasında aparılıb.

Belə ki, sorğuda 6 əsas hədəf qrup iştirak edib: universitet tələbələri, xaricdə magistr təhsili alanlar, yeni məzunlar, gənc peşəkarlar, orta menecerlər, direktorlar və C-level rəhbərlər. Müxtəlif auditoriyalar üzrə işəgötürən reytinqinin nəticələrinə əsasən ABB ümumi sıralamada 2-ci yeri tutub və 10 bal üzərindən 9.9 bal nəticə əldə edib.

Seqmentlər üzrə nəticələr göstərib ki, xaricdə magistr təhsili alanlar, orta menecerlər, direktorlar və C-level rəhbərlərin qiymətləndirmələrinə əsasən ABB lider mövqedə qərarlaşıb və maksimum nəticəni əldə edib. Universitet tələbələri, yeni məzunlar və gənc peşəkarlar seqmentlərində isə ABB Top 3 işəgötürənlər sırasında yer alıb.

Texnologiya sahəsində çalışan əməkdaşlar arasında aparılan sorğuda "Daha çox çalışmağı arzuladığınız şirkət hansıdır?" sualına verilən cavablara əsasən ABB böyük fərqlə seçilən şirkət olub və lider mövqedə qərarlaşıb.

Sorğunun nəticələrinə əsasən respondentlərin ABB-də işləməyə maraq göstərməsinin əsas səbəbləri aşağıdakılar olub:

- Karyera inkişafı və yüksəliş imkanları – 62%
- Rəqabətədavamlı əməkhaqqı və sosial təminat paketi – 62%
- İş və şəxsi həyat balansı – 34%
- Şirkətin müsbət reputasiyası – 33%
- Müsbət iş mühiti və korporativ mədəniyyət – 24%

Nəticələr göstərir ki, ABB xüsusilə karyera inkişafı imkanları və rəqabətədavamlı fayda paketi istiqamətində əmək bazarında güclü mövqeyə malikdir. Bu nəticələri işəgötürən brendi strategiyamızın növbəti mərhələsi üçün mühüm yol xəritəsi kimi qiymətləndiririk. Karyera inkişafı və peşəkar böyümə imkanlarımızı daha geniş auditoriyaya çatdırıraq iş mühitini və dəyər təklifimizi daha da gücləndirmək istiqamətində addımlarımızı davam etdirəcəyik.

İdarə heyətinin sədri qalib komandanin üzvləri ilə görüşdü

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilmiş "Nə? Harada? Nə zaman?" intellektual yarışının qalibi olan ABB komandasının üzvləri ilə görüşüb. Qalibləri təbrik edən Abbas İbrahimov Bankda intellektual yarışlara yüksək marağın olmasını, əməkdaşların belə faydalı layihələrdə fəal iştirakını təqdir edib. Bu marağın həm istedadların, həm də ABB-dəki komanda ruhunun inkişafına xidmət göstərdiyini bildirib.



İdarə Heyətinin sədri komandanın fəaliyyət təcrübəsi ilə maraqlanıb. ABB əməkdaşlarının intellektual yarışmalarda iştirak təcrübəsindən müştərilər üçün yeni dəyərlərin yaradılması məqsədilə istifadə üçün tövsiyələr verib. Qeyd edək ki, ABB-nin komandası müxtəlif dövlət və özəl qurumları təmsil edən 34 komanda arasında birinci olub.

"Women in leadership" layihəsi çərçivəsində master-klass keçirilib

"Women in Leadership" layihəsi çərçivəsində ABB-nin xanım əməkdaşlarının görüşləri baş tutub. Görüşlərdə onlar öz karyera hekayələrindən və bu yolda əldə etdikləri uğurlardan danışaraq iştirakçılara motivasiya və dəyərli tövsiyələr veriblər.



30 xanım əməkdaş "Women in leadership" proqramından məzun oldu

ABB-nin müxtəlif struktur bölmələrində çalışan yüksək potensiallı xanım əməkdaşlar üçün təşkil olunmuş 6 aylıq "Women in Leadership" proqramının bağlanış tədbiri keçirilib. Proqramı uğurla başa vurmuş 30 məzuna nailiyyət sertifikatları təqdim olunub. Tədbirdə iştirak edən ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov məzunları bu uğur münasibətilə təbrik edib. İdarə Heyətinin sədri dayanıqlı inkişaf məqsədlərinin müasir dünyamızda şirkət performanslarına müsbət təsirlərindən danışaraq bu prioritetin ABB-nin inkişaf strategiyasında da nəzərə alındığını, bununla bağlı konkret hədəflərin müəyyən edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, "Women in Leadership" proqramı da bu strategiyanın önəmli hissəsidir. Abbas İbrahimov iştirakçılara gələcək fəaliyyətləri ilə bağlı tövsiyələr verib.

Tədbir zamanı bir neçə iştirakçı proqram barədə təəssüratlarını, layihənin onların fərdi inkişafına təsirini, faydalı rəylərini bölüşüb. Xatırladaq ki, "Women in Leadership" proqramının məqsədi sektorun ən yaxşı işəgötürəni olaraq ABB-də rəhbər vəzifələr üzrə müxtəlifliyin təmin edilməsi, işçilərin motivasiyasının

və loyallığının artırılması, yüksək potensiallı xanım əməkdaşların bilik və bacarıqlarının daha da inkişaf etdirilməsidir.



ABB menecerləri 2-ci "Executive Mini-MBA" proqramini uğurla tamamladılar

ABB menecerlərinin fərdi inkişafı məqsədilə Türkiyənin ən nüfuzlu ali təhsil mərkəzlərindən olan KOÇ Universiteti ilə birgə təşkil edilmiş növbəti "Executive Mini-MBA" proqramı başa çatıb. 20 ABB meneceri proqramı nailiyyət sertifikatı ilə başa vurub. Bu münasibətlə KOÇ Universitetinin əsas kampusunda ABB və Universitet rəhbərliyinin iştirakı ilə təntənəli "Məzun günü" tədbiri keçirilib. Tədbirdə çıxış edən ABB-nin İdarə Heyəti sədrinin müavini Elmir Həbibullayev və Baş direktor Aynur Süleymanlı bu nailiyyət münasibətilə Bank menecerlərini təbrik ediblər. Bu effektiv layihə ilə ABB-də peşəkar inkişaf üçün daha bir faydalı təcrübənin formalaşdığını diqqətə çatdırıblar.



ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov da proqramının məzunları ilə görüşüb. İdarə Heyətinin sədri məzunları proqramı uğurla başa vurmaları münasibətilə təbrik edib. Bu nailiyyətin onların fərdi və peşəkar inkişafı üçün mühüm əhəmiyyətini vurğulayıb. Abbas İbrahimov belə təlim proqramlarının ABB-də peşəkar inkişaf üçün effektiv modelə çevrildiyini və bütün bunların bankın fəaliyyətinə töhfə verdiyini qeyd edib.

"Horizon 2" layihəsi başa çatdı

ABB əməkdaşlarının fərdi inkişafı məqsədilə "Sən də qoşul, üfüqünü genişləndir!" devizi ilə həyata keçirdilən "Horizon 2" proqramı artıq yekunlaşıb. "Horizon 2" layihəsində iştirak edən 12 həmkarımız proqramı müvəffəqiyyətlə başa vurub. Onlardan 11-i filiallarımızın, 1-i "Azərikard" prosessinq mərkəzinin əməkdaşıdır. Bu layihə çərçivəsində MXS əməkdaşlarına Baş ofisin müxtəlif struktur bölmələrində əlavə peşəkar bacarıqlar əldə etmək imkanı yaradılıb. Görüş zamanı layihə iştirakçılarına sertifikatlar təqdim edib. Yüksək nəticələri ilə fərqlənən əməkdaşlara da xüsusi sertifikatlar verilib.



ABB nümayəndələri "CISCO Live" konfransında iştirak ediblər

ABB nümayəndələri Amsterdamda keçirilən "Cisco Live" konfransında iştirak ediblər. Konfrans çərçivəsində iştirakçılar süni intellekt (AI), çağrı mərkəzi üçün istifadə olunan telefoniya, bulud həlləri, müştəri müraciətlərin cavablandırılması üçün innovativ həllər və digər mövzular üzrə ən son yeniliklərlə tanış olub və geniş şəbəkələşmə imkanlarından faydalanıblar.



"MXS-lərdə çalışan qadınların inkişafı" layihəsi uğurla başa çatdi

ABB-nin qadın əməkdaşların peşəkar inkişafı və liderlik bacarıqlarının artırılması məqsədilə keçirilən "MXS-lərdə çalışan qadınların inkişafı" layihəsi uğurla başa çatıb. Layihədə, ümumilikdə 21, həm region, həm də Bakı filiallarının qadın əməkdaşları iştirak ediblər. Layihə çərçivəsində iştirakçılara texniki təlimlər, liderlik və idarəetmə, emosional zəka kimi vacib sahələrdə infossesiyalar keçirilib. Eyni zamanda, müxtəlif struktur bölmələrlə onlayn görüşlər təşkil olunub və iştirakçılar strukturların fəaliyyəti ilə yaxından tanış olublar. Nəticədə, artıq 1 xanım əməkdaş filial müdirinin müavini və 2 nəfər filialda bölmə meneceri vəzifəsinə təyin olunub. O cümlədən, 3 əməkdaş baş ofisə, 1 nəfər isə rayon filialından Bakı filialına rotasiya edib.

"PO School" və "CJE School" proqramları uğurla yekunlaşdi

ABB olaraq, əməkdaşlarımızın peşəkar inkişafına dəstək əsas prioritetlərimizdəndir. Bu səylər çərçivəsində keçirilən "PO School" və "CJE School" proqramları yeni qruplar üçün uğurla yekunlaşıb. Proqramın məqsədi bankdaxili mövcud məhsul sahibləri və müştəri təcrübəsi mütəxəssislərinin funksional bacarıqlarının inkişafında onlara dəstək olmaq və praktiki biliklərini gücləndirməkdir. "PO School" çərçivəsində 15 əməkdaşımız layihəni uğurla bitirib və final mərhələdə "Uşaqlar üçün Bankçılıq (Banking for Kids)" layihəsi qalib seçilib. O cümlədən, "CJE School" proqramı üzrə 20 iştirakçıdan 4 komanda formalaşıb, "Səsli köməkçi" layihəsi isə, qalib olub. ABB-nin baş direktoru Aynur Süleymanlı qaliblərə xüsusi sertifikatlar təqdim edib.



ABB banklararası şahmat turnirinin qalibi oldu

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Azərbaycan Banklar Assosiasiyasının Azərbaycan Şahmat Federasiyası ilə birgə keçirdiyi banklararası şahmat yarışında ABB qalib gəlib. Çox güclü rəqabət şəraitində keçən yarışda ABB əməkdaşları böyük əzmkarlıq göstərərək Banka birincilik qazandırıblar. Yarışda ikinci yerin qalibi Kapital Bank, üçüncü yerin qalibi isə Expressbank olub.



ABB qaçış marafonunda biznes qurumları arasında 1-ci olub

"Küləyə qalib gəl" devizi ilə 8-ci dəfədir təşkil edilən "Bakı Marafon"unda ABB yenə fərqlənib. ABB-nin Müştəri Xidməti Departamentinin direktor müavini, İtaliyada keçirilmiş "Ironman" triatlon turnirində Azərbaycan üzrə rekorda imza atmış Teymur Fərəcovun timsalında Bankımız 1-ci yerin qalibi olub. Ümumilikdə, marafonda 28 minədək şəxs qeydiyyatdan keçib, marafonun 200-dən çox rəsmi və fəxri iştirakçısı olub. Yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan əcnəbilər, həmçinin digər ölkələrdən qonaqlar qatılıb.



İdarə Heyətinin sədri "Fərqlilər"lə görüşdü

ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov 2024-cü ilin IV rübü və 2025-ci ilin I rübünün "Fərqlilər"i seçilmiş əməkdaşlarla görüş keçirib. Görüş zamanı əməkdaşlar arasında interaktiv yarış təşkil edilib. Yarışda iştirakçılar Fərqli ABB əməkdaşları üçün 10 əsas səriştə üzrə təcrübi davranışlarını nümayiş etdiriblər. İdarə Heyəti sədrinin iştirakı ilə keçirilən qiymətləndirmə nəticəsində qalib komanda seçilib. Tədbir çərçivəsində Fərqli ABB-lilər "Gələcəyin ABB-lisinə məktub" başlıqlı yazıları ilə öz düşüncələrini bölüşüblər. Abbas İbrahimov əməkdaşlara gələcəkdə də öz işlərində fərqlənmələri, liderlik bacarıqlarını inkişaf etdirmələri və Bankın uğurlarına daha böyük töhfələr vermələri üçün tövsiyələrini çatdırıb.



"ABB Moskva" Bankının nümayəndələri Bankımıza səfər ediblər

ABB Moskva Bankının nümayəndələri ilə ABB-nin Baş ofisində keçirilən görüş çərçivəsində təcrübə mübadiləsi aparılıb, qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub və müxtəlif bankçılıq sahələrindəki ən yaxşı təcrübələr bölüşülüb. Bu cür görüşlər həm peşəkar əlaqələrin möhkəmləndirilməsi, həm də biliklərin qarşılıqlı zənginləşdirilməsi baxımından mühüm rol oynayır.

Alpha Card-la bağlı uşaqların iştirakı ilə fokus-qrup görüşləri keçirildi



ABB-nin Alfa nəslinin təmsilçiləri üçün nəzərdə tutulmuş Alpha Card məhsulu üzrə uşaqların dizayn düşüncələrini öyrənmək üçün fokus-qrup keçirilib. Tədbirdə ABB əməkdaşlarının fokus-qruplarda iştirak üçün əvvəlcədən qeydiyyatdan keçmiş övladları iştirak edib. Onlara Alpha Card haqqında ətraflı məlumatlar təqdim edilib.

Kartın dizaynı üçün təxəyyüllərinə uyğun eskizlər təqdim etmələri barədə tapşırıq verilib. Uşaqlar Alpha Cardla bağlı müxtəlif vizual ideyaları təqdim ediblər. ABB-nin məhsul və xidmətlərinin müştəri seqmentlərinin təsəvvürlərinə, gözləntilərinə maksimum uyğunluğu üçün bu cür maraqlı tədbirlər gələcəkdə də davam etdiriləcək.

"Müştəri Menecerləri Məktəbi" layihəsi başa çatdı

Bankımızda əməkdaşların inkişafını dəstəkləyən daha bir layihə uğurla tamamlanıb. "Müştəri Menecerləri Məktəbi" layihəsinin əsas məqsədi yeni korporativ müştəri menecerlərinin hazırlanması və bank daxilində güclü işçi bazasının formalaşdırılması idi. Layihədə müxtəlif strukturlardan seçilmiş 11 əməkdaş iştirak edib. Dörd ay davam edən bu inkişaf proqramı çərçivəsində iştirakçılar korporativ müştərilərlə iş proseslərini dərindən öyrənərək həm nəzəri, həm də praktiki biliklərini artırıblar. Belə ki, artıq 5 iştirakçı daxili rotasiya əsasında Korporativ biznes departamentinə keçid edərək müştəri meneceri kimi fəaliyyətini davam etdirir.

ABB artıq ACCE tərəfindən "Approved Employer" statusunu qazanıb

ABB artıq beynəlxalq mühasibatlıq və maliyyə sahəsində ən nüfuzlu təşkilatlardan biri olan ACCA (Association of Chartered Certified Accountants) tərəfindən "Approved Employer" statusuna layiq görülüb. Bu status Bankımıza "Trainee development (Platinum)" və "Professional development" sahələri üzrə təqdim olunub. Bu mühüm nailiyyət, ABB-nin əməkdaşlarının peşəkar inkişafına verdiyi ardıcıl dəstəyin, onların beynəlxalq standartlara uyğun şəkildə ACCA üzrə sertifikasiya prosesini uğurla həyata keçirmələri üçün yaradılan əlverişli və təşviqedici mühitin bariz göstəricisidir. ABB olaraq biz, əməkdaşlarımızın beynəlxalq səviyyədə tanınan bilik və bacarıqlara yiyələnməsini, həmçinin peşəkar karyera yolunda irəliləməsini daim dəstəkləyirik. Bu status, eyni zamanda Bankımızın daxili təlim və inkişaf sistemlərinin beynəlxalq səviyyədə tanındığını və güclü insan kapitalı strategiyasının uğurla tətbiq olunduğunu təsdiqləyir. "Approved Employer" statusu ABB əməkdaşları üçün bir sıra əhəmiyyətli üstünlüklər

də təqdim edir: • Peşəkar inkişaf üçün geniş resurslar: Əməkdaşlarımız ACCA-nin aylıq e-jurnalına abunə olmaqla sənayedəki son trendlərdən xəbərdar olmaq və beynəlxalq praktikaya dair aktual mövzularda təşkil olunan vebinarlarda iştirak etmək imkanı əldə edirlər; • Təlim və inkişaf platformalarında güzəştlər: ABB əməkdaşları ACCA-X, ACCA Learning, ACCA Study Hub kimi platformalar vasitəsilə ACCA-nin təqdim etdiyi müxtəlif təlimlərə və sertifikasiya proqramlarına endirimli qiymətlərlə qoşula bilərlər; • CPD təqdimatında sadələşdirilmiş prosedurlar: ACCA üzvü olan əməkdaşlarımız üçün illik CPD (Continuing Professional Development) təqdimatlarının təhvil prosesi daha sadə və çevik formada həyata keçirilir.



ABB stend atıcılığı üzrə yarışda birinci yerin qalibi oldu

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə dövlət qurumları arasında keçirilən stend atıcılığı üzrə yarışda ABB birinci yeri tutub. Yarışda kişilər arasında 1-ci yerin qalibi ABB-nin Nağd vəsaitlər departamentinin qrup rəhbəri Aydın Mirzəyev olub. Bankımızı təmsil edən digər əməkdaşlar arasında Nağd vəsaitlərlə iş departamentinin inkassatoru Asif Əliyev, Hüquq departamentinin hüquqşünası Xatun Əlizadə və Müştəri müraciətlərinin idarə olunması departamentinin mütəxəssisi Fidan Nəbiyeva yer alıb. Qazanılan bu uğur ABB əməkdaşlarının yalnız peşəkar sahədə deyil, idman və fiziki hazırlıq üzrə də yüksək bacarıqlara malik olduğunu bir daha göstərir.

"İnnovativSən" layihəsi uğurla başa çatdı

ABB-nin qadın liderliyini təşviq edən "Woman in Leadership" təşəbbüsü çərçivəsində həyata keçirilən "İnnovativSən" layihəsi uğurla başa çatıb. Bu təşəbbüs Bankın xanım əməkdaşlarının peşəkar inkişafına dəstək göstərmək, onların texnologiya və innovasiya sahələrindəki bilik və bacarıqlarını artırmaq məqsədi daşıyırdı. Layihədə Bankın filiallarında çalışan 20 xanım əməkdaş iştirak edib, onlar üçün xüsusi olaraq hazırlanmış proqram çərçivəsində UML, UX design, SQL, Biznes analitika, eləcə də şəxsi inkişafı dəstəkləyən müxtəlif mövzularda sessiyalar keçirilib. İştirakçılardan 7-si fərqlənmə, 13 nəfər isə layihəni uğurla başa vurmaq sertifikatı ilə təltif olunub. Layihə başa çatdıqdan sonra həmkarlarımızdan biri Rəqəmsal kiçik biznes sahəsinin müştəri təcrübələri üzrə mütəxəssisi vəzifəsinə müraciət edərək rotasiya olunub.



ABB-nin regionlarda çalışan xanımları ilə görüş keçirildi

Bankımızda həyata keçirilən "Women in Leadership" layihəsi çərçivəsində ABB-nin region filiallarında fəaliyyət göstərən 120-dən çox xanım əməkdaşın iştirakı ilə genişmiqyaslı görüş təşkil olundu. Görüşün əsas məqsədi qadın əməkdaşlarımızın peşəkar inkişafına dəstək göstərmək, onların liderlik potensialını gücləndirmək və təcrübə mübadiləsi üçün yeni imkanlar yaratmaq idi. Tədbir çərçivəsində iştirakçılar bir-birlərini daha yaxından tanımaq və ilhamverici hekayələr eşitmək imkanı əldə etdilər. Həmçinin xanım struktur rəhbərlərinin iştirakı ilə panel müzakirəsi təşkil olundu. İştirakçıların ünvanladıqları suallar cavablandırıldı, real təcrübələr və tövsiyələr paylaşıldı.

“Data Bootcamp 3” layihəsi uğurla başa çatdı

Artıq Bankımızda 3-cü “Data Bootcamp” layihəsi uğurla başa çatıb. Əməkdaşlarımız layihə çərçivəsində data üzrə peşəkar bilik və texniki bacarıqlara yiyələnib dəyərli məlumatları birbaşa bu sahənin peşəkarlarından dinləmə imkanı əldə ediblər. Ümumilikdə layihə üzrə müxtəlif struktur bölmələrdən 19 nəfər həmkarımız iştirak edib, onlardan 5 nəfəri fərqlənmə, 5 nəfəri müvəffəqiyyət, digər 9 nəfəri isə iştirak sertifikatı əldə ediblər. İştirakçılarımız ABB-nin rəhbər şəxsləri tərəfindən sertifikatla təltif olunublar.



ABB-də “Funksional sahə rəhbərlərinin liderliyinin inkişafı” layihəsi başa çatdi

Funksional sahə rəhbərlərinin liderliyinin və idarəetmə bacarıqlarının inkişafına yönəlmiş layihə uğurla yekunlaşıb. İki ay davam edən proqram mərhələli inkişaf və praktiki yanaşmanı özündə birləşdirərək iştirakçılara həftəlik tematik dərslər, qrup tapşırıqları və özünürefleksiya sessiyaları vasitəsilə liderlik bacarıqlarını təkmilləşdirmək imkanı yaradıb.



Layihə çərçivəsində ilk kohort üzrə 26 nəfər 10 peşəkar təlimçi tərəfindən keçirilmiş proqramı uğurla başa vurub və bağlanış mərasimində sertifikatlarla təltif olunub. Qeyd edək ki, artıq 33 nəfərin iştirakı ilə ikinci kohortun təlimlərinə start verilib. Bu layihə ABB-də liderlik bacarıqlarının inkişafına, komanda idarəetməsinin gücləndirilməsinə və funksional sahə rəhbərlərinin peşəkar potensialının artırılmasına mühüm töhfə verir.

Bərabər imkanlar və müxtəliflik

ABB bərabər imkanların təmin edilməsi, ayrı-seçkiliyin qarşısının alınması və həssas qrupların əmək bazarına inteqrasiyası istiqamətində ardıcıl addımlar ataraq ədalətli və inklüziv iş mühitinin formalaşdırılmasını davam etdirir. İşəqəbul proseslərinin tənzimlənməsinə dair metodik göstərişlərdə namizədlərin cinsindən, yaşından, irqindən, dinindən, milliyyətindən və fiziki məhdudiyyətlərindən asılı olmayaraq yalnız peşəkar təcrübə və səriştələri əsasında qiymətləndirilməsi prinsipi əsas götürülür. Ayrı-seçkiliklə mübarizənin institusional səviyyədə daha da gücləndirilməsi məqsədilə Etik Kodeksə əlavə müddəaların daxil edilməsi hazırda müzakirə mərhələsindədir.

2025-ci ildə ABB əməkdaşların rifahının və psixoloji sağlamlığının gücləndirilməsi məqsədilə bir sıra məqsədyönlü təşəbbüslər həyata keçirdir. Fərdi görüşlər vasitəsilə işçilərin müraciətləri dinlənilmiş, motivasiyanın artırılması üçün dəstək göstərilmişdir. Peşəkar psixoloji dəstəyin təmin edilməsi məqsədilə iki təcrübəli psixoloqla əməkdaşlıq qurulmuş və əməkdaşlara fərdi məsləhət, eləcə də stressin idarə olunması üzrə xidmətlər təqdim edilmişdir. Eyni zamanda, Emosional Zəka və Wellbeing mövzularında təlimlər təşkil olunaraq işçilərin emosional dayanıqlılığı, stressin idarə edilməsi və iş–həyat balansı sahəsində bilik və bacarıqları gücləndirilmişdir. Bu təşəbbüslər ABB-də daha motivasiyaedici və dəstəkləyici iş mühitinin formalaşdırılmasına xidmət edir.

Təşkilatdaxili dinamikanın gücləndirilməsi və komanda üzvləri arasında sinerjinin artırılması məqsədilə müasir metodologiyalar tətbiq olunur, ixtisaslaşdırılmış proqramlar və təlim sessiyaları keçirilir, peşəkar inkişafı təşviq edən layihələr reallaşdırılır. Bu çərçivədə əməkdaşlara təşkilatın əsas dəyərləri, ədalətli rəftar normaları, bərabər imkanlar və müxtəlifliyə sadiqlik prinsipləri mütəmadi olaraq çatdırılır.

Analıq məzuniyyətindən qayıdan qadın əməkdaşların işə adaptasiyasına xüsusi diqqət yetirilir və onların komandada saxlanılması istiqamətində dəstək mexanizmləri tətbiq olunur. 2025-ci ildə analıq məzuniyyətindən qayıdan qadın əməkdaşların 54%-i iş fəaliyyətini Bankda davam etdirmişdir. İnsan resurslarının idarəedilməsi departamenti əməkdaşlarda dəyər hissinin formalaşdırılmasına, təşkilata bağlılığın gücləndirilməsinə və yeni bacarıqların qazanılmasına yönəlmiş təşəbbüsləri ardıcıl şəkildə davam etdirir.

Əməkdaşların məmnunluğunu və gözləntilərini daha yaxşı anlamaq məqsədilə Engagement Survey (İşçi İştirakı Sorğusu) və EVP Survey (Dəyər Təklifi Sorğusu) keçirilmişdir. Sorğuların nəticələri təhlil edilmiş, konkret fəaliyyət planı hazırlanaraq rəhbərliklə müzakirə olunmuş və təsdiqlənmiş təşəbbüslərin icrasına başlanmışdır. ABB açıq kommunikasiya və şəffaflıq prinsiplərinə sadiq qalaraq əməkdaşlarının rəyini nəzərə almağa və iş mühitinin davamlı şəkildə yaxşılaşdırılmasına yönəlmiş tədbirləri davam etdirir.

Cədvəl 15. ABB əməkdaşlarının gender bölgüsü

	2023		2024		2025	
Gender	**Kişi**	**Qadın**	**Kişi**	**Qadın**	**Kişi**	**Qadın**
Top menecment	9	2	9	2	9	2
Orta menecment	442	108	525	137	599	172
Digər kateqoriyalar	1,606	1,327	1,702	1,527	1,713	1,578

İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi

Bankda əməyin mühafizəsi və işçilərin sağlamlığının qorunması istiqamətində qanunvericiliyin tələblərinə tam uyğun tədbirlər həyata keçirilir. Bütün əməkdaşlar müqavilə əsasında mütəmadi icbari tibbi müayinədən keçirilir və tibbi həyat sığortası ilə təmin olunurlar. Bu proseslər üzrə müvafiq sübutedici sənədlər, o cümlədən müqavilələr, tibbi yoxlanış qrafikləri və digər əlaqəli materiallar mövcuddur və arxivləşdirilir.

İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi sahəsində maarifləndirilməsi məqsədilə bank daxilində mütəmadi təlimlər təşkil olunur. Keçirilən təlimlər xüsusi jurnallarda qeydiyyata alınır, iştirakçı əməkdaşların imzası ilə təsdiqlənir və müvafiq öhdəlik sənədləri (iltizamnamələr) əldə edilir. Bu yanaşma təhlükəsizlik qaydalarına riayət səviyyəsinin artırılmasına xidmət edir.

İşgüzar tərəfdaşlarla əməkdaşlıq çərçivəsində sağlamlıq və təhlükəsizlik risklərinin qarşısının alınması və minimallaşdırılması da təmin edilir. Bağlanan bütün müqavilələrdə əməyin mühafizəsi və təhlükəsizlik (İSƏT) üzrə məsuliyyətləri əhatə edən xüsusi bölmələr mövcuddur. Podratçı və tərəfdaşların təhlükəsizlik qaydalarına əməl etməsi müqavilə şərtləri vasitəsilə tənzimlənir və nəzarətdə saxlanılır.

Şirkətin bütün rəsmi əməkdaşları əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunur və qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun şəkildə qorunur. Bu sistem iş mühitində təhlükəsizliyin təmin olunmasına və risklərin sistemli şəkildə idarə edilməsinə imkan yaradır.

İşlə əlaqədar baş verə biləcək xəsarət və peşə xəstəliklərinin uçotu qanunvericiliyə uyğun olaraq aparılır. Müvafiq qeydiyyat jurnalları mövcuddur, hadisələrin araşdırılması üzrə müəyyən edilmiş mexanizmlər tətbiq edilir və nəticələr əsasında statistik göstəricilər formalaşdırılır. Bu məlumatlar gələcək risklərin azaldılması və qabaqlayıcı tədbirlərin gücləndirilməsi üçün istifadə olunur.

2.2.3 İdarəetmə

2.2.3.1 Korporativ idarəetmə sistemi

ABB-də korporativ idarəetmə Bankın strateji istiqamətlərinə uyğun fəaliyyətin təmin edilməsinə, hesabatlılıq, şəffaflıq və dürüstlük prinsiplərinə riayət olunmasına nəzarət edən, bir-biri ilə əlaqəli və koordinasiyalı şəkildə fəaliyyət göstərən institutlar sistemi kimi dəyərləndirilir.

Korporativ idarəetmə sistemimizin həm yerli tənzimləyici tələblərə, həm də qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırılmasına xüsusi önəm veririk. Yerli bank qanunvericiliyində korporativ idarəetmə üzrə baş verən dəyişikliklərin və yeniliklərin operativ şəkildə izlənilməsi və idarəetmə sistemimizə inteqrasiyası məqsədilə Bankda strukturlaşdırılmış və davamlı təkmilləşdirilən proses formalaşdırılmışdır.

Korporativ idarəetmə sistemimiz bu mənbələrə əsaslanır:

- “Banklar haqqında” Azərbaycan Respublikası Qanunu;
- Mərkəzi Bank tərəfindən təsdiq edilmiş “Banklarda korporativ idarəetmə Standartları”;
- Bazel Komitəsi tərəfindən hazırlanmış bank nəzarəti üzrə tövsiyələr;
- Ölkə qanunvericiliyi ilə müəyyən olunmuş digər normativ-hüquqi xarakterli aktlar.

ABB-də idarəetmə strukturu

2025-ci ildə İdarə Heyəti Müşahidə Şurasının 2024-cü ildə təsdiq etdiyi bir sıra strukturların yaradılması prosesini sürətlə həyata keçirmişdir. ABB-nin idarəetmə orqanları maraqlı tərəflərimizin ABB-yə olan inamını, etibarını qorumağa tam sadiqdir. Buna nail olmaq üçün biz onlarla ünsiyyətimizdə şəffaflığı daha da artırmağı, əlaqələri gücləndirməyi hədəfləyirik.

Təşkilati işlər və metodologiya departamenti və İdarə Heyəti sədrinin aparatı birləşdirilərək İdarə Heyəti sədrinin aparatı adlandırıldı və yeni department fəaliyyətə başladı:



Maliyyə ekspertizası departamenti

Departamentin fəaliyyətinin əsas istiqamətləri bankdaxili maliyyə ekspertizasının həyata keçirilməsi və performans təhlillərinin aparılmasını, bankın biznes və "Agile" mühitində fəaliyyət göstərən struktur bölmələrinin işinin və qərarvermə proseslərinin keyfiyyətinin artırılması məqsədilə bu proseslərin maliyyə təhlilləri ilə dəstəklənməsini, aktiv və passivlərin idarə edilməsi çərçivəsində likvidlik, faiz və valyuta risklərinin qiymətləndirilməsi və idarə olunmasını, aktiv və passivlərin müddət uyğunluğunun təmin edilməsini, gəlir əyrisi və müvafiq risklərin monitorinqini, pul axınlarının optimallaşdırılmasını və balans mənfəətliliyinin qorunması və artırılması üzrə təkliflərin aidiyyəti idarəetmə orqanlarına və bankdaxili komitələrə təqdim edilməsini, habelə bankın maliyyə və risk göstəricilərinin bu çərçivədə mütəmadi izlənilməsini, təhlil olunmasını və nəticələr üzrə qərarverici orqanlara tövsiyələrin verilməsini, eləcə də Vəsaitlərin Köçürülmə Dəyəri (FTP) mexanizminin tətbiqi və inkişafının təmin edilməsini və onun nəticələrinin idarəetmə orqanlarının və bankdaxili komitələrin qərarlarında və performans göstəricilərində istifadəsinə şərait yaradılmasını əhatə edir.

Cədvəl 16. İdarəetmə orqanlarında yaş müxtəlifliliyi

	2023			2024			2025		
Müvafiq qrupda çəki %	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı	30 yaşa qədər	30-50 yaş	50 yaşdan yuxarı
İdarə Heyəti üzvlərinin yaş nisbəti	0%	73%	27%	0%	73%	27%	0%	67%	33%
Orta menecmentdə olan şəxslərin yaş nisbəti	0%	82%	18%	4%	85%	11%	6%	85%	9%
Rəhbər vəzifələrdə olan digər şəxslərin yaş nisbəti	6%	84%	10%	5%	84%	11%	50%	43%	7%

Komitələr

ABB-nin komitələri Müşahidə Şurasını Bankın əsas funksional sahələri ilə əlaqələndirən və Müşahidə Şurasının səlahiyyətindəki məsələlərə birinci səviyyəli nəzarəti, təhlili həyata keçirən orqanlardır. Müşahidə Şurası yeddi komitənin üzvlərini təyin edir, onların fəaliyyətini tənzimləyir.

- **Audit Komitəsi;**
- **Strategiya Komitəsi;**
- **Riskləri İdarəetmə Komitəsi;**
- **Korporativ İdarəetmə Komitəsi;**
- **Kredit Komitəsi;**
- **Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi;**
- **İT Komitəsi.**

Mühüm məsələlərin kommunikasiyası

Müşahidə Şurasına təqdim edilən hesaba daxil edilmiş yüksək riskli müşahidələrin sayı:

2023 **36** | 2024 **41** | 2025 **13**

111 Baxılan məsələlər

111 Qəbul edilmiş qərarlar

Cədvəl 17. Komitələrin 2025-ci ildə keçirilmiş iclasları

Komitələr	Keçirilməsi nəzərdə tutulan iclasların sayı	Keçirilmiş iclaslar
Riskləri İdarəetmə Komitəsi	4	5
Korporativ İdarəetmə Komitəsi	1	1
Audit Komitəsi	4	22
Strategiya Komitəsi	2	3
Böyük Kredit Komitəsi	52	85
Orta Kredit Komitəsi	52	117
Kiçik Kredit Komitəsi	52	177
Aktiv və Passivlərin İdarəedilməsi Komitəsi	52	207
İnformasiya Texnologiyaları Komitəsi	12	36

Mükafatlandırma sistemi

ABB-də mükafatlandırma sistemi Bankın Mükafatlandırma Siyasəti ilə tənzimlənir və bu sənəd Banklarda Korporativ idarəetmə standartlarına uyğun olaraq hazırlanmışdır. Qabaqcıl beynəlxalq təcrübələri nəzərə alan bu Siyasət müasir korporativ mədəniyyətin möhkəmləndirilməsini və əməkdaşlar arasında sağlam rəqabətin təşviqini hədəfləyir. Mükafatlandırma mexanizmi ildə bir dəfə Korporativ İdarəetmə Komitəsi, Strategiya Komitəsi və Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən nəzərdən keçirilir və bu çərçivədə ödəniş və mükafatlandırma sisteminin Bankın strateji məqsədləri ilə uyğunluğu qiymətləndirilir.

Mükafatlandırma sisteminin əsas məqsədləri aşağıdakılardır:

- **Bankın strateji və biznes məqsədlərinin işçilərin fərdi məqsədləri ilə uyğunlaşması;**
- **İxtisaslı və istedadlı işçilərin cəlb edilməsi, saxlanılması və motivasiya edilməsi;**
- **İşçilərin şəxsi və peşəkar inkişafı üçün uyğun mühitin yaradılması.**

Cədvəl 18. Mükafatlandırma siyasətinin əsas iştirakçıları



Mükafatlandırma alətləri və mexanizmi

ABB-də mükafatlandırma sistemi Bankın insan kapitalının cəlb edilməsi, saxlanılması və davamlı inkişafının təşviqi məqsədilə formalaşdırılmışdır. Bu çərçivədə Bankın mükafatlandırma strukturu istedadlı və ixtisaslı mütəxəssislərin cəlb edilməsi üçün sabit mükafatlandırmadan, korporativ hədəflərə nail olunmasının təşviqi və əməkdaşların gələcək inkişafının motivasiyası üçün isə qeyri-sabit mükafatlandırmadan ibarətdir. Sabit gəlir əmək haqqı və ona aid əlavə ödənişləri əhatə edir, dəyişən mükafatlandırma isə fəaliyyət nəticələrinin qiymətləndirilməsi əsasında ödənilən bonuslar və illik mükafatlar vasitəsilə formalaşır. Əməkdaşların funksiyalarından və Əsas Fəaliyyət Göstəricilərindən (ƏFG) asılı olaraq aylıq, rüblük və illik qiymətləndirmələr həyata keçirilir. 2025-ci ildə 58,15% kişi və 41,85% qadın əməkdaş üzrə müntəzəm performans və karyera inkişafı qiymətləndirmələri aparılmışdır.

Əməkdaşların ədalətli qiymətləndirilməsi və mükafatlandırılması məqsədilə Mükafatlandırma Siyasəti həm keyfiyyət, həm də kəmiyyət meyarlarını nəzərə alır, Bankın icraçı rəhbərliyi də daxil olmaqla bütün işçilərə şamil edilir. Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyətinin üzvləri (o cümlədən sədrlər) üçün illik mükafatlandırma Səhmdarların Ümumi Yığıncağı tərəfindən müəyyən edilir.

Mükafatlandırma haqqında qərar qəbul edilərkən aşağıdakı prudensial göstəricilərin müvafiq tənzimləyici tələblərə cavab verməsi əsas şərt kimi nəzərə alınır: cəmi kapitalın minimal məbləği, kapitalın adekvatlığı əmsalı və aktivlər üzrə yaradılmış xüsusi ehtiyatlar. İcra kateqoriyaları üzrə mükafatların müəyyən edilməsi zamanı Bankın əməliyyat nəticələri, eləcə də tənzimləyicinin bank sektoru üçün müəyyən etdiyi qeyri-işlək aktivlərin ümumi aktivlərə nisbəti göstəricisi də nəzərə alınır.

ABB-nin mükafatlandırma sistemi performans nəticələrinə əsaslanan çevik yanaşma ilə bütün işçi kateqoriyaları üzrə rəqabətqabiliyyətli ödəniş səviyyəsini təmin etməyi hədəfləyir. Eyni zamanda, mükafatlandırma mexanizmində mümkün bərabərsizliklərin minimuma endirilməsi, maksimum şəffaflıq və ədalətliliyin təmin olunması məqsədilə sistem mütəmadi olaraq təhlil edilir və təkmilləşdirilir.

Cədvəl 19. Bankda minimum əmək haqqı səviyyəsinin ölkədəki minimum əmək haqqına nisbəti

İllər	2023		2024		2025	
Gender	**Kişi**	**Qadın**	**Kişi**	**Qadın**	**Kişi**	**Qadın**
Nisbət	1.65	1.45	1.7	1.6	1.4	1.4

Komplayns və maliyyə monitorinqi sistemi

Proseslərimizin qanunvericiliyin tələblərinə və qabaqcıl beynəlxalq təcrübələrə uyğun şəkildə qurulmasını təmin etmək məqsədilə komplayns və maliyyə monitorinqi sisteminə xüsusi əhəmiyyət veririk. Komplayns Bankın fəaliyyətində əsas meyarlardan biri kimi qəbul olunur və bu məsələyə strateji səviyyədə yanaşılır. Eyni zamanda, tənzimləyici tələblərə çevik uyğunlaşmaq üçün institusional potensialımızı davamlı olaraq gücləndiririk.

2023-2025-ci illər üzrə İnkişaf Strategiyası çərçivəsində Maliyyə Monitorinqi və Komplayns Departamentinin funksiyaları, xüsusilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə (ƏL/TMM) üzrə nəzarət və idarəetmə mexanizmləri əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Bununla yanaşı, bu sahədə yüksək standartlara sadiqliyin qorunması məqsədilə Bankın daxili siyasət və prosedurları mütəmadi olaraq yenilənir.

ABB-nin maliyyə monitorinqi və komplayns sistemi əsasən üç əsas istiqaməti əhatə edir: komplayns risklərinin idarə edilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM), eləcə də Xarici Hesablar üzrə Vergi Tələblərinə Əməletmə Aktı (FATCA) və Ümumi Hesabatlılıq Standartı (CRS) üzrə tələblərə əməl olunması.

Ümumilikdə, tətbiq olunan qanunvericiliyə və daxili siyasətlərə uyğunluq Maliyyə Monitorinqi və Komplayns Departamenti tərəfindən bir sıra sistemli fəaliyyətlər vasitəsilə təmin edilir. Bu fəaliyyətlərə komplayns baxımından yeni və ya dəyişdirilmiş bank məhsullarının nəzərdən keçirilməsi, normativ sənədlərin hazırlanması, komplayns riskləri kontekstində potensial tərəfdaşlıqların və müştəri münasibətlərinin təhlili, daxili bazar qaydalarının maliyyə bazarı tənzimləyicisinin tələblərinə uyğunluğunun mütəmadi qiymətləndirilməsi, qanunvericilikdə baş verən dəyişikliklərin davamlı izlənilməsi, daxili qayda və standartların uyğunlaşdırılması, eləcə də müvafiq qurumların tələblərinə və beynəlxalq standartlara uyğun olaraq proseslərin inkişaf etdirilməsi və monitorinqi daxildir.

2025-ci ildə komplayns sahəsində baş vermis yeniliklər

1. **Siyasət və normativ bazanın təkmilləşdirilməsi**

- "ABB" ASC-nin Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) Siyasəti 07.04.2025-ci il tarixində yenilənmişdir.
- FATF tövsiyələrində maliyyə inklüzivliyini dəstəkləyən dəyişikliklər nəzərə alınaraq, ölkənin 2024-2026-cı illər strategiyasına uyğun şəkildə bank xidmətlərinə çıxışın genişləndirilməsi, rəqəmsallaşdırma və maliyyə alətlərinin şaxələndirilməsi istiqamətində tədbirlərə başlanmışdır.
- Məsafədən hesabların açılması üzrə məhsulların inkişafı və müştəri identifikasiyası üçün normativ hüquqi bazanın hazırlanması istiqamətində işlər aparılır.
- PL/TMM bölməsi üzrə Wolfsberg standartları əsasında hazırlanmış anket vasitəsilə FATF, sanksiyalar və digər beynəlxalq standartlara uyğunluq təmin edilir.
- Qanunvericilikdə və tənzimləyici aktlarda baş verən dəyişikliklər gündəlik əsasda monitorinq edilir, təhlil cədvəlləri hazırlanaraq aidiyyəti struktur bölmələrə təqdim olunur.

2. **FATCA / CRS çərçivəsində təkmilləşdirmələr**

- ATCA üzrə "Current alerts/news" bölməsindəki yenilənmələrə uyğun olaraq W-8BEN, W-8BEN-E və W-9 formalarının yenilənmiş versiyaları tətbiq edilmişdir.
- FATCA-CRS prosedurları və hesabatlıq üzrə Dövlət Vergi Xidməti ilə razılaşdırılmış sadələşdirmə və təkmilləşdirmələr həyata keçirilir.
- CRS anketində xarici əlamətlərin ixtisar edilməsi prosesi davam edir.
- Anketlərin CIF (müştəri məlumat bazası) əsasında əldə edilməsi mexanizmi tətbiq edilmişdir.

3. **Komplayens risklərinin idarə edilməsi**

- Hesabat dövründə komplayns risklərinin siyahısına yeni əsaslı risk kateqoriyası əlavə edilməmiş, mövcud risklər yenidən qiymətləndirilmişdir.
- Risklərin təsir və ehtimal səviyyələri dəqiqləşdirilmiş, prioritetləşdirmə və idarəetmə mexanizmləri təkmilləşdirilmişdir.
- ƏL/TMM, sanksiyalar, KYC və monitorinq sahələrində daxili nəzarət mexanizmləri gücləndirilmişdir.
- Avtomatlaşdırılmış monitorinq və analitik alətlərin tətbiqi genişləndirilmişdir.
- Risk əsaslı indikatorlar yenilənmiş, insan amilindən asılılıq azaldılmışdır.
- Daxili qaydalar və metodoloji sənədlər aktual tənzimləyici tələblərə uyğunlaşdırılmışdır.
- Fintex şirkətləri üzrə xüsusi sorğu forması və prosedur tətbiq edilmişdir.
- SAP platforması üzərindən keyfiyyət, SƏTƏM və dayanıqlılıq üzrə sualların toplanması təmin edilmişdir.

4. **Rəqəmsallaşma və avtomatlaşdırma**

- ABB ARMMX tərəfindən təqdim olunan "ŞƏMS" platformasına qoşulma təmin edilmiş və maliyyə monitorinqi üzrə məlumat mübadiləsi tam rəqəmsallaşdırılmışdır.
- İnternet Bankçılıq üzərindən açılan hesablar üzrə benefisiar mülkiyyətçilər və imza səlahiyyətli şəxslər barədə məlumatların AR MMX-ya ötürülməsi prosesi tam avtomatlaşdırılmışdır.
- Şübhəli əməliyyatların aşkarlanması üçün data modeli hazırlanmış, Generativ Süni İntellekt əsaslı yeni risk indikatorları Siron AML sisteminə inteqrasiya edilmişdir.

- Sanksiya riskləri üzrə Siron Embargo sistemi yeni versiyaya miqrasiya edilmiş və ISO 20022 MX formatına keçid təmin olunmuşdur.
- Ölkəxarici fiziki şəxslər üzrə köçürmələr üçün RPA əsaslı risk monitorinq mexanizmi tətbiq edilmişdir.
- Müştərilərin avans köçürmələri üzrə avtomatlaşdırılmış məlumatlandırma sistemi tətbiq olunmuşdur.
- Hesabatlılıq və nəzarət prosesləri mərhələli şəkildə RPA sisteminə inteqrasiya edilir, əl əməyinə əsaslanan prosedurlar minimuma endirilir.

5. Analitika, alətlər və daxili nəzarət

- AI əsaslı komplayens chatbot üçün sual-cavab bazası yaradılmışdır.
- Fiziki və hüquqi şəxslər üzrə Müştərinin Özünüqiymətləndirmə (MUT) anketi təkmilləşdirilmişdir.
- "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanun, reklam və marketinq qaydaları, hesabların açılması, istehlakçı müraciətləri və digər sahələr üzrə uyğunluq qiymətləndirilməsi aparılmışdır.
- Aşkarlanmış çatışmazlıqlar üzrə tədbirlər planı hazırlanmış və Jira platforması üzərindən icraya yönləndirilmişdir.
- Bankdaxili intizam qaydaları və Korporativ Etika Məcəlləsi üzrə əməkdaşlara əlavə xatırlatmalar edilmişdir.

6. Təlim və maarifləndirmə

Aşağıdakı mövzular üzrə təlimlər keçirilmişdir:

- Aidiyyəti şəxslər və insayderlərlə iş;
- ƏL/TMM üzrə şübhəli əməliyyatların araşdırılması;
- Benefisiar mülkiyyətçilərin müəyyən edilməsi;
- Müştərilərin canlı eyniləşdirilməsi və verifikasiyası;
- Məsafədən hesab açılması üzrə qanunvericilik tələbləri;
- Nağdsız hesablaşmalar və vergi ödəyiciləri üzrə əməliyyatlar;
- Müştəri risk profili və sanksiya siyahıları üzrə yoxlamalar;
- Bankın ƏL/TMM üzrə daxili nəzarət proqramı və prosedurları.

Daxili və kənar audit

Daxili audit

Daxili Audit xidməti Bankda risklərin idarə edilməsi, nəzarət mexanizmləri və korporativ idarəetmə proseslərinin müstəqil və obyektiv qiymətləndirilməsini həyata keçirərək əminlik xidmətləri göstərir, eyni zamanda bu sahələrdə proseslərin təkmilləşdirilməsi və əməliyyat səmərəliliyinin artırılması məqsədilə məsləhətçi rolunu icra edir. Xidmətin əsas vəzifəsi müstəqil və obyektiv audit fəaliyyəti vasitəsilə Bankın fəaliyyətinə əlavə dəyər yaratmaq və onun davamlı inkişafını dəstəkləməkdir. Daxili auditin missiyası təşkilati dəyərin artırılması və qorunmasıdır. Bu funksiya mütəmadi olaraq kənar, müstəqil qiymətləndirmədən keçirilir. Qrup üzrə risklərin idarə olunması, daxili nəzarət və korporativ idarəetmə sahələrində qabaqcıl təcrübələrə əsaslanan, müstəqil və strateji tərəfdaş kimi fəaliyyət göstərən daxili audit funksiyasını formalaşdırmaq və inkişaf etdirmək.

2025-ci ildə həyata keçirilmiş daxili audit yoxlamaları Bankın əsas funksional istiqamətlərini əhatə etmiş və daxili nəzarət mexanizmlərinin yetərliliyi, idarəetmə və risklərin idarə edilməsi sistemlərinin effektivliyi, yeni proseslərin, əməliyyatların və informasiya sistemlərinin keyfiyyət standartlarına uyğunluğu, maliyyə məlumatlarının etibarlılığı və düzgünlüyü, habelə törəmə müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi kimi prioritet sahələrə fokuslanmışdır.

Hesabat ili ərzində icra olunmuş 109 daxili audit yoxlamasının nəticələri üzrə müəyyən edilmiş riskləri əks etdirən hesabatlar İdarə Heyətinə, Audit Komitəsinə və Müşahidə Şurasına təqdim edilmişdir. Audit funksiyasının qatdığı dəyərin artırılması, auditdə texnoloji inkişafın təmin edilməsi, eləcə də insan kapitalının davamlı inkişafı və səmərəliliyinin yüksəldilməsi.

Kənar audit

Şəffaflıq və hesabatlılıq prinsiplərinə sadiqliyimiz çərçivəsində, ABB maliyyə hesabatlarının etibarlılığının və yerli və beynəlxalq standartlara uyğunluğunun təmin edilməsinə xüsusi önəm verir. Bu məqsədlə Bankın maliyyə hesabatları müstəqil kənar auditor tərəfindən yoxlanılır.

Kənar auditor üç ildə bir dəfə açıq tender proseduru əsasında seçilir. EY şirkəti ABB-nin 2023, 2024 və 2025-ci hesabat illəri üzrə müstəqil auditoru olmuş və hazırda da Bankın kənar auditoru kimi fəaliyyətini davam etdirir.

Kənar audit prosesinin yüksək peşəkarlıq və obyektivlik prinsipləri əsasında həyata keçirilməsi Bank üçün əsas prioritetlərdəndir. Bu səbəbdən, kənar auditorun audit, etik, peşəkar və tənzimləyici tələblərə tam cavab verməsi əsas şərt kimi müəyyən olunmuşdur. Kənar auditin effektivliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə bir sıra nəzarət mexanizmləri tətbiq edilir. Bu mexanizmlərə audit şirkətinin obyektivliyinin, müstəqilliyinin və peşəkar mülahizələrinin qiymətləndirilməsi, kənar audit komandasının peşəkarlıq səviyyəsinin və iş keyfiyyətinin dəyərləndirilməsi, Audit Komitəsi ilə kənar auditor arasında müntəzəm və strukturlaşdırılmış əlaqənin təmin edilməsi, audit təqdimatlarının və kommunikasiya proseslərinin nəzərdən keçirilməsi əsasında kənar auditorların illik qiymətləndirilməsinin aparılması, habelə audit planına uyğun olaraq icra edilməli məsələlərin mütəmadi monitorinqi daxildir.

Tənzimləyici mühitdə baş verən dəyişikliklər fonunda hesabatlılıq üzrə tələblərin əhatə dairəsi və sərtliyi son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda, tənzimləyici hesabatlılıq normaları yerli qanunvericiliyə və maraqlı tərəflərin gözləntilərinə uyğun fəaliyyət üçün konkret müddət tələbləri müəyyən edir. Bu isə Bankda daxili hesabat mexanizmlərinin və korporativ idarəetmə sisteminin davamlı şəkildə təkmilləşdirilməsini və gücləndirilməsini təşviq edir.

İnvestor və səhmdar münasibətləri

İnvestorlar və səhmdarlar Bankın korporativ idarəçiliyinə, uzunmüddətli inkişafına, təşkilati dürüstlüyünə əhəmiyyətli təsir göstərirlər. Səhmdarlarla qarşılıqlı əlaqələrimiz dörd əsas prinsipi rəhbər tutur:

Qanunvericilik

Dividendlərin hesablanması, ödənilməsi (elan olunması) prosesinin qüvvədə olan qanunvericiliyə, eləcə də qanunvericiliyə müvafiq olaraq qəbul edilən digər normativ aktlara uyğun təşkili və icrası

Şəffaflıq

Dividendlərin hesablanması, ödənilməsi (elan olunması), habelə ümumilikdə Siyasətin həyata keçirilməsində şəffaf mexanizmin qurulması

Ədalətlilik

Dividendlərin hesablanması, onların məbləği və ödənilməsi qaydaları haqqında məlumatların əldə edilməsi üçün bütün səhmdarların Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində bərabər hüquqlarla təmin edilməsi, Bank və onun səhmdarlarının maraqlarının optimal uyğunluğuna nail olunması

Dayanıqlı inkişaf

Siyasətin mütəmadi yenilənməsi və Bankın strateji məqsədlərinin dəyişməsi halında ona yenidən baxılması, eləcə də Bankın investisiya cəlbediciliyinin artırılması, kapitallaşdırılması və gəlirliliyinin yüksəldilməsi zərurəti.



İnvestor və səhmdarlarla kommunikasiya kanalları



Səhmdarların hüquqları

ABB səhmdarlarının hüquqlarının qorunmasını və potensial risklərin qabaqlayıcı şəkildə idarə olunmasını korporativ idarəetmə çərçivəsində əsas prioritetlərdən biri kimi müəyyən edir. Bank səhmdarların maraqlarının təmin olunması, onların qərarvermə proseslərində iştirakının və məlumatlandırılmasının gücləndirilməsi üçün müvafiq mexanizmlər tətbiq edir. Aşağıda səhmdarların əsas hüquqları Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın Nizamnaməsinə uyğun olaraq ümumiləşdirilmiş şəkildə təqdim olunur:

1. Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın Nizamnaməsinə uyğun olaraq Bankın idarə edilməsində iştirak etmək;
2. Bankın fəaliyyəti haqqında məlumat almaq, ildə azı bir dəfə Bankın illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
3. Səhmdarların Ümumi Yığıncağının çağırılmasını tələb etmək;
4. Səhmdarların Ümumi Yığıncağının gündəliyinə dəyişikliklərin edilməsi və gündəliyə yeni məsələlərin daxil edilməsini təklif etmək;
5. Səhmdarların Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək və yığıncağın protokolunun surətini tələb etmək;
6. Bankın fəaliyyətinə nəzarət məqsədilə müvafiq rəy və hesabatların təqdim edilməsini tələb etmək;
7. Bankın xalis mənfəətindən dividendlər əldə etmək;
8. Bankın ləğvi halında qalan əmlakın müvafiq hissəsinin alınması hüququna malik olmaq;
9. Bankın səhmlərinin satışı və digər dövriyyə əməliyyatlarında iştirak etmək;
10. Azərbaycan Respublikasının qanunvericiliyində və Bankın Nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

Risklərin idarə edilməsi

ABB riskləri proaktiv şəkildə idarə etmək və azaltmaq üçün risklərin idarə edilməsi çərçivəsinə xüsusi önəm verir. Proses ABB-nin Risklərin İdarə Edilməsi Siyasətinə uyğunlaşdırılan və "Üç müdafiə xətti" modelinin rəhbər tutulduğu risklərin müəyyən edilməsini, qiymətləndirilməsini, cavablandırılmasını, monitorinqini və hesabatını əhatə edir.

Cədvəl 20. "ABB" ASC-nin mövcud təşkilati strukturu üzrə müdafiə xətlərinin iştirakçıları




ABB-nin risk idarəetməsində əsas addımlar:

1. **Müəyyənləşdirmə:**
   ABB-nin məqsədlərinə və əməliyyatlarına təsir edə biləcək potensial risklərin müəyyən edilməsi;
2. **Qiymətləndirmə:**
   Müəyyən edilmiş risklərin ABB-nin əməliyyatları üçün əhəmiyyətinin və potensial təsirinin qiymətləndirilməsi;
3. **Tənzimləmə:**
   Təhlil olunmuş risklərə effektiv reaksiya vermək və onları idarə etmək üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi;
4. **Monitorinq:**
   Risklərə cavab tədbirlərinin effektivliyini müntəzəm olaraq izləmək və qiymətləndirmək;
5. **Hesabat:**
   Risklə bağlı məlumatların icmallaşdırılaraq müvafiq maraqlı tərəflərə şəffaf və vaxtında çatdırılması.

ABB-nin Risk idarə etmə sisteminin prinsipləri

Risklərin İdarə Edilməsi Siyasətimizə əsasən, risklərin idarə edilməsi sistemimizi dəstəkləyən səkkiz əsas prinsip var. Bu prinsiplər təşkilatımız daxilində riskə yanaşmamız və onları idarə etməyimiz üçün təməl rolunu oynayır. (Cədvəl 21)

Cədvəl 21. ABB-nin Risklərin idarə edilməsi sisteminin 8 əsas prinsipi



Risk idarəetmə çərçivəmizin əsas elementləri

Mövcud bazar şərtlərinin qeyri-müəyyənliklərinə cavab olaraq ABB möhkəmlik və çevikliyi vurğulayan möhkəm risk idarəetmə çərçivəsini işləyib hazırlayıb. Bu çərçivə bizə maraqlı tərəflərin mənafelərini qorumağa və biznesin davamlılığını təmin etməyə imkan verir. Risklərin idarə edilməsi yanaşmamız strateji qərarlara rəhbərlik edir, missiya və baxışımızla uyğunlaşır. Risklərin idarə edilməsi sistemi Risklərin İdarə Edilməsi Siyasəti və Strategiyasına əsaslanır, təşkilat daxilində riskləri effektiv şəkildə idarə etmək üçün hərtərəfli plan təmin edir.

ABB olaraq fərqindəyik ki, daim dəyişən bazar şərtlərini nəzərə alaraq, strateji prioritetlərimizə və ehtiyaclarımıza cavab vermək üçün risk idarəetmə çərçivəmizi davamlı təkmilləşdirmək və dəyişdirmək vacibdir.

Risk idarəetmə çərçivəmiz aşağıdakı konsepsiyalar ətrafında qurulub:

Risk mədəniyyəti

Risk mədəniyyəti bank daxilində dəyərlərə əsaslanan yanaşmanı təşviq edir, işçilərin risklərin idarə edilməsi prinsiplərini anlamasına və öz fəaliyyət sahələrində risklərə diqqət yetirməsinə kömək edir.

Risk iştahı bəyannaməsi

Risk iştahı bəyannaməsi Bankın gündəlik biznes fəaliyyətində qarşılaşdığı risklərin məqbul səviyyədə idarə edilməsi üçün onun əsas risklər üzrə iştahı, keyfiyyət və kəmiyyət göstəriciləri, risk limitlərini müəyyən edən mühüm sənəddir.


Risk istilik xəritəsi

Risk istilik xəritəsi risklərin ehtimal və təsir səviyyələrinə əsasən vizual təsnifatını təmin edən alətdir və risklərin prioritetləşdirilməsi, eləcə də effektiv idarə olunması üçün istifadə olunur.

Bizim yanaşmamız

Müəyyən et!
Qiymətləndir!
Tənzimlə!
Monitorinq et!
Hesabat ver!

ABB risklərin effektiv idarə edilməsinə böyük əhəmiyyət verir. Bank müfəssəl prosedur sənədləri işləyib hazırlayır, hesabatlar vasitəsilə risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və idarə olunması üçün əlverişli mühitin yaradılması məqsədilə işçilərin məlumatlılığını daim təmin edir. Qabaqcıl dünya təcrübəsinə əsaslanan bu yanaşma işçilərin məsuliyyətinin artırılmasına, işin sabitliyinin təmin edilməsinə, aktivlərimizin qorunmasına kömək göstərir.



Cədvəl 22. Yanaşmamız: Müəyyənləşdirmək; Qiymətləndirmək; Tənzimləmək; Monitorinq; Hesabat

Riskin müəyyənləşdirilməsi
- Risk xəritələrinin hazırlanması;
- Sorğuların aparılması;
- Empirik tədqiqatların aparılması;
- Erkən xəbərdarlıq sistemlərinin tətbiqi və digər metodlar;

Riskin qiymətləndirilməsi
- Riskə məruz dəyər modellərinin qiymətləndirilməsi;
- Riskə məruz portfel modelinin tətbiqi;
- İflasa ekvivalent risk modelinin qiymətləndirilməsi;
- Vintaj analizinin aparılması;
- Stress-testlərin və digər metodların istifadəsi;

Riskin tənzimlənməsi
- Əvvəlki addımlardan əldə edilən nəticələrin təhlili;
- Riskin qəbulu, minimallaşdırılması, ötürülməsi, habelə riskdənqaçma tədbirlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi;

Risk monitorinqi
- Götürülən risklərin risk iştahına uyğunluğunun monitorinqi;

Risk hesabatı
- Risk məlumatlarının icmallaşdırılması;
- Risk hesabatı çərçivəsinin yaradılması.

2025-cü ildə risklərin idarə edilməsi prosesi

Həyata keçirilən risklərin qiymətləndirilməsi prosedurlarına əsasən, ABB aşağıdakı risk kateqoriyalarını müəyyənləşdirərək idarə edir:

Cədvəl 23. Risklərin idarə edilməsi prosesi

№	Risklərin klassifikasiyası	Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri
1	**Kredit riskləri**	Borcalanın, emitentin və ya kontragentin öz öhdəliyini müqavilə şərtlərinə uyğun olaraq icra edə bilməməsi nəticəsində itkinin yaranması riski • Borcalanların kreditin verilmə anında ödəmə qabiliyyətinin qiymətləndirilməsi; • Borcalanların kreditin verilmə anında qiymətləndirilməsi məqsədilə kəmiyyət və keyfiyyət göstəricilərinə əsaslanan daxili risk reytinqi modellərinin tətbiqi; • Portfel əsaslı təhlillər zamanı vintaj təhlilləri, keçid matrisləri və digər alətlərin tətbiqi; • Portfel əsaslı təhlillər zamanı defolt əmsalı, defolt halında itki və defolta məruz dəyər göstəricilərinin hesablanması və analitikası; • Kredit risklərinin müəyyənləşdirilməsi məqsədilə empirik təhlillər, davranış skorinq modelləri, erkən xəbərdarlıq sistemləri və digər metodların istifadə olunması; • Kredit riski səviyyəsinin artma ehtimalının qarşısını almaq məqsədilə kredit risklərinin monitorinqinin aparılması

№	Risklərin klassifikasiyası	Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri
2	**Bazar riskləri**	Faiz dərəcələrinin əlverişsiz dəyişməsi, valyuta məzənnələrində və ya Bank tərəfindən alınmış qiymətli kağızların dəyərində, o cümlədən bazarda ümumi əmtəə qiymətlərində əlverişsiz dəyişikliklərlə bağlı risklər
2.1	Faiz dərəcəsi riski	• Mütəmadi olaraq monitorinq və hesabatlılıq; • Stress-test qəp analizi və ssenari təhlilləri, iqtisadi dəyər analizi.
2.2	Valyuta riski	• Xarici valyutalarda açıq mövqelərin gündəlik nəzarət və təhlili; • Riskə məruz dəyər modeli
2.3	Kapital riski	• Kapital riski limitlərinin müəyyən edilməsi və mütəmadi monitorinqi; • Qiymətli kağızlar üzrə fərdi və portfel səviyyəsində mütəmadi qiymətləndirmələrin aparılması; • Riskə məruz dəyər modeli; • Ssenari təhlilləri
3	**Likvidlik riskləri**	Planlaşdırılmış və gözlənilməz öhdəliklərin vaxtında və təsirli şəkildə yerinə yetirilməməsindən qaynaqlanan risklər. • Likvidlik təhlili və kəmiyyət göstəricilərinin monitorinqi; • Stress testlər və ssenari analizlərinin aparılması; • Erkən xəbərdarlıq sistemi; • Bankın fəaliyyətinin təsdiq olunmuş likvidlik standartları çərçivəsində həyata keçirilməsinə nəzarət; • Likvidlik qəpi analizi; • Likvidlik mənbələrinin diversifikasiyasının və dayanıqlılığının qiymətləndirilməsi; • Hər valyuta üçün proqnozlaşdırılan nağd pul axınına nəzarət; • Yerləşdirmə və likvidlik riski göstəricilərinə limitlərin tətbiqi
4	**Əməliyyat riskləri**	Standart əməliyyat prosedurlarına riayət edilməməsi nəticəsində yaranan risklər
4.1	İnsan resursları riski	• Namizədlərin seçilməsi, işəqəbulu üçün bankdaxili qaydalar; • İşçi heyətinin təhlükəsizliyi məsələləri, iş proseslərinin qurulması və aparılması, müvafiq məlumatların qorunması barədə işçilərə təlimat vermək; • Müntəzəm olaraq daxili tədqiqatlar aparmaq.
4.2	Kənar risk	• Kənar təsirlər və fövqəladə hallar üçün stress-testlərin aparılması; • Kiberhücum risklərini ölçmək üçün nüfuzetmə testlərinin nəticələrini təhlil etmək və nəticələr barədə müvafiq strukturlara məlumat vermək.
4.3	İnformasiya texnologiyaları riski	• Bankın əsas əməliyyat sistemlərindəki fasilələr və səhvlər üçün insidentlərin qeydiyyatı və Risk iştahı bəyannaməsində limitlərin tətbiqi; • Səlahiyyət və qərar qəbuletmə həddinin müəyyən edilməsi; • İT risk insidentlərinin qeydiyyatı və monitorinqi; • Məlumatların qorunması üçün təhlükəsizlik protokollarının tətbiqi, şifrələmə və giriş nəzarət sistemlərinin gücləndirilməsi; • Real vaxt rejimində kibertəhlükələrin izlənilməsi, DDoS, fişinq və s. hücumlara qarşı erkən xəbərdarlıq sistemlərinin qurulması; • Bank əməkdaşlarının və müştərilərin sosial mühəndislik hücumlarına qarşı maarifləndirilməsi; • Bankın biznes fasiləsizliyinin təmin edilməsi üçün mütəmadi backup prosedurlarının həyata keçirilməsi və fövqəladə hallarda bərpa planlarının hazırlanması.
4.4	Hüquq riski	• Bankın risk iştahında qəbul edə biləcəyi qanuni risk limitlərinin müəyyən edilməsi; • Səlahiyyət və qərar qəbuletmə sisteminin qurulması; • Bankın fəaliyyətinin yerli və beynəlxalq qanunvericiliyə tam uyğun olmasını təmin etmək, müqavilələrin və hüquqi sənədlərin ekspertizadan keçirilməsi; • Effektiv nəzarət sisteminin qurulması.

№	Risklərin klassifikasiyası	Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri
5	**Digər risklər**	
5.1	İmic riski	• İctimaiyyət, media və sosial şəbəkələrdə xəbərlərin mütəmadi izlənməsi, müştəri məmnuniyyətini ölçmək üçün vaxtaşırı sorğular; • Şikayətlərin qeydiyyatı, fəaliyyətin araşdırılması və nəticələri ilə bağlı tədbirlər görülməsi
5.2	Strateji risk	• Diversifikasiya strategiyaları, rəqəmsal transformasiya və requlyativ standartalara uyğun olaraq risklərin minimallaşdırılması; • Nəticələr barədə hesabatların təqdim edilməsi
5.3	Layihə riski	• İcra ediləcək layihələrin risk əsaslı prioritetlərinin icrası və icra müddətində icra vəziyyətinə və qalıq risklərə nəzarət; • İcra strukturları ilə əlaqə və metodiki idarəetmə fəaliyyətlərində iştirak; • Layihənin gedişatına mütəmadi nəzarət, empirik təhlil, erkən xəbərdarlıq sistemləri, müəyyən edilmiş risklər barədə hesabatlar, analitik təhlil hesabatları

Məlumat məxfiliyi və kibertəhlükəsizlik

Rəqəmsallaşmanın sürətlənməsi fonunda bank sektorunda kibertəhlükəsizlik məsələləri strateji əhəmiyyət kəsb edən əsas prioritetlərdən birinə çevrilmişdir. Daim dəyişən qlobal rəqəmsal informasiya mühitində gözlənilməz məlumat pozuntuları və kibertəhlükəsizlik insidentləri baş verə bilər və bu risklərin effektiv şəkildə idarə olunması xüsusi diqqət tələb edir. Bu baxımdan, güclü kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması və müştərilərin məlumatlarının təhlükəsizliyinin davamlı şəkildə qorunması bank sektoru üçün kritik əhəmiyyət daşıyır.

ABB bu sahəni prioritet istiqamət kimi müəyyən edərək hesabat ilində məlumat təhlükəsizliyinə nəzarət mexanizmlərini əhəmiyyətli dərəcədə gücləndirmiş, brendə olan etimadın qorunması və möhkəmləndirilməsi məqsədilə müvafiq texnoloji və institusional həllərə investisiyalar yatırmışdır. Risklərin effektiv idarə olunmasını təmin etmək üçün isə Bankda möhkəm və çoxsəviyyəli nəzarət mühiti formalaşdırılmışdır.

Cədvəl 24. Məlumatların məxfiliyi və qorunması



ABB-nin İnformasiya Təhlükəsizliyi Konsepsiyasına uyğun olaraq məlumatların qorunmasında ardıcıllıq və sistemlilik təmin edilir, məxfilik və bütövlüyün qorunması məqsədilə nəzarət mexanizmləri davamlı şəkildə gücləndirilir. Bankın məlumat təhlükəsizliyi yanaşması üç əsas prinsip üzərində qurulmuşdur: məxfilik, tamlıq və əlçatanlıq. Məxfilik məxfi məlumatların səlahiyyətsiz şəxslər tərəfindən açıqlanmasının qarşısının alınmasını və konfidensiallığın təmin edilməsini nəzərdə tutur ki, bu da Bankın maliyyə və hüquqi əməliyyatlarına, eləcə də reputasiyasına dəyən risklərin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Tamlıq məlumatların yalnız əvvəlcədən razılaşdırılmış və icazə verilmiş qaydada dəyişdirilməsini təmin etməklə, təhrif və icazəsiz dəyişiklik risklərini minimuma endirir. Əlçatanlıq isə biznes tələblərinə uyğun olaraq informasiya sistemlərinə fasiləsiz və etibarlı çıxışın təmin edilməsi üçün effektiv mexanizmlərin qurulmasını nəzərdə tutur.

Konsepsiya Azərbaycan Respublikasının "Banklar haqqında", "Dövlət sirri haqqında", "İnformasiya,

informasiyalaşdırma və məlumatların mühafizəsi haqqında" qanunları, Azərbaycan Respublikası Mərkəzi Bankının "Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələbləri əsasında hazırlanmış və ISO/IEC 27001:2022 İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS) beynəlxalq standartına uyğunlaşdırılmışdır. Ayrı-ayrı informasiya sistemlərinin istismarı və məlumatların emalı ilə bağlı bütün əməliyyat sənədləri İnformasiya Təhlükəsizliyi Konsepsiyasında müəyyən edilmiş tələblərə uyğun olmalıdır. Konsepsiyada əks olunan müddəalar informasiya sistemlərinin fəaliyyəti ilə bağlı digər daxili sənədlər üzərində üstün hüquqi qüvvəyə malikdir və bu iyerarxiya təhlükəsizlik prinsiplərinin və siyasətlərin Bank üzrə ən yüksək prioritet kimi tətbiqini təmin edir. Bankın informasiya resurslarının bütövlüyünün və təhlükəsizliyinin qorunması üçün bu tələblərə riayət edilməsi məcburidir.

İT komandası işçilərinin sayı

İT komandası işçilərinin sayı

2023	2024	2025
555	675	794

Əməliyyat Göstəriciləri və Kibermüdafiə Performansı

ABB-nin mürəkkəb və dayanıqlı İnformasiya Təhlükəsizliyi Konsepsiyası nəticəsində, infrastrukturumuza qarşı yönəlmiş hücumların qarşısının alınması üzrə icmal göstəricilər aşağıdakı kimidir:

- **Xarici Perimetr Mühafizəsi:** Şəbəkəmizin kənar hücumlara qarşı dözümlülüyü nəticəsində ictimaiyyətə açıq resurslarımıza yönəlmiş 21 milyondan çox kiberhücum cəhdi neytrallaşdırılmışdır.
- **E-poçt Təhlükəsizliyi və Anti-Fişinq:** Əməkdaşlarımızın və korporativ məlumat mübadiləsinin təhlükəsizliyi məqsədilə e-poçt kanalları üzərindən həyata keçirilən 58 milyondan çox zərərli fəaliyyətin (fishing, malware və s.) qarşısı uğurla alınmışdır.
- **Məlumat Sızmasının Qarşısının Alınması (DLP):** Məlumatların konfidensiallığının qorunması çərçivəsində 91 məlumat sızması cəhdi daxili monitorinq sistemlərimiz tərəfindən vaxtında aşkar edilərək bloklanmışdır.
- **Xidmətin Davamlılığı (DDoS Müdafiəsi):** Rəqəmsal xidmətlərimizin əlçatanlığını təmin etmək məqsədilə 16 iri miqyaslı DDoS hücumu dəf edilmişdir. Qeydə alınan maksimum hücum həcmi 24 Gbps təşkil etmişdir ki, bu da sistemlərimizin yüksək yüklənmə şəraitində belə stabil fəaliyyətini sübut edir.

ABB təhlükəsizlik mühitini davamlı olaraq təkmilləşdirir, yeni nəzarət qaydaları tətbiq edir ki, bu da aşkaretmələrin artmasına və risklərin daha erkən mərhələdə müəyyən edilməsinə şərait yaradır.

ABB-də İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS) tətbiq olunur. Bu sistemin əsas üstünlüklərinə aşağıdakılar daxildir:

- Məlumatların mühafizəsinin və normativ tələblərə uyğunluğun gücləndirilməsi;
- Təhlükəsizlik pozuntuları və potensial maliyyə itkiləri risklərinin azaldılması;
- Maraqlı tərəflərin etimadının möhkəmləndirilməsi və uzunmüddətli dayanıqlılığın təmin edilməsi.

İnkişaf edən kibertəhlükələrə qarşı effektiv müdafiənin saxlanılması və məxfiliyin qorunması üçün Bank əməkdaşları arasında informasiya təhlükəsizliyi üzrə yüksək səviyyədə məlumatlılığın formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə keçirilən maarifləndirmə təlimləri aşağıdakı nəticələrin əldə olunmasına xidmət edir:

- Daxili təhdidlərin və insan səhvlərindən qaynaqlanan risklərin azaldılması;
- Təhlükəsizlik mədəniyyətinin təşviqi və möhkəmləndirilməsi;
- Tənzimləyici tələblərə və sənaye standartlarına uyğunluğun təmin edilməsi.

Qarşısı alınan kiberhücumların sayı	2023	2024	2025
WAF (Veb tətbiqli mühafizə səddi)	2,878 ,000	32,534,000	21,076,802
Email kiberhücumları	14,670,040	4,500,000	58,594,437
XDR (Genişləndirilmiş aşkarlama və cavab)	859	4,259	12,602
Ümumi	**17,548,899**	**37,038,259**	**79,683,841**

Bank daxilində İnformasiya Təhlükəsizliyi İdarəçiliyinin (İTİ) inkişaf etdirilməsi və davamlı təkmilləşdirilməsi informasiya təhlükəsizliyi risklərinin effektiv idarə olunması, normativ uyğunluğun qorunması və maraqlı tərəflərin etimadının artırılması baxımından mühüm rol oynayır. Bu istiqamətdə həyata keçirilən əsas təşəbbüslərə aşağıdakılar daxildir:

- Güclü və sistemli idarəetmə çərçivəsinin formalaşdırılması;
- Dayanıqlılıq risklərinin qiymətləndirilməsi və idarə olunması;
- Maraqlı tərəflərin proseslərə cəlb edilməsi və şəffaflığın artırılması;
- Məlumatlandırma və maarifləndirmə proqramlarının genişləndirilməsi;
- İnformasiya təhlükəsizliyi üzrə siyasət və prosedurların hazırlanması, tətbiqi.

Beynəlxalq standartlara və yerli requlyativ tələblərə uyğunluq

Bank hesabat dövrü ərzində beynəlxalq nüfuzlu audit şirkəti EY (Ernst & Young) tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli tələblərinə, xüsusilə də "Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Tələblər"-nə uyğunluq üzrə kənar audit yoxlamasından uğurla keçmişdir.

- **Əhəmiyyəti:** Bu audit bankın daxili nəzarət mexanizmlərinin, informasiya sistemlərinin dayanıqlılığının və əməliyyat risklərinin idarə edilməsinin yerli qanunvericilik və tənzimləyici orqanın tələblərinə tam cavab verdiyini təsdiqləyir.
- **Nəticə:** Müstəqil auditor rəyi əsasında bankın korporativ idarəetmə standartlarının şəffaflığı və tənzimləyici tələblərə sadiqliyi bir daha sübut edilmişdir.

Bank ödəniş kartı məlumatlarının təhlükəsizliyinin təmin edilməsi sahəsində ən son və ən qlobal standart olan PCI DSS (Payment Card Industry Data Security Standard) v4.0.1 auditini uğurla başa vurmuşdur.

- **Əhəmiyyəti:** Bu sertifikat müştərilərimizin kart məlumatlarının emalı, saxlanması və ötürülməsi proseslərinin beynəlxalq səviyyədə ən yüksək təhlükəsizlik filtrlərindən keçdiyini təsdiq edir.
- **Nəticə:** v4.0.1 keçidi ilə Bank rəqəmsal ödəniş ekosistemində fırıldaqçılıq risklərinə qarşı dayanıqlılığını bir daha sübut edərək beynəlxalq sertifikata layiq görülmüşdür.

Beynəlxalq banklararası köçürmələrin təhlükəsizliyini təmin etmək məqsədilə keçirilən SWIFT (Society for Worldwide Interbank Financial Telecommunication) müstəqil kənar audit yoxlaması müvəffəqiyyətlə tamamlanmışdır.

- **Əhəmiyyəti:** Audit nəticəsində bankın infrastrukturunun SWIFT-in Müştəri Təhlükəsizliyi Nəzarət Çərçivəsinə (CSCF) tam uyğun olduğu təsdiq edilmişdir.
- **Nəticə:** Yenidən əldə edilmiş sertifikat, bankımızın qlobal maliyyə əməliyyatlarında kiber-dayanıqlılığını və beynəlxalq tərəfdaşlar üçün etibarlı maliyyə institutu statusunu qoruduğunu nümayiş etdirir.

Bankımız beynəlxalq səviyyədə tanınan TÜV Austria GMBH tərəfindən ISO/IEC 27001:2022 standartı üzrə növbəti nəzarət auditini (surveillance audit) uğurla tamamlamışdır.

- **Əhəmiyyəti:** Bu audit bankın informasiya aktivlərinin qorunması, risklərin idarə edilməsi və məlumat məxfiliyinin təmin olunması sistemlərinin effektivliyini və standartın ən son versiyasına tam uyğunluğunu yoxlayır.
- **Nəticə:** Audit nəticəsində bankın informasiya təhlükəsizliyi siyasətlərinin və nəzarət mexanizmlərinin dayanıqlı olduğu bir daha təsdiq edilmiş və sertifikatın qüvvədə saxlanılması barədə müsbət rəy verilmişdir.

Rəqəmsal dələduzluqla mübarizə tədbirləri

Rəqəmsal maliyyə xidmətlərinin sürətlə genişlənməsi fonunda dələduzluq risklərinin miqyası və mürəkkəbliyi də artmaqdadır. Bu çağırışlara cavab olaraq, ABB ötən il ərzində rəqəmsal fırıldaqçılığa qarşı mübarizə infrastrukturunun gücləndirilməsinə yönəlmiş mühüm texnoloji yatırımlar həyata keçirmişdir. Bu çərçivədə təşkilati səviyyədə çarpaz-kanal dələduzluq aşkarlama sistemi qurulmuş, əməliyyat və sessiya məlumatlarının analizi əsasında fırıldaqçılığın qarşısının alınmasına xidmət edən qabaqcıl alətlər tətbiq edilmişdir. Paralel olaraq, ölkədə geniş yayılmış aşağıdakı risk ssenarilərinə qarşı kompleks preventiv və nəzarət mexanizmləri formalaşdırılmışdır:

- Hesabın ələ keçirilməsi (Account Takeover);
- Zərərli proqramlar vasitəsilə hesab və ya ödəniş kartı məlumatlarının oğurlanması;
- Fişinq hücumları;
- Loyallıq proqramlarından sui-istifadə halları;
- Hesab vasitəçiliyi (Money Mule) və digər oxşar fırıldaqçılıq formaları.

Gələcək dövr üçün ABB-nin prioriteti rəqəmsal dələduzluq risklərinin daha erkən mərhələdə müəyyən edilməsi, proaktiv şəkildə qarşısının alınması və eyni zamanda yanlış pozitiv aşkarlamaların azaldılması yolu

ilə müştəri təcrübəsinin qorunmasıdır. Bu məqsədlə Bank aşağıdakı strateji texnoloji istiqamətlər üzrə inkişafı nəzərdə tutur:

- **Süni İntellekt (AI) və Maşın Öyrənməsi (ML) tətbiqləri:** Real vaxt rejimində anomaliyaların aşkarlanması və risklərin daha dəqiq proqnozlaşdırılması;
- **Generativ Süni İntellekt (Gen AI):** Mürəkkəb fırıldaqçılıq sxemlərinin modelləşdirilməsi və yeni risk ssenarilərinin simulyasiyası;
- **Skoring modellərinin təkmilləşdirilməsi:** Müştəri davranışının və risk profilinin daha dəqiq qiymətləndirilməsi üçün yeni analitik yanaşmaların tətbiqi;
- **Çarpaz-kanal dələduzluq hallarının qiymətləndirməsi:** Mobil və internet bankçılıq, kart, ATM, POS və digər kanallar üzrə əməliyyatların vahid risk platformasında inteqrasiyalı təhlili;
- **Video KYC proseslərində risklərin idarə olunması:** Saxta şəxsiyyət məlumatlarının və deepfake texnologiyalarının aşkarlanmasına yönəlmiş yeni nəsil həllərin tətbiqi;
- **SİMA rəqəmsal imza və biometrik KYC mexanizmləri:** Gücləndirilmiş autentifikasiya üçün elektron imza və üztanıma əsaslı identifikasiya həllərinin genişləndirilməsi;
- **Blokçeyn texnologiyalarının istifadəsi:** Əməliyyatların şəffaflığının artırılması və fırıldaqçılıq risklərinin azaldılması məqsədilə monitorinq sistemlərinə blokçeyn əsaslı həllərin inteqrasiyası.

Bu istiqamətlər üzrə planlaşdırılan investisiyalar bank sektorunda rəqəmsal təhlükəsizlik səviyyəsinin daha da möhkəmləndirilməsinə, fırıldaqçılıq risklərinin sistemli şəkildə azaldılmasına, eləcə də müştərilərin Banka olan etimadının və loyallığının gücləndirilməsinə xidmət edəcəkdir.

Biznes etikası və dürüstlük

Müştərilərimizin bizə göstərdiyi etimad, onların ehtiyaclarını yüksək keyfiyyətli məhsul və xidmətlərlə düzgün və məsuliyyətli şəkildə qarşılamamızın birbaşa nəticəsidir. Şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan korporativ davranış standartlarını tətbiq etməklə biz strateji hədəflərimizə daha ardıcıl və dayanıqlı şəkildə nail oluruq. Müştərilərimizin və tərəfdaşlarımızın etimadını qorumaq və möhkəmləndirmək üçün əməkdaşlarımızın davranışının və qəbul edilən biznes qərarlarının ən yüksək etik normalara uyğun olmasını təmin etməyi əsas prioritetlərimizdən biri hesab edirik.

Etik Kodeks

"ABB" ASC-nin Etik Kodeksi bütün əməkdaşlardan gözlənilən həm peşəkar, həm də şəxsi davranış üzrə etik standartları müəyyən edir. Etik Kodeksdə birbaşa tənzimlənməyən hallarda əməkdaşların düzgün qərar qəbul etməsinə dəstək olmaq məqsədilə "RADAR" qərarvermə mexanizmindən istifadə tövsiyə olunur. Bu mexanizm hadisənin tanınması, vəziyyətin qiymətləndirilməsi, görüləcək tədbirin müəyyən edilməsi, əvvəlcədən razılaşdırma və nəticələrin hesabatlandırılması və ünsiyyət mərhələlərini əhatə edir. Sözügedən yanaşmanın Bank üzrə düzgün tətbiqini təmin etmək və əməkdaşların bu sahədə məlumatlılığını artırmaq məqsədilə mütəmadi təlimlər təşkil olunur.

Korrupsiyaya qarşı mübarizə

ABB-də korrupsiyaya qarşı mübarizə sahəsində sistemli yanaşma formalaşdırılmış, müvafiq siyasət və prosedurlar tətbiq olunur. Bu istiqamətdə əsas çərçivə sənədi "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin "Korrupsiyaya qarşı mübarizə siyasəti"dir. Sözügedən siyasət korrupsiya risklərinin proaktiv şəkildə qarşısının alınmasını, potensial təsirlərin azaldılmasını və etik davranış prinsiplərinin qorunmasını təmin edən mexanizmləri müəyyən edir. Siyasət Bankın bütün əməkdaşlarını, eləcə də ABB ilə əməkdaşlıq edən üçüncü tərəfləri əhatə edir və investorların məlumatlandırılması məqsədilə Bankın rəsmi internet səhifəsində müvafiq çıxarış dərc olunmuşdur.

Bank etik standartlara və qüvvədə olan qanunvericiliyin tələblərinə uyğunluğun təmin edilməsi üçün əməkdaşların maarifləndirilməsinə xüsusi önəm verir. Bu çərçivədə mütəmadi təlimlər keçirilir, o cümlədən yeni işə qəbul olunan əməkdaşlar üçün nəzərdə tutulmuş "Welcome on Board" proqramına korrupsiyaya qarşı mübarizə mövzuları daxil edilir. Qarşıdakı dövrdə bu təlimlərin əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Eyni zamanda, ABB-də əməliyyatlar korrupsiya riski prizmasından mütəmadi olaraq qiymətləndirilir. Bank bütün fəaliyyət sahələrində şəffaflıq və etik davranış prinsiplərini rəhbər tutaraq risklərin təhlilini aparır və mümkün halların qarşısını almaq məqsədilə qabaqlayıcı nəzarət tədbirlərini ardıcıl şəkildə həyata keçirir.

"Whistleblowing"

"ABB" ASC-də qanunvericiliyin və bankdaxili normativ sənədlərin tələblərinin pozulması barədə məlumatların təqdim edilməsi, qəbulu və araşdırılmasını tənzimləyən ("Whistleblowing") Siyasət bu sahədə əsas prinsipləri, məqsədləri və görülməli tədbirləri müəyyən edir. Sözügedən siyasət Bankda mümkün pozuntuların vaxtında aşkarlanması, araşdırılması və qarşısının alınması üçün institusional çərçivə yaradır. ABB-nin Daxili nəzarət departamenti bu siyasətə, eləcə də bankdaxili normativ sənədlərə və qüvvədə olan normativ aktlara uyğun olaraq prosesləri tətbiq etməklə potensial risklərin operativ şəkildə müəyyən edilməsini və idarə olunmasını təmin edir.

Məlumatların qəbulu üçün çoxkanallı məlumatvermə mexanizmi yaradılmışdır. Bu mexanizmə korporativ elektron poçt ünvanı, qaynar xətt, WhatsApp və Telegram əlaqə nömrələri, yazılı müraciətlər, habelə elektron platforma üzərindən göndərilən müraciətlər daxildir. Bu yanaşma maraqlı tərəflərə rahat, əlçatan və anonim şəkildə məlumat vermək imkanı yaradır, eyni zamanda effektiv nəzarət və araşdırma prosedurlarının həyata keçirilməsini təmin edir.

Whistleblowing xarakterli müraciətlər aidiyyəti struktur bölmə tərəfindən qəbul edilərək qeydə alınır və ən geci 20 iş günü müddətində araşdırılır. Müraciət anonim olmadığı və qanunvericiliyə zidd hallar mövcud olmadığı təqdirdə, araşdırmanın nəticələri məlumat verən şəxsə çatdırılır. Konfidensiallıq prinsipinə uyğun olaraq, müraciət edən şəxsin istəyi nəzərə alınmaqla onun şəxsiyyəti məxfi saxlanılır.

Siyasətin effektiv tətbiqini təmin etmək və məlumatlılıq səviyyəsini artırmaq məqsədilə əməkdaşlar mütəmadi olaraq maarifləndirilir, o cümlədən yeni işçilərin işə qəbul (onboarding) prosesində onlara müvafiq məlumatlar təqdim olunur. Bu yanaşma bankdaxili şəffaflığın gücləndirilməsinə, etik davranış mədəniyyətinin təşviqinə və mümkün pozuntuların qarşısının alınmasına xidmət edir.

ABB Bankın əməkdaşlarını, müştərilərini, işgüzar tərəfdaşlarını, təchizatçıları, məsləhətçiləri və digər aidiyyəti fiziki və hüquqi şəxsləri hər hansı şübhəli hal və ya pozuntu ehtimalı yarandıqda, bu barədə müəyyən edilmiş müvafiq kanallar vasitəsilə məlumat verməyə təşviq edir.

Korporativ elektron poçt ünvanı:
whistleblowing@abb-bank.az

Məlumat vermək üçün qaynar xətt:
+994 12 4930091 (2828)

Anonim sorğunun yaradılması üçün müvafiq platforma

Müraciətin yazılı şəkildə ABB-nin poçt ünvanına təqdim edilməsi

Bankın rəsmi internet səhifəsində yerləşdirdiyimiz müvafiq siyasətlərin qısa icmalı ilə tanış ola bilərsiniz:

https://abb-bank.az/az/haqqimizda/siyasetlerimiz



İnnovasiya və rəqəmsallaşma

3.1

ABB İNNOVASİYA VƏ ABB TECH

Biz innovasiyaları şirkətin uğurunun əsas amili hesab edirik. Buna görə də davamlı şəkildə qabaqcıl texnologiyaların inkişafını və ABB Maliyyə Qrupunun əməliyyatlarına inteqrasiyasını davam etdiririk. Təkcə Qrup daxilində deyil, ölkə miqyasında da innovasiyaların təşviqinə yönəlmiş müxtəlif proqramlar həyata keçiririk.

2025-ci ildə ABB 6-cı pre-inkubasiya proqramı üzrə **20**, **AI Startup Challenge** proqramı üzrə isə **38 startapa dəstək verib**.

- **Əsas proqramlar**
- Hakatonlar
- Pre-inkubasiya
- İnkubasiya
- ABB Tech Akademiyasının tədris proqramları

Startap istiqamətində həyata keçirilmiş tədbir və proqramlar



AI Startup Challenge	187	ümumi müraciətçi
	38	seçilmiş startap
6-cı pre-inkubasiya proqramı	38	ümumi müraciətçi
	20	seçilmiş startap

6-cı pre-inkubasiya proqramı üzrə seçilmiş startaplar:

Granslate – Oyun tərtibatçılarına kontenti cəmi 5 dəqiqə ərzində AI vasitəsilə lokallaşdırmağa imkan verən avtomatlaşdırılmış lokalizasiya platformasıdır.

Agentica – AI agentlərin və modellərin idarəetməsi, xarici endpointlərin (ChatGPT, Claude kimi) modellərinin təhlükəsizliyi və Data Loss Prevention (DLP) problemlərini həll edən idarəetmə platformasıdır.

Innoroom – İstifadəçilərin otaq şəklini yükləyərək bir neçə dəqiqə ərzində AI ilə yeni interyer dizaynı əldə etməsinə imkan verən rəqəmsal dizayn platformasıdır.

CamVision – Mövcud təhlükəsizlik kameraları üzərindən AI və computer vision ilə mağazalarda müştəri davranışlarını analiz edən pərakəndə analitika həllidir.

Soft10 – WhatsApp üzərindən müştəri ünsiyyətini analiz edib satışa çevirən AI əsaslı biznes kommunikasiya və marketinq platformasıdır.

himate.az – Gənclər üçün CV-siz, AI əsaslı uyğunlaşma və erkən karyera kouçinqi təklif edən işəqəbul platformasıdır.

Evalu – Müştəri rəylərini avtomatik toplayan, analiz edən və biznes üçün real vaxt analitika təqdim edən AI əsaslı feedback idarəetmə sistemidir.

IdentifAI / VerifAI (səs fırıldaqları) – Deepfake və AI ilə yaradılmış səs fırıldaqlarını real vaxtda aşkarlayan mobil təhlükəsizlik həllidir.

PaperEasy – Elmi məqalələri avtomatik olaraq IEEE, ACM və digər LaTeX formatlarına uyğunlaşdıran AI əsaslı formatlama platformasıdır.

OPOS AI – Sığorta sektorunda müştəri dəstəyini avtomatlaşdıran AI səs assistenti və çağrı mərkəzi optimizasiya həllidir.

redmind.pro – Şirkətlər üçün real hücum ssenarilərini AI ilə simulyasiya edərək zəiflikləri öncədən aşkarlayan ofensiv kibertəhlükəsizlik platformasıdır.

VerifAI (AI audit platforması) – AI modellərində bias, məxfilik və performans risklərini no-code üsulla yoxlamağa imkan verən audit platformasıdır.

BIRLAB AI – İstifadəçilərə 100+ AI modeli bir platformada paralel test etməyə və müqayisə etməyə imkan verən vahid AI ekosistemidir.

BalansBot – Xərcləri analiz edən, qənaət məqsədləri quran və istifadəçiyə AI əsaslı maliyyə məsləhətləri verən şəxsi maliyyə assistenti tətbiqidir.

MAPS Drones – AI və swarm intelligence ilə idarə olunan, avtomatik tikinti və 3D çap üçün nəzərdə tutulmuş modul dron platformasıdır.


Spark+ – Bitki xəstəliklərini AI ilə şəkillərdən tanıyaraq xəstəliklərin yayılmasını xəritə üzərindən izləyən aqrotexnoloji platformadır.

ThinkaTale – Elmi mövzuları uşaqlar üçün hekayə formatında sadə və əyləncəli şəkildə izah edən tədris platformasıdır.

SafeML – AI modellərində backdoor və adversarial hücumları aşkarlayıb qarşısını alan təhlükəsizlik yönümlü ML qoruma sistemidir.

DETECH – Şirkətlər üçün phishing və sosial mühəndislik hücumlarını simulyasiya edərək kibertəhlükəsizlik vərdişlərini inkişaf etdirən AI təlim platformasıdır.

perspektiv.az – KOS-lar üçün işəqəbul prosesini AI ilə avtomatlaşdıran, namizədləri filtrə edən və qiymətləndirən HR platformasıdır.



Pre-inkubasiyanı uğurla tamamlamış startaplar

GRANSLATE

Granslate oyun tərtibatçılarına məzmunlarını cəmi 5 dəqiqə ərzində lokallaşdırmağa imkan verən AI əsaslı lokallaşdırma alətidir.

Innoroom

AI interior designer - Innoroom istifadəçilərə otaqlarının fotosunu yükləyərək bir neçə dəqiqə ərzində seçdikləri üsluba uyğun yenidən dizayn olunmuş versiyanı əldə etməyə imkan verən AI əsaslı interyer dizayn platformasıdır. Ənənəvi interyer dizayn prosesləri günlər, hətta həftələr çəkə bilər və çox vaxt bahalı məsləhət xidmətləri tələb edir. Bir çox ev sahibi və kiçik bizneslər isə bunu qarşılaya bilmir.

MAPS Drones - Modular AI Powered Swarm Drones-Modulyar, AI ilə gücləndirilmiş sürü dronları - ənənəvi tikinti üsullarının ləng, təhlükəli və ya mümkün olmadığı mühitlərdə tikinti proseslərini avtomatlaşdırmaq üçün maşın öyrənməsi və swarm intellektindən istifadə edən yeni nəsil avtonom hava sistemidir.

Yetişdirdiyimiz startaplardan:

Mastercard və ADA University ilə birlikdə AI-yönümlü Startup Challenge-i uğurla təşkil etmişdir. Təşəbbüs çərçivəsində real biznes problemlərinə innovativ həllər təqdim edən 40 AI əsaslı startap ideyası bir araya gəldi və təsisçilər öz layihələrini təqdim etdilər.

tryverse

Tryverse: isə Silkway Accelerator proqramında uğurla iştirak etmiş, 10,000 ABŞ dolları məbləğində bridge maliyyəsi cəlb etmiş və illik gəlirini iki dəfə artıraraq güclü kommersiya traksiyası və miqyaslana bilmə potensialı nümayiş etdirmişdir.

Miloy startapı: ABB Innovation portfelinə daxil olan Miloy startapı EBRD Star Venture Programme çərçivəsində qalib seçilərək 50,000 avro məbləğində qrant dəstəyi qazanmışdır. Bu nailiyyət ABB Innovation-un startap portfelinin artan yetkinliyini və beynəlxalq səviyyədə artan tanınmasını əks etdirir.

Bundan əlavə, ABB Innovation BakuID çərçivəsində keçirilən University Demo Day tədbirində rəsmi tərəfdaş və sponsor qismində çıxış etmişdir.



ABB Tech

ABB Tech Academy və onun məsləhət xidmətləri vasitəsilə şirkət milli istedadların inkişafına və ölkədə rəqəmsal transformasiya gündəliyinin irəlilədilməsinə töhfə verməyə davam etmişdir. Bu günədək ABB Tech Academy:

- Texnologiya yönümlü sahələr üzrə **1000-dən artıq məzun** hazırlamışdır;
- Bazarın ehtiyaclarına uyğunlaşdırılmış **44-dən çox strukturlaşdırılmış təlim proqramı** həyata keçirmişdir;
- Məzunlar arasında **82%-dən yuxarı məşğulluq göstəricisinə** nail olmuşdur;
- İşə qəbul və bacarıqların inkişafı istiqamətində **130-dan çox tərəfdaş şirkətlə əməkdaşlıq** qurmuşdur.

2025-ci ildə ABB Tech Academy fəaliyyətinin miqyasını daha da genişləndirərək, süni intellekt, data analitikası, məhsul inkişafı və korporativ texnologiyalar kimi yüksək tələbat olan sahələri əhatə edən 10 yeni təlim proqramı elan etmişdir. Eyni zamanda, Akademiya B2B strategiyasını gücləndirərək 10 yeni korporativ tərəfdaşlıq müqaviləsi imzalamış və müəssisə müştəriləri üçün fərdiləşdirilmiş təlim həlləri təqdim etmişdir.

Bu nailiyyətlər ABB Tech Academy-nin insan kapitalının inkişafı və rəqəmsal bacarıqların gücləndirilməsi sahəsində etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirməklə yanaşı, maliyyə və texnologiya ekosistemində dayanıqlı inkişafın dəstəklənməsinə mühüm töhfə verdiyini bir daha nümayiş etdirir.



3.2

SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ TƏTBİQİ

2025-ci ildə ABB süni intellekt və generativ süni intellekt (AI & GenAI) üzrə transformasiyanı sistemli və ölçülə bilən yanaşma əsasında sürətləndirmişdir. Təsdiqlənmiş AI & GenAI 2025 Yol Xəritəsi çərçivəsində Bank üzrə 5 əsas kateqoriya müəyyən edilmişdir: Müştəri Assistentləri, Əməkdaş Assistentləri, Korporativ və KOS modelləri, Pərakəndə modellər və Risk həlləri. Bu çərçivə daxilində ümumilikdə 51 istifadə ssenarisi (use case) formalaşdırılmış və mərhələli şəkildə tətbiqinə başlanmışdır.

Müştəri yönümlü həllər çərçivəsində mobil AI assistant, kiçik biznes üçün virtual köməkçi və zəng mərkəzləri üçün AI əsaslı IVR sistemləri kimi alətlər istifadəyə verilmişdir. Daxili səmərəliliyin artırılması məqsədilə isə HR sorğularını cavablandıran AI assistant, filial əməkdaşları üçün virtual köməkçi və GenAI əsaslı kod qiymətləndirmə həlləri tətbiq olunmuşdur. Korporativ və KOS seqmentində gizli mikro-müştəri aşkarlanması, memorandum hazırlanması üçün GenAI assistenti və RM səs analizi kimi alətlər qərarvermə keyfiyyətini yüksəltmişdir. Pərakəndə bankçılıqda qeyri-yaşayış daşınmaz əmlak qiymət proqnozu, müştəri həyat dövrü üzrə AI modelləri və depozit qiymətləmə analitikası kimi həllər data əsaslı idarəetməni gücləndirmişdir. Risk istiqamətində isə rəsmi gəliri olmayan müştərilər üçün gəlir proqnozu modeli, rəqəmsal KOS müraciət modeli və risk anderraytinqində GenAI köməkçisi kimi həllər risklərin daha dəqiq qiymətləndirilməsinə imkan yaratmışdır.

Bu həllərin Bank ekosisteminə inteqrasiyası məqsədilə ABB və ABB Biz platformaları, ABB Home, Evam, Salesforce, Cisco, ManageEngine və digər sistemlər daxil olmaqla ümumilikdə 19 inteqrasiya həyata keçirilmişdir. Nəticə etibarilə, bugünə qədər ümumi maliyyə təsiri 35 milyon AZN, 2025-ci il üzrə AI və GenAI təşəbbüslərinin birbaşa və dolayı maliyyə təsiri isə təxminən 9.6 milyon AZN səviyyəsində qiymətləndirilmişdir. Hesabat dövründə "Next Best Product" məhsulları üzrə AI əsaslı modellər vasitəsilə 743 KOS müştəri üzrə satış reallaşdırılmışdır.

Əldə olunan nəticələr əsasında ABB 2026-cı il üçün yeni AI yol xəritəsini artıq hazırlamışdır. Bu, Bankın süni intellekti uzunmüddətli strateji prioritet kimi möhkəmləndirdiyini, müştəri təcrübəsinin, əməliyyat səmərəliliyinin və risk idarəetməsinin növbəti mərhələdə daha da gücləndiriləcəyini göstərir.

AI-Khan & AI-Nur

2025-ci ildə ABB innovativ rəqəmsal imkanlarını genişləndirərək süni intellekt əsaslı yeni həlli – müştərilər üçün nəzərdə tutulmuş **AI-Khan və AI-nuru** təqdim etmişdir. AI-Khan müştərilərə yönəlmiş rəqəmsal köməkçidir – o, sorğulara real vaxtda cavab verir, məhsullar barədə məlumat təqdim edir və müştəri təcrübəsini fərdiləşdirir. Bu təşəbbüs Bankın xidmət keyfiyyətinin artırılması, əməliyyat səmərəliliyinin yüksəldilməsi və daxili proseslərin optimallaşdırılması istiqamətində atdığı ardıcıl addımların tərkib hissəsidir.

- ABB Biz platformasında köməkçinin tətbiqi vasitəsilə müştəri sorğularının operativ cavablandırılması və bank əməliyyatlarının sürətli icrası təmin olunmuşdur.
- AI-Khan və AI-nur artıq funksiya əsaslı tapşırıqları icra etmək qabiliyyətinə malikdir — məsələn, kartın bloklanması və ya blokdan çıxarılması kimi əməliyyatları yerinə yetirir. Bu, istifadəçi təcrübəsini daha çevik və effektiv edən yeni mərhələyə keçidi ifadə edir.
- AI-Khan və AI-nur Bankın rəsmi veb-səhifəsinə inteqrasiya olunmuş, müştərilərin suallarını real vaxtda cavablandırmaq funksionallığı təmin olunmuşdur.

- ABB mobile tətbiqində süni intellekt funksionallığı təkmilləşdirilərək müştərilərə **satış yönümlü 3 yeni istifadə ssenarisi** (use-case) üzrə fərdiləşdirilmiş mesajların təqdim edilməsi təmin olunmuşdur. Bu yanaşma çərçivəsində müştərilərə real vaxt rejimində uyğun məhsul təklifləri göndərilmiş və AI əsaslı yönləndirmə mexanizmi vasitəsilə satışa çevrilmə səviyyəsi artırılmışdır.

Tətbiq olunan yeni istiqamətlər üzrə nəticələr aşağıdakı kimi olmuşdur:

- **Avtoödəniş (Autopayment**) funksionallığı üzrə dövriyyədə 11.14 min AZN artım qeydə alınmışdır.
- **Öncədən təsdiqli TamKart kreditləri (Pre-approved Tam Card)** üzrə **147 satış** həyata keçirilmiş, nəticədə **1.15 milyon AZN dövriyyə artımı** formalaşmışdır.
- **Avans kreditləri (Advance Loan)** üzrə **9 satış** reallaşdırılmış və **2.57 min AZN dövriyyə artımı** əldə edilmişdir.

2025-ci il ərzində AI-Khan və AI-nur müştəri müraciətlərinin idarə olunmasında əsas rəqəmsal kanal kimi çıxış etmişdir. Hesabat dövründə ümumilikdə **183.4 min müştəri tərəfindən 2.3 milyon müraciət üzrə dialoq** qeydə alınmışdır.

Müraciətlərin **2.0 milyonu süni intellektə yönləndirilmiş,** onların **1.4 milyonu isə tam şəkildə süni intellekt vasitəsilə həll olunmuşdur.**

İl ərzində ümumi sual sayı **6.9 milyon**, süni intellektə ünvanlanan suallar isə **2.1 milyon** olmuşdur. Canlı dəstəyə yönləndirilən mesajların sayı **4.8 milyon** təşkil etmişdir.

"AI-Can"

ABB-nin Intranet platforması üzərindən fəaliyyət göstərən süni intellekt əsaslı rəqəmsal köməkçi AI-Can hesabat dövründə daha da təkmilləşdirilmiş, funksionallıqları artırılmışdır. AI-Can ABB əməkdaşları üçün yaradılmış daxili süni intellekt köməkçisidir. O, gündəlik işləri sürətləndirir, məlumat tapmağı asanlaşdırır və kommunikasiya proseslərini səmərəliləşdirir. Əməkdaşlarımızın gündəlik iş proseslərini asanlaşdıran AI-Can, bankın müxtəlif istiqamətləri üzrə məlumat təqdim edir, vəzifələrin yerinə yetirilməsində çeviklik və rahatlıq təmin edir. AI-Can hazırda aşağıdakı sahələr üzrə dəstək göstərir:

- **İnsan resursları;**
- **Agile metodologiyası;**
- **Bank əməliyyatları (nəzarət və dəstək);**
- **Data cədvəlləri**

2025-ci ildə **Bankın daxili istifadəçiləri** üçün nəzərdə tutulmuş rəqəmsal assistent kimi fəaliyyət göstərən AI-Can-dan hesabat dövründə ümumilikdə **3.6 min əməkdaş** istifadə edərək **89.3 min sual** ünvanlanmışdır. Sistem üzrə **dəqiqlik göstəricisi 87.45%** təşkil etmişdir. Hesabat dövründə AI-Can vasitəsilə müraciət edən **istifadəçi sayı 1,833 nəfər** olmuşdur. Bu göstərici platformanın Bank daxilində geniş istifadə olunduğunu və gündəlik iş proseslərində aktiv rol oynadığını nümayiş etdirir.

Xüsusilə İnsan Resursları istiqamətində AI-Can əhəmiyyətli rol oynamışdır. HR ilə bağlı **1,481 müraciət** qeydə alınmış və bu müraciətlər **557 unikal əməkdaş** tərəfindən edilmişdir. Bu isə HR sahəsində ilkin məlumatlandırma və dəstək proseslərinin əhəmiyyətli hissəsinin avtomatlaşdırıldığını göstərir.

AI-Can platformasının təkmilləşdirilməsi

Əməkdaşlar üçün AI-Can platformasından desktop və Telegram üzərindən istifadə imkanı yaradılmışdır. Bu təkmilləşdirmə daxili istifadəçilər üçün platformaya çıxışı daha çevik və əlçatan edərək gündəlik iş proseslərində istifadəsini genişləndirmişdir.

Maliyyə monitorinqi və komplayns departamenti:

Bu bölmə üzrə hüquqi uyğunluq və monitorinq mexanizmlərinə dair ətraflı məlumatlar əlavə edilib.

- Benefisiar mülkiyyətçinin müəyyən edilməsi;
- Komplayns və daxili nəzarət;
- Xarici valyuta köçürmələri;
- Nağdsız hesablaşmalar haqqında qanuna əsasən vergi ödəyicilərinin nağd məxaric və fiziki şəxslərin xeyrinə aparılan köçürmə əməliyyatları

Filiallarla iş və satışa dəstək departamenti:

- Filiallara dəstək, satış yönümlü təşəbbüslər və müştəri yönümlü proseslər haqqında məlumatlar sistemə daxil edilib.

IT infrastruktur departamenti (Texniki dəstək şöbəsi):

- Texniki problemlərin həlli, sistem dəstəyi və infrastrukturla bağlı tez-tez verilən sualların cavabları əlavə olunub. Bununla yanaşı, banka dair ümumi məlumatlar üzrə ayrıca bir istiqamət yaradılıb və bu sahə üzrə də ümumi struktur, fəaliyyət prinsipləri və ABB haqqında əsas məlumatlar "AI-Can"da artıq mövcuddur.

İnsan resurslarının idarəedilməsi departamenti:

- Standart əmək məzuniyyəti sorğusunun "AI-Can" vasitəsilə bir neçə sadə addımla yaradılması mümkündür. Bu isə vaxtınıza qənaət etməyə və prosesi daha səmərəli şəkildə idarə etməyə imkan verir.
- Yeni əlavə edilən funksionallıqlar sayəsində yalnız məzuniyyət, distant iş, icazə, gecikmə və xəstəliklə bağlı deyil, həmçinin arayış, xasiyyətnamə və bank hesabına aid icazələr (ailə qurmaq, yaxın qohumun vəfatı, övladın dünyaya gəlməsi, ad günü və s.), xəbərdarlıq və ya töhmət mövcudluğu, istənilən son 5 ME sorğunuzun statusu üçün də müraciətlərinizi birbaşa AI-Can üzərindən qeyd edə bilərsiniz.
- HR CV Screening aləti vasitəsilə 5600 CV-nin analizi təmin edilmiş, 100 CV-nin emal müddəti 5 dəqiqəyə endirilmişdir.

Əməliyyat departamenti:

- Daxili prosedurlar, sənəd dövriyyəsi və əməliyyat prosesləri ilə bağlı məlumat bazası genişləndirilib.

Agile ofis:

- Çevik idarəetmə metodologiyası ilə bağlı məlumatlar daha da dərindən izah olunaraq istifadəçilərə təqdim edilib. Bu yeniliklər AI-Can-ın işini daha funksional, interaktiv və əməkdaşların gündəlik fəaliyyətində real dəstək mexanizminə çevirir. ABB olaraq məqsədimiz, rəqəmsal texnologiyaları iş proseslərinə daha sıx inteqrasiya etməklə əməkdaşların işini asanlaşdırmaq, zaman itkilərini azaltmaq və qərarların qəbulunu daha da sürətləndirməkdir.
- SQL Assistant (SQL Bot) 894 data elementi, 32 domen üzrə fəaliyyət göstərmiş, sorğu dəqiqliyi 64%-dən 85%-ə yüksəldilmişdir. Data vizualizasiya assistentləri 3 domen üzrə prod mühitinə çıxarılmışdır.



Operativlik baxımından:

- **Süni intellektin orta cavab müddəti – 6 saniyə,**
- **Orta dialoq müddəti – 19 saniyə,**

Bu nəticələr AI-Khan və AI-nurun müştəri müraciətlərini sürətli və səmərəli şəkildə idarə etdiyini, canlı dəstənin iş yükünü azaltdığını və xidmət keyfiyyətinin yüksəldilməsinə töhfə verdiyini göstərir.

2025-ci ildə AI-Khan və AI-nur yalnız müştəri müraciətlərinin cavablandırılması ilə kifayətlənməmiş, eyni zamanda satış və gəlir göstəricilərinə birbaşa təsir göstərən analitik və yönləndirici alət kimi fəaliyyət göstərmişdir. "AI-Khan Insight Service" modeli vasitəsilə müştəri davranışları təhlil edilmiş, uyğun məhsullar üzrə avtomatik təkliflər formalaşdırılmış və real satış nəticələri əldə edilmişdir.

AI əsaslı RM (Müştəri meneceri) zəngləri

Rəqəmsal Kiçik Biznesdə AI agent tərəfindən real zənglərin edilməsi təmin olunmuşdur. Bu həll satış və xidmət proseslərinin avtomatlaşdırılmasına, müştərilərlə əlaqənin operativliyinin artırılmasına və əməliyyat səmərəliliyinin yüksəldilməsinə xidmət edir.

AI əsaslı RM zənglərin analizi

2025-ci ildə Korporativ və KOS seqmenti üzrə Müştəri Menecerlərinin (RM) fəaliyyətinin effektivliyini artırmaq məqsədilə AI əsaslı zəng analizi mexanizmi tətbiq edilmişdir. Sistem RM-lər tərəfindən edilən zənglərin avtomatik analizi aparır və əldə olunan məlumatları CRM sistemində strukturlaşdırılmış formada əks etdirir.

AI alqoritmləri hər bir zəng üzrə:

- Zəngin əsas məqsədini,
- Təklif olunan məhsul və ya xidməti,
- Müştərinin narazılıq və ya şikayətini,
- RM tərəfindən təqdim edilən həll təklifini müəyyən edir.

Bununla yanaşı, sistem RM-lərə performansın yaxşılaşdırılması üçün avtomatik tövsiyələr təqdim edir. Bu yanaşma satış proseslərinin keyfiyyətinin ölçülməsinə, xidmət standartlarının vahidləşdirilməsinə və müştəri davranışlarının daha dərin analitik təhlilinə imkan yaradıb.

"İnvestisiya" jurnalı

ABB mobile-da investorlar üçün AI əsaslı jurnal generasiya olunmuş və yayılmasına başlanmışdır. Bu həll müştərilərin bazar məlumatlarına daha operativ çıxışını təmin etməklə, investisiya qərarlarının məlumatlı şəkildə qəbulunu dəstəkləyir.

SDLC prosesinə GenAI funksionallığının əlavə olunması

- SDLC (Software Development Life Cycle) prosesinə GenAI əsaslı Code Review və Code Assistant funksiyaları inteqrasiya olunmuş, bu alət vasitəsilə developer-lərə kodun yazılması və yoxlanılması mərhələlərində dəstək göstərilməsi avtomatlaşdırılmışdır. Funksionallıq eksperimental olaraq bir sahədə tətbiq olunmuşdur.
- SDLC (Software Development Life Cycle) çərçivəsində GenAI və AI köməkçilərinin tətbiqi genişləndirilmiş, AI assisted Test Scenario Generator funksionallıqları tətbiq olunaraq SDLC proseslərinin avtomatlaşdırılması və səmərəliliyinin artırılması təmin olunmuşdur.



İnsidentlər üzrə AI əsaslı analiz funksionallığı

DevOps komandası tərəfindən izlənilən insidentlər üzrə AI əsaslı analiz funksionallığı tətbiq olunmuş, insidentlərə dair root cause analizinin aparılması və AI tərəfindən müvafiq tövsiyələrin verilməsi təmin edilmişdir.

Preapprove olunmuş Avans nəticələri üzrə AI vasitəsilə individual təkliflərin verilməsi

Pre-approve olunmuş avans təkliflərinin satış kanallarına inteqrasiyası həyata keçirilmiş, AI vasitəsilə müştərilərə individual təkliflərin verilməsi təmin olunmuşdur. Təkliflərin fərdiləşdirilməsi üçün Evam platformasında ssenarilər hazırlanmış və tətbiq olunmuşdur.

Korporativ müştərilər və fərdi sahibkarlar üçün AI chatbot

Korporativ müştərilərə və fərdi sahibkarlara xidmət göstərilən kanallarda müraciətlərin cavablandırılması məqsədilə süni intellekt əsaslı virtual assistent tətbiq edilmişdir. Bu həll müştəri sorğularına daha sürətli və ardıcıl cavab verilməsini təmin etməklə, xidmət keyfiyyətini və əlçatanlığı əhəmiyyətli dərəcədə artırmışdır. Eyni zamanda, əməliyyat yükünün azalmasına və müştəri məmnuniyyətinin yüksəldilməsinə töhfə vermişdir.



AI əsaslı "Predictive Churn model" -inin qurulması

KOS və Korporativ müştərilər üzrə müştəri itkisinin əvvəlcədən proqnozlaşdırılması məqsədilə 6 əsas parametr üzərində qurulmuş AI əsaslı "Predictive Churn" modeli hazırlanmışdır. Model risk altında olan müştərilərin vaxtında müəyyən edilməsinə və hədəfli saxlanma tədbirlərinin görülməsinə imkan yaradır. Bu yanaşma müştəri portfelinin dayanıqlılığını və uzunmüddətli dəyərini artırır.

İnsan resursları əməliyyatları üzrə Virtual Assistentin tətbiqi

İnsan resursları üzrə gündəlik əməliyyat sorğularının avtomatlaşdırılması məqsədilə Virtual Assistent istifadəyə verilmişdir. Bu həll əməkdaşların HR ilə bağlı suallarına operativ cavab almasını təmin edir və inzibati proseslərin səmərəliliyini yüksəldir. Nəticədə, HR komandalarının operativ yükü azaldılaraq daha strateji fəaliyyətlərə fokuslanması mümkün olmuşdur.

AI chatbot üzrə AML/Komplayns sorğularının cavablandırılması

AML/Komplayns istiqaməti üzrə AI chatbotun bilik bazası genişləndirilmiş, prod mühitdə test edilmiş və ümumilikdə 81 sual-cavab istifadəyə verilmişdir. Buraya risk dərəcələrinin müəyyənləşdirilməsi kimi əsas mövzular da daxil edilmişdir. Bu yanaşma əməkdaşların normativ tələblərlə bağlı suallarına daha sürətli və standartlaşdırılmış cavablar əldə etməsini təmin etmişdir.

Kredit memorandumlarının hazırlanmasında GenAI tətbiqi

Risk halları çərçivəsində biznes kreditlərinin təhlili və risk qiymətləndirilməsi prosesində bankdaxili və kənar məlumatların GenAI vasitəsilə kredit memorandumlarına avtomatik inteqrasiyası üzrə ilkin funksiya istifadəyə verilmişdir. Bu həll sənədlərin hazırlanma müddətini əhəmiyyətli dərəcədə qısaldır və analitik keyfiyyəti artırır. Eyni zamanda, qərarvermə prosesinin daha sürətli və məlumat əsaslı aparılmasına imkan yaradır.

3.3

TEXNOLOJİ YENİLİKLƏR

Rəqəmsal transformasiyanın sürətləndiyi müasir dövrdə texnoloji yeniliklər bank sektorunda səmərəliliyin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və müştəri təcrübəsinin təkmilləşdirilməsi baxımından əsas hərəkətverici qüvvəyə çevrilmişdir. ABB olaraq biz innovativ texnologiyaların tətbiqini strateji prioritetlərimizdən biri kimi müəyyən edir, əməliyyat proseslərinin optimallaşdırılması, risklərin daha effektiv idarə olunması və rəqəmsal imkanların genişləndirilməsi istiqamətində ardıcıl addımlar atırıq.


RPA ilə LinkedIn-dəki paylaşımların sentiment analizi

Bankımızda "Robotic Process Automation (RPA)" vasitəsilə hazırlanmış "sentiment" (emosional ton) analizi müştəri rəylərini izləmək və xidmətlərimizi yaxşılaşdırmaq istiqamətində atılmış mühüm bir təşəbbüsdür.

Sentiment analizi nədir? İstifadə etdiyimiz sistem LinkedIn-dəki ABB etiketi ilə paylaşılan yazıları avtomatik şəkildə təhlil edir. Bu prosesdə paylaşımların emosional tonu müəyyən edilir: müsbət, mənfi və ya neytral. Beləliklə, həm müştərilərimizin, həm də əməkdaşlarımızın Bank və məhsullar barədə düşüncələrini anlamağımıza imkan yaranır.

Necə işləyir?

Sistem gündəlik əsasda fəaliyyət göstərir, hazırda "ABB"-nin rəsmi səhifəsi və heştəq ilə etiketlənmiş postlar nəzərə alınır. Son 24 saat ərzində paylaşılmış bütün yazılar RPA vasitəsilə toplanır. Məlumatlar arasında müəllif, paylaşılma vaxtı, məzmun, bəyənmə, şərh və repost sayı da əks olunur. Toplanmış məlumatlar əvvəlcədən hazırlanmış xüsusi "prompt" əsasında AI tərəfindən təhlil olunur və yazıların emosional tonu müəyyən edilir.



Böyük rəsmdə nə görürük?

Bu sistem yalnız neqativ rəyləri operativ aşkarlamağa deyil, həm də yeni məhsul və kampaniyalarımıza dair geri dönüşləri daha tez əldə etməyə kömək edir. Məsələn, istifadəyə verildiyi qısa müddətdə artıq 10-a yaxın neqativ post aşkarlanaraq müvafiq strukturlara yönləndirilib. Belə proaktiv izləmə mexanizmi isə bazarda atdığımız addımların necə qarşılandığını daha yaxşı anlamağımıza şərait yaradır.

Daxili nəzarət sistemində RPA tətbiqi

Proses kredit şərtlərinin monitorinqini əhatə edir və ümumilikdə üç əsas kredit komitəsindən (Böyük, orta, kiçik) daxil olan sorğuların məlumatlarının toplanması ilə başlayır. Bot sorğuya daxil olaraq hər bir qərar sənədini (PDF fayllarını) oxuyur və əsas məlumatları – protokol tarixi, VÖEN, kredit məbləği, faiz dərəcəsi və s. – çıxarır. Növbəti mərhələdə sənədlərdəki məlumatlarla məlumat bazasındakı məlumatlar müqayisə edilir. Bot müəyyən olunmuş kriteriyalar əsasında məlumatların uyğunluğunu yoxlayır. Uyğunsuzluq aşkarlandıqda isə, bot bu məlumatları qeyd edir və birbaşa səhv sahələr barədə rəy təqdim edir. Prosesin sonunda bütün məlumatlar düzgün olduqda sorğunun statusu "Correct", uyğunsuzluq olduqda isə "Incorrect" olaraq qeyd olunur və səhv məlumatlar müvafiq rəy ilə birlikdə göstərilir. Bu avtomatlaşdırılmış proses nəticəsində əməkdaşlar sənədləri ayrıca oxumaq zərurətindən azad olur və resurslarını daha səmərəli şəkildə istifadə edə bilirlər.

RPA ilə avtomatlaşdırıla bilən prosesləri müəyyənləşdirmək məqsədilə mütəmadi olaraq departamentlərdə canlı görüşlər həyata keçirilib. Bu görüşlər əməkdaşların gündəlik işləri zamanı hansı tapşırıqların robotlaşdırılmasının faydalı ola biləcəyini müəyyən etməyə kömək edir.

Görüş 3 mərhələdən ibarətdir:

- Proses və sistemlərlə yerində tanışlıq;
- Metriklərin hesablanması;
- RPA-ya uyğunluğun qiymətləndirilməsi

O cümlədən, Müştəri müraciətlərinin idarə olunması departamentində aparılan analiz nəticəsində avtomatlaşdırıla bilən 48 proses müəyyən edilib və bunun sayəsində 9480 saatlıq əməyə qənaət imkanı aşkarlanıb.

RPA vasitəsilə Dövlət Vergi Xidmətinə məlumatların avtomatik göndərilməsi

Mobil tətbiq vasitəsilə açılan hesablar üzrə məlumatların DVX portalına təqdim edilməsi artıq RPA bot tərəfindən icra olunur. RPA-nın tətbiqi nəyi dəyişdi? Yeni RPA prosesi vaxt itkisini minimuma endirir, insan müdaxiləsini azaldır və məlumat axınında dayanıqlığı tam şəkildə təmin edir. Bot prosesin bütün mərhələlərini özü idarə edir və əməkdaş yalnız PIN1 və PIN2 təsdiqlərində iştirak edir. Bot daxili sistemlərə inteqrasiya olunaraq yeni açılmış hesabları vaxtında aşkarlayır və emala hazırlayır. Toplanan məlumatlar DVX tələblərinə uyğun formata salınır, texniki və məntiqi yoxlamalar aparılır. Yanlış və ya natamam informasiyalar avtomatik ayırd edilir. Proses başlayarkən əməkdaşa PIN1 göndərilir. PIN təsdiqləndikdən sonra bot portalda autentifikasiyanı tamamlayır və növbəti mərhələyə keçir. Bot bütün zəruri sahələri doldurur, məlumatı sistemə daxil edir və göndəriş üçün hazırlayır. Daha sonra əməkdaşa PIN2 bildirişi təqdim olunur. Asan imza ilə təsdiqləndikdən sonra bot növbəti hesabın göndərişinə davam edir. Bot portaldan uğurlu və uğursuz əməliyyatların statusunu oxuyur, loglarda qeyd edir və uğursuz hallarda prosesi avtomatik təkrarlayır. Bu avtomatlaşdırma ilə bank cərimə risklərini minimuma endirib. Əməkdaşların iş yükünü optimallaşdırıb. Daha sürətli və fasiləsiz məlumat axınını təmin etdi. Normativ tələblərə uyğunluqda sabitlik yaradıb.

RPA vasitəsilə onlayn kreditlərin monitorinqi prosesi avtomatlaşdırılıb

Proses backoffice.abb-bank.az platforması üzərindən müştərilərin mobil və veb kanallar vasitəsilə əldə etdikləri kreditlərin E2E formatda yoxlanılmasını təmin edir. Proses necə işləyir?

1. Şərtlərə əsasən sənədlərin siyahısının müəyyən edilməsi RPA botu ilkin mərhələdə kreditin xüsusiyyətlərini analiz edir. Bu zaman:
   - məhsul növü (Cash, Tamkart),
   - yenidən maliyyələşdirmə olub-olmaması,
   - çatdırılma üsulu (filial, kuryer, transfer) nəzərə alınaraq müvafiq kredit üzrə tələb olunan sənədlərin siyahısı avtomatik formalaşdırılır.

2. Sənədlərin mövcudluğunun yoxlanılması: Formalaşdırılmış siyahıya əsasən bot orta hesabla 10–12 sənədin sistemdə mövcud olub-olmamasını yoxlayır və sənəd çatışmazlıqlarını müəyyən edir.

3. Sənədlərdəki məlumatların yoxlanılması və müqayisəsi Bu mərhələdə RPA prosesi daha dərin yoxlama aparır:
   - sənədlər Filenet sistemindən əldə olunur,
   - hər bir sənəd oxunaraq müştəriyə aid məlumatlar Flex məlumat bazası ilə müqayisə edilir,
   - eyni CIF-ə aid bir neçə kredit ola biləcəyi üçün yoxlama kredit müqaviləsinin nömrəsi əsasında həyata keçirilir.

Bu yanaşma məlumatların düzgünlüyünü və kredit üzrə uyğunluğun dəqiq şəkildə qiymətləndirilməsini

təmin edir. Monitorinq prosesi tamamlandıqdan sonra RPA botu nəticələri strukturlaşdırılmış Excel hesabatı formasında tərtib edir və sifarişçi qurum olan Əməliyyat departamentinə təqdim edir.

Müştəri müraciətlərinin idarə olunması sahəsində RPA

RPA (Robot Proses Avtomatlaşdırılması) sahəsindəki yeniliklər hər keçən ay müştəri xidmətlərinin təkmilləşdirilməsinə və əməliyyatların optimallaşdırılmasına böyük təsir göstərir.

Müştəri müraciətləri ilə iş komandası müştərilər tərəfindən daxil olan bütün müraciətləri araşdırır və icra edir. Gün ərzində ortalama olaraq 700-1000 sorğu daxil olur. Bu sorğuların bir hissəsi, xüsusən də ATM-lərlə bağlı olanlar, RPA botları tərəfindən avtomatik şəkildə icra edilir.


RPA texnologiyası və insan əməyinin birgə fəaliyyəti nəticəsində Müştəri müraciətlərinin idarə olunması departamentinin işi optimallaşdırılmış, müştəri sorğularının effektivliyi artırılmış və müştəri məmnuniyyəti nəzərəçarpacaq şəkildə yüksəldilmişdir. Yalnız dekabr ayında ümumi olaraq daxil olan sorğuların 22.6%-i RPA botları tərəfindən emal olunmuşdur. 2025-ci ildə isə ümumilikdə 22,228 sorğu bot tərəfindən avtomatik şəkildə emal edilmişdir. Bu, müştəri xidmətlərinin sürətini və müştəri məmnuniyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Gələcəkdə bu tip sorğuların və E2E proseslərin daha çox robotlaşdırılması planlaşdırılır və bu da müştəri xidmətlərini daha da təkmilləşdirməyə imkan yaradacaq.

Platforma mühəndisliyinin formalaşması

Platforma mühəndisliyi (platformaların standartlaşması) istiqamətinin formalaşdırılması yekunlaşdırılmış və sınaq mərhələsində müəyyən sahələrdə fəaliyyətə başlanılmışdır.

N8N platformasının istifadəsi

N8N platformasından istifadə olunaraq low-code və no-code yanaşmalar vasitəsilə interfeyslər Daxili nəzarət departamenti tərəfindən müstəqil şəkildə hazırlanmış və inkişaf etdirilmişdir.




Beynəlxalq köçürmələrin real vaxtda izlənməsi

Beynəlxalq köçürmələrin real vaxtda izlənməsi məqsədilə SWIFT GPI API-ları ilə inteqrasiya həyata keçirilmiş, köçürmə statuslarının API vasitəsilə SWIFT sisteminə ötürülməsi təmin edilmişdir. Bu yenilik müştərilərə köçürmələrinin mərhələlərini daha şəffaf şəkildə izləmək imkanı yaratmış, əməliyyatların icra sürətinə və operativliyinə nəzarəti gücləndirmişdir.

FMS sisteminin ABB mobile tətbiqinə inteqrasiyası

ABB mobile tətbiqinə IBM Safe Payments antifraud sisteminin inteqrasiyası həyata keçirilmiş, bu inteqrasiya sayəsində istifadəçi əməliyyatlarında təhlükəsizlik səviyyəsi artırılmış və potensial fırıldaqçılıq hallarının qarşısının alınması təmin olunmuşdur.



3.4

MƏHSUL VƏ XİDMƏTLƏR ÜZRƏ YENİLİKLƏRİMİZ

Müştəri ehtiyaclarının və bazar gözləntilərinin sürətlə dəyişdiyi şəraitdə ABB məhsul və xidmət portfelinin davamlı şəkildə yenilənməsini strateji prioritet kimi müəyyən edir. Bank innovativ həllərin tətbiqi, rəqəmsal imkanların genişləndirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi vasitəsilə müştərilərinə daha çevik, əlçatan və dəyər yaradan maliyyə həlləri təqdim etməyə davam edir. Hesabat dövründə həyata keçirilən yeniliklər ABB-nin müştəriyönümlü yanaşmasını və bazardakı rəqabət qabiliyyətini daha da gücləndirmişdir.

FaydaMania

Gənclər üçün nəzərdə tutulan "FaydaMania" təşviqat kampaniyası həyata keçirilmişdir. Kampaniya çərçivəsində iştirakçılar müəyyən hədəflərə çatmaqla kinoya bilet, qəhvə, artırılmış keşbek, dünya ulduzlarının konsertlərinə bilet və digər dəyərli hədiyyələr qazanmaq imkanı əldə etmişlər.

2025-ci ildə həyata keçirilən FaydaMania kampaniyası pərakəndə müştərilərin aktivliyinin artırılması və xüsusilə gənc seqmentin bank ekosisteminə daha sıx inteqrasiyası baxımından əhəmiyyətli nəticələr vermişdir. Kampaniyaya ümumilikdə 233 min müştəri qoşulmuşdur ki, onların 162 mini 18–29 yaş aralığında olmuşdur. Bu isə FaydaMania-nın xüsusilə gənc auditoriya arasında yüksək rezonans doğurduğunu göstərir.



Kampaniyalar müddətində minimum bir retail əməliyyat həyata keçirən 138 min unikal müştəri qeydə alınmış, bu da iştirakçıların əhəmiyyətli hissəsinin real tranzaksiya davranışına keçdiyini təsdiqləmişdir. Ümumilikdə 21 min müştəri müxtəlif hədiyyələr qazanaraq proqramın təşviq mexanizmlərindən faydalanmışdır.

Ən mühüm nəticələrdən biri isə kampaniyadan sonra müşahidə olunan aktivlik artımıdır. Müqayisəli dövrdə (25 mart 2025 – 25 fevral 2026) aktiv müştəri sayında +54 min artım qeydə alınmışdır. Bu dinamika göstərir ki, FaydaMania yalnız qısa müddətli təşviq kampaniyası deyil, eyni zamanda müştəri davranışında davamlı dəyişiklik yaradan və tranzaksiya tezliyini artıran effektiv loyallıq mexanizmi olmuşdur.

"Fayda Max"da "Prime" mərhələ

2025-ci ildə ABB tərəfindən "Fayda Max" loyallıq proqramının ən yüksək və eksklüziv səviyyəsi olan "Prime" mərhələsi təqdim edilmişdir. Bu mərhələ yüksək aktivlik və loyallıq nümayiş etdirən müştərilər üçün nəzərdə tutulmuş, onlara yalnız keşbek və bonus üstünlükləri deyil, eyni zamanda fərdi yanaşma, prioritet xidmət və eksklüziv təcrübələr təqdim etmişdir.



Hesabat dövründə Prime statuslu müştərilərin sayı aylıq dinamikada sabit və davamlı səviyyədə qorunmuşdur. 2025-ci ilin mart ayında 1,496

müştəri Prime statusuna malik olmuş, ilin sonuna doğru bu göstərici 1,447 səviyyəsində formalaşmışdır. Aylıq dalğalanmalara baxmayaraq, orta hesabla 1,200–1,500 aralığında stabil premium müştəri bazası saxlanılmışdır.

ABB Business platformasında analitik dashboardlar

ABB Business platformasında merchant tərəfdaşlar üçün analitik dashboardlar hazırlanmış və 7 əsas metrik üzrə məlumatlar İnternet Bankçılıq vasitəsilə 10 seçilmiş müştəriyə təqdim olunmuşdur. Bu alət bizneslərə satış və əməliyyat göstəricilərini daha şəffaf şəkildə izləmək və qərarlarını data əsaslı vermək imkanı yaradır. Nəticədə, müştərilərin analitik imkanları və biznes planlaşdırma səmərəliliyi artırılmışdır.

"Fayda Biznes" loyallıq layihəsi

2025-ci ildə KOS müştəriləri üçün nəzərdə tutulmuş "Fayda Biznes" loyallıq layihəsi çərçivəsində İnternet Bankçılıqda müvafiq funksionallıq qurulmuş, qoşulma şərtləri və bonus mexanizmləri sistemləşdirilmiş, ölkədaxili AZİPS və XÖNKS köçürmələri üzrə keşbeklərin hesablanması və istifadəsi prosesi tam avtomatlaşdırılmışdır.



Layihə üzrə 100 min AZN dövriyyə meyarını qarşılayan 6,168 KOS müştərisi qeydə alınmışdır. Onlardan 3,359 müştəri aktiv olmuşdur ki, bu da uyğun müştəri bazasının 54%-ni təşkil edir. Aktiv müştərilərin 2,794-ü 2025-ci ildə qoşulmuşdur. Bu göstəricilər proqramın real dövriyyə yaradan KOS-ları hədəflədiyini və onların bankla əməliyyat intensivliyini artırdığını göstərir.

Hesablanan və xərclənən bonuslar

2025-ci il üzrə hesablanan keşbek məbləği 123,565 AZN, kampaniya üzrə hesablanan əlavə keşbek isə 157, 800 AZN təşkil etmişdir. Kampaniya üzrə xərclənən keşbək məbləği 12 min AZN olmaqla ümumi xərclənən keşbəkin 31%-ni təşkil etmişdir.

Bonusla edilən əməliyyatların sayı

2025-ci il üzrə bonus qazanma əməliyyatlarının sayı 372,262 olmuşdur ki, bu da proqramın yüksək əməliyyat aktivliyi yaratdığını göstərir. Xərcləmə əməliyyatlarının sayı isə 2025-ci il üzrə 11,406 olaraq qeydə alınmışdır.

Bu nəticələr "Fayda Biznes" layihəsinin KOS seqmentində real tranzaksiya davranışı formalaşdırdığını, müştərilərin dövriyyəsini artırdığını və loyallıq mexanizminin əməliyyat əsaslı gəlir modelinə inteqrasiya olunduğunu təsdiqləyir.


ABB Biz mobil tətbiqində yenidənmaliyyələşdirmə kredit məhsulu

ABB Biz mobil tətbiqində yenidənmaliyyələşdirmə imkanları yaradılmışdır. Müştərinin ABB Biz tətbiqi vasitəsilə kredit müraciəti zamanı Bankdakı mövcud aktiv öhdəliklərinin refinanslaşdırılması təklifi ilə yeni kreditin rəsmiləşdirilməsinə şərait yaradılması təmin olunmuşdur.

"Dama-dama" məhsulu

ABB-nin müştərilərə kiçik vəsaitlərlə məqsədli yığım və qazanc imkanı yaradan "Dama-dama" rəqəmsal hesabı təqdim olunmuşdur. 2025-ci ildə istifadəyə verilən "Dama-Dama" yığım məhsulu müştərilər arasında müntəzəm və intizamlı yığım vərdişlərinin formalaşdırılması istiqamətində əhəmiyyətli nəticələr vermişdir. İl ərzində 18,968 yeni hesab açılmış, bu da məhsula olan marağın yüksək olduğunu göstərmişdir.

Məhsul üzrə orta yığım məbləği 154,29 AZN təşkil etmişdir ki, bu göstərici mikro-yığım mexanizminin real maliyyə nəticəsi yaratdığını təsdiqləyir. Eyni zamanda, 67.7% aktiv istifadəçi faizi məhsulun yalnız açılış mərhələsində deyil, davamlı istifadə baxımından da effektiv olduğunu nümayiş etdirir.



"Dama-Dama" konsepti müştərilərin kiçik məbləğlərlə sistemli yığım etməsini təşviq etməklə, onların maliyyə dayanıqlılığının artırılmasına və bankla uzunmüddətli əlaqələrin gücləndirilməsinə xidmət edir. Məhsul həm rəqəmsal bankçılıq strategiyasının, həm də müştəri maliyyə savadlılığının artırılması istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilir.

DigiHesab Max yuvarlaqlaşdırma imkanı

DigiHesab Max altında yuvarlaqlaşdırma funksionallığı əlavə olunmuşdur.

Beynəlxalq köçürmələr xidməti olan UPT Receive xidməti

2025-ci ildə beynəlxalq pul köçürmələri xidməti olan UPT Receive ABB Mobile tətbiqinə inteqrasiya edilmiş və müştərilərin istifadəsinə təqdim olunmuşdur. Bu inteqrasiya nəticəsində müştərilər xaricdən göndərilən vəsaitləri birbaşa mobil tətbiq üzərindən operativ şəkildə qəbul etmək imkanı əldə etmişdir.



Hesabat dövründə xidmət vasitəsilə ümumilikdə 1,634 əməliyyat həyata keçirilmiş, qəbul edilən köçürmələrin ümumi həcmi 1,161,995 AZN təşkil etmişdir. Əməliyyatların gündəlik əsasda icra olunması xidmətin davamlı və stabil istifadə olunduğunu göstərir. Aktiv istifadəçi sayı hesabat dövrü üzrə 464 nəfər olmuşdur.

UPT Receive xidmətinin tətbiqi beynəlxalq köçürmələrin ümumi payında 3% artım yaradaraq ABB-nin rəqəmsal kanallar vasitəsilə beynəlxalq əməliyyatlar üzrə mövqeyini gücləndirmişdir. Bu təşəbbüs həm müştəri rahatlığını artırmış, həm də beynəlxalq pul köçürmələri prosesində sürət və əlçatanlıq baxımından əlavə dəyər formalaşdırmışdır.

Təcili tender və Təcili icra məhsulu

2025-ci il ərzində Bankın çevik və sürətli həllərinə olan tələbat daha da artmışdır. Bu çərçivədə, Təcili Tender məhsulu üzrə ümumilikdə **4,114,923 AZ**N dəyərində **681 ədəd**, Təcili icra məhsulu üzrə isə **5,629,657 AZN** dəyərində **189 ədəd** qarantiya uğurla icra olunmuşdur.



Hər iki məhsulun əsas üstünlüyü müştərilərə tender prosesində və tenderdən sonrakı mərhələdə sürətli iştirak imkanı yaratmasıdır. Sadələşdirilmiş prosedurlar və optimallaşdırılmış daxili proseslər sayəsində qarantiyalar 1 iş günü ərzində təqdim olunur, bu isə vaxt itkisinin minimuma endirilməsinə və biznes imkanlarının qaçırılmamasına şərait yaradır.

Tam rəqəmsal avans qarantiyası

Təcili Avans Qarantiyasının banka müraciət etmədən, ilkin vəsait tələb olunmadan və 1 iş günü ərzində onlayn şəkildə əldə edilməsi imkanı təmin

olunmuşdur. Hesabat dövrü üzrə onlayn verilən qarantiyaların ümumi sayı 37 olmuşdur.



G4C xidməti

2025-ci ildə ABB Business İnternet Bankçılıq platforması üzərindən SWIFT-lə tərəfdaşlıq çərçivəsində korporativ müştərilərə G4C (Global for Corporates) xidməti təqdim edilmişdir. Bu xidmət vasitəsilə müştərilər xaricdən göndərilən valyuta köçürmələrinin statusunu real vaxt rejimində izləmək imkanı əldə etmişlər.



Hesabat dövründə xidmət çərçivəsində 1,785 beynəlxalq köçürmə izlənmiş, ümumilikdə 157 korporativ müştəri bu funksionallıqdan istifadə etmişdir.



Ticarət platformasının yaradılması

2025-ci ildə rəqəmsal ekosistemin genişləndirilməsi çərçivəsində Ticarət Platforması (Trade Platform) yaradılmışdır. Platforma üzərindən müştərilər üçün məhsul səhifələrinin hazırlanması, alıcı və satıcı profillərinin formalaşdırılması, eləcə də rəqəmsal elan yerləşdirmə imkanları təmin edilmişdir.

Hesabat dövründə platformada 81 satıcı və alıcı qeydiyyatdan keçmiş, ümumilikdə 258 elan / məhsul yerləşdirilmişdir. Platforma vasitəsilə 4 sövdələşmə bağlanmışdır. 2025-ci il ərzində aktiv istifadəçi sayı 4 nəfər təşkil etmişdir.


ABB Home

2025-ci ildə ABB Home platforması daşınmaz əmlak və ipoteka istiqamətində rəqəmsal ekosistemin gücləndirilməsi baxımından əhəmiyyətli inkişaf mərhələsinə qədəm qoymuşdur. İl ərzində platformaya ümumilikdə 361,487 ziyarətçi daxil olmuşdur.

"ABB Home platformasında doqquz müxtəlif məhsul vahid "Mənzil, fərdi yaşayış və bağ evləri üçün ipoteka krediti" adı altında birləşdirilmiş, skorinq və kredit kalkulyatoru uyğunlaşdırılmış, "Girov təminatlı istehlak krediti" məhsulu əlavə olunmuşdur. Bakı, Abşeron və Sumqayıt üzrə torpaq qiymətləri ABB Home-un "Əmlakınızı qiymətləndirin" xidmətinə inteqrasiya edilmiş, ipoteka kabinetində kredit müqavilələri üzrə ödəniş qrafiki və ödəniş tarixçəsinə baxış imkanı yaradılmışdır." "Əmlakınızı qiymətləndirin" xidməti çərçivəsində həyət evlərinin qiymətləndirilməsi funksionallığı yaradılmış və "Randevu" xidməti ABB Home platformasına inteqrasiya olunmuşdur. Platformada təqdim olunan Pricing Tool – koordinat daxil edilməklə daşınmaz əmlakın avtomatik qiymətləndirilməsi funksionallığından 48,598 müştəri istifadə etmişdir. Bu alət bazar dəyərinin ilkin qiymətləndirilməsini sürətləndirərək müştərilərin qərarvermə prosesini asanlaşdırmışdır.

2025-ci ildə 26,626 unikal müştəri ipoteka üzrə özünü skorinqlə (FİN nömrəsi və mobil nömrəsini qeyd etməklə həmin müştəriyə düşən ipoteka məbləğinin avtomatik hesablanması) qiymətləndirmiş, onların 13, 260 nəfəri nəticəyə əsasən kabinet yaratmışdır.

İpoteka portfeli üzrə ümumi müştəri sayı 23,119 təşkil etmişdir. Bunlarda 1,331 müştərinin həm krediti, həm də kabineti mövcuddur (5.76%). 1,277 müştərinin isə həm ipoteka krediti, həm də ABB Home kabineti var (7.97%).



2025-ci ildə daxili ipoteka kreditləri üzrə ümumilikdə 826 satış həyata keçirilmişdir ki, bunun 224-ü (27%) birbaşa ABB Home platforması üzərindən reallaşdırılmışdır.

ABB Home üzərindən MIDA krediti üçün "İlkin razılıq qərarının" Banka gəlmədən onlayn əldə olunması imkanı yaradılmışdır. MİDA krediti üzrə ilkin razılıq qərarlarının ümumi sayı 41 olmuşdur (17.07%). Daxili ipoteka kredit prosesləri üzrə müştəri rəylərinə əsasən toplanmış 469 rəyin 418-i "əla" və "yaxşı" olaraq qiymətləndirilmişdir ki, bu da rəqəmsal ipoteka təcrübəsinin yüksək məmnuniyyət yaratdığını göstərir.

Apple Pay və Google Pay vasitəsilə balans artırma funksionallığı

2025-ci ildə ABB mobile tətbiqinə Apple Pay və Google Pay vasitəsilə hesab və kart balansının artırılması funksionallığı əlavə edilmişdir. Bu yenilik müştərilərə fiziki karta ehtiyac olmadan, tokenləşdirilmiş rəqəmsal kartlar vasitəsilə sürətli və təhlükəsiz şəkildə balans artırmaq imkanı yaratmışdır.

Hesabat dövründə bu kanal vasitəsilə ümumilikdə 47,852 əməliyyat icra olunmuş, əməliyyatların ümumi həcmi 21,110,953 AZN təşkil etmişdir. Xidmətdən 7,142 aktiv istifadəçi yararlanmışdır. Orta top-up məbləği isə 441 AZN olmuşdur. Bu təşəbbüs ABB-nin rəqəmsal ödəniş ekosistemini gücləndirməklə yanaşı, mobil tətbiqin əsas əməliyyat platforması kimi rolunu daha da möhkəmləndirmiş, müştərilərin rəqəmsal kanallara keçidini sürətləndirmişdir.



İnternet Bankçılıqda rəqəmsal gömrük qarantiyası

2025-ci ildə İnternet Bankçılıq (İB) platformasında rəqəmsal gömrük qarantiyası funksionallığı yaradılmış və müştərilərin istifadəsinə təqdim olunmuşdur. Bu həll çərçivəsində gömrük qarantiyası üzrə müraciətlərin tam onlayn formada edilməsi və təsdiqlənmiş sənədlərin Dövlət Gömrük Komitəsinin portalına avtomatik göndərilməsi imkanı təmin edilmişdir.



Hesabat dövründə ümumilikdə 125 müraciət qeydə alınmışdır ki, onlardan 33-ü platforma üzərindən onlayn formada təqdim edilmişdir. Ümumilikdə 58 qarantiyanın təsdiqi həyata keçirilmişdir. Onlardan 4 qarantiyanın təsdiqi tam rəqəmsal kanalla icra olunmuşdur. Təsdiqlənmiş qarantiyaların ümumi həcmi 3,086,185 AZN təşkil etmiş, bunun 151,442 AZN-i rəqəmsal kanallar vasitəsilə rəsmiləşdirilmişdir.

"Çevik" xidmət paketi

2025-ci ildə "Çevik" xidmət paketlərinin hazırlanması çərçivəsində müştəri davranışlarını, dövriyyə həcmini və əməliyyat xüsusiyyətlərini nəzərə alan data modelləri qurulmuşdur. Bu modellər əsasında müştərilərə avtomatik və fərdiləşdirilmiş paket təkliflərinin təqdim olunması təmin edilmişdir.



Hesabat dövründə 374 müştəriyə avtomatik təklif göndərilmiş, onlardan 334-ü təklifə klik edərək maraq göstərmişdir.

SİMA İMZA-nın tətbiqinin genişləndirilməsi

ABB mobile-da digital kreditləşmə prosesində eyniləşdirmə üçün istifadə olunan video-çəkiliş aləti SİMA İMZA ilə əvəz edilmiş və tətbiq olunmuşdur.



Gamification layihəsi ABB Biz platformasında

2025-ci ildə ABB Biz platformasında istifadəçi təcrübəsinin zənginləşdirilməsi və müştəri aktivliyinin artırılması məqsədilə gamification funksionallığı tətbiq edilmişdir. Bu yanaşma çərçivəsində istifadəçilərə müxtəlif oyunlaşdırılmış tapşırıqlar təqdim olunmuş, məhsul istifadəsi və platforma üzərində aktivlik təşviq edilmişdir.

Hesabat dövründə gamification funksionallığından 3,477 aktiv istifadəçi faydalanmışdır. Oyunlaşdırılmış tapşırıqları uğurla tamamlayan müştərilərin sayı 284 olmuşdur.

Layihə çərçivəsində formalaşan yüksək müştəri aktivliyi nəticəsində 240 müştəriyə ümumilikdə 3,044,331 AZN məbləğində kredit ayrılmışdır. Bu göstəricilər gamification mexanizminin yalnız istifadəçi təcrübəsini artırmaqla kifayətlənmədiyini, eyni zamanda real satış və kreditləşmə nəticələrinə müsbət təsir göstərdiyini sübut edir.

ODM əsaslı "Ani kredit" məhsulu

2025-ci ildə fərdi sahibkarlar və hüquqi şəxslər üçün tam rəqəmsal əsasda ODM (Operativ Dəyərləndirmə Modeli) üzərində qurulmuş "Ani kredit" məhsulu istifadəyə verilmişdir.



Hesabat dövründə hüquqi şəxslər üzrə 52 kredit verilmiş, ümumi məbləğ 2.7 milyon AZN təşkil etmişdir.

Fərdi sahibkarlar üzrə 118 kredit rəsmiləşdirilmiş, ümumi məbləğ 3.8 milyon AZN olmuşdur. Ümumilikdə "Ani kredit" məhsulu üzrə 170 kredit təqdim edilmiş və portfel həcmi 6.6 milyon AZN səviyyəsinə çatmışdır.

DGK "Vahid pəncərə"-nin İB-yə inteqrasiyası

2025-ci ildə Dövlət Gömrük Komitəsinin "Vahid pəncərə" Gömrük hesabı və Elektron pulqabı sistemi ABB-nin İnternet Bankçılıq (İB) platformasına inteqrasiya edilmişdir. Bu inteqrasiya nəticəsində sahibkarlar və korporativ müştərilər gömrük ödənişləri və avans köçürmələrini birbaşa bankın rəqəmsal kanalı üzərindən operativ şəkildə həyata keçirmək imkanı əldə etmişlər.

Layihə çərçivəsində avans köçürmələri üzrə avtomatik bildiriş funksionallığı da əlavə olunmuşdur ki, bu da əməliyyatların şəffaflığını və nəzarət imkanlarını gücləndirmişdir.

Hesabat dövründə İB üzərindən ümumilikdə 8,070 avans köçürməsi icra edilmiş, bu xidmətdən 715 müştəri istifadə etmişdir.

OpenBankinq

Müştərinin razılığı əsasında, digər banklara məxsus kart, hesab balansı və tranzaksiyaların ABB mobile tətbiqində, eləcə də ABB-yə məxsus kart və tranzaksiyaların digər bankların platformalarında əks olunması təmin edilmişdir.

Gamification - ABB Play

2025-ci ildə ABB mobile tətbiqi daxilində müştərilərə təqdim olunan ABB Play intellektual oyunu rəqəmsal platformada istifadəçi aktivliyinin artırılması və müştəri bağlılığının gücləndirilməsi məqsədilə həyata keçirilmişdir.



2025-ci ilin dekabr ayının sonuna oyunu oynayan müştəri sayı 191 min təşkil etmişdir. Hazırda isə bu göstərici 222 minə yüksəlmişdir ki, bu da məhsulun davamlı maraq doğurduğunu və istifadəçi bazasının artmaqda olduğunu göstərir. Gündəlik əsasda oyunda iştirak edən müştərilərin sayı 20-22 min intervalında dəyişir.

Hiperpersonalizasiya layihəsi çərçivəsində mobil tətbiq vasitəsilə müştərilərə özəl təkliflərin verilməsi

Hiperpersonalizasiya layihəsi çərçivəsində 4 model qurulmuş və bu modellər üzrə müştərilərə kampaniyalar təklif olunmuşdur.

2025-ci ildə həyata keçirilən Hiperpersonalizasiya layihəsi müştəri davranışlarının dərin analizi və fərdi təklif mexanizmlərinin tətbiqi ilə satış effektivliyinin artırılmasına yönəlmişdir. Layihə çərçivəsində ümumilikdə 112,500 müştəriyə fərdiləşdirilmiş kampaniya təklifləri göndərilmişdir.

Kampaniyaların 12.8% konversiya faizi ilə nəticələnməsi data əsaslı hədəfləmənin və düzgün seqmentləşmənin effektivliyini təsdiqləyir. Bu yanaşma nəticəsində Bank üçün 621,210 AZN əlavə gəlir formalaşmışdır.

Phygital Branch

"Phygital Branch" layihəsi çərçivəsində filialın istifadəyə verilməsi üçün bütün təsdiqedici mərhələlər yekunlaşdırılmış və istifadəyə verilməsi təmin olunmuşdur. Filial Yasamal rayonunda fəaliyyət göstərir.

Nağd kredit məhsulu üzrə digital restrukturizasiya prosesinin qurulması

Nağd kredit məhsulu üzrə rəqəmsal restrukturizasiya prosesi qurulmuş, müştərilərin mövcud öhdəlikləri üzrə rəqəmsal kanallar vasitəsilə restrukturizasiya müraciətlərinin qəbulu və E2E rəsmiləşdirmə imkanı təmin olunmuşdur.

DigiDepozit məhsulunda artım funksiyasının tətbiq olunması

DigiDepozit məhsulunda artım funksiyası tətbiq olunmuş, istifadəçilərə mövcud depozitlərinin məbləğini artırmaq imkanı yaradılmışdır.

2025-ci ildə depozit məhsulları üzrə tətbiq olunan "Artım funksiyası" müştərilərin mövcud əmanətlərini artırmaq davranışını stimullaşdıraraq portfelin dərinləşdirilməsinə əhəmiyyətli töhfə vermişdir. İl ərzində ümumilikdə 4,211 unikal müştəri depozitlərini artırmışdır ki, bunun 1,867-si klassik, 2,344-ü isə DigiDeposit məhsulu üzrə olmuşdur.



Artım edilən ümumi məbləğ 29.48 mln AZN təşkil etmişdir. Bunun 17.34 mln AZN-i (təxminən 59%-i) DigiDeposit vasitəsilə həyata keçirilmişdir. Bu da rəqəmsal kanalın müştərilər tərəfindən daha fəal seçildiyini göstərir. Əməliyyat sayı baxımından ümumilikdə 15,056 artım əməliyyatının 9,855-i DigiDeposit üzərindən icra olunmuşdur.

Bu göstəricilər depozit məhsullarında rəqəmsallaşmanın yalnız əməliyyat rahatlığı deyil, həm də real maliyyə nəticəsi yaratdığını sübut edir. "Artım funksiyası" mövcud müştərilərin portfeldə qalmasını gücləndirməklə yanaşı, onların bankla maliyyə münasibətlərinin dərinləşməsinə və daha uzunmüddətli resurs bazasının formalaşmasına xidmət etmişdir.

SİMA inteqrasiyası

ABB Biz mobil tətbiqi və Web Loan platformasında Sima inteqrasiyası həyata keçirilmişdir.

E-qaimə yaradılması imkanının istifadəyə verilməsi

Dövlət Vergi Xidməti ilə əməkdaşlıq çərçivəsində E-qaimə servislərinin inteqrasiyası həyata keçirilmişdir və qaimə yaradılma prosesi avtomatlaşdırılmışdır.




HyperSən layihəsi çərçivəsində müştərilərin illik hesabatı təqdim olunub

HyperSən layihəsi çərçivəsində ABB mobile tətbiqində 3 milyondan çox müştəri üçün AI əsaslı illik hesabat (ABB Wrap) təqdim edilmişdir.


2025-ci ildə təqdim olunan HyperSən / ABB Wrap təşəbbüsü müştərilərə illik maliyyə davranışlarını fərdiləşdirilmiş və interaktiv formatda təqdim etməklə rəqəmsal təcrübənin yeni mərhələsini formalaşdırmışdır. İl ərzində ümumilikdə 2,818,643 müştəri hesabat almışdır. Bu göstəriciyə 1,554,344 aktiv müştəri, 64,079 yeni qoşulmuş müştəri və 3,285 affluent seqment daxildir. Eyni zamanda, 1,196,935 churn riskli müştəriyə də hesabat təqdim olunması layihənin yalnız aktiv auditoriyaya deyil, həm də risk seqmentlərinə yönəldiyini göstərir.

Layihə çərçivəsində 20,703,720 ədəd fərdiləşdirilmiş "story" generasiya edilmişdir ki, bu da hər bir müştəriyə unikallıq prinsipi əsasında məzmun təqdim olunduğunu sübut edir.



Normal şərtlərdə göndərilən push bildirişlərinin orta open rate göstəricisi 2–3% olduğu halda, ABB Wrap-in təqdim olunduğu gün open rate 7.5% təşkil etmişdir. Bu artım müştərilərin fərdiləşdirilmiş və emosional dəyər yaradan kontentə daha yüksək maraq göstərdiyini nümayiş etdirir.

ABB Biz tətbiqində MPOS Mode funksionallığının yaradılması



2025-ci ildə ABB Biz tətbiqində kiçik və orta biznes müştəriləri üçün Mobil POS (MPOS Mode) funksionallığı istifadəyə verilmişdir. Bu həll sahibkarlara əlavə avadanlıq olmadan, birbaşa mobil tətbiq üzərindən kart ödənişlərini qəbul etmək imkanı yaratmışdır.

Hesabat dövründə MPOS Mode funksionallığından 141 aktiv istifadəçi yararlanmışdır. Platforma vasitəsilə həyata keçirilən satışların ümumi həcmi isə 74,405.14 AZN təşkil etmişdir.

ABB Biz tətbiqində "Shake and Win" funksionallığının tətbiqi

2025-ci ildə ABB Biz tətbiqində müştəri aktivliyini artırmaq və loyallığı təşviq etmək məqsədilə "Shake and Win" mexanizmi istifadəyə verilmişdir. Bu funksiya çərçivəsində müştərilər tətbiq daxilində interaktiv şəkildə iştirak edərək müxtəlif məbləğlərdə keşbek qazanmaq imkanı əldə etmişlər.

Kampaniyada ümumilikdə 2,956 müştəri iştirak etmişdir. Layihə çərçivəsində müştərilərə 65,115 AZN məbləğində keşbek təqdim olunmuşdur.

"Shake and Win" funksionallığı yalnız təşviq mexanizmi kimi deyil, eyni zamanda tətbiqdaxili aktivliyin artırılması, əməliyyat dövriyyəsinin stimullaşdırılması və müştəri bağlılığının gücləndirilməsi baxımından effektiv alət kimi çıxış etmişdir.

DVX ilə E-qaimə yaradılması

Dövlət Vergi Xidməti ilə əməkdaşlıq çərçivəsində E-qaimə servislərinin inteqrasiyası həyata keçirilmişdir və qaimə yaradılma prosesi avtomatlaşdırılmışdır. Hesabat dövründə ümumilikdə 40 müştəri tərəfindən 169 e-qaimə yaradılmış, qaimələrin ümumi məbləği 28.4 milyon AZN təşkil etmişdir. Göndəriş prosesi 100% avtomatlaşdırılmış şəkildə həyata keçirilmişdir.

Prosesin rəqəmsallaşdırılması nəticəsində vaxta qənaət əhəmiyyətli dərəcədə artmışdır: müştəri tərəfində proses müddəti təxminən 50%, bank tərəfində isə 60% azalmışdır.

FlyDesk həllinin tətbiqi

2025-ci ildə FlyDesk həlli İnternet Bankçılıq platformasında inteqrasiya olunmuş və FlyDesk Ticket Sales funksionallığı müştərilərin istifadəsinə verilmişdir. Bu həll çərçivəsində korporativ müştərilər platforma üzərindən bilet satışlarını birbaşa bankın rəqəmsal kanalı vasitəsilə həyata keçirmək imkanı əldə etmişlər.



Hesabat dövründə platforma üzərindən 51 bilet satışı reallaşdırılmış, əməliyyatların ümumi həcmi 43,350 AZN təşkil etmişdir. Xidmətdən aktiv istifadə edən müştərilər sırasında "Premier Tour" MMC, Boks Federasiyası və "Crag" MMC yer almışdır.

ADM əməliyyatlarının ABB mobile vasitəsilə təsdiqi

Korporativ və fərdi sahibkar müştərilər üçün ADM-də nağd mədaxil əməliyyatlarının ABB mobile vasitəsilə təsdiqi tətbiq edilmişdir. Müştərilər PIN, Face ID və ya barmaq izi ilə əməliyyatı təsdiqləyir, SİMA imza ilə prosesi tamamlayırlar. Bu yeniliklə filialda əvvəlcədən gizli söz yaratmağa ehtiyac aradan qaldırılmış, proses sürətləndirilmiş, təhlükəsizlik səviyyəsi yüksəldilmişdir.

Token Cash-In (Visa | Mastercard)



2025-ci ildə ABB ATM şəbəkəsində Visa və Mastercard kart sahibləri üçün Token Cash-In xidməti tətbiq edilmişdir. Bu həll vasitəsilə müştərilər fiziki karta ehtiyac olmadan, yalnız Apple Pay və ya Google Pay üzərindən ATM-ə yaxınlaşdırılan mobil cihaz vasitəsilə hesablarına nağd vəsait yerləşdirə bilirlər.

Xidmət ölkədə ilk və yeganə olaraq ABB ATM-lərində tətbiq olunmuşdur. Eyni zamanda, bu yeniliyin tətbiqinə görə ABB dünya üzrə ilk 10 bank arasında yer almışdır ki, bu da ATM və kart məhsulları üzrə yüksək innovasiya göstəricisi hesab edilir.

İstifadə mexanizmi:

Müştəri Apple Pay və ya Google Pay hesabını aktivləşdirir, ATM-də NFC oxuyucuya mobil cihazını yaxınlaşdırır, PIN kodu daxil edir, valyutanı seçir və əsginasları ATM-ə yerləşdirir.

Statistika:

- Ümumi Cash-in dövriyyəsi: **75.86 milyon AZN**
- Ümumi Cash-in əməliyyat sayı: **79.49 min**
- Token Cash-in dövriyyəsi: **12.54 milyon AZN**
- Token Cash-in əməliyyat sayı: **16.78 min**

Avans kredit məhsulu – rəqəmsal qısamüddətli maliyyə dəstəyi



ABB tərəfindən təqdim olunan Avans kredit məhsulu əməkhaqqı və ya pensiyasını ABB vasitəsilə alan müştərilərə əlavə maliyyə çevikliyi təmin edir. Müştəri **ABB mobile** tətbiqində avans məhsulu müraciəti edir, ehtiyac yarandığı anda vəsaiti tətbiq üzərindən köçürə ATM üzərindən rahat şəkildə nağdlaşdıra bilir.

İstifadə qaydası:

Müştəri mobil tətbiqdə avans məhsulu üçün müraciət edir. Limit təyin edildikdən və kredit rəsmiləşdirildikdən sonra vəsaiti tətbiq üzərindən köçürə və ya ATM-də nağdlaşdıra bilər.

2025-ci il üzrə göstəricilər:

- Rəsmiləşdirilmiş limit sayı: **36.6 min**
- Komissiya gəliri: **5.65 milyon AZN**

Avans məhsulu müştərilərin qısamüddətli maliyyə ehtiyaclarını sürətli və rəqəmsal kanallar vasitəsilə qarşılamaqla yanaşı, bankın qeyri-faiz gəlirlərinin artımına da töhfə vermişdir.

EVAM – ATM-də ağıllı satış və kommunikasiya platforması

EVAM mexanizmi ATM-ləri sadəcə əməliyyat nöqtəsi deyil, eyni zamanda real vaxt rejimində işləyən fərdiləşdirilmiş satış və kommunikasiya kanalı kimi formalaşdırır. CRM modulu ilə inteqrasiya olunmuş sistem ATM-dən istifadə edən müştərilərə onların profilinə uyğun xüsusi mesajlar və məhsul təklifləri təqdim edir.

Platforma vasitəsilə:

- Fərdi kredit təklifləri göstərilir,
- Ad günü təbrikləri çatdırılır,
- Mobil nömrənin əlavə olunması təşviq edilir,
- Müştəri məlumat bazası zənginləşdirilir.

Kredit təklifində "Maraqlıdır" seçimi edildikdə sistem avtomatik olaraq əlavə bildiriş göndərir və satış prosesi digər rəqəmsal kanallarda davam etdirilir. Bu yanaşma ATM-ləri effektiv "lead generation" və əlavə satış platformasına çevirir.

Kredit təklifləri üzrə nəticə:

- Kredit alan müştəri sayı: **2,843**
- Ümumi kredit məbləği: **15,936,450 AZN**

Mobil nömrə bazasının genişləndirilməsi:

- Təklif göstərilən müştəri sayı: **9,027**
- Mobil nömrəsini əlavə edən müştəri sayı: **4,663**

EVAM tətbiqi nəticəsində ATM kanalı aktiv satış alətinə çevrilmiş, müştəri məlumat bazası genişlənmiş və kredit portfelinin artımına mühüm töhfə verilmişdir.



3.5

ƏMƏLİYYATLAR ÜZRƏ YENİLİKLƏRİMİZ

Hüquqi çatbot

2025-ci ildə filial əməkdaşlarının hüquqi mövzularla bağlı suallarını daha sürətli və standartlaşdırılmış şəkildə cavablandırmaq məqsədilə Hüquqi çatbot istifadəyə verilmişdir. Bu həll filiallarda gündəlik əməliyyat proseslərində yaranan hüquqi qeyri-müəyyənliklərin operativ aradan qaldırılmasına və qərarvermə prosesinin sürətlənməsinə xidmət edir.

Hesabat dövründə chatbot vasitəsilə ümumilikdə 1 296 sorğu qəbul olunmuş və bütün müraciətlər dərhal cavablandırılmışdır.

Bu təşəbbüs hüquqi risklərin azaldılmasına, cavabların vahid yanaşma əsasında təqdim olunmasına və filial əməliyyatlarının daha effektiv təşkilinə mühüm töhfə vermişdir.

SAP Ariba e-platformasının tətbiqi

2025-ci ildə satınalma proseslərinin tam rəqəmsallaşdırılması məqsədilə SAP Ariba e-platforması üzrə implementasiya prosesi uğurla tamamlanmışdır. Hazırda Bankın bütün satınalma əməliyyatları vahid elektron mühitdə – SAP Ariba platforması üzərindən həyata keçirilir və bu istiqamətdə tam keçid təmin edilmişdir.



Hesabat dövründə platforma vasitəsilə 324 satınalma əməliyyatı icra olunmuşdur. Elektron formada həyata keçirilən satınalmaların ümumi satınalmalardakı payı 81% təşkil etmişdir ki, bu da proseslərin böyük ölçüdə rəqəmsal müstəviyə keçirildiyini göstərir. Eyni zamanda, platformada 415 təchizatçı elektron qaydada qeydiyyatdan keçmişdir.

Tender qaliblərinə bildirişlərin göndərilməsi

2025-ci ildə CRM sistemi çərçivəsində tender qaliblərinə yönəlik yeni avtomatik bildiriş funksionallığı tətbiq edilmişdir. Bu mexanizm vasitəsilə dövlət və korporativ tender qaliblərinə operativ şəkildə bank məhsulları və maliyyələşmə imkanları barədə məlumat göndərilməsi təmin olunmuşdur.

Hesabat dövründə ümumilikdə 8,779 avtomatik bildiriş göndərilmişdir. Bildirişlər nəticəsində 129 müştəri aktivləşmişdir.

CRM sistemi üzrə yeni funksionallar

2025-ci ildə CRM Salesforce platformasında satış və müştəri idarəetmə proseslərinin daha data-əsaslı və proaktiv qurulması məqsədilə bir sıra yeni funksionallıqlar tətbiq edilmişdir. Bu çərçivədə RM-lər üçün Virtual Assistent istifadəyə verilmiş, həmçinin müştəri dəyəri və performans göstəricilərini əks etdirən inkişaf etmiş analitik dashboardlar hazırlanmışdır.

Virtual Assistent real vaxt rejimində müştəri məlumatlarına çıxış, prioritetləşdirmə və növbəti ən uyğun təkliflərin formalaşdırılması prosesini dəstəkləyir. Hesabat dövründə 14 RM bu alətdən aktiv istifadə etmişdir.

Bununla yanaşı, CRM üzərindən CLTV (Customer Lifetime Value), POS dövriyyəsi, MKR, KPI göstəriciləri, Time To Yes dashboardları və digər analitik panellər istifadəyə verilmişdir. İl ərzində bu dashboardlara ümumilikdə 3,251 baxış qeydə alınmışdır.



MXS-lər tərəfindən HD-yə ünvanlanan sorğuların Manage Engine platforması üzərindən keçirilməsi

2025-ci ilin iyun ayından etibarən filiallar tərəfindən Hüquq departamentinə (HD) ünvanlanan bütün sorğuların Manage Engine platforması üzərindən yönləndirilməsi təmin olunmuşdur. Bu dəyişiklik sorğuların vahid sistemdə qeydiyyata alınması, icra prosesinin izlənilməsi və hesabatlılığın artırılması məqsədilə tətbiq edilmişdir.



Xüsusilə, HD-dən tələb olunan sənədlərlə bağlı müraciətlərin platforma üzərindən keçirilməsi nəticəsində icra vəziyyəti və cavab müddətləri üzrə şəffaf monitorinq mexanizmi formalaşdırılmışdır.

Statistika (iyun–dekabr 2025):

- Daxil olan sorğuların sayı: **1,100**
- Orta cavablandırılma müddəti: **32 dəqiqə**

Mühasibatlıqla bağlı sorğuların Manage Engine üzərindən yaradılması funksiyası

2025-ci ilin may ayından etibarən Mühasibatlıq və uçot departamentinə ünvanlanan müraciətlərin vahid sistem üzərindən idarə olunması məqsədilə Manage Engine platformasında "Daxili mühasibatlıq" adlı yeni servis kataloqu istifadəyə verilmişdir. Bu dəyişikliklə Bankın bütün struktur bölmələri tərəfindən mühasibatlıqla bağlı sorğular yalnız elektron formada, Manage Engine üzərindən yaradılmağa başlanmışdır.

Tətbiq olunan mexanizm sorğuların izlənəbilərliyini artırmış, prioritetləşdirməni sistemləşdirmiş və icra prosesində şəffaflığı təmin etmişdir.

Hesabat dövründə "Daxili mühasibatlıq" servisi üzrə ümumilikdə 68 sorğu yaradılmışdır. Sorğuların orta icra müddəti təxminən 2.88 saat təşkil etmişdir

Kampaniya effektivliyinin ölçülməsi modelinin tətbiqi

Kampaniyaların nəticələrinin düzgün qiymətləndirilməsi məqsədilə effektivlik ölçmə modeli hazırlanmış, İdarə Heyətində təsdiqlənmiş, real kampaniyalar üzərində tətbiq edilmiş və modelin istifadəsinə dair metodologiya tərtib olunmuşdur.

Əmək haqqı modelinin təkmilləşdirilməsi

Əmək haqqı müştəriləri üçün "Collection" modelinin qurulması və tətbiqi həyata keçirilmiş, müştəri seqmentləri (salary, non-salary, pension) müəyyən edilmiş, zəng gününün təyin olunma məntiqi dəyişdirilmiş və modelə yeni funksionallıq əlavə olunmuşdur.

Məlumatların AKB-yə onlayn yüklənməsi

Yeni verilən kreditlərə dair məlumatların AKB-yə onlayn yüklənməsi təmin olunmuşdur, məlumatlar hər 1 saatdan bir avtomatik ötürülməkdədir.

Məhsullar üzrə LTV modelinin qurulması

Məhsullar üzrə LTV (Lifetime value) modeli qurulmuş, yanaşmalar müəyyən edilmiş və biznes strukturlarla razılaşdırılaraq 10 kredit və 1 qeyri-kredit məhsulu üzrə tətbiq olunmuşdur.



Ekvayrinq xidməti üzrə Partnyorlar üçün İnternet Bankçılıq sistemində analitik dashboardun qurulması

Ekvayrinq xidməti üzrə partnyorlar üçün İnternet Bankçılıq platformasında analitik dashboardun hazırlanması təmin olunmuş, dashboardun üçüncü bölməsi tamamlanaraq real mühitdə partnyorlara təqdim olunmuşdur.

İctimai internet üzərindən POS-kassa inteqrasiya prosesinin Bank tərəfdə qurulması

İctimai internet üzərindən VPN tunel qurulmadan POS-kassa inteqrasiyası layihəsi çərçivəsində vendorla çərçivə müqaviləsi imzalanmış, proqram təminatı təqdim olunmuş, testlər aparılmış və layihə pilot olaraq real mühitdə uğurla tətbiq olunmuşdur.

Hüquq departamentinin proqram vasitələrinin Qrup daxilində inteqrasiyası

Hüquq departamentinin istifadə etdiyi proqram vasitələrinin Qrup daxilində inteqrasiyası həyata keçirilmiş, prosesə başlanmışdır. ABB İnnovasiya tərəfindən M-Files contract management aləti ilə inteqrasiya reallaşdırılmışdır.

3.6

ÇEVİK FƏALİYYƏT

Agile Transformasiya: 2025-ci ildə institusional yetkinlik mərhələsi

2025-ci il ABB üçün Agile transformasiyanın daha yetkin və sistemli mərhələyə keçidi ilə yadda qalmışdır. Agile Transformasiya layihəsinin üçüncü dalğası çərçivəsində Müştəri Əlaqələri, Hüquq və İnformasiya Təhlükəsizliyi üzrə Ekspertiza Mərkəzlərinin fəaliyyətə başlaması ilə Agile Playbook yenilənmiş, bu strukturların rolu və fəaliyyət prinsipləri vahid çərçivədə təsbit edilmişdir. Eyni zamanda Agile Ofisin metodiki göstəriş sənədləri genişləndirilmiş, proseslər daha əhatəli şəkildə təsvir olunaraq bütün Agile perimetrə kommunikasiya edilmişdir. Bununla yanaşı, Agile Ofisin əsas məhsulları olan Məhsul və Xidmətlərin Tam Həyat Dövrü İdarəetməsi (Complete Product Lifecycle) və İnnovasiya Metrikinin ölçülməsi (Innovation Ratio) üzrə yanaşmalar Playbook-da yenilənmiş və təkmilləşdirilmişdir.

Hesabat dövründə Agile Ofis Bankın dəyər yönümlü idarəetmə modelinin gücləndirilməsi, təşkilati çevikliyin artırılması və korporativ davamlılıq hədəflərinin dəstəklənməsi istiqamətində mühüm strateji rol oynamışdır. Bu çərçivədə Bankın təşkilati səviyyədə Agile yetkinliyinin obyektiv qiymətləndirilməsi üçün beynəlxalq konsaltinq şirkəti ilə əməkdaşlıq edilmiş, mövcud vəziyyət, güclü tərəflər və inkişaf üçün əsas fokus sahələri müəyyən olunmuşdur. Əldə edilən nəticələr növbəti mərhələlər üzrə transformasiya yol xəritəsinin formalaşdırılmasında əsas istinad nöqtəsinə çevrilmişdir.

Dəyər təklifinin müştərilərə daha effektiv çatdırılmasını təmin etmək məqsədilə sahələrin əməliyyat modelləri yenidən nəzərdən keçirilmiş, funksional əhatə dairələri, biznes məsuliyyətləri və əsas performans göstəriciləri təhlil edilmişdir. Nəticədə resurslardan istifadənin optimallaşdırılması və qərarvermə proseslərinin sürətləndirilməsi istiqamətində struktur dəyişiklikləri həyata keçirilmişdir. Eyni zamanda, bir neçə məhsul komandasının eyni məhsul və ya dəyər axını üzərində koordinasiyalı fəaliyyətini təmin etmək üçün Nexus framework tətbiq edilmiş, bu yanaşma asılılıqların daha effektiv idarə olunmasına, inteqrasiya risklərinin azaldılmasına və məhsul səviyyəsində şəffaflığın artırılmasına xidmət etmişdir.

Strateji təşəbbüslərin vahid baxış altında idarə olunmasını təmin etmək məqsədilə Portfolio 360 yanaşması dizayn edilmişdir. Bu model çərçivəsində yüksək prioritetli təşəbbüslər portfeli formalaşdırılmış, layihələrin strateji prioritetlərlə uyğunluğu, dəyər potensialı və resurs təsiri nəzərə alınmaqla portfel idarəetməsi gücləndirilmişdir. Paralel olaraq, Agile transformasiyanın təşkilat üzrə daha geniş yayılması üçün maraqlı tərəflərlə əməkdaşlıq dərinləşdirilmiş, Agile yanaşmaların qeyri-Agile strukturlara sistemli şəkildə inteqrasiyası istiqamətində praktiki addımlar atılmışdır.

Ekspertiza Mərkəzlərinin təşkilat daxilində rolunu gücləndirmək məqsədilə vahid idarəetmə çərçivəsi hazırlanmış, rollar və məsuliyyətlər dəqiqləşdirilmiş, qarşılıqlı xidmət modeli və qərarvermə mexanizmləri şəffaflaşdırılmışdır. Bununla yanaşı, strateji əhəmiyyətli funksiyaların Agile ekosistemə inteqrasiyasını sürətləndirmək üçün İnformasiya Təhlükəsizliyi, Hüquq və EVAM üzrə yeni Ekspertiza Mərkəzləri formalaşdırılmışdır. Bu strukturlar risklərin proaktiv idarə olunması, tənzimləyici tələblərə uyğunluğun təmin edilməsi və dəyər axınlarının təhlükəsiz şəkildə sürətləndirilməsi baxımından Agile komandalar üçün əsas tərəfdaş rolunu oynamağa başlamışdır.


Təşkilati çevikliyin daha geniş miqyasda yayılması məqsədilə Agile strukturlarından kənarda fəaliyyət göstərən bölmələrdə Agile səfirləri təyin edilmişdir. Bu təşəbbüs çevik düşüncə tərzinin təşviqinə, Agile prinsiplərinin praktik tətbiqinə və dəyişikliklərə sahiblənmə səviyyəsinin artırılmasına xidmət etmişdir. Nəticədə maraqlı tərəflərin Agile proseslərə adaptasiyası sürətlənmiş və təşkilati yetkinlik səviyyəsi yüksəlmişdir.

2025-ci il, eyni zamanda, Bankın 2023-2025-ci illəri əhatə edən İnkişaf Strategiyası çərçivəsində Agile idarəetmə modelinin artıq təkcə icra mexanizmi deyil, həm də strateji prioritetlərin reallaşdırılmasını

dəstəkləyən əsas idarəetmə alətinə çevrildiyi mərhələ olmuşdur. Bu dövrdə Keyfiyyət İndeksi göstəricisi bütün Agile perimetri üzrə tətbiq edilmiş, məhsul və xidmətlərin keyfiyyətinin davamlı ölçülməsi və data əsaslı təkmilləşdirilməsi təmin olunmuşdur. Eyni zamanda, müştəri məmnuniyyətinin ölçülməsi metodologiyası və məhsul kataloqu üzrə yanaşmalar yenilənmiş, müştəri təcrübəsinin daha geniş prizmadan qiymətləndirilməsi mümkün olmuşdur.

Biznes çevikliyinin inkişafı nəticəsində məhsul və təşəbbüslərin bazara çıxma müddətində (Time-to-Market) nəzərəçarpacaq azalma qeydə alınmış, bu isə Bankın bazar dəyişikliklərinə daha çevik reaksiya verməsinə və müştəri ehtiyaclarına daha sürətli cavab təqdim etməsinə imkan yaratmışdır. Nəhayət, təşkilat üzrə çevikliyin vahid istiqamətdə inkişafını təmin etmək məqsədilə Agility Compass formalaşdırılmış, Bankın çevikliyə baxışı, əsas davranış prinsipləri və uzunmüddətli inkişaf trayektoriyası aydın şəkildə müəyyən edilmişdir.

Beləliklə, 2025-ci il ABB-də Agile transformasiyanın institusional səviyyədə möhkəmləndiyi, çevikliyin strateji üstünlüyə çevrildiyi və dəyər yönümlü idarəetmənin təşkilatın əsas idarəetmə fəlsəfəsi kimi formalaşdığı il olmuşdur.






Kommersiya fəaliyyəti

4.1

XİDMƏT ŞƏBƏKƏSİNİN GENİŞLƏNDİRİLMƏSİ

4.1.1 Filialların inkişafı və transformasiyası

ABB müştərilərinə daha yaxın olmaq, bank xidmətlərini daha əlçatan və səmərəli şəkildə təqdim etmək məqsədilə satış və xidmət şəbəkəsinin inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Bank bazar ehtiyaclarını və müştəri davranışlarındakı dəyişiklikləri nəzərə alaraq, satış və xidmət kanallarını mütəmadi şəkildə təhlil edir və bu əsasda həm fiziki, həm də rəqəmsal infrastrukturunu davamlı olaraq təkmilləşdirir. ABB üçün əsas məqsəd yalnız xidmət coğrafiyasını genişləndirmək deyil, eyni zamanda hər bir müştəri təmas nöqtəsində daha keyfiyyətli, rahat və etibarlı bankçılıq təcrübəsi yaratmaqdır. Bu yanaşma çərçivəsində filial şəbəkəsi rəqəmsal həllərlə inteqrasiya olunur, innovativ xidmət modelləri tətbiq edilir və müştəriyönümlü xidmət konsepsiyası ardıcıl şəkildə gücləndirilir.



Şəkil 4. ABB-nin filialları

2025-ci il ərzində ABB filial şəbəkəsinin transformasiyası istiqamətində ardıcıl və məqsədyönlü addımlar atmışdır. Layihə çərçivəsində mövcud filiallar müasir bankçılıq standartlarına uyğun şəkildə yenilənmiş, yeni konseptlər əsasında qurulmuş və xidmət məntiqi müştəri ehtiyaclarına daha çevik cavab verəcək formada yenidən dizayn edilmişdir. Bu dəyişikliklər fərdi müştərilərin gündəlik bank əməliyyatlarını daha sürətli və rahat həyata keçirməsinə, biznes müştərilərinin isə maliyyə həllərinə daha operativ çıxış əldə etməsinə imkan yaratmışdır. Nəticə etibarilə, filial şəbəkəsinin transformasiyası ABB-nin xidmət keyfiyyətini və əməliyyat effektivliyini yüksəltməklə yanaşı, müştərilər üçün daha müasir, funksional və rahat bank mühitinin formalaşmasına şərait yaratmışdır.

2025-ci ildə ABB müştəri təcrübəsini yüksəltmək və xidmət keyfiyyətini yeni mərhələyə daşımaq məqsədilə filial şəbəkəsinin yenilənməsi istiqamətində mühüm addımlar atmışdır. Yasamal, Saatlı və Daşkəsən filialları, eləcə də Texnologiya şöbəsi müasir bankçılıq standartlarına uyğun konseptdə tam şəkildə modernləşdirilmişdir. Bu yenilənmə nəticəsində müştərilər üçün daha rahat, funksional və texnoloji baxımdan inkişaf etmiş xidmət mühiti formalaşdırılmışdır.

Modernləşdirilmiş filiallarda kredit məhsullarının təqdimatı, kassa-hesablaşma əməliyyatları, əmanətlərin yerləşdirilməsi, pul köçürmələri, ödəniş kartlarının sifarişi, nağd valyuta əməliyyatları və digər əsas bank xidmətləri vahid və səmərəli şəkildə göstərilir. Yeni konsept çərçivəsində filiallar ən son texnoloji həllərlə təchiz olunaraq xidmət proseslərinin daha çevik, sürətli və müştəriyönümlü şəkildə həyata keçirilməsinə imkan yaradır. Sözügedən filiallar həm fiziki şəxslərə, həm də korporativ müştərilərə geniş spektrli bank xidmətlərini təqdim etməklə ABB-nin universallıq prinsipini praktikada təmin edir.







ABB 2025-ci ildə müştərilərə daha əlçatan və yüksək keyfiyyətli xidmət göstərmək məqsədilə filial şəbəkəsini genişləndirmiş və yeni xidmət ofislərini istifadəyə vermişdir. Filialların yerləşdirilməsi zamanı müştəri tələbatının yüksək olduğu və əhali sıxlığının çox olduğu ərazilər prioritet kimi nəzərə alınmış, eyni zamanda bank xidmətlərinin mövcud olmadığı və ya məhdud olduğu zonalarda əlçatanlığın artırılması məqsədilə yeni lokasiyalar seçilmişdir. Bu çərçivədə Seabreeze, Neftçilər və Cəfər Cabbarlı filialları müasir bankçılıq standartlarına uyğun konseptdə qurularaq müştərilərin geniş çeşidli bank xidmətlərindən rahat, sürətli və effektiv şəkildə faydalanmasına imkan yaratmışdır.



87

Ölkə üzrə fəaliyyət göstərən xidmət ofislərinin sayı



4

2025-ci ildə yeni konseptdə qurularaq müştərilərin istifadəsinə verilmiş filialların sayı

4.2

MÜŞTƏRİ MƏMNUNİYYƏTİ

ABB üçün müştəri məmnuniyyətinin təmin edilməsi və xidmət keyfiyyətinin davamlı şəkildə yüksəldilməsi strateji prioritetlər sırasında xüsusi yer tutur. Hesabat dövründə Bank qəbul etdiyi strateji hədəflərə uyğun olaraq daxili proseslərin avtomatlaşdırılmasını sürətləndirmiş, əməliyyat səmərəliliyinin artırılmasına yönəlmiş təkmilləşdirmələri ardıcıl şəkildə həyata keçirmişdir. Bu yanaşma xidmətlərin göstərilmə sürətinin yüksəldilməsinə, eyni zamanda qərarvermə proseslərinin daha çevik və səmərəli təşkilinə imkan yaratmışdır. Müxtəlif kommunikasiya kanalları üzrə müştəri müraciətlərinin mərkəzləşdirilmiş qaydada qeydiyyatı və təhlili Banka müştəri təcrübəsini daha dərindən anlamağa, gözləntilərə vaxtında və uyğun həllərlə cavab verməyə şərait yaradır. ABB gələcək dövrlərdə də innovativ həllərin və qabaqcıl texnologiyaların tətbiqi ilə xidmət keyfiyyətini daha da yüksəltməyi və müştərilərinə daha üstün təcrübə təqdim etməyi hədəfləyir.

NPS (Net Promoter Score) üzrə beynəlxalq təcrübədə 70-dən yuxarı göstərici yaxşı nəticə hesab olunur və müştəri məmnuniyyəti ilə yanaşı, güclü loyallıq səviyyəsini əks etdirir.

NPS göstəricisi	
2023	76.8
2024	76.85
2025	73.4



4.3

ABB-NİN 2025-Cİ İLDƏ FİLİALLARLA İŞ VƏ SATIŞA DƏSTƏK ÜZRƏ FƏALİYYƏTİ, STRATEJİ İNKİŞAFI

2025-ci il ABB üçün filial şəbəkəsi ilə işin gücləndirilməsi, satış proseslərinin sistemli şəkildə dəstəklənməsi və əməliyyat səmərəliliyinin artırılması baxımından mühüm mərhələ olmuşdur. İl ərzində həyata keçirilən təşəbbüslər MXS-lərin idarəetmə keyfiyyətinin yüksəldilməsinə, satış və xidmət performansının artırılmasına, eləcə də qərarvermənin data əsaslı modelə keçidinə xidmət etmişdir.

Bu çərçivədə Peşəkar Liderlik Akademiyası, Podcast, Gizli Müştəri, "Ulduz" və "Uğur" layihələri vasitəsilə filial rəhbərliyi və MXS əməkdaşlarının idarəetmə bacarıqları, satış motivasiyası və xidmət keyfiyyəti sistemli şəkildə gücləndirilmişdir. Eyni zamanda, xərclərin optimizasiyası layihəsi çərçivəsində təsərrüfat malları və nəqliyyat xərclərinin optimallaşdırılması əməliyyat səmərəliliyinin artırılmasına mühüm töhfə vermişdir. MXS-lərin inkişafını dəstəkləmək məqsədilə performans analitikası, proqnozlaşdırma və süni intellekt əsaslı modellər tətbiq edilmiş, bir neçə qabaqcıl AI/LLM modeli test edilərək analitik və proqnozlaşdırıcı məqsədlərlə istifadəyə verilmişdir. Bu yanaşma proqnoz dəqiqliyinin yüksəlməsinə, fərqlərin daha erkən aşkar edilməsinə və qərarvermə prosesində analitik dəstəyin güclənməsinə imkan yaratmışdır. Bundan əlavə, MXS-lərin kateqoriya bölgüləri dinamik hesablanma metodologiyasına keçirilmiş və bu yanaşmanın motivasiya və KPI sisteminə inteqrasiyası üzrə qərar qəbul edilmişdir.

2025-ci ildə rəqəmsallaşma gündəliyi də əhəmiyyətli dərəcədə genişlənmişdir. MXS-lər üçün QR kod ilə məsafədən satış, ABB mobile "Dəvət et" funksionallığı, paperless hesabatların dashboardlara inteqrasiyası, kart mərkəzinin fəaliyyətinə dair müvafiq proseslərin Dynamics və ƏİS sistemlərində təkmilləşdirilməsi, "Map" proqramının alışı, Dynamics sisteminə keçid zamanı həvalə prosesinin avtomatlaşdırılması, işçi krediti müraciətinin Manage Engine üzərinə keçirilməsi, MXS-lərdə yaranmış uyğunsuzluqların və monitorinq zamanı müəyyən edilən problemlərin AƏS-də yeni yaradılmış platforma (reportview) üzərində qeydiyyatıa alınması, Verint layihəsinin 2 modulunun tamamlanaraq AI CAN platformasına qayda və qanunvericiliyin inteqrasiyası, Q-Meter çərçivəsində QR kodun tətbiqləri kimi təşəbbüslər icra olunmuşdur.

Bununla yanaşı, 2025-ci ildə rəqəmsallaşma təşəbbüsləri çərçivəsində süni intellekt modelləri pilot olaraq dashboard platformasına inteqrasiya edilmişdir. Xüsusilə, MXS-lərin "Profit & Loss" göstəriciləri üzrə avtomatlaşdırılmış WEB əsaslı hesabatlılığın qurulması filialların C/I (Xərc/Gəlir) göstəricilərinin daha dəqiq analitik qiymətləndirilməsinə, səmərəliliyin artırılmasına və manual hesabat yükünün əhəmiyyətli dərəcədə azalmasına imkan vermişdir. Eyni zamanda, Branch-Alert mexanizmi vasitəsilə MXS-lərə real vaxt rejimində bildirişlər göndərilərək müştəri gözləmə vaxtlarının operativ idarə olunması təmin edilmişdir.

Müştərilərdən və daxili istifadəçilərdən daxil olan irad və təkliflər 2025-ci ildə sistemli şəkildə təhlil olunmuş, prioritet problem sahələri müəyyən edilmiş və bu əsasda hədəfli tədbirlər görülmüşdür. Q-meter və SMS qiymətləndirmələri əsasında xidmət keyfiyyəti üzrə təhlillər aparılmış, dashboard və hesabatlarda təkmilləşdirmələr edilmiş, aşağı effektivlik göstərən ATM-lər üzrə dislokasiya və optimallaşdırma işləri həyata keçirilmişdir. Eyni zamanda, kart mərkəzi tərəfindən çatdırılan kartlar üzrə müştəri məmnuniyyət sorğusu daha effektiv formatda yenilənmişdir.

Müştəri məxfiliyinin qorunması istiqamətində də ardıcıl addımlar atılmışdır. Yerində monitorinqlər zamanı əməkdaşlarla maarifləndirici kommunikasiyalar aparılmış, səs dinləmələri zamanı müvafiq qeydlər götürülmüş və elektron poçt üzərindən mütəmadi xatırlatmalar göndərilməklə məlumat təhlükəsizliyi və məxfilik mədəniyyəti gücləndirilmişdir.

İl ərzində əlavə olaraq kartların ləğv olunma prosesinin avtomatlaşdırılması, inzibati sorğuların ESD sisteminə inteqrasiyası, satışların artırılması məqsədilə filial rəhbərlərinə fərdi limitlərin verilməsi və MXS-lərdə müştəri seqmentlərinə uyğun fərdi kredit kampaniyalarının planlaşdırılması kimi təşəbbüslər də icra edilmişdir.

Nəticə etibarilə, 2025-ci ildə həyata keçirilən bu təşəbbüslər MXS-in idarəetmə modelini daha data əsaslı, çevik və nəticəyönümlü formata keçirmiş, həm əməliyyat səmərəliliyinin, həm də müştəri təcrübəsinin keyfiyyətinin yüksəldilməsinə güclü zəmin yaratmışdır.



4.4

PƏRAKƏNDƏ VƏ KORPORATİV BİZNES FƏALİYYƏTİ

Aktiv müştəri meyarları

Pərəkəndə bankçılıq müştəriləri

Son 3 ay ərzində ən azı 1 debet əməliyyatı etmiş müştərilər

Son 1 ayda balansında 100 AZN və daha yuxarı ödənilməmiş qalıq olan müştərilər

Ödəmə müddəti 90 günü keçməmiş, aktiv kreditə malik müştərilər

Depoziti 100 AZN-dən yuxarı olan müştərilər

Biznes bankçılıq müştəriləri

İri korporativ müştərilər
Son 12 ay ərzində 100 min.+ AZN dövriyyə

Kiçik və orta sahibkarlar (KOS)
Son 12 ay ərzində 100 min.+ AZN dövriyyə

ABB İnternet Bankçılıq müştəriləri
Hesabat ayında ən azı bir əməliyyat həyata keçirmiş müştərilər (dekabr 2025)

ABB müştəriyönümlü və data əsaslı idarəetmə yanaşmasını əsas tutaraq, pərakəndə müştəriləri ilə uzunmüddətli və etibarlı münasibətlərin qurulmasına xüsusi önəm verir. Bankın əsas məqsədi yalnız müştərilərin gündəlik maliyyə ehtiyaclarını qarşılamaq deyil, eyni zamanda onların gözləntilərini qabaqlayan, rahat, vahid və fərdiləşdirilmiş bankçılıq təcrübəsi təqdim etməkdir. Strateji prioritetlərə uyğun olaraq, fərqli müştəri seqmentləri üzrə hədəfli və ehtiyaclara uyğun məhsul və həllər formalaşdırılır. ABB pərakəndə müştərilərinə əməkhaqqı və pensiya kreditləri, ipoteka məhsulları, kredit kartı limitləri və digər geniş çeşidli maliyyə alətləri təqdim etməklə, onların maliyyə rifahının və gündəlik rahatlığının təmin olunmasına davam edir.

Pərakəndə bankçılıq seqmenti üzrə həyata keçirilən əsas layihələr və təşəbbüslər

2025-ci ildə Pərakəndə Bankçılıq Seqmentinin fəaliyyəti müştəri təcrübəsinin yaxşılaşdırılması, rəqəmsal kanalların genişləndirilməsi və əsas bank xidmətlərinin daha əlçatan edilməsi üzərində qurulmuşdur. İl ərzində ABB mobile platformasında kart sifarişlərinin izlənməsi (card tracking) funksionallığı tətbiq edilmiş, kart sifarişi zamanı video zəng vasitəsilə KYC prosesi qurulmuş və promo kod imkanları yaradılmışdır. Bununla yanaşı, ABB-AZAL Miles kartları üzrə ad günü və ildönümü hədiyyə milləri funksionallığı istifadəyə verilmişdir. ATM-lər üzərindən avans kredit məhsuluna elektron müraciət və rəsmiləşdirmə imkanının yaradılması, eləcə də adsız kartların birbaşa filialların front office əməkdaşları tərəfindən təqdim edilməsi xidmət sürətini və əlçatanlığını əhəmiyyətli dərəcədə artırmışdır.

Məhsul və xidmətlərin rəqəmsallaşdırılması və innovativ təkmilləşdirmələr


Hesabat ilində məhsul və xidmətlərin təkmilləşdirilməsi istiqamətində rəqəmsallaşma və avtomatlaşdırma əsas prioritetlərdən biri olmuşdur. Omnichannel yanaşma çərçivəsində internet

bankçılıq üzərindən əməkhaqqı kartlarının sifarişi prosesinin ABB mobile vasitəsilə tamamlanması imkanı yaradılmışdır. ATM-lərdə Visa və Mastercard Token Cash-In xidmətinin Apple Pay və Google Pay platformaları ilə inteqrasiyası sayəsində tokenləşdirilmiş kartlar vasitəsilə nağd vəsaitin yatırılması mümkün olmuşdur. Cash Out v2 xidmətində istifadəçi interfeysinin optimallaşdırılması və müasir dizaynın tətbiqi əməliyyat proseslərini daha sadə və intuitiv etmişdir. Eyni zamanda, MasterCard ödəniş sisteminin komissiya və bülletenlərinin AI əsaslı müşavir vasitəsilə analizi funksionallığının hazırlanması analitik nəzarət və qərarvermə imkanlarını gücləndirmişdir.


Müştərilərin qorunması, yeni müştərilərin cəlb edilməsi və kommunikasiya kanallarının inkişafı

2025-ci ildə müştəri bazasının qorunması və genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılmışdır. ABB mobile vasitəsilə mövcud kartların yenilənməsi və təkrar sifarişi imkanlarının yaradılması müştərilər üçün rahatlığı artırmışdır. ABB-AZAL Miles müştəriləri üçün keçirilən 20-dən çox kampaniya satış və aktivliyin yüksəlməsinə töhfə vermişdir. Bununla yanaşı, EVAM ssenariləri əsasında kredit və avans məhsullarının avtomatlaşdırılmış təklifi mexanizminin tətbiqi ATM-lərdə real vaxt rejimində müştərilərə uyğun maliyyə həllərinin təqdim olunmasını mümkün etmişdir. Bu təşəbbüslər müştəri təcrübəsinin təkmilləşdirilməsinə, loyallığın gücləndirilməsinə və yeni müştərilərin cəlbinə xidmət etmişdir.

Şəkil 5. 2025-cü ildə pərakəndə kreditlərin bölgüsü



Şəkil 6. Aktiv pərakəndə müştərilər (min)




Hesabat ilində həyata keçirilən Mass və Segment kampaniyalarının nəticəsi olaraq aktiv pərakəndə müştəri bazası ötən illə müqayisədə 15% və ya təxminən 184 min nəfər artmışdır. Bu artım Bankın müştəriyönümlü strategiyasının, düzgün hədəflənmiş təşviq mexanizmlərinin və gündəlik istifadəyə yönəlmiş məhsul həllərinin effektivliyini nümayiş etdirir. İl ərzində icra olunan genişmiqyaslı kampaniyalar, eləcə də metro və avtobuslarda bank kartları ilə ödəniş imkanının tətbiqi nağdsız ödənişlərin istifadəsini sürətləndirmiş, kart aktivliyini artırmış və müştəri bazasının genişlənməsinə mühüm töhfə vermişdir.

Şəkil 7. İlk dəfə hesab açan müştərilərin ümumi sayı (min)




2025-ci ildə ilk dəfə hesab açan müştərilərin ümumi sayı 2024-cü il ilə müqayisədə 13% azalmışdır. Bu dinamika aktiv müştəri bazasının genişləndirilməsi istiqamətində fokusun güclənməsi ilə əlaqədardır və mövcud müştərilərin aktivliyinin artırılmasına yönəlmiş strategiyanın təbii nəticəsi kimi qiymətləndirilir. Bundan əlavə, bazarda rəqabətin artması, maliyyə xidmətlərindən istifadədə davranışların dəyişməsi, eləcə də rəqəmsal kanallar vasitəsilə alternativ həllərin çoxalması da yeni hesab açılışlarının sayında müşahidə olunan azalmanı şərtləndirən amillər sırasında yer alır.

Şəkil 8. Pərakəndə kredit götürənlərin ümumi sayı (min)




Hesabat dövründə pərakəndə kreditlərdən istifadə edən müştərilərin ümumi sayı ötən illə müqayisədə 11% artmışdır. Bu artım əsasən yeni debet kartlarının satışının genişlənməsi və aktiv müştəri bazasının böyüməsi ilə bağlıdır. Müştəri bazasının genişlənməsi kredit məhsullarına marağın yüksəlməsinə və nəticə etibarilə kredit müştərilərinin sayının artmasına müsbət təsir göstərmişdir.

Şəkil 9. Pensiya istifadəçilərinin ümumi sayı (min)



Şəkil 10. Aktiv ABB mobile istifadəçilərinin ümumi sayı (min)



2025-ci ildə aktiv ABB mobile istifadəçilərinin ümumi sayı 2024-cü illə müqayisədə 151 min nəfər və ya 14% artmışdır. Bu artım əsasən pərakəndə aktiv müştərilərin sayının çoxalması, tətbiqdə qeydiyyatdan keçmiş istifadəçilərin kəskin şəkildə artması və yeni kart satışlarının genişlənməsi ilə bağlıdır. Bununla yanaşı, tətbiqin funksionallığının təkmilləşdirilməsi və rəqəmsal xidmətlərin daha əlçatan və rahat hala gətirilməsi də müştərilərin ABB mobile-dan istifadəyə keçidini sürətləndirmişdir.

ABB-nin pərakəndə müştərilər üçün təklif etdiyi kredit məhsulları

ABB pərakəndə müştərilərə geniş və çevik kredit portfeli təqdim etməklə onların həm uzunmüddətli, həm də gündəlik maliyyə ehtiyaclarını qarşılamağı hədəfləyir. Bank əmək haqqı və pensiyanı həm ABB-dən, həm də digər banklardan əldə edən müştərilərə müxtəlif kredit məhsulları təqdim edir. ABB-nin ipoteka kreditləri müştərilərə sərfəli və şəffaf şərtlərlə mənzil sahibi olmaq imkanı yaradır və həm dövlət, həm də kommersiya ipotekası variantlarını əhatə edir. İstehlak kreditləri isə avtomobil alışı, təmir və digər şəxsi ehtiyacların maliyyələşdirilməsi üçün çevik həllər təqdim edir. Bank müasir rəqəmsal və analitik yanaşmalar tətbiq edərək davranış modelləri əsasında kreditlər, "İndi al, sonra ödə" (BNPL), Avans kredit məhsulu, TamKart kredit xətti və digər maliyyə alətləri vasitəsilə müştərilərə daha əlçatan və fərdiləşdirilmiş maliyyə imkanları yaradır. Rəqəmsal kanallar üzərindən müraciət, sürətli qərarvermə və çevik şərtlər sayəsində ABB kredit prosesini daha rahat və müştəriyönümlü edir, onların maliyyə rifahının və gündəlik rahatlığının təmin olunmasına davam edir.

İpoteka kreditləri

ABB tərəfindən müştərilərə müxtəlif növ ipoteka kreditləri təklif olunur:

Daxili ipoteka

- Mənzil, fərdi yaşayış və bağ evləri üçün ipoteka krediti;
- Partnyor tikinti şirkətləri üzrə ipoteka krediti;
- Torpaq ipoteka krediti;
- Ev tikinti ipoteka krediti;
- İpoteka əmanəti krediti;
- Biznes obyektinin alınması üçün ipoteka krediti;
- Girov təminatlı istehlak krediti;
- Təmir krediti.

Dövlət ipotekası

- Dövlət ipotekası – adi;
- Dövlət ipotekası – güzəştli;
- MİDA güzəştli ipoteka krediti.

İstehlak kreditləri


- ABB-dən əməkhaqqı və pensiya alan müştərilər üçün kreditlər;
- Digər banklardan əməkhaqqı və pensiya alan müştərilər üçün kreditlər;
- Kreditlərin yenidən maliyyələşdirilməsi məhsulu;
- İpoteka kreditləri (dövlət və kommersiya ipotekası);
- Davranış modelləri əsasında kreditlər;
- "İndi al, sonra ödə" (BNPL) məhsulu;
- Avans kredit məhsulu;
- TamKart kredit xətti məhsulu.

ABB-nin pərakəndə müştərilər üçün təklif etdiyi depozit məhsulları

ABB-nin pərakəndə müştəriləri aşağıdakı şərtlərdən birinə uyğun depozit hesabı aça bilərlər:


- "Klassik" müddətli əmanət;
- Əmanət ipoteka krediti;
- Depozit qutusu;
- DigiDepozit;
- DigiHesab;

Şəkil 11. Əsas pərakəndə bank məhsulları üzrə satış portfelləri



Pərakəndə kredit portfeli (mln, AZN)


2025-ci ildə pərakəndə kredit portfeli əvvəlki illə müqayisədə 9% və ya 294 milyon artmışdır. Bu dinamika, ilk növbədə, istehlak kreditləri üzrə satışların yeni müştəri seqmentlərini əhatə etməsi, portfeldəki aktiv müştəri bazasının genişlənməsi və bir müştəri üzrə orta kredit qalığının yüksəlməsi ilə izah olunur. Paralel olaraq, yeni MTK-ların portfelə cəlb edilməsi və ABB-nin daxili ipoteka məhsulunun bazardakı alternativlərlə müqayisədə daha əlçatan və rəqabətli şərtlərlə təklif edilməsi ipoteka portfelinin artımına əlavə impuls vermişdir. Nəticədə, həm istehlak, həm də ipoteka istiqamətləri üzrə balanslı və dayanıqlı portfel genişlənməsi təmin olunmuşdur.



Pərakəndə depozit portfeli (mln, AZN)


2025-ci ildə pərakəndə depozit portfeli 2024-cü illə müqayisədə 505 milyon manat və ya 40% artım göstərmişdir. Bu artım əsasən əhalinin yığım meylinin güclənməsi, eləcə də ABB-nin depozit məhsulları üzrə cəlbedici şərtlər və rəqəmsal kanallar vasitəsilə depozitlərin rahat yerləşdirilməsi imkanlarının genişləndirilməsi ilə şərtlənmişdir. Nəticədə, müştərilərin bankda saxladıqları vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır.

Şəkil 12. Quraşdırılmış ATM-lərin ümumi sayı



2025-ci il ərzində Bankın ATM infrastrukturunun inkişafı davam etdirilmiş və şəbəkəyə 70 yeni ATM əlavə olunmuşdur. Genişlənmə yeni alınmış ATM-lərin müştəri axınının yüksək olduğu nöqtələrdə yerləşdirilməsi, eləcə də mövcud şəbəkənin əhatə dairəsinin artırılması hesabına həyata keçirilmişdir. Bu təşəbbüs bank xidmətlərinin daha əlçatan olmasını təmin etməklə yanaşı, müştəri əməliyyatlarının rahatlığını və sürətini artırmağa yönəlmişdir.

Şəkil 13. Quraşdırılmış POS terminalların ümumi sayı



2025-ci il ərzində quraşdırılmış POS terminalların sayı 41% artmışdır. Bu artımın əsas səbəblərindən biri rəqəmsal kiçik biznesi sahəsi üzrə Mobil POS həllərinin aktiv şəkildə satışa çıxarılması olmuşdur. Xüsusilə taksi fəaliyyəti üzrə POS şəbəkəsində 2,429 ədəd artım qeydə alınmışdır. Eyni zamanda, pərakəndə ticarət şəbəkələrinin genişlənməsi — o cümlədən OBA marketlər, Tam Store mağazalar şəbəkəsi, ARAZ marketlər və aptek şəbəkələri (Buta, VİTA, ALOE və s.) üzrə yeni filialların açılması — POS infrastrukturunun böyüməsinə əlavə təkan vermişdir.

ABB-nin kartları

TamKart

TamKart-ın istifadəçi sayı 2025-ci ildə 1,616,354 nəfərə çatıb. Bu ötən illə müqayisədə 23.1% artım deməkdir.

TamKart geniş tərəfdaş şəbəkəsi, alış-verişlərdə faizsiz taksit imkanları və bonus qazandıran üstünlükləri ilə müştərilərin gündəlik maliyyə seçimində önəmli yer tutmağa davam edir. ABB-nin ardıcıl və hədəfli marketinq strategiyaları, eləcə də mütəmadi həyata keçirilən kampaniyalar TamKart-a olan marağı əhəmiyyətli dərəcədə artırmış və istifadəçi bazasının sürətli genişlənməsini təmin etmişdir.



ABB Biz rəqəmsal kartı

Kiçik biznes müştəriləri üçün nəzərdə tutulmuş "ABB Biz" rəqəmsal kartının ABB Biz tətbiqi daxilində inteqrasiyası təmin olunmuşdur. Bu həll sahibkarlara kart əməliyyatlarını tam rəqəmsal mühitdə daha çevik şəkildə idarə etmək imkanı yaradır. Eyni zamanda, gündəlik maliyyə əməliyyatlarının rahatlığı və nəzarət imkanları əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

2025-ci ildə ABB Biz rəqəmsal kart məhsulu kiçik və orta biznes müştəriləri üçün əsas ödəniş alətlərindən birinə çevrilmişdir. Hesabat dövründə ümumilikdə 7,100 rəqəmsal kart aktivləşdirilmişdir.



Biznes kartları üzrə ümumi əməliyyat sayı 232,802, əməliyyat həcmi isə 71,771,310 AZN təşkil etmişdir. Kart vasitəsilə həyata keçirilən onlayn ödənişlərin sayı 33,165, həcmi isə 3,711,323 AZN olmuşdur.

Rəqəmsal kartlardan aktiv istifadə edən müştərilərin sayı 4,486 olmuşdur. Bununla yanaşı, kiçik sahibkarlar üçün 730 fiziki kart buraxılmışdır (fiziki kartların birbaşa satışı həyata keçirilmədiyi, yalnız rəqəmsal sifarişdən fiziki karta keçid mümkün olduğu nəzərə alınmaqla).

Alpha Card

ABB 2025-ci ildə 7–17 yaş arası uşaqlar üçün nəzərdə tutulmuş tam rəqəmsal **Alpha Card** məhsulunu təqdim etmişdir. Məhsul valideyn nəzarəti prinsipi əsasında qurulmuşdur. Kartın sifarişi və idarə olunması valideynlər tərəfindən həyata keçirilərək uşaqlara erkən yaşdan maliyyə savadlılığı və rəqəmsal bankçılıq təcrübəsi qazandırmaq məqsədi daşıyır.

Ümumi Alpha Card göstəriciləri

- Buraxılmış kart sayı: **14,715 ədəd**
  - Bunun **11,586 ədədi rəqəmsal** kartlardır
- Dövriyyə etmiş istifadəçi sayı: **13,480 nəfər**
- Yalnız retail əməliyyatı edən istifadəçi sayı: **5,381 nəfər**



Fiziki Alpha Card

Rəqəmsal kartlarla yanaşı, fiziki formatda təqdim olunan Alpha Card da müştərilərə seçim imkanı yaratmışdır.

- Çap edilmiş fiziki kart sayı: **3,129 ədəd**
- Aktiv istifadə edən kart sayı: **2,686 ədəd**
- Yalnız riteyl dövriyyə edən kart sayı: **1,912 ədəd**

Aktivlik göstəriciləri:

- Ümumi aktivlik faizi: **85.8%**
- Yalnız retail aktivlik: **61%**

Alpha Card layihəsi gənc nəsil üçün maliyyə alətlərinə erkən çıxış imkanı yaratmaqla yanaşı, ABB-nin gələcək müştəri bazasının formalaşdırılmasına və rəqəmsal ekosistemin genişlənməsinə strateji töhfə vermişdir.

ABB Miles

2025-ci ildə ABB Miles kartı üzrə aktiv istifadəçi sayı 15,954 nəfər təşkil etmişdir ki, bu da əvvəlki dövrlə müqayisədə 21,1% azalma deməkdir. Sözügedən azalma kart üzrə yeni sifarişlərin dayandırılması ilə əlaqədar olmuşdur.



ABB-AZAL Miles

ABB–AZAL Miles kartı üzrədə 2025-ci ildə müsbət dinamika müşahidə edilmişdir: 2024-cü ildə cəmi 134 istifadəçi qeydə alınmışdırsa, 2025-ci ildə bu göstərici 6,816 nəfərə yüksəlmişdir. Səyahətçilər üçün nəzərdə tutulmuş xüsusi üstünlüklər, AZAL-la əməkdaşlıq çərçivəsində təqdim edilən eksklüziv mil qazanma imkanları və əlavə xidmətlər bu məhsulun cəlbediciliyini əhəmiyyətli dərəcədə artırmışdır. Mövcud artım dinamikası göstərir ki, ABB–AZAL Miles kartı bankın səyahət kartları seqmentində yeni inkişaf imkanları yaradır və növbəti dövrlərdə istifadəçi bazasının daha da genişlənməsi üçün güclü potensiala malikdir.



Tələbə kartı

2025-ci il ərzində 17 təhsil müəssisəsi tərəfindən ümumilikdə 12,347 tələbə kartı sifariş edilmişdir. Tələbə kartları, gənc istifadəçilərə xüsusi endirimlər, təhsil xərcləri üçün rahat ödəmə üsulları və fərdiləşdirilmiş təkliflər təqdim edərək tələbələrin maliyyə idarəçiliyini asanlaşdırır. Tələbə kartlarının sifarişi prosesi "ABB Business" İnternet Bankçılıq platforması üzərindən həyata keçirilir ki, bu da təhsil müəssisələri üçün müraciətlərin daha çevik, şəffaf və operativ şəkildə idarə olunmasına imkan yaradır.

Korporativ biznes

ABB Azərbaycanın aparıcı korporativ banklarından biri kimi iri müəssisələrə, kiçik və orta sahibkarlıq subyektlərinə, eləcə də fərdi sahibkarlara çevik, etibarlı və müasir maliyyə həlləri təqdim edir. Bank strukturlaşdırılmış maliyyələşmə, borc kapitalı alətləri, sabit gəlir və klirinq xidmətləri vasitəsilə biznes müştərilərinin maliyyə dayanıqlığını gücləndirir, onların bazardakı mövqelərinin möhkəmlənməsinə töhfə verir. KOS seqmenti üzrə həyata keçirilən xüsusi dəstək proqramları çərçivəsində ABB bu müəssisələrin kapitala çıxış imkanlarını genişləndirir və uzunmüddətli inkişaflarını dəstəkləyir. Bununla yanaşı, rəqəmsal bankçılıq həlləri və fərdiləşdirilmiş maliyyə modelləri bizneslərin əməliyyat səmərəliliyini artırmağa və maliyyə proseslərini optimallaşdırmağa imkan yaradır.



2023–2025-ci illəri əhatə edən İnkişaf Strategiyasına uyğun olaraq, Bank fəaliyyətində aşağıdakı əsas prioritetlərə fokuslanmışdır:

- Korporativ müştəri bazasının və portfelin ardıcıl şəkildə genişləndirilməsi;
- KOS-ların maliyyələşdirilməsi üzrə bazarda rəqabətli mövqeyin möhkəmləndirilməsi;
- Davamlı və balanslı artım templərinin qorunub saxlanılması.

Aktiv korporativ müştərilərin sayı

İri şirkətlər, KOS , sahibkar və mikro (ümumi portfel)	
2023	5,871
2024	6,850
2025	7,671

2025-ci ildə aktiv korporativ müştərilərin sayı 12% artmışdır. Bu artım, ABB-yə yeni müştərilərin cəlb edilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, görüşlər və təşviqat fəaliyyətlərinin nəticəsi ilə əlaqəli olmuşdur. Mövcud aktiv müştərilərə daha yüksək səviyyədə xidmət göstərilməsi onların tövsiyələri və biznes əlaqələri vasitəsilə yeni müştərilərin cəlb edilməsini də sürətləndirmişdir. Eyni zamanda, bazarın və zamanın tələblərinə uyğun olaraq sürətli və rəqəmsal məhsulların təqdim edilməsi, qeyri-kredit məhsullarının çeşidinin genişləndirilməsi və əməliyyatlar üzrə operativ həllərin tətbiqi müştərilər üçün əlavə dəyər yaratmışdır. Sahibkarlar üçün cəlbedici tarif paketlərinin və faydalı keşbek modelinin istifadəyə verilməsi isə müştərilərin bankla əməkdaşlığını daha da dərinləndirmiş, nəticədə yeni müştəri bazasının genişlənməsinə və mövcud müştərilərin əməliyyatlarının böyük hissəsini ABB üzərindən həyata keçirməsinə şərait yaratmışdır.

Kredit portfelində yeni korporativ müştərilərin ümumi sayı

İri şirkətlər	
2023	60
2024	36
2025	37

KOS	
2023	162
2024	175
2025	402

Sahibkar / Mikro	
2023	1,944
2024	2,689
2025	6,780

2025-ci ildə kredit portfelində yeni müştərilərdə KOS portfeli üzrə 130%, fərdi sahibkar və mikroseqment üzrə isə 152% artım qeydə alınmışdır. Bu dinamik artım ABB-nin KOS, fərdi sahibkar və mikrokredit portfelinin genişləndirilməsinə yönəlmiş məqsədyönlü strategiyasının nəticəsi olmuşdur. İl ərzində kreditləşmə prosesləri əhəmiyyətli dərəcədə genişləndirilmiş, yeni rəqəmsal məhsullar istifadəyə verilmiş, kreditlər üzrə SLA göstəriciləri ciddi nəzarətə götürülmüş və müraciətlərin icra müddətlərinin azaldılması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Eyni zamanda, əvvəlki dövrlərdə ABB ilə əməkdaşlıq etməyən və ya dövriyyəsi zəif olan sahibkarlar da Bankın daha əlçatan və çevik kredit məhsullarından yararlanmağa başlamışdır. Kredit məhsullarının daha geniş KOS müştəri kütləsinə təqdim edilməsi və Rəqəmsal RM komandasının yaradılması nəticəsində dövriyyəsi kiçik olan sahibkarlarla aktiv əlaqə qurulmuş, bu seqment üzrə satışlar artırılmışdır. Nəticədə, fərdi sahibkar və mikro kredit portfeli kəskin şəkildə böyümüşdür.

2025-ci il ərzində KOS müştərilər üçün "Fayda Biznes" loyallıq proqramına start verilmişdir. Layihə müştəri məmnuniyyətinin artırılması, mövcud müştərilərin saxlanılması və aktivləşdirilməsi, eləcə də yeni müştərilərin Banka cəlb olunması məqsədi ilə formalaşdırılmışdır. Hazırda aktiv KOS müştərilərinin 40%-dən çoxu proqrama qoşulmuş, onların təxminən 30%-i isə toplanmış bonus xallarını Bank məhsullarının əldə edilməsi üçün istifadə etməkdədir. 2025-ci ilin üçüncü və dördüncü rübləri ərzində "Fayda Biznes" proqramı vasitəsilə müvafiq olaraq 189 və 237 yeni yüksək dövriyyəli KOS müştərisi Banka cəlb olunmuşdur.

Şəkil 14. Korporativ müştərilər üçün məhsul və xidmətlərin siyahısı


- KOS-lar üçün "İxraca dəstək" krediti
- Sahibkar krediti / kredit xətti
- "İnvoysların maliyyələşdirilməsi" krediti (Rəqəmsal)
- "Tərəfdaşlara anında dəstək" krediti / kredit xətti (Rəqəmsal)
- Rəqəmsal "Təchizatın maliyyələşdirilməsi" krediti
- Depozit təminatlı kreditlər
- Əmək haqqı layihəsinə dəstək
- E-com və E-POS terminal kredit xətti
- Dövriyyə krediti/ kredit xətti
- İnvestisiya krediti/ kredit xətti
- Biznes refinans krediti/ kredit xətti
- Qarantiya xətti
- Rəqəmsal təcili tender qarantiyası
- Rəqəmsal təcili icra qarantiyası
- Rəqəmsal təcili avans qarantiyası
- Tender qarantiyası
- İcra qarantiyası
- Avans qarantiyası
- Ödəniş qarantiyası
- Keyfiyyət qarantiyası
- Gömrük qarantiyası
- Akkreditiv
- Təsdiqli akkreditiv
- Akkreditivin maliyyələşdirilməsi (xarici və daxili vəsait hesabına)
- Digər bankın kontr-qarantiyası əsasında bütün növ qarantiyaların açılması
- Layihə maliyyələşdirilməsi (daxili və xarici vəsait hesabına)
- İKZF xətti ilə kreditlər [1]
- AKİA xətti ilə kənd təsərrüfatına dəstək krediti [2]
- SİF xətti ilə güzəştli kredit [3]
- Aqrokreditlər
- Mikrokredit

[1] Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu

[2] Azərbaycan Respublikasının Kənd Təsərrüfatının İnkişafı Agentliyi

[3] Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu

Şəkil 15. Borcalanların ümumi sayı



İri şirkətlər	
2023	179
2024	174
2025	175


KOS	
2023	655
2024	423
2025	716

Sahibkar / Mikro	
2023	2,959
2024	4,210
2025	8,862

2025-ci ildə borcalanların ümumi sayında KOS seqmenti üzrə 69%, fərdi sahibkar və mikro seqment üzrə isə 110% artım müşahidə edilmişdir. Bu artım Bankın sözügedən seqmentlər üzrə kredit bazasını genişləndirməyə yönəlmiş ardıcıl və sistemli yanaşmasının nəticəsidir. İl ərzində kredit məhsullarının çeşidi artırılmış, rəqəmsal kanallar üzərindən müraciət imkanları genişləndirilmiş və kreditlərin verilməsi prosesində xidmət müddətlərinin optimallaşdırılması məqsədilə SLA göstəriciləri gücləndirilmişdir.

Eyni zamanda, daha əvvəl Bankla kredit münasibəti olmayan və ya fəaliyyət həcmi məhdud olan sahibkarlar üçün ABB məhsulları daha əlçatan hala gətirilmiş, bu isə yeni müştəri cəlbini sürətləndirmişdir. Kredit həllərinin daha geniş KOS, fərdi sahibkar və mikro müştəri kütləsinə uyğunlaşdırılması nəticəsində borcalan bazası əhəmiyyətli dərəcədə genişlənmişdir.

Şəkil 16. Korporativ kredit portfelinin ödənilməmiş məbləği, mln AZN



İri şirkətlər	
2023	2,330
2024	2,834
2025	3,146


KOS	
2023	100
2024	155
2025	204

Sahibkar / Mikro	
2023	88
2024	112
2025	179

2025-ci ildə korporativ kredit portfelinin ödənilməmiş məbləği iri şirkətlər üzrə 11%, KOS seqmenti üzrə 31%, fərdi sahibkar və mikro seqment üzrə isə 60% artım nümayiş etdirmişdir. Bu dinamika Bankın kredit portfelinin genişləndirilməsinə yönəlmiş ardıcıl strategiyasının real nəticəsi olmuşdur. İl ərzində kreditləşmə həcmi artırılmış, rəqəmsal kredit məhsulları istifadəyə verilmiş, kreditlərin rəsmiləşdirilməsi üzrə xidmət müddətlərinə (SLA) nəzarət gücləndirilmiş və proseslərin sürətləndirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Eyni zamanda, mövcud müştərilərin təkrar kreditləşdirilməsi onların portfeldə davamlı iştirakını təmin etmiş, bu isə portfelin sabit və sağlam şəkildə böyüməsinə şərait yaratmışdır. Nəticədə artım həm əvvəllər Bankla əməkdaşlıq etməmiş yeni şirkətlərin cəlb edilməsi, həm də mövcud müştərilərin biznes həcminin genişlənməsi hesabına əldə olunmuşdur. Bundan əlavə, daha az əməkdaşlıq edilən müştərilərlə fərdi inkişaf planları çərçivəsində münasibətlərin dərinləşdirilməsinə və daha geniş tərəfdaşlıqların qurulmasına başlanılmışdır.

Şəkil 17. Ticarətin maliyyələşdirilməsi portfeli, mln. AZN




İri şirkətlər	
2023	1,162
2024	769
2025	1,230
KOS	
2023	33
2024	70
2025	86
Ticarətin maliyyələşdirilməsi (Kontr qarantiya)	
2023	32
2024	98
2025	1,463

2025-ci ildə ticarətin maliyyələşdirilməsi portfeli üzrə əhəmiyyətli artım qeydə alınmışdır: iri şirkətlər seqmentində 60%, KOS üzrə 22%, kontr-qarantiya üzrə isə 1,390% artım müşahidə olunmuşdur. Bu dinamika ölkədə müsabiqələrin elan edilməsi və keçirilməsinin intensivləşməsi, eləcə də layihə və müqavilələrin icra mərhələsində zəmanət alətlərinə olan tələbatın artması ilə birbaşa əlaqədardır. Bununla yanaşı, bir sıra dövlət qurumları ilə zəmanət əsaslı layihələrin başlanması və xarici tərəfdaşlarla əməkdaşlığın genişlənməsi portfelin böyüməsinə mühüm töhfə vermişdir.

Artım, həmçinin iri infrastruktur layihələrinin icrasına hazırlıq çərçivəsində planlaşdırılan işlərin mərhələli şəkildə başlanması ilə də şərtlənmişdir. KOS müştəriləri üçün zəmanət məhsullarına çıxış imkanlarının hər il daha da genişləndirilməsi və bu məhsulların daha əlçatan hala gətirilməsi də portfelin davamlı artımını təmin edən əsas amillərdən biri olmuşdur. Eyni zamanda, əvvəlki illərdən etibarən yaradılan və inkişaf etdirilən təcili zəmanət məhsulları sahibkarlara uzun vaxt və əlavə resurs sərf etmədən bu alətlərdən istifadə imkanı vermiş, nəticədə zəmanət məhsullarına müraciətlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır.

Şəkil 18. Korporativ depozit portfelinin ödənilməmiş məbləği, mln. AZN



Kiçik və orta sahibkarlarla iş

2025-ci ildə KOS istiqamətində qısa, orta və uzunmüddətli hədəflərin icrası ilə ardıcıl və sistemli fəaliyyət göstərilmişdir. Qısa və ortaq müddətli prioritet kimi KOS və mikro bizneslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi müəyyən edilmiş, uzunmüddətli perspektivdə isə portfelin dayanıqlı artımı və risklərin balanslaşdırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Xüsusilə ODM məhsulları üzrə portfel qalığı, zəmanət verilişi və aktiv müştəri sayı üzrə göstəricilər planlaşdırılan hədəfləri üstələmişdir.

Məhsul və xidmətlərin inkişafı və data əsaslı yanaşma

2025-ci ildə Korporativ və KOS məhsullar sahəsi, Rəqəmsal bankçılıq və risk strukturları ilə sıx əməkdaşlıq edilərək məhsul portfelinin yenilənməsi və optimallaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Müştəri ehtiyaclarının daha dəqiq müəyyən edilməsi üçün sorğular, fokus görüşlər və fərdi müzakirələr aparılmış, əldə olunan məlumatlar data analitika alətləri vasitəsilə təhlil edilmişdir. NBP (Next Best Product – Növbəti Ən Yaxşı Məhsul) və RFM (Recency, Frequency, Monetary – Yaxınlıq, Tezlik, Məbləğ) modelləri əsasında prioritet müştəri seqmentləri müəyyən olunmuş və hədəfli yanaşma tətbiq edilmişdir. Bu yanaşma nəticəsində tam rəqəmsal "Ani kredit" və "Preapproved kredit" məhsulları istifadəyə verilmiş, "Çevik tarif paketi", "ODM İM – invoysların maliyyələşdirilməsi", "Təcili qarantiya xətti" və SCF modulu kimi həllər yaradılmışdır. Eyni zamanda bazar tələbi zəif olan bir sıra məhsullar mərhələli şəkildə portfeldən çıxarılmışdır.

Əsas layihələr və təşəbbüslər

Hesabat ilində KOS müştərilərinin maliyyə əlçatanlığını artırmaq və rəqəmsal xidmətləri genişləndirmək məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirilmişdir. Kredit istiqamətində "Ani kredit", "Preapproved kredit", "ODM İM" və "Təcili Qarantiya Xətti" kimi məhsullar tətbiq olunmuş, qeyri-kredit sahəsində isə "Çevik tarif paketi" və müxtəlif təşviq kampaniyaları reallaşdırılmışdır. Eyni zamanda SCF platforması, ESG kreditləri üzrə təşəbbüslər və İslam bankçılığı çərçivəsində "Murabaha" məhsulu üzrə hazırlıq işləri aparılmışdır. Bu layihələr KOS seqmentində dayanıqlı və inklüziv inkişafın təmin edilməsinə xidmət etmişdir.

Rəqəmsallaşma və innovasiya nəticələri

2025-ci ildə kredit proseslərinin sürətləndirilməsi və avtomatlaşdırılması əsas prioritetlərdən biri olmuşdur. ODM məhsulları üzrə kredit veriliş müddəti əhəmiyyətli dərəcədə azaldılmış, "Time to yes" göstəricisi yaxşılaşdırılmışdır. Süni intellekt əsaslı alətlər müraciətlərin ilkin təhlilində tətbiq edilmiş, risk qiymətləndirməsi daha dəqiq və operativ həyata keçirilmişdir. Müştərilər müqavilələri SİMA və ASAN imza vasitəsilə rəqəmsal şəkildə təsdiqləyə bilmiş, bu da prosesin rahatlığını və sürətini artırmışdır. Nəticədə müştəri məmnuniyyəti və əməliyyat səmərəliliyi yüksəlmişdir.

Müştəri bazasının qorunması və genişləndirilməsi

2025-ci ildə Korporativ və KOS seqment sahəsi tərəfindən mövcud müştərilərin saxlanılması və yeni müştərilərin cəlbi istiqamətində data əsaslı yanaşma tətbiq edilmişdir. CRM üzərindən müntəzəm əlaqə, churn göstəricilərinin izlənməsi, NBP və RFM modelləri əsasında hədəfləmə həyata keçirilmişdir. Yeni müştərilər üçün kampaniyalar, mövcud müştərilər üçün isə "Faydalı keşbek" kimi loyallıq təşəbbüsləri tətbiq edilmişdir. Eyni zamanda sahibkarlıq tədbirlərində iştirak və kommunikasiya kanallarının gücləndirilməsi müştəri təcrübəsinin inkişafına xidmət etmişdir.


Xarici əməkdaşlıqlar

2025-ci ildə AKİA, İKZF və ABİF ilə əlaqələr genişləndirilmişdir. Bu tərəfdaşlıqlar KOS müştəriləri üçün yeni maliyyələşmə imkanlarının yaradılmasına, beynəlxalq təcrübənin ABB-yə gətirilməsinə və dayanıqlı maliyyələşmə mexanizmlərinin inkişafına şərait yaratmışdır.

Rəqəmsal platformalarda yeniliklər


İnternet və mobil bankçılıq platformalarında SCF modulu tətbiq edilmiş, kredit müqavilələrinin rəqəmsal imza ilə təsdiqi genişləndirilmişdir. Süni intellekt kredit təhlili prosesinə inteqrasiya olunmuş, ODM məhsulları üzrə rəqəmsal axın qurulmuşdur. Bu dəyişikliklər proseslərin sürətini, şəffaflığını və müştəri məmnuniyyətini artırmışdır.

Şəkil 19. KOS üzrə verilmiş kreditlərin ümumi məbləği, mln. AZN



2025-ci ildə KOS üzrə verilmiş kreditlərin ümumi məbləği 40% artım göstərmişdir. Bu artım 2023–2025-ci illər üzrə davam edən sabit yüksəliş trendinin məntiqi davamı olmuşdur. Müsbət makroiqtisadi dinamika və investisiya mühitinin canlanması fonunda ABB-nin sahibkarlar üçün kredit məhsullarını daha əlçatan etməsi mühüm rol oynamışdır. Eyni zamanda, yeni rəqəmsal kredit və zəmanət məhsullarının istifadəyə verilməsi maliyyələşməyə çıxışı sürətləndirmiş, bu da KOS seqmentində kreditləşmənin əhəmiyyətli dərəcədə genişlənməsinə şərait yaratmışdır.

Şəkil 20. 2025-cü ildə maliyyələşdirilən əsas sektorlar, mln. AZN



2025-ci ildə maliyyələşdirilən əsas sektorlar üzrə dinamikada fərqli tendensiyalar müşahidə olunmuşdur. Ticarət və xidmət sektoru üzrə maliyyələşmə 23%, tikinti və daşınmaz əmlak sektoru üzrə 9%, dəmiryolu, hava və digər nəqliyyat növləri üzrə isə 10% artım göstərmişdir. Digər sektorlar üzrə maliyyələşmə də 9% yüksəlmişdir. Bu artım ölkə üzrə aparılan genişmiqyaslı tikinti və infrastruktur layihələri, həmçinin ticarət və xidmət sahəsində biznes aktivliyinin artması ilə əlaqədardır. Nəticələr həm bankla əvvəllər əməkdaşlıq etməmiş yeni şirkətlərin cəlb edilməsi, həm də mövcud müştərilərin fəaliyyət həcminin genişlənməsi hesabına formalaşmışdır. Eyni zamanda, daha likvid və qısa dövriyyə müddətinə malik sektorların maliyyələşdirilməsinə üstünlük verilmişdir.

İstehsalat sektorunda isə 7% azalma qeydə alınmışdır. Bu azalma bir tərəfdən bəzi layihələrin kateqoriya dəyişikliyi səbəbindən digər sektorlar üzrə təsnifləndirilməsi, digər tərəfdən isə əvvəlki illərlə müqayisədə iri həcmli istehsal layihələri üzrə müraciətlərin azalması ilə izah olunur. Belə ki, əvvəlki dövrlərdə bank tərəfindən dəstəklənən iri layihələrin payı yüksək olmuş, növbəti illərdə isə bu istiqamətdə aktivlik nisbətən zəifləmişdir.

Şəkil 21. İnternet Bankçılıq xidmətinin aktiv istifadəçilərinin ümumi sayı (min)



2025-ci ildə İnternet Bankçılıq xidmətinin aktiv istifadəçilərinin sayı 10% artmışdır. Bu artım Bankın rəqəmsal kanalların təşviqinə yönəlmiş strateji yanaşmasının məntiqi nəticəsidir. Son iki il ərzində fiziki kanallar üzrə tariflərin mərhələli şəkildə artırılması və bir sıra filiallarda korporativ müştərilərə xidmətin mərkəzləşdirilmiş qaydada təşkili müştərilərin rəqəmsal kanallara yönəlməsini sürətləndirmişdir. Nəticədə, əməliyyatların daha rahat, sürətli və məsafədən icra olunması imkanı İnternet Bankçılığın istifadəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Şəkil 22. İnternet Bankçılıq platformasında yeni qeydiyyatdan keçmiş istifadəçilərin ümumi sayı (min)




Şəkil 23. Aktiv əmək haqqı kartlarının ümumi sayı (min)




Şəkil 24. Köçürmələrin ümumi məbləği, mlrd. AZN

Daxili köçürmələr



Şəkil 25. Köçürmələrin ümumi məbləği, mlrd. AZN

Xarici köçürmələr



2025-ci ildə xaricə köçürmə əməliyyatlarının həcmində artım müşahidə olunmuşdur. Bu artım əsasən iri korporativ müştərilərin investisiya məqsədilə xarici bazarlara yönəltdiyi böyük həcmli vəsait köçürmələri ilə bağlı olmuşdur. Eyni zamanda, qaz satışından əldə olunan yüksək məbləğli vəsaitlərin bank sistemi üzərindən hərəkəti də köçürmə əməliyyatlarının ümumi həcminin artmasına əhəmiyyətli töhfə vermişdir.

Rəqəmsal kiçik biznes

Hesabat ili ərzində Rəqəmsal kiçik biznes sahəsinin əsas məsuliyyət və funksional istiqamətləri qorunub saxlanılmış, fəaliyyətin mərkəzində isə rəqəmsallaşmanın dərinləşdirilməsi və innovativ həllərin genişləndirilməsi dayanmışdır. 2025-ci il üçün əsas fəaliyyət göstəriciləri kredit portfelinin genişləndirilməsi, aktiv müştəri bazasının böyüdülməsi və ekvayrinq biznesi üzrə dövriyyənin artırılması olmuşdur. Bu istiqamətlər üzrə qarşıya qoyulan hədəflərə nail olunmuş, əldə edilən nəticələr növbəti il üçün daha iddialı planların formalaşdırılmasına zəmin yaratmışdır.

İl ərzində sahənin əsas nailiyyətləri sırasında ABB Biz kartının istifadəyə verilməsi, süni intellekt əsaslı inteqrasiyaların tətbiqi, təsdiq və avtorizasiya proseslərində SİMA rəqəmsal imzasının inteqrasiyası, aksizli malların ödənişi üzrə rəqəmsal proseslərin qurulması, müştəri loyallığına yönəlmiş innovativ məhsulların istifadəyə verilməsi və ölkədə ilk dəfə tətbiq olunan POS Mode həllinin reallaşdırılması xüsusi yer tutur. Bu yeniliklərin tətbiqi zamanı əsas çağırış bazarda uzun illər formalaşmış istifadəçi davranışlarının dəyişdirilməsi və kiçik biznes segmentində rəqəmsal vərdişlərin təşviqi olmuşdur. Bununla belə, həyata keçirilən maarifləndirmə və dəstək tədbirləri nəticəsində bu çətinliklərin öhdəsindən uğurla gəlmək mümkün olmuşdur.

Hesabat dövrü ərzində əldə olunan nailiyyətlər arasında:

Kredit portfeli	**53.1 mln**
Qeydiyyatda olan müştəri sayı	**26,516**
Login olan müştəri sayı	**39,619**
Aktiv müştəri sayı	**13,883**
Bizkart sifarişi	**5,934**
MPOS sifarişi	**4,335**
MPOS turnover	**6,630,000 AZN**
QR sifarişi	**1,527**
QR turnover	**630,000 AZN**
Köçürmələr turnover	**99,730,871**
HÖP ödəniş turnover	**2,337,874**

2025 il üzrə ABB Bizə əlavə olunan yeni məhsullar:

- ABB Biz kart
- Fərdi sahibkarlar üçün yenilənmiş hesab açma prosesi
- SIMA rəqəmsal imza ilə inteqrasiya
- Müştəri icazələri sistemi (MPOS kassir/TIS)
- Gamification
- Shake and Win
- MPOS Mode
- MPOS widget
- Refinans
- Keşbek
- ABB Link
- E-cüzdanım
- TIS ödənişlərin qəbulu prosesi
- Web loan

Bankın rəqəmsal kiçik biznes strategiyası çərçivəsində əsas fokus qeyri-bankçılıq həllərinin inkişafına yönəldilmişdir. Bu istiqamətdə aksizli malların ödənişi üzrə rəqəmsal proseslər, gamification və loyallıq sistemləri kimi həllər hazırlanaraq müştərilərin istifadəsinə təqdim edilmiş, eyni zamanda strategiyanın əsas komponentlərindən biri olan ABB Biz kartı məhsulu kiçik biznes müştəriləri üçün əlavə dəyər yaradan mühüm alətə çevrilmişdir. Bu layihələr müştəri təcrübəsinin yaxşılaşdırılmasına, əməliyyatların sadələşdirilməsinə və bankla müştəri arasında rəqəmsal əlaqənin güclənməsinə xidmət etmişdir.

Sahənin uğurunda mühüm rol oynayan əsas amillərdən biri də güclü satış və məsafədən müştəri dəstəyi göstərən müştəri menecerləri komandasının fəaliyyətidir. Bu komanda müştərilərin müraciət və sorğularını operativ şəkildə cavablandıraraq, həm məmnunluq, həm də loyallıq göstəricilərinin əhəmiyyətli dərəcədə artmasına töhfə vermiş, Rəqəmsal kiçik biznes sahəsinin 2025-ci ildə əldə etdiyi nəticələrin dayanıqlı əsaslar üzərində qurulmasına imkan yaratmışdır.

4.5

YEKUN QEYDLƏR VƏ MƏSULİYYƏT HƏDDİ

ABB, bu hesabatda təqdim olunan məlumatların dəqiqliyini və şəffaflığını təmin etmək üçün yüksək səviyyədə səy göstərib. Bununla belə, gələcəyə yönəlmiş bəyanatlar və perspektiv proqnozlar müəyyən iqtisadi və bazar amillərindən təsirlənə biləcəyindən, ABB bu bəyanatların yenilənməsinə, yaxud onlara əsaslanaraq hər hansı qərar verən tərəflərin üzləşə biləcəyi mümkün maliyyə itkilərinə, eləcə də mənfəət azalmasına görə məsuliyyət daşımır.

Su sərfiyyatı

Xidmət təminatçıları, icarəyəverən və icarədarlar tərəfindən su xərcləri üzrə aparılmış müvafiq uçot məhdud olduğundan, yaxud ümumiyyətlə olmadığından ABB-nin icarəyə götürdüyü və ya özünün icarəyə verdiyi əmlaklarda su sərfiyyatının dəqiq hesablanması mümkün deyil. Bu göstəricilər isə 2024-cü ildə ABB-nin xidmət təminatçılarına ödədiyi ödənişlərin (Azərsu sayğaclarına əsasən birbaşa ödəniş) hesab-fakturalarından istifadə etməklə müəyyənləşib.

Ümumi təlim saatları

Bura Bank daxilində təşkil olunan texniki təlimlərə, komplayns, risk, işəqəbul təlimlərinə və ümumi təlimlərə sərf olunmuş saatlar daxildir.

İşçilərin ümumi sayı

İşçilərin ümumi sayı, habelə işə qəbul edilən və işdən çıxarılan işçilərin ümumi sayı tam ştatda işləyənlərin sayına uyğun müəyyənləşir.

Pərakəndə müştərilər

Pərakəndə müştərilərə ABB mobile istifadəçilərinin və aktiv pərakəndə müştərilərin ümumi sayı daxildir. ABB mobile istifadəçilərinin ümumi sayı barədə məlumat Bankın daxili sistemlərindən əldə edilib. Aktiv pərakəndə müştərilər aşağıdakı kriteriyalara əsasən müəyyən edilib:

1. Son 3 ay ərzində ən azı 1 debet əməliyyatı etmiş müştərilər;
2. Son 1 ayda balansında 100 AZN və daha yuxarı ödənilməmiş qalıq olan müştərilər;
3. Ödəmə müddəti 90 günü keçməmiş, aktiv kreditə malik müştərilər.

Sosial xərclər

Sosial xərclər sosial layihələrə sponsorluq üçün sərf edilmiş xərclərdir.

Korporativ müştərilərin ümumi sayı

Korporativ müştərilərə iri müəssisələr və KOS-lar daxildir.

GHG emissiyalarına dair (Həcm (Scope) 1 və Həcm (Scope) 2) rəqəmlər ABB-nin Azərbaycan ərazisindəki (ölkə xaricindəki törəmə müəssisələr bura daxil deyil) yanacaq, təbii qaz və elektrik enerjisi istehlakına əsaslanır. GHG Protokoluna uyğun olaraq biz karbon emissiyalarının hesablanması və açıqlanması hüdudlarını müəyyənləşdirməkdən ötrü operativ nəzarət yanaşması tətbiq etdik. Enerji və digər resursların istehlakı üzrə toplanmış məlumatların GHG emissiyalarının hesablanmasına dair IPCC metodologiyası tövsiyələri ilə müqayisəsini apardıq. Xidmət təminatçıları, icarəyəverən və icarədarlar tərəfindən enerji sərfiyyatı xərcləri üzrə aparılmış müvafiq uçot məhdud olduğundan, yaxud ümumiyyətlə olmadığından ABB-nin icarəyə götürdüyü və ya özünün icarəyə verdiyi əmlaklarda Həcm-1 (Scope) və Həcm-2 (Scope) emissiyalarının dəqiq hesablanması mümkün deyil. Bu göstəricilər isə ABB-nin xidmət təminatçılarına ödədiyi ödənişlərin hesab-fakturalarından istifadə etməklə müəyyənləşib.

Faydalı rəy

ABB, bu hesabatın daha da təkmilləşdirilməsi üçün maraqlı tərəflərin rəy və təkliflərini yüksək qiymətləndirir. Hesabat və dayanıqlılıqla bağlı istənilən suallar, təkliflər üçün ABB-nin korporativ kommunikasiya üzrə məsul şəxsi **Yedgar Cəfərovla** (yedgar.jafarov@abb-bank.az) və ABB-nin Strategiya Ofisinin Qrup rəhbəri **Vüsal Məmmədovla** (vusal.r.mammadov@abb-bank.az) ilə əlaqə saxlamaq mümkündür. ABB, bütün maraqlı tərəfləri dinləməyə və onların fikirlərini nəzərə almağa daim hazırdır.

4.6

GRI STANDARTLARINA UYĞUNLUQ CƏDVƏLİ

İstifadə bəyanatı	ABB 01.01.2025-31.12.2025-cü il tarixləri üçün **GRI standartlarına uyğun** hesabat vermişdir.
GRI 1 istifadə olunur	**GRI 1:** Əsas - 2021

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRI 2: Ümumi açıqlamalar 2021	2-1 Təşkilati təfərrüatlar	✔ 1.2 ABB Maliyyə Qrupu haqqında	10-11	
	2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatına daxil edilən qurumlar	✔ 1.6 Nizamnamə kapitalının strukturu	21	
	2-3 Hesabat dövrü, tezliyi və əlaqə	✔ 2.1.1 Hesabat profili ✔ 4.5 Yekun qeydlər və məsuliyyət həddi	43 148	
	2-4 Məlumatın yenidən təqdim edilməsi	✔ 2.2.1.1 İllik ekoloji izimiz	50-53	Zəhmət olmasa, Cədvəl - 4 və 5-dəki qeydlərə baxın.
	2-5 Kənar əminlik bəyannaməsi	Təqdim olunub		
	2-6 Fəaliyyətlər, dəyər zənciri və digər işgüzar əlaqələr	✔ 1.2 ABB Maliyyə Qrupu haqqında ✔ 1.4 Missiyamız və strateji baxışımız ✔ 1.5 Məqsədimiz və dəyərlərimiz ✔ 1.10 Azərbaycanın bank sektorunun analizi	10-11 19-20 35-39	
	2-7 Əməkdaşlar	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	72-81	
	2-8 Əməkdaş olmayan digər işçilər üzrə məlumat	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	72-81	
	2-9 İdarəetmə strukturu və tərkibi	✔ 1.3 İdarəetmə strukturu ✔ 2.2.3 İdarəetmə	13-18 81-97	
	2-10 Ali idarəetmə orqanına namizədlik və seçim	✔ 1.3 İdarəetmə strukturu ✔ 2.2.3 İdarəetmə	13-18 81-97	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRI 2: Ümumi açıqlamalar 2021	2-11 Ali idarəetmə orqanının sədri	✓ 1.3 İdarəetmə strukturu ✓ 2.2.3 İdarəetmə	13-18 83-109	
	2-12 Təsirlərin idarə olunmasına nəzarətdə ali idarəetmə orqanının rolu	✓ 1.3 İdarəetmə strukturu ✓ 2.2.3 İdarəetmə	13-18 83-109	
	2-13 Təsirlərin idarə edilməsi üçün səlahiyyətin ötürülməsi	✓ 1.3 İdarəetmə strukturu ✓ 2.2.2 Sosial ✓ 2.2.3 İdarəetmə	13-18 60-82 83-109	
	2-14 Dayanıqlı İnkişaf Hesabatında ali idarəetmə orqanının rolu	✓ 1.3 İdarəetmə strukturu ✓ 2.2.3 İdarəetmə	13-18 83-109	
	2-15 Maraqların toqquşması	✓ 2.2.3 İdarəetmə	81-97	
	2-16 Vacib məsələlər haqqında ali idarəetmə orqanının məlumatlandırılması	✓ 2.2.2.3 Əməkdaşyönümlülük ✓ 2.2.3 İdarəetmə-Daxili və kənar audit	70-81 86-88	
	2-17 Ali idarəetmə orqanının kollektiv biliyi	✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-50	
	2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi	✓ 2.2.3 İdarəetmə sistemi	81-97	
	2-19 Mükafatlandırma siyasətləri	✓ 2.2.3 İdarəetmə-Mükafatlandırma sistemi	83-84	
	2-20 Mükafatlandırmanı müəyyən edən proses	✓ 2.2.3 İdarəetmə-Mükafatlandırma sistemi	83-84	
	2-21 İllik mükafat nisbəti	Məxfilik məhdudiyyətləri		Bu məlumat ABB tərəfindən məxfi hesab edildiyi üçün açıqlanmır.
	2-22 Dayanıqlı İnkişaf Strategiyası haqqında bəyanat	✓ 1.1 İdarə Heyəti sədrindən ✓ 1.11 ABB-nin strateji baxışı ✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	5-9 40-41 48-97	ABB Dayanıqlılıq Strategiyasının hazırlanmasını fəal şəkildə nəzərdən keçirir və bununla bağlı daha dərin araşdırmalara açıqdır.
	2-23 Siyasi öhdəliklər	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	
	2-24 Siyasi öhdəliklərin daxil edilməsi	✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi ✓ 2.2.2.1 Cəmiyyətə töhfə ✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	48-97 54-64 96-97	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRI 2: Ümumi açıqlamalar 2021	2-25 Mənfi təsirləri aradan qaldırmaq üçün proseslər	✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi ✓ 2.2.2.2 Müştəriyönümlü yanaşma ✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	48 64-69 96-97	
	2-26 Məsləhət və problemləri bildirmək üçün mexanizmlər	✓ 2.2.2.2 Müştəriyönümlü yanaşma ✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	64-69 96-97	
	2-27 Qanun və qaydalara uyğunluq	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	94-97 108-109	
	2-28 Üzvlüklər	✓ 1.2 ABB Maliyyə Qrupu haqqında	10-12	
	2-29 Maraqlı tərəfin cəlb edilməsinə yanaşma	✓ 2.2.3 İdarəetmə-İnvestor və səhmdar münasibətləri	87-88	
	2-30 Kollektiv əmək müqavilələri	✓ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
Əhəmiyyətli mövzular				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-1 Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi prosesi	✓ 2.1 Hesabat haqqında	43-47	
	3-2 Əhəmiyyətli mövzuların siyahısı	✓ 2.1 Hesabat haqqında	43-47	
İqtisadi fəaliyyət				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ 1.10 Azərbaycan bank sektorunun analizi ✓ 2.1 Hesabat haqqında ✓ 2.2.1 Ekoloji ✓ 2.2.2.1 Cəmiyyətə töhfə	35-39 43-47 50-54 54-64	
	201-1 Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması	✓ 1.10 Azərbaycanın bank sektorunun analizi	35-39	
	201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, risklər və imkanlar	✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48	Biz qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etmək üçün iqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələrimizin, eləcə də digər risk və imkanlarımızın qiymətləndirilməsi üzərində işləyirik.
	201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər planlar	✗ Mövcud deyil		Məlumat yoxdur
	201-4 Hökumətdən alınan maliyyə yardımı	✓ 4.4. Pərakəndə və korporativ biznes fəaliyyəti	135-147	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Bazarda mövcudluq				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ 1.3 İdarəetmə strukturu ✓ 2.2.3 İdarəetmə	13-18 81-97	
GRI 202: Bazarda mövcudluq 2016	202-1 Yerli minimal əmək haqqı ilə müqayisədə cinslər üzrə standart əmək haqqı	✓ 2.2.3 İdarəetmə	81-97	
	202-2 Yerli əhalinin rəhbərlikdə təmsilçiliyi	✗ Mövcud deyil		Qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etməyimizi təmin etmək üçün daxili insan resursları hesabatlarımızın təkmilləşdirilməsi üzərində işləyirik.
Dolayı iqtisadi təsirlər				
GRI 2: Ümumi açıqlamalar 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ 2.2.1.1 İllik ekoloji izimiz ✓ 2.2.2.1 Cəmiyyətə töhfə	50-53 54-64	
GRI 203: Dolayı iqtisadi təsirlər 2016	203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər	✓ 2.2 ABB-nin dayaniqliqa sadiqliyi ✓ 2.2.2.1 Cəmiyyətə töhfə	48-97 54-64	
	203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər	✓ 2.2.1.1 İllik ekoloji izimiz ✓ 2.2.2.1 Cəmiyyətə töhfə	50-53 54-64	
Satınalma təcrübəsi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48	
GRI 204: Satınalma təcrübələri 2016	204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti	✗ Mövcud deyil		Bu məlumat ABB tərəfindən məxfi hesab edildiyi üçün açıqlanmır.
Antikorrupsiya				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	
	205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	
	205-2 Anti-korrupsiya siyasəti və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	
	205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Antirəqabət davranışı				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ 2.2.2.3 Əməkdaşyönümlülük ✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	70-81 96-97	
GRI 206: Antirəqabət davranışı 2016	206-1 Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	96-97	
Vergi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ 2.2.3 İdarəetmə	81-97	
GRI 207: Vergi 2019	207-1 Vergiyə yanaşma	✓ 2.2.3 İdarəetmə	81-97	Əlavə məlumat üçün "https://abb-bank.az/az/hesabatlar" bölməsində "Konsolidasiya edilmiş maliyyə hesabatları-31.12.2025" ilə tanış ola bilərsiniz.
	207-2 Vergi idarəçiliyi, nəzarət və risklərin idarə edilməsi	✓ 2.2.3 İdarəetmə-Risklərin idarə edilməsi	88-93	
	207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı narahatlıqların idarə edilməsi	✓ 2.2.3 İdarəetmə-Biznes etikası və dürüstlük	94-97 96-97	
	207-4 Ölkə üzrə hesabat	✓ 1.1 İdarə Heyəti sədrindən	5-9	Əlavə məlumat üçün "https://abb-bank.az/az/hesabatlar" bölməsində "Konsolidasiya edilmiş maliyyə hesabatları-31.12.2025" ilə tanış ola bilərsiniz.
Materiallar				
GRI 301: Materiallar 2016	301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə	✓ 2.2.1 Ekoloji	50-54	
	301-2 Təkrar istifadə olunan materiallar	✗ Mövcud deyil		Məlumat yoxdur
	301-3 Geri toplanmış məhsullar və qablaşdırma materialları	✗ Mövcud deyil		Məlumat yoxdur
Enerji				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ 2.2.1 Ekoloji	50-54	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Enerji				
GRI 302: Enerji 2016	302-1 Təşkilat üzrə enerji sərfiyyatı	✔ 2.2.1 Ekoloji	50-54	
	302-2 Təşkilat xaricində enerji istehlakı	✘ Mövcud deyil		
	302-3 Enerji intensivliyi əmsalı	✔ 2.2.1 Ekoloji	50-54	
	302-4 Enerji sərfiyyatının azaldılması	✔ 2.2.1 Ekoloji	50-54	
	302-5 Məhsul və xidmətlərin enerjiyə olan tələbatının azaldılması	✔ 2.2.1 Ekoloji	50-54	
Su və tullantılar				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✔ 2.2.1 Ekoloji	50-54	
GRI 303: Su və çirkablar 2018	303-1 Sudan ortaq resurs kimi birgə istifadə	✘ Mövcud deyil		ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır.
	303-2 Su axıdılması ilə əlaqədar təsirlərin idarə edilməsi	✘ Mövcud deyil		Məlumat yoxdur
	303-3 Su çəkilməsi	✘ Mövcud deyil		Məlumat yoxdur
	303-4 Su axıdılması	✘ Mövcud deyil		Məlumat yoxdur
	303-5 Su sərfiyyatı	✔ 2.2.1 Ekoloji	50-54	
Biomüxtəliflik				
GRI 304: Biomüxtəliflik 2016	304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya qonşu məkanlarda mövcud olan əməliyyat sahələri	✘ Mövcud deyil		ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır.
	304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri	✘ Mövcud deyil		ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır.
	304-3 Qorunan və ya bərpa edilən yaşayış yerləri	✘ Mövcud deyil		ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır.
	304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Kitabına düşmüş növlərin mövcudluğu	✘ Mövcud deyil		ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır.

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.1 Ekoloji	50-54	
GRI 305: Emissiyalar 2016	305-1 İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Əhatə dairəsi (Scope) 1)	✔ 2.2.1 Ekoloji	50-54	
	305-2 İstixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi (Scope) 2)	✔ 2.2.1 Ekoloji	50-54	
	305-3 Digər istixana effekti yaradan qazların(İEYQ) dolayı emissiyası (Əhatə dairəsi (Scope) 3)	✘ Mövcud deyil		Qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etməyimiz üçün korporativ karbon izimizin qiymətləndi-rilməsinə yanaşmamızı təkmilləşdirmək üzərində işləyirik.
	305-4 GHG emissiyalarının intensivlik əmsalı	✔ 2.2.1 Ekoloji	50-54	
	305-5 GHG emissiyalarında azalmalar	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	50-54	
	305-6 Ozon qatını məhv edən emissiyalar	✘ Mövcud deyil		ABB Maliyyə Qrupu olaraq ozon təbəqəsini parçalayan maddələrin istehsalı, istifadəsi və ya birbaşa emissiyası ilə məşğul deyil.
	305-7 NOx, SOx və digər əhəmiyyətli emissiyalar	✘ Mövcud deyil		ABB, maliyyə qrupu olaraq, azot oksidləri (NOx) və ya kükürd oksidləri (SOx) kimi əhəmiyyətli hava emissiyalarını birbaşa istehsal etmir.


GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRI 306: Tullantılar 2020	306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər	✔ 2.2.1 Ekoloji	50-54	
	306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi	✔ 2.2.1 Ekoloji	50-54	
	306-3 Yaranan tullantılar	✔ 2.2.1 Ekoloji	50-54	
	306-4 Utilizasiyadan yayındırılmış tullantılar	✘ Mövcud deyil		Məlumat yoxdur
	306-5 Utilizasiyaya yönəldilmiş tullantılar	✘ Mövcud deyil		Məlumat yoxdur
Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi				
GRI 3: Əhəmiyyətli mövzular2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
GRI 308: Təchizatçıların ətraf mühit üzrə qiymət-ləndirilməsi 2016	308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
	308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər	✘ Mövcud deyil		
Məşğulluq				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.2.1 Cəmiyyətə töhfə ✔ 2.2.2.3 Əməkdaşyönümlülük	54-64 70-81	
GRI 401: Məşğulluq 2016	401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	401-2 Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	401-3 Valideyn məzuniyyəti	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
İşçi və rəhbər əlaqələri				
GRI 402: İşçi və rəhbər əlaqələri 2016	402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi				
GRI 403: İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi 2018	403-1 İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi üzrə idarəetmə sistemi	✘ Mövcud deyil		Məlumat yoxdur
	403-2 Təhlükənin müəyyən edilməsi, riskin qiymətləndirilməsi və insidentin araşdırılması	✘ Mövcud deyil		Məlumat yoxdur
	403-3 Əməyin mühafizəsi xidmətləri	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	81	
	403-4 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı iştirakı, məsləhətləşməsi və ünsiyyəti	✘ Mövcud deyil		Məlumat yoxdur
	403-5 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimi	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	81	
	403-6 İşçilərin sağlamlığının təşviqi	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	403-7 İşgüzar əlaqələrlə birbaşa bağlı sağlamlıq və təhlükəsizliyə təsirlərin qarşısının alınması və yumşaldılması	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	81	
	403-8 Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunan işçilər	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	403-9 İşlə əlaqədar xəsarətlər	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	81	
	403-10 İşlə əlaqədar xəstəlik	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	81	
Təlim və təhsil				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
GRI 404: Təlim və təhsil 2016	404-1 Bir əməkdaşın payına düşən illik təlim saatları	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	404-2 İşçi bacarıqlarının artırılması və keçid üzrə təlimlər	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə gözdən keçirilmiş işçilərin faizi	✔ 2.2.3 İdarəetmə	81-97	
Müxtəliflik və bərabər imkanlar				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016	405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi	✔ 2.2.2.3 Əməkdaşyönümlülük	70-81	
	405-2 Başlanğıc əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti	✔ 2.2.3 İdarəetmə	81-97	
Ayrı-seçkiliyin olmaması				
GRI 406: Ayrı-seçkiliyin olmaması 2016	406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər	✘ Mövcud deyil		ABB-nin yaşa, dini inanclara, cinsiyyətə və ya rasional/etnik mənşəyə əsaslanmış hər hansı formada ayrı-seçkiliyi açıq şəkildə qadağan edən güclü İnsan resursları siyasəti və Etik Kodeksi var.
Birləşmə azadlığı və kollektiv müqavilələr				
GRI 407: Birləşmə azadlığı və kollektiv müqavilələr 2016	407-1 Fəaliyyət çərçivəsində birləşmə azadlığını və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
Uşaq əməyi				
GRI 408: Uşaq əməyi 2016	408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✘ Mövcud deyil		Məlumat yoxdur
Məcburi əmək				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi ✔ 2.2.2.1 Cəmiyyətə töhfə ✔ 2.2.2.3 Əməkdaşyönümlülük	48-97 54-64 70-81	
GRI 409: Məcburi əmək 2016	409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi ✔ 2.2.2.1 Cəmiyyətə töhfə ✔ 2.2.2.3 Əməkdaşyönümlülük	48-97 54-64 70-81	

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Təhlükəsizlik təcrübələri				
GRI 410: Təhlükəsizlik təcrübələri 2016	410-1 Təhlükəsizlik işçilərinin insan haqları üzrə siyasət və prosedurlar barədə təlim keçməsi	✘ Mövcud deyil		Məlumat yoxdur
Yerli xalqların hüquqları				
GRI 411: Yerli xalqların hüquqları 2016	411-1 Yerli xalqların haqlarının pozulması insidentləri	✘ Mövcud deyil		Məlumat yoxdur
Yerli cəmiyyətlər				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2.2.1 Cəmiyyətə töhfə	54-64	
GRI 413: Yerli cəmiyyətlər 2016	413-1 Yerli cəmiyyətlərin cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları	✔ 2.2.2.1 Cəmiyyətə töhfə	54-64	
	413-2 Yerli cəmiyyətlərə mövcud və potensial əhəmiyyətli mənfi təsirlərin qiymətləndirilməsi	✘ Mövcud deyil		Məlumat yoxdur
Təchizatçıların sosial qiymətləndirilməsi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
GRI: 414 Təchizatçıların sosial meyarlar üzrə qiymət-ləndirilməsi 2016	414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
	414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər	✔ 2.2 ABB-nin dayanıqlılığa sadiqliyi	48-97	
İctimai siyasət				
GRI 415: İctimai siyasət 2016	415-1 Siyasi xarakterli ödənişlər və fəaliyyət	✘ Mövcud deyil		Məlumat yoxdur
Müştəri sağlamlığı və təhlükəsizliyi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✘ Mövcud deyil		Məlumat yoxdur

GRI standart / Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Müştəri sağlamlığı və təhlükəsizliyi				
GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016	416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi	✗ Mövcud deyil		Məlumat yoxdur
	416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları	✗ Mövcud deyil		Məlumat yoxdur
Marketinq və etiketləmə				
GRI 417: Marketinq və etiketləmə 2016	417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri	✓ 3. İnnovasiya və rəqəmsallaşma	99-126	
	417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları	✗ Mövcud deyil		Məlumat yoxdur
	417-3 Marketinq kommunikasiyalarında uyğunsuzluq halları	✗ Mövcud deyil		Məlumat yoxdur
Müştəri məxfiliyi				
GRI 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ 2.2.2.2 Müştəriyönümlü yanaşma ✓ 2.2.3 İdarəetmə-Məlumat məxfiliyi və kibertəhlükəsizlik	64-69 93-96	
GRI 418: Müştəri məxfiliyi 2016	418-1 Müştəri konfidensiallığının pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər	✓ 2.2.2.2 Müştəriyönümlü yanaşma ✓ 2.2.3 İdarəetmə-Məlumat məxfiliyi və kibertəhlükəsizlik	64-69 93-96	



Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor,
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 70 20
Fax: +994 (12) 490 70 17
ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 70 20
Faks: +994 (12) 490 70 17

Shape the future with confidence

Müstəqil Əminlik Bəyannaməsi

Azərbaycan Beynəlxalq Bankı ("ABB") ASC-nin rəhbərliyinə

Əhatə dairəsi

Azərbaycan Beynəlxalq Bankı ("ABB") ASC-nin (bundan sonra "ABB") razılığı ilə biz, Əminlik Tapşırığına Dair Beynəlxalq Standartlara uyğun Bankın 1 yanvar 2025 - 31 dekabr 2025-ci il dövrü əhatə edən Dayanıqlı İnkişaf Hesabatında (bundan sonra "Hesabat") seçilmiş qeyri-maliyyə göstəricilərinə dair (bundan sonra "Mövzu") məhdud əminlik tapşırığını yerinə yetirdik.

Mövzu yalnız aşağıda qeyd olunan göstəricilərdən ibarətdir:

- Tam ştat daimi işçilərin ümumi sayı;
- İşə qəbul edilən işçilərin sayı;
- İşdən ayrılan işçilərin sayı;
- Keçirilmiş ümumi təlim saatlarının sayı;
- Dizel yanacağının istehlakı, ton;
- Benzin yanacağının istehlakı, ton;
- Elektrik enerjisi istehlakı, kVs;
- Təbii qaz istehlakı, m^3;
- Su istehlakı, m^3;
- Birbaşa emissiyalar (Scope 1), t CO_{2e};
- Dolayı emissiyalar (Scope 2), t CO_{2e};
- Aktiv korporativ müştərilərin sayı (ilin sonuna);
- İnternet Bankçılıq sisteminin aktiv korporativ istifadəçilərinin sayı (ilin sonuna);
- Aktiv pərakəndə müştərilərin sayı (ilin sonuna);
- ABB Mobile tətbiqinin aktiv pərakəndə istifadəçilərinin sayı (ilin sonuna).

Biz Tapşırığın çərçivəsini əks etdirən əvvəlki paraqrafda göstərilmiş göstəricilərdən başqa Hesabata daxil edilən fəaliyyət göstəriciləri, hadisələr və planlaşdırılan fəaliyyətlər üzrə gələcək yönümlü bəyanatlar kimi digər məlumatlara əminlik prosedurlarını icra etməmişik və, müvafiq olaraq, bu məlumat üzrə əminlik təmin etmirik.

ABB tərəfindən tətbiq edilən meyarlar

Mövzunu hazırlayarkən Qlobal Hesabatlılıq Təşəbbüsü ("GRI") 2021 (bundan sonra "GRI Standartları") və Hesabatın "Hesabat haqqında" bölməsində göstərilmiş digər qeyri-maliyyə hesabatlılıq meyarları ABB tərəfindən qəbul olunmuşdur.

ABB-nin məsuliyyəti

ABB-nin rəhbərliyi Meyarların müəyyən olunmasına və bütün Mövzunun Meyarlara uyğun olaraq təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin qarşısını almaq məqsədilə Mövzunun hazırlanması üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; münasib hesabat prinsiplərinin seçilməsi və tətbiqi; mövcud şəraitə uyğun olan ölçmə metodları və qiymətləndirmələrin istifadə edilməsi daxildir.

EY-ın məsuliyyəti

Bizim məsuliyyətimiz, əldə etdiyimiz dəlillərə əsaslanaraq Mövzunun təqdim edilməsi ilə bağlı rəy bildirməkdir.

Əminlik tapşırığı *"Tarixi Maliyyə Məlumatlarının Auditindən və Rəylərindən Başqa Etibarlılıq Təchizatı üzrə Beynəlxalq Standart"* (bundan sonra "ISAE 3000") Beynəlxalq Standartına (yenidən baxılmış) və 27 avqust 2025-ci il tarixində Şirkətlə razılaşdırılmış müqavilənin şərtlərinə uyğun olaraq həyata keçirilmişdir. ISAE 3000, Mövzunun bütün əhəmiyyətli aspektlər baxımından Meyarlara uyğun olaraq təqdim edilib-edilməyəcəyinə və Hesabatda əks etdiriləcəyinə dair məhdud zəmanət əldə etmək üçün fəaliyyətimizi planlaşdırmağı və yerinə yetirməyi tələb edir. Seçilən prosedurların təyinatı, vaxtı və miqyası, saxtakarlıq və ya yol verilən səhv nəticəsində əhəmiyyətli təhrif riskinin qiymətləndirilməsi də daxil olmaqla, qərarımızdan asılıdır.

Hesab edirik ki, əldə etdiyimiz dəlillər məhdud əminlik rəyimizə əsas yaratmaq üçün kifayət və uyğundur.

Müstəqilliyimiz və keyfiyyətin idarə edilməsi

Biz müstəqillik prinsiplərinin və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən qəbul edilmiş Peşəkar Mühasiblərin Etika Məcəlləsinin (IESBA) tələblərinə əməl etdiyimizi, eləcə də Tapşırığın yerinə yetirilməsi üçün lazımi səriştə və təcrübəyə malik olduğumuzu təsdiqləyirik.

Biz həmçinin etik tələblərə, peşə standartlarına və tətbiq olunan qanuni və tənzimləyici tələblərə uyğunluqla bağlı siyasət və prosedurlar daxil olmaqla keyfiyyətin idarə edilməsi sisteminin hazırlanmasını, icra və tətbiq edilməsini tələb edən Keyfiyyətin İdarə Edilməsi üzrə 1 saylı Beynəlxalq Standartını (ISQM 1), Maliyyə Hesabatlarının Auditlərini və ya Yoxlamalarını, Digər Əminlik və ya Aidiyyatı olan Xidmətlər üzrə Tapşırıqları İcra Edən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsini tətbiq edirik.

Yerinə yetirilmiş işin xülasəsi

Məhdud əminlik tapşırığı çərçivəsində yerinə yetirilən prosedurların təyinatı, vaxtı və miqyası kifayət qədər əminlik tapşırığı ilə müqayisədə daha məhduddur. Buna görə də, məhdud əminlik tapşırığı nəticəsində daha aşağı əminlik səviyyəsi əldə edilir. Prosedurlarımız əldə olunan məhdud əminliyin əsasında nəticənin formalaşması üçün həyata keçirilmişdir və kifayət qədər əminliyin alınması üçün tələb olunan bütün dəlilləri nəzərə almır.

Shape the future
with confidence

Prosedurlarımızın mahiyyətini və miqyasını təyin edərkən rəhbərliyin daxili nəzarətinin effektivliyini nəzərə alsaq da, əminlik öhdəliyimiz daxili nəzarət sistemlərinə dair zəmanət vermək üçün nəzərdə tutulmamışdır. Prosedurlarımıza nəzarət sisteminin test olunması və ya IT sistemləri daxilində məlumatların agregasiyası və ya hesablanması ilə bağlı prosedurlar daxil edilməmişdir.

Məhdud əminlik tapşırığı ilk növbədə Mövzunun və əlaqəli məlumatların hazırlanması üzrə məsul şəxslərə sorğuların edilməsi, habelə analitik və digər müvafiq prosedurların yerinə yetirilməsindən ibarətdir.

Yerinə yetirdiyimiz prosedurlar aşağıdakılardan ibarət olmuşdur:

- Mövzu üzrə məlumatların hazırlanmasına cavabdeh olan ABB rəhbərliyi nümayəndələri və mütəxəssisləri ilə aparılmış sorğular;
- ABB-nin dayanıqlılıq siyasətləri, fəaliyyəti, nəticələri və hesabatlılıqla bağlı əsas sənədlərin təhlili;
- Mövzuya dair kəmiyyət məlumatları üzrə analitik prosedurların aparılması;
- Hesabatda açıqlanmış seçilmiş qeyri-maliyyə göstəricilərinə dair ilkin məlumat mənbələrindən sənədlərin yoxlanılması, bu məlumatların Meyarlara uyğun şəkildə toplanması, hazırlanması, müqayisə edilməsi və Hesabatda əks olunub-olunmamasının qiymətləndirilməsi.

Aparılan işlər çərçivəsində tələb olunan digər əlavə prosedurlar da həyata keçirilmişdir.

Nəticə

Yerinə yetirdiyimiz prosedurlar və əldə etdiyimiz sübutlar nəticəsində, Mövzunun 31 dekabr 2025-ci il tarixinə olan Meyarlara uyğunluğu üçün ona edilməli hər hansı əhəmiyyətli dəyişikliklər barəsində məlumatımız yoxdur.

Ernst & Young Holdings (CIS) B.V.

7 may 2026-cı il

Bakı, Azərbaycan

ABB
Azərbaycan Beynəlxalq Bankı


ABB
Azərbaycan Beynəlxalq Bankı